AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

# ОБЩЕСТВЕННЫЕ НАУКИ

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN

# SOCIAL SCIENCES

## №2

BAKI – "ELM" – 2019

**BAŞ REDAKTOR:**
**Nərgiz AXUNDOVA,** *akademik*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Yaqub MAHMUDOV,** *akademik*

**MƏSUL KATİB:**
**Lamiyə QAFAR-ZADƏ,** *tarix üzrə fəlsəfə doktoru*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Zəhmət Şahverdiyev (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

**REDAKSİYA HEYƏTİNİN ÜNVANI:**
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**ГЛАВНЫЙ РЕДАКТОР:**
**Наргиз АХУНДОВА,** *академик*

**ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:**
**Ягуб МАХМУДОВ,** *академик*

**ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:**
**Ламия КАФАР-ЗАДЕ,** *доктор философии по истории*

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член-корреспондент НАНА), Захмат Шахвердиев (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусеибли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

**АДРЕС РЕДАКЦИИ:**
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалиййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**EDITOR-IN-CHIEF:**
**Nargiz AKHUNDOVA,** *Academician*

**DEPUTY EDITOR-IN-CHIEF:**
**Yagub MAHMUDOV,** *Academician*

**EXECUTIVE SECRETARY:**
**Lamiya GAFAR-ZADA,** *Doctor of Philosophy in History*

**EDITORIAL BOARD MEMBERS:**
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Zehmet Shahverdiyev (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of ANAS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

**EDITORIAL ADDRESS:**
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St.
Phone: (+99412) 4925180; mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com

# MÜNDƏRİCAT

## TARİX

**Allahverdi ƏLİMİRZƏYEV**
*Elam dilinin "türkmənşəli" sözləri haqqında* ........ 6
**Günel MƏMMƏDOVA**
*Azərbaycan kəndində "sinfi mübarizə" və onun mahiyyəti (1925-1930)* ........ 13
**Mais ƏMRAHOV**
*Müharibə illərində Azərbaycan neft sənayesi işçilərinin vəziyyəti arxiv sənədlərində (1941-1945-ci illər)* ........ 19
**Məryəm SEYİDBƏYLİ, Bayram QULİYEV**
*Əhməd Bəy Ağaoğlunun əsərlərindəki tarixi məlumatlara ümumi bir nəzər* ........ 29
**Гусейн РАГИМЛИ**
*О некоторых аспектах англо-российского соперничества в регионе во второй половине XVIII века* ........ 37
**Ильгар НИФТАЛИЕВ**
*Политика Великобритании в территориальном конфликте между Арменией и Азербайджаном в 1918-1919 гг* ........ 44

## ARXEOLOQİYA VƏ ETNOQRAFİYA

**Fizzə QULİYEVA**
*Naxçıvantəpədə erkən eneolit dövrü keramikasının naxış motivləri* ........ 54

## FƏLSƏFƏ VƏ HÜQUQ

**Ələddin MƏLİKOV**
*Din fəlsəfəsinin tarixi, tərifi və digər anlayışlarla fərqi* ........ 61
**Könül BÜNYADZADƏ**
*Fəlsəfədə yeni cərəyan – fəlsəfi məsləhətləşmə* ........ 67
**Oruc MƏMMƏDOV**
*Dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemində konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbəti* ........ 77
**Нигяр ГАСЫМОВА**
*Презумпция невиновности как основной принцип при применении мер принуждения в уголовно-процессуальном законодательстве* ........ 91

## SİYASİ ELMLƏR

**Bünyamin SEYİDOV**
*Elmi diasporanın mahiyyətinə "beyin axını" və elm diplomatiyası kontekstində baxış* ........ 97
**Elnur KƏLBİZADƏ**
*İran İslam Respublikasının kütləvi informasiya vasitələrində Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi* ........ 102
**Rza TALIBOV**
*İraq-Azərbaycan münasibətləri* ........ 109
**Yeganə BAXŞIYEVA**
*Legal problems of the Caspian Sea in the context of regional and international cooperation* ........ 114
**Гюнель МУСАЕВА**
*Политические и экономические аспекты нефтяных договоров, подписанных между Азербайджаном и Великобританией (1991-2013)* ........ 125
**Рауф МАМЕДОВ**
*Рост миграции мусульман в европейские государства* ........ 133

## RESENZİYALAR

Yaqub Mahmudovun Kamran İsmayılovun "Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə" adlı kitabına resenziyası ........ 140
Yaqub Mahmudovun Kamran İsmayılovun «Партии и парламент в политической системе Азербайджанской Демократической Республики (1918-1920 гг.)» adlı kitabına resenziyası ........ 143

# СОДЕРЖАНИЕ

## ИСТОРИЯ

**Аллахверди АЛИМИРЗОЕВ**
*О «тюркских» словах эламского языка* ..... 6
**Гюнель МАМЕДОВА**
*«Классовая борьба в азербайджанской деревне и ее суть»* ..... 13
**Маис АМРАХОВ**
*Положение работников нефтяной промышленности Азербайджана в годы войны в архивных документах (1941-1945-ые годы)* ..... 19
**Марьям СЕИДБЕЙЛИ, Байрам ГУЛИЕВ**
*Обзор исторических данных в работах Ахмед Бея Агаоглы* ..... 29
**Гусейн РАГИМЛИ**
*О некоторых аспектах англо-российского соперничества в регионе во второй половине XVIII века* ..... 37
**Ильгар НИФТАЛИЕВ**
*Политика Великобритании в территориальном конфликте между Арменией и Азербайджаном в 1918-1919 гг.* ..... 44

## АРХЕОЛОГИЯ И ЭТНОГРАФИЯ

**Физза ГУЛИЕВА**
*Орнаментальные мотивы керамики раннего энеолита Нахчыван тепе* ..... 54

## ФИЛОСОФИЯ И ПРАВО

**Аладдин МЕЛИКОВ**
*История и определение философии религии и ее различие с другими понятиями* ..... 61
**Кенуль БУНЬЯДЗАДЕ**
*Новое философское течение – философское консультирование* ..... 67
**Орудж МАМЕДОВ**
*Соотношение конституционных, административных, трудовых норм и норм права социального обеспечения в системе регулирования трудовых отношений государственных служащих* ..... 77
**Нигяр ГАСЫМОВА**
*Презумпция невиновности как основной принцип при применении мер принуждения в уголовно-процессуальном законодательстве* ..... 91

## ПОЛИТИЧЕСКИЕ НАУКИ

**Бунямин СЕИДОВ**
*Рассмотрение сущности научной диаспоры в контексте «утечки мозгов» и научной дипломатии* ..... 97
**Эльнур КАЛЬБИЗАДЕ**
*Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт в средствах массовой информации Исламской Республики Иран* ..... 102
**Рза ТАЛЫБОВ**
*Азербайджанско – Иракские взаимоотношения* ..... 109
**Егяна БАХШИЕВА**
*Правовые проблемы Каспийского моря в контексте регионального и международного сотрудничества* ..... 114
**Гюнель МУСАЕВА**
*Политические и экономические аспекты нефтяных договоров, подписанных между Азербайджаном и Великобританией (1991-2013)* ..... 125
**Рауф МАМЕДОВ**
*Рост миграции мусульман в европейские государства* ..... 133

## РЕЦЕНЗИИ

Рецензия Ягуба Махмудова на книгу Камрана Исмаилова “Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə” ..... 140
Рецензия Ягуба Махмудова на книгу Камрана Исмаилова “Партии и парламент в политической системе Азербайджанской Демократической Республики (1918-1920 гг.)” ..... 143

# CONTENTS

## HISTORY

**Allahverdi ALIMIRZAYEV**
*On the "Turkic" words of the Elamite language* ........ 6
**Gunel MAMMADOVA**
*Class struggle in Azerbaijani village and its essence* ........ 13
**Mais AMRAHOV**
*Azerbaijan oil industry employees' situation in the years of war in archive documents (1941-1945)* ........ 19
**Maryam SEYIDBAYLI, Bayram QULIYEV**
*An overview of the historical data of the works of Ahmed Bey Agaoglu* ........ 29
**Huseyn RAHIMLI**
*Some aspects of rivalry between Russian Empire and Great Britain in the region in the second half of the XVIII century* ........ 37
**Ilgar NIFTALIEV**
*Great Britain's politics in territorial conflict between Armenia and Azerbaijan in 1918-1919* ........ 44

## ARCHAEOLOGY AND ETHNOGRAPHY

**Fizza GULIYEVA**
*Ornamental motives of ceramics of early chalcolithic age Nakhchivan tepe* ........ 54

## PHILOSOPHY AND LAW

**Aladdin MALIKOV**
*History and definition of the philosophy of religion and its difference from other notions* ........ 61
**Konul BUNYADZADE**
*The New Philosophical Movement – Philosophical Counselling* ........ 67
**Oruj MAMMADOV**
*The correlation of constitutional, administrative, labor and social rights precept in the system of regulating labor relations of civil servants* ........ 77
**Nigar GASIMOVA**
*The Presumption of Innocence as the basic principle of application of measures in principal criminal legislation* ........ 91

## POLITICAL SCIENCES

**Bunyamin SEYIDOV**
*Review of the essence of scientific diaspora in the context of "brain drain" and scientific diplomacy* ........ 97
**Elnur KELBIZADEH**
*Armenian-Azerbaijani Nagorno Karabakh conflict in the mass media of the Islamic Republic of Iran* ........ 102
**Rza TALIBOV**
*Azerbaijan - Iraqi relations* ........ 109
**Yegana BAKHSHIYEVA**
*Legal problems of the Caspian Sea in the context of regional and international cooperation* ........ 114
**Gunel MUSAYEVA**
*Political and economic aspects of oil contracts signed between the Republic of Azerbaijan and the United Kingdom (1991-2013)* ........ 125
**Rauf MAMMADOV**
*The growth of Muslim migration to European countries* ........ 133

## REVIEWS

Yagub Mahmudov's review of Kamran İsmayılov's book "Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə" ........ 140
Yagub Mahmudov's review of Kamran İsmayılov's book "Партии и парламент в политической системе Азербайджанской Демократической Республики (1918-1920 гг.)" ........ 143

UOT 94

**ALLAHVERDİ ƏLİMİRZƏYEV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın qədim tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan*
*alimirzoev.60@ mail.ru*

# ELAM DİLİNİN "TÜRKMƏNŞƏLİ" SÖZLƏRİ HAQQINDA

***Açar sözlər:*** *Azərbaycan dili, Elam dili, mixi yazılar, qədim türklər, toxarlar, müqayisəli dilçilik, relikt sözlər*

İran yaylasının elmə məlum ən qədim etnik toplumu olan elamlıların dilində tərtib olunmuş kitabələrin ümumi sayı 30 mindən artıqdır və onlar e.ə. 3000-450-ci illəri əhatə edir. Buna baxmayaraq, Ön Asiyanın mixi yazılı relikt dilləri sırasında elam dili zəif öyrənilib. İndiyədək bu dildən təqribən 700 sözün mənası müəyyənləşdirilib, qrammatikası haqqında ümumi məlumat əldə olunsa da, bəzi ifadələrin, hətta mətnlərin anlamı sirr olaraq qalır. Bu səbəblərdən elam dilinin müasir dillərlə genetik bağlılığı məsələsi mübahisə predmeti olaraq qalmaqdadır. Tipoloji baxımdan elam dili iltisaqi dillər qrupuna aid olduğundan XIX əsrin sonlarında onu qədim türk dilinə qohum hesab etmişlər. Hazırda bu nəzəriyyədən imtina olunub və tədqiqatçıların əksəriyyəti onu ya dravid, ya da afro-Asiya dilləri ilə əlaqələndirirlər. Təqdim olunan məqalədə elam dillindəki 30 söz (onların bir qismi mixi yazı sistemindən istifadə edən digər xalqların dillərində də qeydə alınıb) Azərbaycan türkcəsində işlənməkdə olan söslərlə müqayisə olunur. Onlardan yalnız dördünün qədim türk abidələrində rast gəlindiyini nəzərə alaraq belə qənaitə gəlirik ki, onlar azərbaycanlıların dilinə heç də Altaylardan miqrasiya nəticəsində keçməmişdir. Həmin sözlər Ön Asiya məkanında ümumişlək olduğundan Azərbaycanda yaşayan lullubi, quti, turukku və adını bilmədiyimiz digər qədim etnoslar tərəfindən qonşu xalqlardan, o cümlədən elamlılardan mənimsənilmişdir. X əsrin ərəb müəllifləri (İstəxri, İbn-Xavqəl) onların zamanında Xuzistanda (Elam sivilizasiyasinin beşiyi) ərəb, fars və yəhudi dillərinə bənzəməyən, müəmmalı dildə danışıldığı haqqında məlumat verirlər, bu dilin məhz elam dili olduğu güman edilir. Elam dilindən olan bəzi mənimsəmələr Altay və Orta Asiya türklərinin dilinə Şərqə köç edən etnoslar vasitəsilə ötürülə bilərdi. Belə ki, yazılı mənbələr e.ə. III minilliyin ikinci yarısında Zaqrosda yerləşən Tukriş ölkəsi haqqında məlumat verirlər. II minilliyin ortalarına aid mənbələrdə bu ölkə xatırlanmadığından hesab edirlər ki, onun sakinləri "toxar" adı ilə Çinin Sintsyan-Uyğur vilayətinə miqrasiya etmişlər. Onlara məxsus yazılı mənbələrdə həqiqətən də qədim türk sozləri qeydə alınıb.

Onomastik və toponimik materialların təhlili əsasında prototürk dilində danışdığı güman olunan bəzi qrupların Azərbaycanın tarixi ərazilərində daha qədim dövrlərdən yayıldıqları və qonşuları ilə iqtisadi-mədəni əlaqələr sferasında söz mübadiləsinə qatıldıqları ehtimal edilir. Lakin mənbələrdə prototürk dialektlərində danışan qrupların hansı ad və ya adlarla çıxış etmələri həllini tapmayan problem olaraq qalır. Məsələnin mürəkkəbliyi təkcə bu coğrafiyada məskunlaşan etnosların dilində mətnlərin yoxluğu ilə məhdudlaşmır. Onlara məxsus yer və şəxs adları yadelli qaynaqların dillərinin fonoloji və yazılarının qrafik imkanları səviyyəsində və təbii ki, təhrif olunmuş formada, əks olunub. Mesopotamiya sakinləri təmasda olduqları qonşularını yalnız etnik əlamətlərinə (dilinə, həyat tərzinə, adət-ənənələrinə) görə deyil, yaşadıqları coğrafi məkanın relyev xüsusiyyətlərinə və ya təmsil olunduqları hərbi-siyasi birliklərin adına əsasən adlandırırdılar. Təbliğata hesablanan mənbələrdə Urmiya hövzəsi sakinləri mütərəqqi nailiyyətlərdən uzaq barbarlar, dini inancları olmayan, qarışıq və anlaşılmaz dillərdə danışan,

siyasi orientasiyası qeyri-sabit, idarə olunmayan, qanunlara tabe olmayan toplum kimi təqdim olunurdular. Əslində, qonşularla müntəzəm qarşılıqlı əlaqələr nəticəsində Urmiya hövzəsi sakinləri zaman-zaman dövrün hərbi-siyasi və iqtisadi sahələrdə qabaqcıl nailiyyətlərini mənimsəyir, fəaliyyətlərini gələcəyə hesablanan siyasətə uyğun nizamlayaraq beynəlxalq mühitə adoptasiya olurdular. Qonşu xalqların dilindən mənimsənilmiş terminlər də mədəni sferadakı mübadilələrdən qazanılmış uğurlardan xəbər verir. Bu alınma terminlər dilimizdə indi də işlənməkdədir. Biz emosiyalara və illuziyalara qapılaraq prototürk dialektlərində danışan tayfaların Ön Asiya coğrafiyasında və onun tərkib hissəsi kimi Azərbaycan mühitində süni surətdə qədimləşdirilməsinin tərəfdarı deyilik. Son iki onillikdə dilimizin tarixinin qədimləşdirilməsi naminə türk sözlərinin "ovuna cıxmaq" dəb halını alıb. Azərbaycanla həmhüdud ərazilərdə mövcud olmuş relikt dillərin qramatik xüsusiyyətləri və dövrün tarixi vəziyyəti nəzərə alınmadan və müvafiq metodoloji baza yaradılmadan oxşar səslənən sözlərin müqayisəsinin nə ilə nəticələnəcəyi sirr deyil. Acınacaqlı hal odur ki, bəzən 1-2 təsadüfi bənzərliklə kifayətlənərək gah şumerliləri, gah da elamlıları prototürk dilinin daşıyıcıları kimi təqdim edirlər. Bununla belə, Ön Asiyada miladdan əvvəl mövcud olmuş dillərdəki terminlərin dilimizdə indi də işləndiyini təsadüflə izah etmək olmaz. Dilimizin alt qatlarının substrat xüsusiyyətlərinin öyrənilməsində Ön Asiyanın relikt dillərinin əhəmiyyəti danılmazdır, çünki bu dillərin materialları təkcə onlardan hər hansı birinin qısa zaman kəsiyində deyil, bütövlünkdə uzunmüddətli tarixini müqayisəli şəkildə tədqiqinə və müasir dillərə təsirini izləməyə imkan yaradır. Dilimizin unikallığı da ondadır ki, onun substrat tərkibində nəinki çoxşaxəli dil ailələrinin, hətta lokal arealı əhatələyən ölü dillərin terminləri qorunub saxlanıb. Məhz bu terminlərə əsaslanaraq 1960-cı illərdən sovet tarix elmində qəbul olunmuş Altay nəzəriyyəsinə zidd olaraq türkdilli elementlərin Azərbaycanda miladdan xeyli əvvəl yayıldığı, daha doğrusu buranın yerli elementi olduğu haqqında fikirlər səslənməyə başladı. Z.Yampolski və Y.Yusifovun elmə gətirdiyi bu nəzəriyyə [13; 8; 9; 10] sonralar digər tədqiqatçılar (Q.Qeybullayev, F.Ağasıoğlu və başqaları) tərəfindən dəstəkləndi.

Ümumtürk mənşəli hesab edilən bir sıra sözlərin Ön Asiyanın mixi yazı sistemindən istifadə edən şumer, akkad, hurri, het, biayni kimi xalqların, eləcə də elamlıların dilində işlək olduğu danılmaz faktdır. Dövrümüzün tanınmış elamşünaslarından Metyu Stolper hesab edir ki, elam dili e.ə. 2500-1800-cü illərdə Cənubi Azərbaycanda yayılmış dillərdən olmuşdur [18, p. 61].

İranın cənubu (indiki Xuzistan, İlam, Fars, qismən Kermanşah ostanları) bəşər tarixində Şumer və Misirdən sonra Elam adlanan üçüncü qədim sivilizasiyanın beşiyi olmuşdur, İran yaylasının ilk mətnləri də onların dilində piktoqrafik işarələrlə tərtib olunub. Elamın tarixi ərazilərində məskunlaşan qədim etnoslar 3 antropoloji əlamət üzrə təsriflənir:

1.uca boylu, qarabəniz və düz burunlu dolixosefal Xorasan tipi,

2. nisbətən qısa boylu, qıvrım saçlı və qarğa dimdiyinə bənzər burunlu braxisefal Assirioidlər,

3. daha qısa boylu, daha qarayanız, enli burunlu və qalın dodaqlı Dravid tipi.

Elamlılar öz ölkələrini **Ḫa-tam$_5$-ti** və ya **Ḫal-tam$_5$-ti** ("Əsilzadələr ölkəsi") adlandırırdılar. Şumerlilər bu yeri **NİM+Kİ** ideoqramları (hərfən: "UCA"+"YER") ilə bildirir, aşşurlular və babillilər **Elamtum**, yəhudilər "**Elama**" kimi eyni mənanı verən terminlərlə adlandırırdılar. Bu yerin dili haqqında ilk məlumatlar Bisütun kitabəsindən qaynaqlanır.

Hazırkı mərhələdə elam dili Ön Asiyada mövcud olmuş qədim yazılı relikt dillərdən ən zəif öyrənilənidir. Bu dil haqqında ilk məlumat Bisütun qayasına həkk olunmuş irihəcmli mətndən əldə edilib. İlk vaxtlar tədqiqatçılar (E. Bürnuf. J.Sen-Marten, N.Vesterqaard və digərləri) bu müəmmalı dili "Mada (=Midiya) dili" adlandırılırdılar. XIX-XX əsrlərin qovşağında alimlərin bir qrupu (J.Oppert, F.Veysbax, H.Koşay) bu dili "turan", "Altay-Ural" və ya "finn-tatar" kimi adlarla təqdim edirdilər [19, ss.11, 21, 22, 46][1]. Həmin dövrdə alimlərin di-

[1]Elam-türk paralelliyi ayrıca mövzu kimi Türkiyə tədqiqatçısı Zeybək Koşay tərəfindən araşdırılmışdır; lakin onun "Elam-Türk dilakrabalığı" (Ankara, 1938) əsəri ilə tanış ola bilməmişik.

gər qrupu (G.Hüzing, F.Bork, H.Vinkkler, N.Marr) bu dilin Qafqaz qrupu dillərinə qohumluğu ideyasını dəstəkləyirdilər. Yeni mətn nümunələri tapıldıqca bu dilin adına aydınlıq gətirmək mümkün oldu. Həmin mətnləri yazdıranlar özlərini "Anşanın və Suzun hökmdarı" adlandırdıqlarından bu dili həmin toponimlərə müvafiq olaraq adlandırmaq təklif olundu. Bu toponimlərdən birincisi Elam dövlətinin tarixi vilayətini, digəri siyasi-ideoloji mərkəzini təmsil etdiyindən XX əsrin əvvəllərində bu mətnlərin dilinin "Elam dili" adlandırılması qəbul olundu. Persepoldan (indiki Təxti-Cəmşid, Fars vilayətində) tapılmış elamdilli mətnlərin 30 mindən artığı (99 %-i) Əhəməni dövrünə aiddir. Ümumilikdə, qeydə alınmış təxminən 700 söz (bəzilərinin mənası bilinmir) elam dilinin müasir dillərdən hər hansı biri ilə genetik bağlılığını müəyyənləşdirməyə yetmir. Hazırda bu dilin mənşəyi barədə 4 nəzəriyyəyə üstünlük verilir:

1) Alimlərin bir qrupu (İ.M.Dyakonov, D.Mak-Alpin və başqaları) elam dilini dravid qrupu dillərin (teluqu, malayalam, kannada və s.) əcdadı hesab edir (nəzəriyyə XIX əsrin ortalarında R.Kolduel tərəfindən irəli sürülmüşdü).

2) B.Rozenkrans elam leksemlərini Anadolunun hind-Avropa mənşəli dillərindəki (o cümlədən het) sözlərlə müqayisə etmişdi.

3) V.Blajekə görə bu dil Afro-Asiya makrodil ailəsi daxilində qərarlaşmışdı.

4) Q.S.Starostin leksikoloji material əsasında belə qənaətə gəlmişdi ki, elam dili dravid və Afro-Asiya dilləri arasında körpü təşkil edirdi.

İlk dəfə A.D. Mortman 1870-ci ildə nəşr etdirdiyi "Über die Keilinschriften Zweiter Gattung" adlı məqalədə elam dilində türk sözlərinin olduğunu bildirdi. Elamşünaslığın yaradıcılarından olan F. Vaysbax vaxtı ilə bu dili türk dillərinin praforması kimi təqdim etmişdir. Hazırda bu nəzəriyyə ilə heç kim ciddi məşğul olmur, halbuki elam və türk dillərində üst-üstə düşən xeyli məqamlar var. Məsələn,

1. Tipoloji baxımdan hər iki dil iltisaqi (=aqlütinativ) strukturludur və şəkilçilər sabit söz kökünün sonuna əlavə olunurdu.

2. Hər iki dil yoxsul fonetikası ilə diqqəti cəlb edir; elamdilli mətnlərdə 12 samit və 4 sait səs qeydə alınıb. Maraqlıdır ki, **ñ** ("sağır nun") səsi hər iki dil üçün (hətta şumer dili üçün) səciyyəvi idi[1].

3. Elam dilində isimlər 6 formada hallana bilərdilər və maraqlıdır ki, onun dialektlərinin birində, dilimizdə olduğu kimi, isimlərə yiyəlik halını bildirmək üçün **-n** şəkilçisi əlavə olunurdu.

4. Elam dilindəki yiyəlik hal şəkilçisi **-ki** mənsubiyyət göstəricisi funksiyasında dilimizdə də işlənir və s.

Aşağıda elam leksikonundan 30 sözün (yağlı şriftlə göstərilib) dilimizdə vaxtı ilə işlənmiş və indi də işlənməkdə olan sözlərlə (kursivlə göstərilib) müqayisəsi verilir.

1. **bat** "ayaq" [14, s.111] > *bud.*
2. **hal** "torpaq", "yer" [14, s.593-594; 15, s.186] > *el.*[2]
3. **hurtu-r** [14, ss.723-724] > hurri/urartu**. huradi** "döyüşçü", "qoşun" [11, c.47; E.ə. III minilliyin sonlarına aid mətnlərdə xatırlanan **hu-ur-ti**$^{ki}$ toponimində (=Humurtu) və Urartunun Sardurihurda qalasının adında nəzərə çarpır] >akkad. **qaradu** [6, c.176] > *ordu*
4. **husa** "qamış" [14, s.702; 7, c.245] > *həsir.*
5. **huti/hutta** "iş", "etmək" [14, s.707-709] > *et-mək.*
6. **ihši** [5, c.98] > *işıq.*
7. **irti** (dialekt formaları **riti/rutu**) "xanım", "qadın" [14, s.784] > *ilti* (qardaşların həyat yoldaşları).
8. **kassu** "buynuz" [14, s.449], "qoyun" [7, c.245] > *keçi, quzu.*
9. **kik** "səma", "tanrıların məkanı" [14, s.465; 15, s.195] >azərb. *göy.*
10. **killi** "yundan toxunulmuş əşya" [7, c.247; terminin məna kateqoriyası **SİG** "yun" şumeroqramı ilə yazılırdı] > *kilim.*
11. **kiman** "ox" [14, s.476; 7, c.247] > *kaman.*
12. **Kirpisir** teonimi [14, s.470; 20, p.68][3] > hurri. **kurbe**>urartu. **kirpisi**>akkad. **gurpisu** "zirehli geyim" [11, c.46; 6, c.63][1] > *kirpi.*

---

[1] Məsələn, elam dilindəki **sunkik** ("hökmdar"), **tingih** ("gətirmək") kimi sözlərdə bu səs nəzərə çarpır; lakin elam dilinin fonologiyasına həsr olunmuş tədqiqat əsərlərində bu fakta nədənsə diqqət yetirilmir.

[2] Elam antroponimiyası da bu keçidi təsdiq edir. Müqayisə et: $^{d}$**hampan-hal-taš / hum-ba-il**$_{3}$**-da-šu**$_{2}$, *$^{d}$**šimut-hal-taš / **$^{d}$**šimut-el-taš** [20, pp.12, 40].

[3] Məsələn, Kuk-Kirpiaş ("Zirehlə qorunan") şah ismində. Ku-ur-PI teonimi Nuzi arxivinin sənədlərində xatirlanır [16, s.30, anm.5].

13. **kur/kurpi** “əl” [14, s.469; 7, s.246] > *qol.*
14. **kutu** “ev heyvanı”, “sürü” [14, s.498, 549] > akkad. **kudānu** “qatır” [4, c.125, прим.3] > *xotuğ.*
15. **muru-n** “torpaq” [14, s.954-955] > *ça-mur* sözündə.
16. **patin** “vilayət” [14, s.167; 19, s.106] >urart. **patari** “şəhər” [11, c.70]. Elam və biayni terminlərinin kökündə şumerlilərin **bad** “qala” sözü durur > *bətn, vətən.*
17. **piti** “saxsı qab növü” [14, s.224; 7, c.251] > *piti* (yemək növü). Milli mətbəximizin Şəki bölgəsi üçün səciyyəvi olan nümunəsi – *piti,* ənənəvi olaraq, saxsı qabda bişirilir.
18. **pur** [14, s.241-242] > *barmaq.*
19. **sarum**>hurri. **sahari** “ağac növü” [7, c.251] >azərb. *sərv* ağacı.
20. **šalur** “alicənab” [14, s.1128] > “Kitabi-Dədə Qorqud”da Qazan xanın ləqəbi “*salur*”.
21. **šaparrak-me/šaparrak-umme** “döyüş” [14, s.1118] > azərb. *şapalaq.* **šaparrak** sözü adətən ədəd və rəqəmlərin sıra sayını, eləcə də, hərəkətin ardıcıllığını bildirən **-umme** formantı ilə yazılırdı [5, c.99-100].
22. **šutur||šutar** “qanun” [14, s.1187; 20, p.41] > azərb. *sədr.*
23. **silh** “güc/qüvvət” [14, s.1072] > azərb. *silah.*
24. **siri** “qulaq” [14, s.1089] > *sırğa.*
25. **šak** “varis oğul” [14, s.1110-1111] > azərb. *çağa, uşaq.*
26. **tit** [14, s.328] > azərb. *dil.* **Titinra, titipi, titukra** (“yalan”) sözü **tit-** “dil” sözündən yaranıb [14, ss.339-340].
27. **urtak** [14, s.1248] >azərb. *ortaq.* Bu söz Elam şəxs adlarında komponent qismində qeydə alınıb. Məsələn, bu sözü Elam şahı Şilhak-İnşuşinakın qızı Urutuk-$^{d}$Elhalahunun (“İlahə Elhalahuya ortaq”; ehtimal ki, Elhalahu gözəllik ilahəsi olmuşdur) və e.ə. 675-663-cü illərdə Temti-Humban-İnşuşinakla (Aşşurbanapalın salnaməsində hipokoristik, yəni qısaldılmış formada Teuman) birgə Elamı idarə edən şah Urtakunun adlarında görmək olar [15, № 54, s.120]. Sözün, həqiqətən də, Elam dilində işlək olması Elam hidronimlərindən biri ilə də təsdiq olunur. Plini “Təbii tarix” əsərində Elimaida ölkəsindən (=Aşşur mətnlərində Luristanda yerləşən Ellipi/Ellime) axan “Ortacea” adlı çay barədə məlumat verir. Bu çayı, əminliklə Elama hərbi yürüşlə əlaqədar Akkad şahı Rimuşun mətnində xatırlanan Kablitum (akkadca “orta”) çayı ilə eyniləşdirmək olar [17, s.105].
28. **GIŠ. z/šali** (**“**ağac” determinativi ilə bildirilən əşya) [14, s.1279] > *şələ, çalı*
29. **zana** “xanım” [14, s.1282] > fars. *zənən* > *Sənəm* qadın ismi.
30**. zul** [14, s.1314] > *su* və *şəlalə* sözündə.

Bir-neçə söz istisna olmaqla (məsələn, 3, 9, 26, 27-cı sözlər), digərlərinin Orxon-Yenisey abidələrinin leksikonunda analoqu qeydə alınmayıb. Nəzərə alınmalıdır ki, Azərbaycanın tarixi cənub torpaqlarının müəyyən hissəsi və oranın lullubi və qutimənşəli sakinləri bir əsr ərzində elamlıların yaratdığı konfederativ dövlətin – Simaşkinin tərkibində, daha sonralar Elamın digər şahlarının siyasi təsiri altında olub [1; 2]. Qərbi Azərbaycandan (Urartu şəhəri Arqiştihinilidən; yerli azərbaycanlıların Qəmərli adı ilə tanıdıqları indiki Armavir) elam dilində tərtib olunmuş iki fal mətni və “Gilqameş haqqında epos”un fraqmentinin elam dilinə tərcüməsi tapılıb [17, p.301]. Əhəmənilərin hakimiyyəti zamanı pars (qədim fars) dilinin təsiri nəticəsində imperiyanın təsərrüfat dili olan elam dilinin lügət tərkibində və sintaksisində ciddi dəyişiklər baş vermişdir [5, c.93]. Antik müəlliflərin də əsərlərində elimeylərin (elamlıların) Atropatenanın ərazisi yaxınlığında məskunlaşdığına dair qeydlərə rast gəlmək olar [12]. Bu faktlar elamlıların müəyyən qrupunun Azərbaycanın tarixi torpaqlarında yayıldıqlarını və dillərinin yerli əhali tərəfindən anlaşıldığını təsdiqləyir. Erkən orta əsrlərdən gec olmayaraq bu dil bəzi arxaik terminlərin türk dilinə keçməsinə *in situ* təsir gösrərə bilərdi. Başqa sözlə, müqayisəyə cəlb olunan 30 sözün əksəriyyəti türkdilli tayfaların Altaylardan qərb istiqamətinə axını ilə əlaqədar gəlmədiyinə işarə edir. Bu fikri dilimizdəki “qeyri-türkmənşəli”, “aborigen” sözlərin Ön Asiyanın mixiyazılı relikt dillərinin (şumer, akkad, elam, hurri, biayni) leksik fondunda da yer alması, yəni onların yerli mənşəli olmaları təsdiq edir. Həqiqətən də, Urmiya gölü hövzəsinin (Azərbaycanın tarixi cənub torpaqları) aborigen sakinləri olan lullubilər, qitilər və turukkular əsrlər boyu qonşu xalqlarla (şumerli-

---

[1] **Ku-ur-pi-$^{d}$Adad** (“Tanrı Adadın zirehi”) qarışıqmənşəli (hurri-akkad) teofor isimdə də nəzərə çarpır [21, p.22].

lər, babillilər, aşşurlular, hurrilər, urartulular, eləcə də elamlılarla) qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələrdə olmuşlar və təbii ki, bu əlaqələr sözlərin mübadiləsinə təsirsiz ötüşməyə bilməzdi. Yazılı elam və yazılı türk dilləri arasındakı 1000 illik zaman məsafəsi onlar arasında nə vaxtsa mözcud olmuş bənzər qramatik əlamətlərin silinməsinə səbəb olmuşdur. X əsrin ərəb müəllifləri İstəxri və İbn-Xavqəl Xuzistanda ərəb, fars, suryani (=arami) və yəhudi dillərinə bənzəməyən dildə danışıldığı barədə məlumat vermişlər; alimlər yekdilliklə bu naməlum dili elam dilinin qalığı hesab edirlər [17, p.415].

"Yerli" terminlərin müəyyən qismi qədim türk dillərinə İran yaylasından keçməklə Şərqə miqrasiya edən etnik qrupların vasitəsilə ötürüldüyünü də mümkün hesab edirik. Bu terminlər türk dillərinə vaxtı ilə Ön Asiyada yaşayan, müəyyən dövrdən sonra müəmmalı səbəblərdən Altaylara miqrasiya edən toplumlar vasitəsilə keçə bilərdi. Məsələyə tarixi-tipoloji aspektdən yanaşdıqda nəzəri cəhətdən bu toplumlardan birini – toxarları (ana vətənlərindən ilk qopan hind-avropalılar), əminliklə təyin etmək mümkündür. Hələ e.ə. III minilliyin ortalarında şumerdilli mirzələr hind-Avropa mənşəli hesab olunan prototoxarların Zaqrosun mərkəzi hissəsində, Qutium ölkəsinin qonşuluğunda yerləşən şahlıqlarını Tukriş adlandırırdılar.[1] Het mətnlərində əks olunan hurri mifoloji ənənəsinə bu ölkənin Kiklipatalli adlı (isim hurrimənşəlidir) şahı məlum idi [21, p.21]. Gözlənilmədən e.ə. II minilliyin ortalarında yazılı mənbələrdə bu şahlıq və onun sakinləri haqqında informasiyalar kəsilir. Təxminən 2000 il sonra onlar hind, soqd, yunan mənbələrində **toxār**, eləcə də, qədim türk mətnlərində **tuγri** formalarında Şərqi Türküstanda (Çinin Sinzyan-Uyğur vilayəti) üzə çıxırlar. Maraqlı faktdır ki, artıq eramızın III əsrinə aid toxardilli mətnlərdə qədim türkcədən mənimsənilmiş sözlərə təsadüf olunur [3, c.7]. Toxarların vasitəsilə Altaylara "köç edən" sosial terminlərə qədim türklərdə geniş yayılmış **yabqu** hökmdar terminini (şumerlilərin **abgal** ("icma başçısı","müdrik") termini ilə eynidir ) misal göstərmək olar. Bu termin Elamın şimal hüdudlarındakı Bit-karzi-yabku şəhərinin adında [4, c.127, прим.2][2], Qədim Babil dövrü mətnlərində xatırlanan Dur-Yabugani toponimində ("Yabqunun qalası") və Yabku-bat şəxs adında da [21, p.17] nəzərə çarpır. III Tiqlatpalasarın e.ə. 744-cü ildə yürüş etdiyi Kuşianaş İran yaylasında (Luristanda) [4, c.194, прим.3] toxarlara aid edilə bilən sonuncu coğrafi məntəqə hesab oluna bilər[3]. Məhz toxarlar bizim eranın I-III əsrlərində Orta Asiya coğrafiyasında (Əfqanıstan, Pakistan, Şimali Hindistan, Şərqi Türküstan) fəaliyyət göstərən güclü Kuşan imperiyasının yaradıcıları olmuşlar.

## Ədəbiyyat siyahısı


1. Əlimirzəyev A. "Su adamları" və Simaşki dövlətinin Azərbaycan tarixində yeri // BDU İlahiyat fakultəsinin elmi məcmuəsi, № 27, 2017, s. 75-87
2. Əlimirzəyev A. Simaşki çarlığının sakinləri / "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I beynəlxalq elmi konfrans. Beynəlxalq elmi kofransın materialları, 29-30 oktyabr 2018, s. 346-350.
3. Гамкрелидзе Т., Иванов В. Первые индоевропейцы в истории: предки тохар в древней Передней Азии // Вестник древней истории, 1989, № 1, с. 14-39.
4. Дьяконов И. М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва, Ленинград: Издательство Академии Наук СССР, 1956, 483с.
5. Дьяконов И. М. Языки древней Передней Азии. Москва: Наука, Главна редакция восточной литературы, 1967, 492 с.
6. Липин Л. А. Аккадский (вавилоно-ассирийский) язык. Выпуск II, Словарь. Ле-


[1] Tikriş (və ya Siqriş) ölkəsi Ardalan yaxınlığında və ya Urmiya gölündən şimal-şərqdə lokalizə olunur [4, c.164]. **T||S** səs paralelliyi elam dili üçün səciyəvi idi; müqayisə et: **temti** ||**simti** "hökmdar". Tikrişdən qutilərə aid etnoantroponim ("Kutu") məlumdur [21, p.26].

[2] Kaşşularla (kaspilərin əcdadları) əlaqəli olan "Karziyabku" toponimi, bəlkə də, eyni mənada olan "Karzibra" (<**karzi**+**ibra**; sonunca komponent hurrilərin **ewri** "hökmdar" tituluna uyğundur) yer adı ilə eyniləşdirilməlidir. Bu halda toponimin **kar-zibra** kimi komponentlərə bölünməsi yanlış hesab olunmalıdır [4, c.201, прим.5].

[3] Kuşianaş < **kušan**+**iaš**; sonuncu komponent kaşşuların dilində "yer", "məkan" anlamındadır. Kuşan hökmdarları da **yabqu** titulu daşıyırdılar.

нинградский Государственный Университет, 1957, 211 с.

7. Юсифов Ю. Б. Эламские хозяйственные документы из Суз // Вестник древней истории. Москва, 1963, № 3, с. 204-261.

8. Юсифов Ю. Б. О происхождении азербайджанского народа / Материалы научной конференции, посвященной 60-летию АПИ имени В.И. Ленина. Б., 1981, с. 236-240.

9. Юсифов Ю. Б. О языках древнейших насельников Азербайджана (III тыс. до н.э.) / Вопросы азербайджанской филологии. Б., 1983, с. 63-72.

10. Юсифов Ю. Б. К значению древних топонимов в изучении этнической истории Азербайджана // AMEA Xəbərlər (tarix, fəlsəfə, hüquq seriyası), 1987, № 2, с. 101-110.

11. Хачикян М. Л. Хурритский и урартский языки. Ереван, Издательство АН Армянской ССР, 1985, 195 с.

12. Ямпольский З. О северных эламитянах // Труды Музея Истории Азербайджана. Баку, 1957, том 2, с. 199-211.

13. Ямпольский З.М. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Ученые записки Азербайджанского Государственного Университета. Серия истории и философии. Баку, 1966, № 2.

14. Hinz W., Koch H. Elamische wörterbuch // Archaologische Mitteilungen aus İran. Berlin. Erganzungsband 17. Band I-II, Verlag von Dietrich Reimer in Berlin, 1987, 1392 s.

15. König F. W. Die Elamische Königsinschriften. Graz, Selbstverlag, 1965. 228 s.+44 tafel.

16. Oppenheim L. Studien ze den nichtsemitischen Nuzi-Namen // Archiv für Orientforschung. Graz, 1937, Band 12, Heft ½, ss. 29-39.

17. Potts D. T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. Cambridge University Press. 480 p.

18. Stolper M. W. Elamite / The Cambridge Encyclopedia of the World’s Ancient languages (Edited by Woodard R.D.). State University of New York, Buffalo, 2004, pp. 60-94.

19. Weisbach F. Die Achamenideninschriften Zweiter Art. Leipzig, Hinrichs’sche Buchhandlung, 1890, 148 s.

20. Zadok R.. The Elamite Onomasticon. Napoli, Instituto Universitario Orientale, 1984, 83 p.

21. Zadok R. Peoples from the İranian Plateau in Babylonian during the Second Millennium BC // Iran, 1987, vol. 25, pp.1-26.

## Summary

**Allahverdi Alimirzayev**

### On the "Turkic" words of the Elamite language

The language of the Elamites - the ancient inhabitants of the southern part of the Iranian plateau - is the most poorly studied among the relict languages of the peoples of Near East who used cuneiform. The total number of texts in this language exceeds 30 thousand. To date, more than 700 words are known and grammatical essays have been compiled, however, texts are difficult to translate. According to the grammatical structure, the Elamite language is agglutinative, because of which, at the dawn of elamitology, it was considered akin to Old Turkic. There are also hypotheses about the relationship of the Elamite with the Dravidian or Afro-Asiatic languages. The proposed article compares 30 Elamian words (some of them were used by other ancient peoples of Near East) with the words of the Azerbaijanian language. Since only 4 of them are recorded in the monuments of ancient Turkic writing, we came to the conclusion that the rest of the words were local and were not introduced into the speech of the Azerbaijanians with the Turkic tribes who migrated from the Altai. For Arab writers of the early Middle Ages had a vague idea of some ancient language in Khuzestan (the center of Elamite civilization), not like any other language known to them, in which scientists, not unreasonably, suspect Elam. In addition, the ethnic groups of the Urmia Basin (lullubians,

qutians, turukkians), which played a certain role in the ethno genesis of Azerbaijanians, for thousands of years were in contact with neighboring nations, including Elamites. Some words could get into the Turkic languages of Altai also with the migration of a certain ethnic community of Near East to the East. Tochars, whose country Tukrish, according to the Sumerian and Babylonian inscriptions, could be such a community, in the second half of the third – mid-second millennium BC. It was located in the central part of Zagros, and in the language of which words from the ancient Turkic language were actually found.

***Keywords***: *Azerbaijanian language, Elamite language, cuneiform texts, ancient Turks, Tokhars, comparative linguistics, relic words.*

## Резюме

**Аллахверди Алимирзоев**

### О «тюркских» словах эламского языка

Язык эламитов – древних насельников южной части Иранского плато – является самым слабо изученным из числа реликтовых языков народов Передней Азии, воспользовавшихся клинописью. Общее количество текстов на этом языке переваливает 30 тысяч. К настоящему времени известно значение более 700 слов и составлены грамматические очерки, однако тексты с трудом поддаются переводу. По грамматическому строю эламский язык является агглютинативным, из-за чего на заре эламитологии, его считали родственным древнетюркскому. Существуют также гипотезы о родстве эламского с дравидскими или афроазийскими языками. В предлагаемой статье сопоставляется 30 эламских слов (часть из них употреблялась и другими древними народами Передней Азии) со словами азербайджанского языка. Поскольку лишь 4 из них зафиксировано в памятниках древнетюркской письменности, мы пришли к выводу, что остальные слова были местными и не были привнесены в речь азербайджанцев с мигрировавшими из Алтая тюркоязчными племенами. Ибо арабские авторы раннесредневековья имели смутное представление о каком-то древнем языке в Хузестане (центр Эламской цивилизации), не похожим ни одному известным им языкам, в котором учёные, не безосновательно, подозревают эламского. Кроме того, этнические группы Приурмийского бассейна (луллубеи, кутии, туруккийцы), игравшие определённую роль в этногенезисе азербайджанцев, тысячелетиями контактировались с соседними народами, в том числе эламитами. Какие-то слова могли попасть в тюркские языки Алтая также с миграцией определённой этнической общности Передней Азии на Восток. Такой общностью могли быть тохары, страна которых Тукриш, согласно шумерским и вавилонским надписям, во второй половине III–середине II тыс. до н.э. находилась в центральной части Загроса, и на языке которых действительно обнаружены слова с древнетюркского языка.

***Ключевые слова***: *азербайджанский язык, эламский язык, клинописные тексты, древние тюрки, тохары, сравнительное языкознание, реликтовые слова.*

**UOT 94 (479.24)**

**GÜNEL MƏMMƏDOVA**
*ADA Universitetinin müəllimi, BDU-nun doktorantı,*
*Azərbaycan, gmammadova@ada.edu.az*

# AZƏRBAYCAN KƏNDİNDƏ "SİNFİ MÜBARİZƏ" VƏ ONUN MAHİYYƏTİ (1925-1930)

***Açar sözlər:*** *Kollektivləşmə, kolxoz, sovxoz, sinfi mübarizə, qolçomaq*

Azərbaycanda sovet hakimiyyətinin yarandığı gündən başlayaraq həyata keçirilən hərbi kommunizm siyasəti dövründə bolşevik hökuməti mülkədarlara, torpaq sahiblərinə və varlı kəndlilərə "qolçomaq" damğası vuraraq onlara qarşı savaş açmışdı. Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, bir çox hallarda qolçomaqlara qarşı aparılan mübarizə ortabab və yoxsul kəndliləri də öz ağuşuna alaraq demək olar ki, bütün kəndliləri əhatə etmişdi. Azərbaycan kəndində həyata keçirilən hərbi kommunizm siyasəti qolçomaqlara böyük zərbə vurmuş, sıravi kəndliləri də səfil vəziyyətə salmış və ölkəni aclığa sürükləmişdi. Yeni iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində digər sahələrdə olduğu kimi, kənd həyatında da canlanma və yüksəliş dövrü başlansa da, 20-ci illərin ikinci yarısından etibarən qolçomaqlara qarşı başlanan yeni hücum dalğası və kənd təsərrüfatının kollektivləşdirilməsi siyasəti Azərbaycan kəndinə böyük fəlakətlər gətirdi.

Azərbaycan kəndində sinfi ziddiyyətlər nə Aprel işğalından əvvəl, nə də ondan sonrakı dövrlərdə Rusiyadakı kimi kəskin deyildi. Buna görə də bolşevik hökumətinin 20-ci illərdə süni şəkildə yaratmağa çalışdığı "sinfi mübarizə" gözlənilən nəticəni verməmişdi. Kollektivləşmə siyasəti isə sovet hökumətinin özünə əsas dayaq saydığı kəndli sinfinin də inamını qırmış və bu sinfi də özünə düşmən etmişdi. Bəzi hallar istisna olmaqla istər hərbi kommunizm dövründə, istərsə də kollektivləşmə illərində sovet hökuməti saf, vicdanlı və dinə bağlı olan Azərbaycan kəndlisini qolçomaqlara qarşı sinfi mübarizəyə cəlb edə bilmədi. Çünki Azərbaycan kəndlisi daim birgə yaşadığı varlı və qolçomaq sinfindən deyil, sovet hökumətinin özündən narazı idi. Buna görə də bolşevik hökuməti qolçomaqlara qarşı sinfi mübarizəni hərbi kommunizm dövründə olduğu kimi, kollektivləşmə illərində də güc strukturları və Bakıdan ezam olunmuş fəhlə emissarların vasitəsilə aparmalı oldu.

SSRİ MİK və XKS-nin 1925-ci il 20 mart tarixli qərarı ilə varlı qolçomaqların onlara məxsus torpaqlardan istifadə etmək, orada yaşamaq və digər hüquqları ləğv edilmişdi. Bu qərarla əslində mülkədarların və qolçomaqların qanuni hüquqları ləğv edildi, onların torpaqlarının əllərindən alınması və özlərinin sürgün edilməsi prosesi başlandı [4, v. 23].

Əslində bu dövrdə tək-tək istisnaları çıxmaq şərtilə kənddə sovet hökumətinin düşməni qalmamışdı. Kəndin açıq müqavimət göstərən, sovet hökumətini tanımayan yuxarı təbəqəsi hələ sovet hakimiyyətinin ilk illərində ya təslim edilmiş, ya da məhv edilmişdi. İnqilaba qədərki Azərbaycan kəndində qolçomaqların, kapitalist elementlərinin xüsusi çəkisi 10-13 faiz idi. Onlar yararlı torpaq sahələrinin 29,6 faizinə malik idilər. Əslində Azərbaycanda olan torpaqların böyük hissəsi – 68,9 faizi çar məmurlarına və xəzinəyə məxsus idi [10, s. 111].

Azərbaycanda varlı qolçomaq təsərrüfatları sovet hakimiyyətinin ilk illərində 5-6 faiz, 1925-ci ildə 3 faiz, 1928-ci ildə isə 6,8 faiz, 1930-cu ildə 6 faiz təşkil edirdi [5, v. 235]. Hakimiyyət tərəfindən daim təqiblərə və diskriminasiyaya məruz qalan qolçomaq təsərrüfatları 1925-ci ildə ümumi kənd təsərrüfatı vergisinin 50 faizini [9, s. 43], 1927-ci ildə 32,7 faizini, 1928-ci ildə 18,5 faizini, 1929-1930-cu illərdə isə 47,8 faizini verirdilər [16, s. 149; 13 s. 77].

Azərbaycanda qolçomaqlara qarşı mübarizə XV qurultaydan xeyli əvvəl başlasa da, ellik-

lə kollektivləşməyə keçidlə əlaqədar olaraq qolçomaqlara münasibət məsələsi yeni şəkildə ortaya atıldı. Ölkədə yaranmış iqtisadi və siyasi şəraitlə bağlı 1929-cu ilin axırından etibarən kolxoz quruluşunun, eləcə də sovet hökumətinin barışmaz düşməni hesab edilən qolçomaqların müqavimətini qəti olaraq qırmaq və elliklə kollektivləşmə rayonlarında onları bir sinif kimi ləğv etmək siyasətinə keçildi. Bu siyasət ilk dəfə 1930-cu il yanvarın 5-də ÜİK(b)P MK-nın "Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi haqqında"kı qərarında təsbit olundu. Bu qərarda göstərilirdi ki, artıq ölkədə qolçomaqların iri istehsalını kolxozlarla əvəz etmək üçün maddi baza vardır. Bu cəhət qolçomaqların bir sinif kimi ləğv edilməsi siyasətinə keçilməsi üçün tam əsas oldu [17, s. 736].

Elliklə kollektivləşmə rayonlarında qolçomaqların bir sinif kimi ləğv etmək siyasəti, onun həyata keçirilməsi üsulları və formaları isə SSRİ MİK və XKS-nin "Elliklə kollektivləşmə rayonlarında kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının möhkəmləndirilməsi və qolçomaqlarla mübarizə tədbirləri haqqında" 1930-cu il 1 fevral tarixli qərarında qanunvericilik yolu ilə rəsmi şəklə salındı. Bu qərar kütləvi kollektivləşmə rayonlarında torpaq icarəsinə və muzdlu əməkdən istifadəyə icazə verən bütün köhnə qanunları ləğv etdi. Torpaq icarəsi və muzdur saxlamaq hüququ qolçomaqların əlindən alındı. Qolçomaqların iş heyvanlarının, toxum ehtiyatlarının və ümumiyyətlə bütün əmlakının müsadirəsinə icazə verildi.

1930-cu ilin əvvəllərində təkcə pambıqçılıq rayonlarında varlı fərdi təsərrüfatlardan 6 min hektar torpaq sahəsi və 2 min baş iş heyvanı müsadirə edilmişdi. Ona görə də orta və varlı təsərrüfatların sahibləri öz mal-qarasını müsadirə olunmağın dərdindən ya kəsir, ya da dəyər-dəyməzinə satırdılar. 1930-cu ilin yanvarında SSRİ MİK və XKS heyvanların kəsilməsinə qarşı mübarizə haqqında qərar qəbul etdi [10, s. 114]. Bu qərara uyğun olaraq Azərbaycan SSR XKS tərəfindən də "Azərbaycan SSR-də heyvanların gizli kəsilməsinə qarşı mübarizə haqqında" qərar qəbul edildi. Lakin heyvanların kəsilməsinin qarşısını almaq mümkün olmadı. Kollektivləşmənin ilk illərində Azərbaycanda mal-qaranın sayı yarıbayarı azaldı. Yalnız 1933-cü ildə görülmüş əlavə tədbirlər nəticəsində bu prosesin qarşısı alındı [18, s. 209].

1930-cu ilin fevralında SSRİ MİK və XKS "Qolçomaq təsərrüfatlarının özbaşına köçməsinin və onlar tərəfindən əmlakın satılmasının qadağan edilməsi haqqında" qərar qəbul etdi. Varlı təsərrüfat sahibləri "qolçomaq" möhüründən yaxa qurtarmaq, qolçomaq isə ona doğru yönəlmiş siyasətdən canını qurtarmaq üçün əmlakını satmaq və başqa yerə köçmək kimi üsullardan istifadə edirdilər. Bunun qarşısını almaq üçün adı çəkilən qərara əsasən Azərbaycanda icraiyyə komitələrinə tapşırıldı ki, özbaşına köçən və əmlakını satan varlıların əmlakı dərhal müsadirə edilsin. Beləliklə, hər cür təqiblərə məruz qalan Azərbaycan kəndində sanki təhkimçilik dövrünü xatırladan qanunlar tətbiq edilməyə başlandı. Bütün bu sosial-siyasi proseslər "sinfi mübarizə" adı altında həyata keçirilirdi [11, s. 147]. Bu əslində qolçomaqların bir sinif kimi ləğv edilməsi uğrunda başlanan amansız müharibə demək idi.

Qolçomaqlara qarşı mübrizə üç istiqamətdə aparılırdı. Birinciyə antisovet, antikommunist, əksinqilabi aktiv daxil idi. Bunlar Dövlət Siyasi İdarəsinin xətti ilə siyasi cinayətkar kimi həbs edilir, güllələnir, ailə üzvləri isə Sibirə və yaxud Orta Asiyaya sürgün edilirdi. İkincisi, kolxoz hərəkatına qarşı çıxış edən varlı kəndlilər ailəsi ilə birlikdə yenə də həmin yerlərə göndərilirdi. Kəndlilərin digər şübhəli qismi isə respublikanın daxilində xüsusi yaşayış düşərgələrinə yerləşdirilirdi [8, s. 63-64]. Dövrün sənədlərinin araşdırılması göstərir ki, ən yüngül cəza hesab edilən üçüncü formadan Azərbaycanda ümumiyyətlə istifadə edilməyib, birinci və ikinci formalar isə geniş tətbiq edilib.

AK(b)P MK katibinin kollektivləşməyə qoşulmayan sərhəd rayonlarında qolçomaqların bir sinif kimi ləğv edilməsi barədə 26 yanvar 1930-cu il tarixli yanlış göstərişi qolçomaqlara qarşı aparılan amansız mübarizə yeni təkan verməklə yanaşı, bu prosesdə aşırı sui-istifadə hallarının genişlənməsinə də zəmin yaratdı. Qolçomaqların bir sinif kimi ləğv edilməsi üçün dairə qərargahları təşkil olunurdu. Qolçomaqların təsirinin güclü olduğu, ictimai və partiya işi zəif aparıldığından yoxsul, muzdur və ortabab kəndlilərin bu işə hazır olmadığı yerlərdə qolçomaq sinfinin ləğv olunmasını əsas etibarı ilə inzibati-məhkəmə or-

qanları vasitəsilə həyata keçirilməsi mərkəz tərəfindən yerlərə tövsiyyə edilirdi [8, s. 64].

1929-1930-cu illərdə demək olar ki, hər ay Dövlət Siyasi İdarəsinin nümayəndələri tərəfindən yerlərdə qolçomaqların və varlı kəndli təsərrüfatlarının uçotu aparılırdı. 1929-cu ildə qolçomaq təsərrüfatlarının sayı 7954 idisə, 1930-cu ilin oyulunda bu rəqəm 3312-yə enmişdi. Deməli bir il ərzində 4642 varlı kəndli təsərrüfatı məhv edilmişdi. Qolçomaq təsərrüfatlarının kütləvi məhv edilməsi və özlərinin isə həbs və ya sürgün edilməsinə baxmayaraq qolçomaq siyahılarına hər dəfə yeni adların əlavə edilməsi hesabına bu təsərrüfatların sayını əks etdirən rəqəmlər azalmırdı, əksinə artırdı. Məsələn, 1930-cu il avqustun 1-də 3483, sentyabrın 20-də 3802 qolçomaq təsərrüfatı qeydə alınmışdı. 1931-ci ilin fevralında isə bu qərəm 5309-a çatdırılmışdı [1, v. 173].

Bir çox hallarda öz fərdi təsərrüfatını saxlamaq istəyən, kolxoza daxil olmaq istəməyən ortabab kəndlilər də "qolçomaq quyruğu" adlandırılaraq qolçomaqlarla eyni şəkildə təqib edilirdi. Bir çox rayonlarda kəndli təsərrüfatlarının ən azı 10-15 faizi qolçomaq siyahılarına salınaraq təqib edilirdi. Qolçomaq və ya kolxoz hərəkatının əleyhdarı adı altında seçki hüququndan məhrum edilənlərin sayı 15-20 faizə çatırdı. Mütəmadi olaraq bütün rayonlardakı kolxozlarda yoxlamalar aparılır və hər dəfə yeni-yeni "qolçomaq"lar aşkar edilərək kolxozlardan çıxarılırdı. Qolçomağı müəyyən edən amillər o qədər çox idi ki, ortabab kəndlinin qolçomaq siyahısına çox asanlıqla salınırdı. İllik gəliri 300 manatı keçən, ticarətlə məşğul olan, kənd təsərrüfatı alətlərini, maşınları, binaları, dəyirmanları və s. icarəyə verən (qeyd edilənlərdən biri kifayət idi) hər bir kəndli çox asanlıqla qolçomaq ("kulak") siyahısına salınırdı [10, s. 111]. Bütün bunlar kəndin orta təbəqəsinin kolxoz quruluşuna qarşı narazılığını və mübarizəsini gücləndirirdi.

Ortabablarla birlikdə kolxoza daxil olmaq istəməyən sıravi kəndlilərə də "əksinqilabçı", "antisovet", "bandit" və s. adlar verilir və onlara qarşı da qolçomaqlar üçün nəzərdə tutulmuş cəza tədbirləri tətbiq edilirdi. Beləliklə, mübarizə təkcə qolçomaqlara qarşı deyil, eyni zamanda "kim kolxoza girmədisə o, sovet hökumətinin düşmənidir" prinsipi ilə kolxoz hərəkatına qarşı olan, kolxoza girmək istəməyən bütün kəndlilərə qarşı aparılırdı. Belə bir siyasət öz növbəsində hökumətin siyasətindən və kolxoz hərəkatından narazı olan kəndlilərin hökumətə qarşı qolçomaqların yanında yer almasına gətirib çıxardı.

Azərbaycanda qolçomaqlar sovet hakimiyyətinə qarşı gizli və açıq mübarizənin bütün formalarından istifadə etməklə yanaşı bəzi spesifik üsullarla da müqavimət göstərirdilər. Respublikada qolçomaqların müqavimətini gücləndirən bir sıra amillər mövcud idi:

Birinci, qəbilə-tayfa münasibətlərinin hökm sürdüyü Azərbaycanda qolçomağın ardınca onun bütün qohum-əqrəbası, nüfuzu daha çox olan qolçomağın ardınca isə bütöv kənd gedirdi.

İkinci, dinə və milli adət-ənənəyə güclü inamı olan Azərbaycan kənliləri Quranın qadağan etdiyi qanunlardan kənara çıxmırdılar. Kolxozlar isə kəndlilər tərəfindən "Quran qanunlazına" zidd hesab edilirdi. Məhz bu amil qolçomaqların müqavimət hərəkatında özünə çoxlu tərəfdar toplayırdı.

Üçüncü, Sovet hakimiyyətinin elan edildiyi 10 il müddətində bu hakimiyyətdən heç bir köməklik görməyən kəndlilərin kolxoz quruculuğuna inamı yox idi. Bu inamsızlığı kəndlilərə qarşı yeridilən vergi siyasəti daha da gücləndirdi.

Dördüncü, ömrü boyu xüsusi mülkiyyətçilik əhvali-ruhiyyəsi ilə yaşayan kəndlini kollektiv təsərrüfata cəlb etmək, onun həyat tərzini dəyişmək könüllülük prinsiöi ilə mümkün olmayan bir proses idi. Bu da təbii olaraq müqavimətin yaranmasına doğru aparırdı.

Beşinci, 1927/1928-ci ilin qış ərzaq kampaniyasından sonra İttifaq miqyasında tətbiq edilən fövqəladə tədbirlər Sovet hakimiyyətinə qarşı kəndlinin nəinki inamını qırdı, hətta kəndli Sovet hakimiyyətinə qarşı düşmən sinifə çevrildi [11, s. 134-135].

Bir çox rayonlarda hətta kənd sovetlərinin rəhbər üzvləri belə qolçomaqlar tərəfinə keçib, onların haqqını müdafiəyə qalxmış və sovet hakimiyyəti orqanlarının ədalətsiz mövqeyinə etiraz əlaməti olaraq seçkiləri baykot etmiş və müqavimət hərəkatına qoşulmuşdular. Bu hərəkatlar getdikcə böyüyərək kəndli hərəkatına çevrilirdi. Rayonların əksəriyyətində, o cümlədən Gəncə, Qazax, Şamxor, Ağdam, Cəbrayıl, Quba, Lənkəran, Sabirabad, Göyçay və b. rayon-

larda bu cür antisovet hərəkatlar və üsyanlar baş vermişdi [15, s. 56-57]. Ölkəni kəndli və qolçomaq hərəkatı bürümüşdü. Sovet hökumətinin həyata keçirdiyi ədalətsizliklərə qarşı qolçomaqlar terror aktları da törətməyə, partiya və sovet rəhbərlərini öldürməyə başladılar. Təkcə 1930-cu ilin noyabrı ayı ərzində ölkədə 19 terror aktı törədilmişdi. Bu zaman ölkədə mövcud olan qolçomaq qruplarının fəaliyyəti genişlənmişdi, 65 qolçomaq hərəkatında 1240 nəfər iştirak etmişdi [14, s. 358-359]. Hətta Zəyəmdə 1930-cu il noyabrın 14-də silahlı çıxış edən qolçomaqlar Bakı-Tbilisi dəmir yolunu ələ keçirmişdilər. Gədəbəy rayonunun Söyüdlü, Slavyanka, Nərimankənd, Süleymanlı, Ağaş və b. kəndlərində qolçomaqlar hakimiyyət orqanlarının binalarının mühasirəyə almış, onlara ultimatum vermişdilər. Dağ atıcı briqadası artilleriyası köməyə gələrək mühasirəni dağıtmışdı. Qolçomaq çıxışları respublikanın Gəncə, Biləsuvar, Lənkəran, Salyan, Cəlilabad və b. rayonlarında da baş vermişdi. Vəziyyətin ciddi olduğunu bilən Zaqafqaziya Ölkə Komitəsi AK(b)P MK-ya göndərdiyi gizli sənəddə bildirirdi ki, 1930-cu ilin iyulunda Nuxa-Zaqatala, Kürdüstan-Zəngəzur və Gəncə qəzalarında baş verən qiyamları yatırmaq üçün əlavə silahlı qüvvə göndərilsin [14, s. 359].

1929-1931-ci illərdə kəndli üsyanları ilə paralel olaraq "Qaçaq hərəkatı" yenidən canlandı. Kollektivləşməyə qarşı Gəncə, Zaqatala, Qarabağ, Şəki, Lənkəran və b. yerlərdə baş verən üsyanlar yatırıldıqdan sonra dağlara çəkilərək mübarizəni davam etdirən partizan hərəkatı da yenidən canlandı. Beləliklə, kəndli üsyanlarının başlanması və ona güc verən qaçaq hərəkatının, partizan mübarizəsinin baş qaldırması ilə Azərbaycanda sovet hakimiyyətinə qarşı mübarizə özünün yeni mərhələsinə qədəm qoydu. Bu mübarizəni xarakterinə görə bir neçə qrupa ayırmaq olar: a) Qolçomaqlar hökumətə ərzaq verməkdən imtina edir, məhsulu quyularda və digər yerlərdə gizlədir, bir sıra hallarda isə tamamilə məhv edirdilər. Mal-qaranı müsadirə olunmamaq üçün ya dağlara sürüb aparır, ya da kəsirdilər; b) Yerlərə gələn partiya və komsomol nümayəndələrini döyərək kəndlərdən qovur, bəzi hallarda isə idarələri dağıdırdılar. Bu cür hadisələr xüsusilə sovetlərə keçirilən seçkilər zamanı daha tez-tez baş verirdi; c) Kəndlilər silaha sarılaraq hərbi birləşmələrə kəskin müqavimət göstərir, tez-tez isə partizanlarla birləşərək ordu hissələrinə, qatarlara basqınlar təşkil edirdilər [12, s. 50-51].

1929-1930-cu illərdə vəziyyət o qədər kəskinləşmişdi ki, Zaqafqaziya Diyar rəhbərlərindən Ş.Eliava Azərbaycan, Ermənistan və Gürcüstan KP-lərinin 6-cı konqresində Azərbaycan kəndlərində vəziyyətin get-gedə pisləşdiyini etiraf etməyə məcbur olmuşdu: "...Fəqət Azərbaycanda vəziyyət daha ağır və gərgin bir şəkildədir. Naxçıvan, Zaqatala, Şəki vilayətlərində ümumi kəndli üsyanları baş verdi, hökumət onlarla tam mənasında hərbə girmək məcburiyyətində qaldı" [12, s. 51]. Həqiqətən də, Cənubi Qafqaz respublikaları arasında ən gərgin vəziyyət Azərbaycanda idi. Belə ki, təkcə 1930-cu ilin mart ayında Cənubi Qafqazda qeydə alınmış 50-yə yaxın kütləvi silahlı üsyandan 40-ı Azərbaycanda, digərləri isə əsasən Gürcüstan və Ermənistanda türk əhalisinin yaşadığı ərazilərdə baş vermişdi [8, s. 76].

Ümumiyyətlə, 1931-ci ilin əvvəlində respublika ərazisində tərkibi 1200 nəfərdən ibarət olan 132 qolçomaq dəstəsi fəaliyyət göstərirdi [3, v. 454]. Kollektivləşmənin dörd ilində bu siyasətə qarşı 400-dən çox silahlı qaçaq dəstəsi mübarizə aparmışdı [8, s. 72].

Nuxa-Zaqatala bölgəsində baş vermiş üsyanda nəinki kəndin varlı və yoxsul təbəqələri, hətta yerli kommunistlərin özləri də iştirak etmiş, hakimiyyəti ələ keçirib iki həftə ərzində əllərində saxlamışdılar. Əlavə hərbi qüvvələrin cəlb edilməsi nəticəsində bu üsyan yatırıldı, üsyançılardan 180 nəfər öldürüldü, 150 nəfər yaralandı, 865 nəfər həbs edildi. Bu üsyanın yatırılması zamanı hökumət qoşunlarından da 73 nəfər öldürüldü, 79 nəfər yaralandı. Nuxa-Zaqatala üsyanı yatırıldıqdan sonra hakimiyyətin fövqəladə üçlükləri tərəfindən bu üsyanda birbaşa və ya dolayı yolla iştirak edənlərdən 1300 nəfəri həbs edilərək güllələndi və ya sürgünə göndərildi [2, v. 192].

Naxçıvanda Tuxarekinin komandanlığı altında qızıl əsgərlər üsyançı kəndlilərin üzərinə hücum etsələr də, məğlub olub qaçmağa məcbur olmuşdular. Üsyançıların xeyli hərbi sursat əldə etdiyi bu toqquşmada əsgərlərdən bir çoxu kəndlilərin tərəfinə keçmişdi.

Qarabağın Cəbrayıl qəzasında isə 600 nəfərlik rus əsgəri Sirik mahalının üsyançıları tərəfindən dağıdılmışdı. Sonradan gətirilən əlavə qüvvələrin köməyi ilə üsyan yatırılmış, dinc əhaliyə - qocalara, qadınlara, uşaqlara divan tutulmuşdu. Salamat qalanlar isə İrana qaçmışdılar. Samux, Qazax, Qarabağ, Goranboy və Tovuz bölgələrində qaçaqçılıq edənlərin sayı 5 mindən çox idi [12, s. 51-52].

Bu üsyanlara qarşı sovet hakimiyyəti amansızlıqla mübarizə aparırdı. 1930-cu il yanvarın 3-də Zaqafqaziya Diyar Komitəsinin qəbul etdiyi “Antisovet elementlərinin tərksilah olunması barədə sanksiyalaşdırılmış kütləvi əməliyyat barədə” qərarının icrası məqsədilə xüsusi “üçlüklər” və “beşliklər” yaradıldı və bu “üçlüklər” antisovet müqavimət hərəkatlarında iştirak edənlərə qarşı xüsusi əməliyyatlara başladılar. Təkcə Gəncə bölgəsindəki Y.Qasımovun rəhbərlik etdiyi “fövqəladə üçlüy”ün həyata keçirdiyi hərbi-çekist əməliyyatının yekunlarında qeyd edilirdi ki, Gəncə və Gədəbəydə ələ keçirilmiş 1026 nəfərdən 366 nəfəri güllələnmiş, 316 nəfəri mühakimə olunub hərbi əsir düşərgələrinə göndərilmiş, qalanları isə Sibirə və Qazaxıstana sürgün olunmuşdur [12, s. 53].

Zəyəm Fövqəladə Üçlüyü tərəfindən 366 nəfər güllələnmişdir ki, onlardan 92 nəfər banditizmdə, 141 nəfər banditləri himayədə, 119 nəfər üsyanlarda iştirak etməkdə, 13 nəfər isə antisovet təbliğatda edilmişdilər. Həbs olunan və sürgün olunanların sayı 316 nəfər idi. Təkcə Naxçıvan MSSR-in Keçili kəndində 17-si qadın olmaqla 70 kəndli güllələnmişdi [12, s. 53; 8, s. 72; 7, s. 21-31].

Bütün respublika rayonları boyu müşaiyət olunan üsyanlar, kəndli iğtişaşları, qolçomaq, qaçaq və partizan hərəkatları qüvvələr nisbətinin qeyri-bərabər olması səbəbindən dağıdıldı, bu hərəkatlarda iştirak edən və yaxud bunlarla dolayı yollarla bağlı olanlar həbs edilərək ya güllələndi, ya da sürgünə göndərildi. Antisovet, antikolxoz üsyanlar əsasən 1929-1931-ci illərdə baş versə də, Sovet hökumətinin ağır cəza tədbirlərinə baxmayaraq kollektivləşməyə qarşı qaçaq və partizan hərəkatı 1935-ci ilə qədər davam etdi. Bununla bağlı olaraq fövqəladə üçlüklərin də fəaliyyəti davam edirdi.

1932-ci ildən başlayaraq qolçomaqlar üzərinə hücum daha da gücləndirilsə də, planlaşdırıldığı kimi nə kollektivləşməni, nə də qolçomaqların bir sinif kimi tamamilə məhv edilməsini birinci beşillikdə həyata keçirmək mümkün olmadı. Bu proses yalnız ikinci beşillikdə yekunlaşdırıldı.

Azərbaycanın ümumi kəndli təsərrüfatlarında 1929/1930-cu ildə ümumilikdə 7583, 1930/1931-ci ildə 3802 qolçomaq təsərrüfatı var idisə, onların sayı 1931/1932-ci ildə 1715-ə, 1932/1933-cü ildə 280-ə, 1935-ci ildə isə 80-ə enmişdi [6, s. 267]. Qolçomaqların sayca 90-100 dəfə azalması 1929-1935-ci illərdə “qolçomaqların bir sinif kimi ləğv etmək” siyasətinin “parlaq” nəticəsi idi.

Artıq 1936-cı ildə respublikanın bütün kəndli təsərrüfatlarının 85,2 faizi kolxozlarda birləşdirilmişdi. Elliklə kollektivləşmə Azərbaycan kəndində əslində kəndlini kolxozlara təhkim etdi. Ümumi mülkiyyət, dövlət mülkiyyəti adı altında ölkədə mülkiyyətsizlik yaranmış oldu və sovet hökumətinin mövcudluğunun sonuna qədər davam edən bu vəziyyət Azərbaycan kəndlisinə səfalət və aclıqdan başqa bir şey vermədi. Torpaqdan ayrı düşən kəndliyə özü üçün işləmək imkanı verilməməklə yanaşı dövlət üçün işləmək marağı da yaradılmadı.

Qolçomaqlara qarşı aparılan repressiv tədbirlərdən yayına bilən təsadüfi “qolçomaq”lar da 1930-cu illərin ikinci yarısında həyata keçirilən kütləvi repressiyalardan canlarını qurtara bilmədilər. Məhz bu illərdə təxminən 3 milyondan bir qədər artıq əhalisi olan Azərbaycanda 20 mindən çox adam güllələndi, 110 min nəfər həbsə məhkum edildi, 200 minə qədər insan Sibirə və Orta Asiya çöllərinə sürgün edildi. Əslində elliklə kollektivləşmə illərində qolçomaqlara qarşı mübarizə adı altında həyata keçirilən siyasət 30-cu illərin dəhşətli repressiyalarının ilk dalğası idi. Çünki elliklə kollektivləşmə illərində baş verən hadisə və proseslər, kolxoz hərəkatına qarşı kəndlilərin aktiv və passiv müqaviməti qolçomaqların sinfi mübarizəsi kimi qələmə verilmiş, “qolçomaqlara qarşı sinfi mübarizənin gücləndirilməsi və onların bir sinif kimi ləğv edilməsi” pərdəsi altında Azərbaycanın bütün rayonlarında kəndlilərə qarşı soyqırıma bənzər ağır cinayətlər törədilmişdi.

**Ədəbiyyat siyahısı**

1. ARDA, f. 1, siy. 74, iş 301.
2. ARDA, f. 379, siy. 3, iş 2 a.
3. ARPİİSSA, f. 1, siy. 74, iş 15.
4. ARPİİSSA, f. 1, siy. 74, iş 176.
5. ARPİİSSA, f. 1, siy. 74, iş 305.
6. Azərbaycan tarixi. 7 cilddə. VI c. Bakı, Elm, 2001.
7. Bünyadov Z. Qırmızı terror. Bakı, Azərnəşr, 1993.
8. Cəfərov C. Stalinizm və Azərbaycan kəndi (1920-ci illərin sonları-30-cu illər). Bakı, Elm, 2012.
9. Əlimirzəyev X. Azərbaycan kəndi sovet hakimiyyəti illərində. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1963.
10. Həsənov C. "Ağ ləkə"lərin qara kölgəsi. Bakı, Gənclik, 1991.
11. İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər. Bakı, Mütərcim, 1996.
12. İbrahimli X. Azərbaycan mühacirəti tarixi. Bakı, TEAS Press Nəşriyyat evi, 2015.
13. Məmmədov E. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929-cu illər). Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 196.
14. Məmmədov N. Azərbaycan dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər). Bakı, Bakı Universiteti, 2012.
15. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı, 2007.
16. Обзор о деятельности правительства за 1929 и 1930 гг. Баку, 1931.
17. Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamı və qərarları. II hissə. Bakı, Azərnəşr, 1954.
18. Şıxlinski Z. Azərbaycan kəndində sovet quruculuğu (1926-1932-ci illər). Bakı, Azərnəşr, 1975.

**Резюме**

**Мамедова Гюнель**

**"Классовая борьба в азербайджанской деревне и ее суть»**

Представленная статья посвящена мероприятиям Советской власти в области экономики после апрельского переворота 1920 года и дискриминационная политика раскулачивания Советов под лозунгом "классовой борьбы". Статья исследует нарушение прав крестьян в результате насильственной коллективизации и раскулачивания.

***Ключевые слова:*** *коллективизация, колхоз, совхоз, классовая борьба, кулак*

**Summary**

**Mammadova Gunel**

**"Class struggle in Azerbaijani village and its essence"**

The present article focuces on Soviets economic policy launched in Azerbaijan after April coup-d'etat. The author critically analyzed Soviets "class struggle" forced collectivization and discriminative policy against kulak households. The article describes Soviet force collectivization policy and dekulakization process carried out in Azerbaijani village.

***Keywords:*** *collectivization, kolkhoz, sovkhoz, class struggle, kulak*

**UOT 94(479.24)**

**MAİS ƏMRAHOV**
*Tarix elmləri doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Mədəniyyət tarixi şöbəsinin müdiri, Azərbaycan*
*emrahov48@mail.ru*

# MÜHARİBƏ İLLƏRİNDƏ AZƏRBAYCAN NEFT SƏNAYESİ İŞÇİLƏRİNİN VƏZİYYƏTİ ARXİV SƏNƏDLƏRİNDƏ (1941-1945-Cİ İLLƏR)

***Açar sözlər:*** *Faşist Almaniyasının Qafqaz planı, müdafiə hüdudları, Bakı nefti, antisovet fikirlər, antisovet əhvali-ruhiyyə*

**Giriş. Bakı nefti alman işğalçılarının hədəfində**. 1941-1945-ci illər müharibəsində cəbhənin neft və neft məhsulları ilə təmin edilməsində Azərbaycanın rolu məsələsi tarixçilərin, politoloq və filosofların, həmçinin iqtisadçıların tədqiqat obyekti olaraq qalmaqdadır. Bunun əsas səbəblərindən biri müharibə tarixinə dair ədəbiyyatda qələbədə Bakı neftinin əhəmiyyətinin lazımınca qiymətləndirilməməsidir.

Müharibə dövrü statistik külliyatlarının təhlilindən aydın olur ki, Almaniya SSRİ-yə qarşı müharibəyə başlayanda neftin 87,1 faizini Bakı , Qroznı, Maykop, 6 faizini Volqa-Ural, 4,8 faizini Qazaxıstan və Orta Asiya, 2,1 faizini Uzaq Şərq verirdi. Qafqazda istehsal olunan 87,1 % neftin 71,0 - % ni Bakı verirdi (5, s.93). 1941-ci ildə Bakıda 23,5 milyon ton neft çıxarıldı ki (1), bu Ümumittifaq hasilatının 71,2 % - ni təşkil edirdi. 1942-ci ildə Azərbaycan neftçiləri qarşısında ölkəyə 18,2 milyon ton neft verilməsi vəzifəsi qoyuldu (3). Bakı mədənlərinin real vəziyyəti baxımından bu planın qeyri-obyektiv olmasına baxmayaraq, Azərbaycan neftçiləri 15,7 milyon ton neft, yaxud Ümumittifaqda hasil olunan 21,9 milyon neftin 71,7 % - ni, 1943-cü ildə 12,7 milon ton, yaxud Ümumittifaq neftinin 71 %-ni verdi (4). Göründüyü kimi, Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq müharibənin ilk iki ilyarımında cəbhəni lazımı miqdarda neft və neft məhsulları ilə təmin etdi. Sözsüz ki, Almaniya, Fransa və İngiltərə hökumətləri Bakı neftinin əhəmiyyətin dəyərləndirir və Bakı neftinin ələ keçirilməsi sahəsində öz planları vardı. Bu baxımdan antisovet fikirlərdə Bakının taleyi müzakirə mövzusu olması bir tərəfdən doğru olsa da, digər tərəfdən məsələnin həssaslığından istifadə edən düşmən elementlər antisovet fikirlər formalaşdırmağa və yayılmasına cəhd edirdilər.

**Antisovet fikirlərin və əhvali-ruhiyyənin formalaşması**. Antisovet fikirlərin və əhvali-ruhiyyənin formalaşmasında cəbhədə baş verən hadisələr, sovet qoşunlarının cəbhənin müxtəlif istiqamətlərindəki əməliyyatlarının nəticələri, xüsusən Stalinqrad altında döyüşlərə qədər baş verən hadisələr mühüm rol oynayırdı. Cəbhə hadisələrindən əhali əsasən qəzet yazılarından və Sovet İnformasiya Bürosunun məlumatlarından xəbər tuturdu. Bu məlumatlarda hadisələr təfsilatı ilə izahı olunmadığından düşmən elementlər hadisələri müxtəlif məcralara yönəldir, ruh düşünlüyü və passivlik yaratmaq üçün istifadə edirdilər. Cəbhədə vəziyyət əsasən 1942-ci ilin iyun ayının ortalarına qədər daha ağır idi və alman-faşist qoşularının müxtəlif istiqamətlərdə əldə etdiyi qələbələr düşmən elementlərinin fəallaşmasına zəmin yaradırdı. Bu baxımdan cəbhədəki vəziyyətə, xüsusən də Şimali Qafqazdakı hərbi duruma dair ayrı-ayrı ordu komandanlarının, ordu xüsusi şöbələrinin, siyasi hissə üzrə müavinlərinin Azərbaycan K(b)P MK-ya ünvanladığı məlumatlar mühüm əhəmiyyət kəsb edir.

Bəhs olunan dövrdə Orconikidze-Nalçik-Qroznı-Mahaçqala müdafiə hüdudlarının tikintisi davam edirdi. Orconikidzedə tankəleyhinə maneələrin, barrikada və qurğuların tikintisində avqustun 18-də plana görə 8.000 nəfər işləməli olduğu halda, hərbi hissələrlə birlikdə

7.000 nəfərə yaxın adam işə çıxmışdır. Avqustun 16-da düşmən təyyarələrinin müdafiə zolaqlarını bombalaması və əhalinin təxliyyə əhvali-ruhiyyəsinin güclənməsi nəticəsində işə çıxma azalmışdır.

Avqustun 19-da Orconikidzedə barrikadalar istisna olmaqla 3.750 kubmetr, sonrakı gün Orconikidzedə müdafiə hüdudlarının tikintisində 5.545 nəfər iştirak etmiş, 3.553 kub metr torpaq çıxarılmışdır. Nalçikdə 1.700 nəfər, Qroznıda 3.449 nəfər, Mahaçqalada 1.300 nəfər işləmişdir ki, bu işə çıxma planının 13 %-ni təşkil edirdi. (2, v.56)

Mahaçqalada tikintinin gedişi qeyri-qənaətbəxş olmuşdur. Sutkalıq tapşırıq 60% yerinə yetirilmiş, işə çıxma 3,7 faiz təşkil etmişdir. Plana görə 5.980 nəfər işə çıxmalı olduğu halda 822 nəfər işə çıxmışdır (2,v.64). Azərbaycan K(b)P MK-ya göndərilən məlumatlardan aydın olur ki, Qrozınıda avtonəqliyyatda çatızmazlıq yaranmış, Mahaçqalada müdafiə tikintisində vəziyyət qeyri-qənaətbəxş olaraq qalmış, sutkalıq plan tapşırığı 52 % yerinə yetirilmiş, fəhlələrin işə çıxma planı 15,9 % təşkil etmişdir (2,v.59). Avqust ayının 21-də Orconikidzedə 5.213 nəfər və 3 hərbi alay tikinti-müdafiə işlərində iştirak etmişdir. Qroznıda aparılan tikintidə fəhlə qüvvəsinin, traktorların və avtomaşınların çatmaması, minaların, detonatorların, naqillərin, partlayıcı maddələrin olmaması çətinliklər yaradırdı. Ümumilikdə hadisələrin təhlili, məlumatların araşdırılması göstərir ki, işi çətinləşdirən səbəblər sırasında əməyin pis təşkili, iş alətlərinin çatışmaması (lapatka, kürək, və s.) dayanır, bunun nəticəsində əhalinin əmək məhsuldarlığının sutkalıq tapşırığı 30-40% təşkil edir.

Məlumatların təhlili göstərir ki, düşmən qoşunlarının bəzi əraziləri ələ keçirməsindən istifadə edən quldur qruplar əhalinin mal-qarasını oğurlayırlar. Mal-qaranın çıxarılmasına mane olan belə quldur qruplardan biri 1942-ci ilin avqust ayı ərzində Karaçayın dağlıq rayonunda aşkarlandı. Quldur qrupunu ləğv etmək üçün əməliyyat işçilərinin rəhbərliyi ilə XDİK qoşunundan 23 nəfər göndərildi.

Kabarda-Balkarın Ter rayonunda cəbhədən Qafqaz diviziyasından qaçmış 115 nəfərlik fərari qrupu mal-qaranın Gürcüstan ərazisinə keçirilməsinə mane olmuşdur. Kabarda Balkar XDİK müavininin rəhbərliyi altında onlara qarşı 46 nəfərdən ibarət əməliyyat qrupu göndərilmişdir. (2,v.58)

Cəbhədəki vəziyyət haqqında 1942-ci ilin sentyabr ayında da Azərbaycan K(b)P MK-ya məlumatlar daxil olurdu. Lukyanovun 10 sentyabr 1942-ci il tarixli Merkulova ünvanladığı məktubda (2,v.53-54) bildirilirdi ki, sentyabrın 9-da saat 18-30-da Həştərxan şəhərinə 14 düşmən təyyarəsi uçuş etmiş, 2 böyük neft bazası bombardmana məruz qalməşdır. Onlardan birində 200 min tondan yuxarı neft, digər neft bazasında 150 min ton neft, o cümlədən 72 min ton yağ vardı. Qısa vaxtda yanğın böyük sahəni əhatə etmiş, yanğını lokallaşdırmaq üçün imkan olmamışdır. Zavodun avadanlığının 2/3 hissəsi sıradan çıxmış, avadanlıqların bir hissəsi təxliyyə olunmuş, yanğının ona bitişik qəsəbəyə yayılmaması məqsədilə yanğın komandası və hərbi hissə səfərbər olunmuşdur. Maddi itki çox böyük olmasa da, 20-30 nəfərə yaxın adam həlak olmuşdur.

Lukyanov bildirirdi ki, həmin gün saat 20-yə yaxın Həştərxanın şimalında Boqdo stansiyası bombardmana məruz qaldı. Şimala istiqamət götürən benzin eşelonu yanır. İnsan itkisi 160 nəfərə çatır ki, onlardan 50 nəfəri həlak oldu. Üçüş nəticəsində Həştərxanda ehtiyat neft qalmadı. Digər bazalarda qalan neft 200 min tona yaxındır (2,v.53). Məktubun sonunda digər bazaların da bambardmana məruz qalması təhlükəsi olduğu bildirilirdi. (2, v.54)

Qeyd edilən məlumatlar Azərbaycan K(b)P MK-ya daxil olurdu, fəhlə və qullquçular, xüsusilə neft sənayesində çalışan işçilər məlumatlandırılmırdı. Nəticədə düşmən elementlər yaranmış məlumatsızlıqdan istifadə edir və Bakının tezliklə almanlar tərəfindən tutulacağı, neft quyularının partladılması, əhalinin təxliyyəsi barədə antisovet mülahizələr səsləndirirdilər. Doğrudur, fəhlə və qulluqçuların bir hissəsi qələbə naminə fədakarcasına çalışır, orduya köməklik göstərilməsinin vacibliyini bildirərək qələbəyə inam ifadə edirdilər. XDİK Yaqubovun 20 sentyabr 1942-ci il tarixli arayışında bildirilirdi ki, müharibənin gedişində cəbhədə vəziyyətin mürəkkəbləşməsi ilə Bakının taleyi öz əksini neft sənayesində işləyən fəhlələrin əhvali-ruhiyyəsində tapır. Fəhlələr özlərinin çoxsaylı vətənpərvərlik təklifləri ilə faşizm üzərində qələbəyə nail olunacağını ifadə edirdilər. Məsə-

lən, "Çaparidze" adına zavodun salçısı 1911-ci il təvəllüdlü, bitərəf *Nemçinov İvan Petroviç (*2,v.359*),* "Leninneft" trestinin 8-ci mədəninin mühəndisi, bitərəf *Raytman Yakov Moiseyeviç,* "Stalin2 adına zavodun 2 № li sexinin mühəndisi, 1887-ci il təvəllüdlü, bitərəf *Kryanikov Anatoliy Semyonoviç,* həmin zavodun 2 № li sexinin mühəndisi, 1898-ci il təvəllüdlü, bitərəf *Balacayev Əhməd Yusif oğlu,* "Qızıl Ulduz" DRES-nin texniki, 1918-ci təvəllüdlü, komsomolçu *Xanlarova Mənzər Vasif qızı* bir addıM da geri çəkilməyəcəklərini bildirmişlər (2,v.372). Bununla belə neftçilər arasında antisovet mülahizələr söyləyənlər də vardı.

"Kaqanoviçneft" trestinin quyuların əsaslı təmiri kontorunun direktoru, 1895-ci il təvəllüdlü, ÜİK(b)P üzvü *Zaxarov Mirzə Rəsuloviç,* "Leninneft" trestinin 2 № li süd mətbəxinin müdiri, ÜİK(b)P üzvü *Afanasyeva Mariya Artyomovna,* "Əzizbəyovneft" trestinin kompressor təsərrüfatının mexaniki emalatxanasının müdiri, 1912-ci ildə anadan olmuş *Heybətov Baba Cavad oğlu,* "Orconikidzeneft" trestinin 7-ci mədəninin briqadiri *Talışxanov Mir Məmməd*, "Stalinneft" trestinin boru bazasının presləyicisi, 1894-cü il təvəllüdlü, bitərəf *Konarkin İvan Yefimoviç,* həmin bazanın fəhləsi, 1892-ci il təvəllüdlü, bitərəf *Bercin Akim Spiridonoviç* neft quyularının partladılmasının əleyhinə çıxmışlar. (2, v.379)

"Leninneft" trestinin 10 №li mədəninin böyük operatoru, 1909-cu il təvəllüdlü, bitərəf *Həsənov Məmməd Məmmədbəşir oğlu (*2,v.379), Molotov rayonu Şubanı mədəninin müdiri, 1905-ci il təvəllüdlü, bitərəf *Əliyev Əliağa Baba oğlu (*2,v391), "Əzizbəyovneft" trestinin baş geoloqunun müavini, 1905-ci ildə anadan olmuş, bitərəf *Andrianov Sergey Leontiyeviç (*2,v.379), "Andreyev" adına zavodun quraşdırma sexinin rəisi, 1900-cü ildə anadan olmuş, bitərəf *Salamov Vladimir Mixayloviç,* "Kaqanoviçneft" trestinin qaz kontorunun direktor müavini, 1905-ci ildə anadan olmuş, bitərəf *Mənsurov Əbdül Xaliq oğlu* cəbhədəki vəziyyət haqqında doğru məlumat verilmədiyini, qoşunların məğlubiyyətinin gizlədildiyini, tezliklə almanların Bakını tutacaqları barədə antisovet fikirlər söyləmişlər. (2, v.392-393)

"Kaqanoviçneft" trestinin quyuların əsaslı təmiri kontoru müdirinin növbətçi köməkçisi, 1902-ci ildə anadan olmuş, bitərəf *Yar Əli Dövrəli* demişdi: "…Almanlar Bakını gələn ilin yazında tutmağı planlaşdırırlar və buna görə bu cəbhədə heç bir əməliyyat aparmırlar, hətta bəzi yerlərdə güzəştə gedirlər. Qışda onların bura gəlməsi mümkün deyil, burada aclıqdır, ərzaq tapılmır, ona görə də qışı Şimali Qafqazın varlı taxıl rayonlarında qalmağı qərarar almışlar. Yazda yüksək templə hücuma keçəcək, Bakını tutacaqlar». (2, v.526)

"Stalinneft" trestinin quyuların əsaslı təmiri şöbəsinin rəisi, 1901-ci il təvəllüdlü, bitərəf *Hüseynov İnoyat Süleymanoviç* bildirmişdi ki, cəbhədə vəziyyət kəskin pisləşmişdir. Bizim hissələr sürətli geri çəkilir. Bir il bundan əvvəl döyüşlər Kaunas uğrunda gedirdi, indi Qafqazın ətəyində gedir. Türkiyə bizim əleyhimizə çıxış edir və əlverişli məqam gözləyirlər". Oxşar fikirləri "Əzizbəyovneft" trestinin nəqliyyat kontorunun plan şöbəsinin rəisi, 1892-ci il təvəllüdlü, bitərəf *Perespolov Pyotr Georqiyeviç,* "Krasin" adına DRES-in turbin sexinin rəisi, 1902-ci il təvəllüdlü, ÜİK(b)P üzvü *Rudakov Yakov Dmitriyeviç (*2,v.370*)*, "Stalin" adına zavodun 6-cı sexinin rəis müavini, 1912-ci il təvəllüdlü, bitərəf *Kazımov Əhəd Habil oğlu,* "Əzizbəyovneft" trestinin baş geoloqunun müavini, 1907-ci il təvəllüdlü, bitərəf *Andriyanov Sergey Leontiyeviç* səsləndirmişlər. (2, v.371)

**Azərbaycan neft sənayesi fəhlələrinin antisovet mülahizələri.** Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə 7 oktyabr 1942-ci il tarixdə qeydiyyatdan keçən (№ 1656) *«Azərbaycan neft sənayesi fəhlələrinin əhval-ruhiyyəsi haqqında»* Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik böyük mayoru T.Yaqubovun 03 oktyabr 1942-ci il tarixli "tamamilə məxfi" qrifli arayışında bildirilirdi ki, Azərbaycanın neft sənayesi mühəndis-texniki işçiləri kimi fəhlələri arasında da vətənpərvərlik fikirlərinə dair məlumatarla yanaşı, neft sənayesi fəhlələri arasında da qeyri-sağlam əhval-ruhiyyəli antisovet fikirlərə rast gəlinir. "Azneftkombinat" ın asfalt-beton zavodunun yardımçı müəssisəsinin çilingəri, bitərəf Xeybər Ələsgərov bildirmişdi ki, "…1920-ci il deyil ki, fəhlələri aldatsınlar. İndi 1942-ci ildir. 1920-ci ildə bütün təşviqatçılar fəhlələri şüarlarla aldatdılar ki, guya burjuaziya istismar edir, sovet hakimiyyətində hər şey fəhlələrin olacaq. 20 ildən artıq vaxt keçdi, bütün

bunlar yalan oldu və bizi qara çörəyə möhtac qoyublar. İndi bir adam tapa bilməzsən ki, sovet hakimiyyətinin tərəfdarı olsun. Onsuz da 2 aydan sonra sovet hakimiyyəti mövcud olmayacaqdır".

"Stalinneft" trestinin kompressor təsərrüfatının çilingəri, 1893-cü il təvəllüdlü, bitərəf *Şabanov Aleksey Timofeyeviç (2,v.378),* "Kaqanoviçneft" trestinin 1-ci mədəninin açarçısı, 1908-ci il təvəllüdlü, bitərəf *Nəsirov Mustafa Xusayinoviç* mövcud durumu dəyərləndirərək aşağıdakıları bildirmişdir: "…Bütün xalq sovet hakimiyyətinin əleyhinədir və sonadək gözləməyəcək. Özünün mövcudluğu ərzində bu hakimiyyət insanlara azad nəfəs almaq imkanı vermədi. Xalq aclıq keçirdi, yalnız ayrı-ayrı şəxslər yaxşı yaşadı. Əgər Hitler hakimyyətə gəlsə, bütün xalq şadlıq edəcək". Oxşar fikirlər "Kirovneft" trestinin kommunal kontorunun xarratı, 1885-ci il təvəllüdlü, bitərəf *Nəzərov Mirzəməmməd Cəlil oğlu*, "Qızıl Ulduz" DRES-nin suyabaxanı, 1891-ci il təvəllüdlü, bitərəf *Klimanov Pavel İvanoviç*, "Kirovneft" trestinin fəhləsi, bitərəf *Lavrina Anastasiya Andriyanovna*, "Orconikidzeneft" trestinin fəhləsi, 1892-ci il təvəllüdlü bitərəf *Eyvaz xan Baba oğlu*, "Kaqanoviçneft" trestinin 4-cü mədəninin operatoru, 1901-ci il təvəllüdlü, bitərəf *Popov İvan Varlamoviç* (2,v.380*)*, "Əzizbəyovneft" trestinin maliyyə şöbəsinin işçisi, 1905-ci il təvəllüdlü, bitərəf *Qasımov Məmməd Ağa oğlu*, "Qızıl Ulduz" DRES-nin ocaqçısı, 1908-ci il təvəllüdlü, bitərəf *Pavlenko Mixail Stepanoviç*, "Leninneft" trestinin 10-cu mədəninin operatoru, 1885-ci il təvəllüdlü, *bitərəf Nəzər Novruzbəy (2,v.381),* "Kaqanoviçneft" trestinin 1-ci mədəninin fəhləsi, 1890-cı il təvəllüdlü, bitərəf *Basov İvan İvanoviç (2,v.381-382)*, "Orconokidzeneft" trestinin fəhləsi, 1891-ci ildə anadan olmuş, bitərəf *Məhərrəmov Hüseyn Baba oğlu*, "Andreyev" adına zavodun 4 № li sexinin lehimləyicisi *Şirşov İvan Pavloviç*, "Əzizbəyovneft" trestinin mədən operatoru, 1920-ci il təvəllüdlü, bitərəf *Hüseynov Kamil Ağahüseyn oğlu*, "L.Şmitd" adına zavodun çilingəri, bitərəf *Vaniyev Vladimir Arutyunoviç*, "Azneftkombinat" da mədən yolu idarəsinin işçisi *Yepkova Kseniya İvanovna* da ifadə etmişlər. (2,v.383-384)

"Azneftkombinat" ın mədən yolu idarəsinin maşinisti, 1884-cü ildə anadan olmuş, bitərəf *Semyonov Nikolay Vladirmiroviç* söhbətində tezliklə kommunizmin dağıdılacağını, "Orconikidzeneft" trestinin 1-ci mədəninin elektrik mantyoru, 1896-cı il təvəllüdlü, bitərəf *Provotorov Aleksandr Nikolayeviç*, "Kaqanoviçneft" trestinin 1-ci mədəninin çilingəri, 1900-cü ildə anadan olmuş, bitərəf *Maklaşov Aleksandr Semyonoviç* "Hitlerin gəlişini gözlədiyini və çörəkdən doymaq istədiyini" bildirmişdi. (2,v.385)

Azərbaycan SSR XDİK T.Yaqubovun 03 oktyabr 1942-ci il tarixli "tam məxfi" qrifli arayışında da Azərbaycan neft sənayesi fəhlələrinin antisovet əhval-ruhiyyəsinə toxunulmuşdur (2,v.388). Qeyd olnnurdu ki, "Frunze" adına zavodun 4-cü sexinin mühəndisi, 1909-cü ildə anadan olmuş, bitərəf *Zeynalov Zeynal Kərim oğlu*, "Kaqanoviçneft" trestinin quyuların əsaslı təmiri kontorunun qazıma ustası, 1912-ci ci təvəllüdlü, bitərəf *Vasili* Qanaşilki, "Əzizbəyovneft" trestinin neft ustası, 1907-ci il təvəllüdlü, bitərəf *Cəfərov Əbdül Nurəli oğlu*, "Kaqanoviçneft" trestinin qaz kontorunun avadanlıq üzrə mühəndisi, 1904-cü ildə anadan olmuş, bitərəf *Tulskiy Sergey İvanoviç*, "L.Şmidt" adına zavodun mexaniki təmir sexinin texnoloqu *Maştanova Proskofya Sidorovna*, "Kirovneft" trestinin yeraltı təmir ustası, 1914-cü il təvəllüdlü *Sadıqov Hüseyn Məlik oğlu (2,v.388-389)*, "Stalinneft" trestinin elektrik quraşdırma kontorunun mühəndisi, bitərəf *Tarasov Vladimir Georgiyeviç*, "Əzizbəyovneft" trestinin 4-cü mədəninin neftvurma üzrə mühəndisi *Əliyev Hacıbala Əli oğlu* (2,v.390) alman ordusunun güclü silahlandığını, onların təyyarə və tankla təchiz olunduğu halda sovet hökumətinin heç nəyi olmadığını bildirirərək müqavimətin mənasız olduğunu ifadə etmişlər.

1942-ci ilin ikinci yarısında cəbhədə vəziyyətin mürəkkkəbləşməsi öz əksini neft sənayesində işləyən fəhlələrin əhvali-ruhiyyəsinə təsir etdi. "L.Şmidt" adına zavodun polad sexinin yığıcısı, 1909-cu il təvəllüdlü, bitərəf *Larin Pyotr Vasilyeviç*, həmin zavodun xaratı, 1903-cü ildə anadan olmuş bitərəf *Kalinin Nikolay Yulyeviç* qələbəyə inamların ifadə edərək almanların sonadək məhv ediləcəklərini, Qafqazda özlərinə qəbir qazacaqlarını, "Kaqanoviçneft" trestinin elektrik mantyoru, 1902-ci il təvəllüdlü, bitərəf *Bolşakov Pavel Aleksandroviç* "…Sovet İttifa-

qının İngiltərə və Amerika ilə birlikdə faşizmi məhv edəcəyini və Almaniya üzərində qələbə çalacağına inandıqlarını bildirərək faşizmin yer üzündən silinməsini, onun bütün konfliktlərin səbəbkarı və bütün bəşəriyyət üçün əzab-əziyyət" olduğunu (2,v.360) bidirirdilər. "Stalinneft" trestinin qaz kontorunun mühəndisi, 1912-ci il təvəllüdlü, bitərəf *Bağırov Əyyub Şüküroviç*, həmin trestin 4-cü mədəninin texniki, 1894-cü il təvəllüdlü, bitərəf *Parfenov Vladimir İvanoviç (2,v.420)*, "Kirov" adına zavodun dəmirçi sexinin rəisi, 1920-ci il təvəllüdlü, bitərəf *Qusev Viktor Nikolayeviç,* "Kirovneft"də mexanik *Barxudarov Artyom Makaroviç*, "Neftzavodtikinti" trestində baş iş icraçısı *Benkeriç Leonid Antonoviç,* həmin trestin 6-cı tikinti-quraşdırma kontorunun istehsalat-texniki şöbəsinin rəisi, 1909-cu il təvəllüdlü, bitərəf *Lompart David Abramoviç* cəhədəki vəziyyətlə əlaqədar müttəfiqlərin öhdəliklərinə əməl etməməsini, xüsusən ingilislərin müxtəlif bəhanələrlə vaxtı uzatmasını pisləmişlər. (2,v.420-421)

Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə daxil olmuş 14 noyabr 1942-ci il tarixli (№2094) arayışdakı fikirlər maraq doğurur. Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik baş mayoru Yaqubovun imzaladığı arayışında (2,v.450-457) qeyd edilənlərin əksinə olaraq göstərilir ki, ötən dövr ərzində daxil olan məlumatlarda fəhlə və mühəndis-texniki işçilər arasında müsbət vətənpərvərlik fikirləri söyləyənlər çoxluq təşkil etməyə başlamışdır.

XDİK-nın 30 dekabr 1942-ci il tarixli arayışında göstərilir ki, neft sənayesi fəhlələri arasında qətiyyətsizlik nümayiş etdirənlərə, qələbəyə inamsızlıqla yanaşanlara, əksər hallarda mövcud vəziyyətdən çıxış edərək məişət qayğılarını önə çəkənlərə, bu səbəbdə də, mənfi fikirlərlə yüklənənlərə də rast gəlinirdi. Onlardan bəzilərinin fikirlərinin təhlili göstərir ki, *antisovet əhval-ruhiyyədə köklənmə heç də cəbhədə vəziyyətlə əlaqəli olmayıb, əsasən düşmən ünsürlərin təhriki və yayılan şayiələr əsasında olmuşdur.* "L.Şmitd" adına zavodun elektrik mantyoru, bitərəf *Kasmarçuk Aleksandr Andreyeviç* aşağıdakıları bildirmişdi: "… Qələbə ona görə almanların olacaq ki, Hitler bu müharibəyə 10 il hazırlaşmışdı, öz dövlətini ərzaq və silahsursatla təmin etmiş, sonra müharibəyə başlamışdı. Bizim ölkə isə bir neçə ay döyüşməyi bacarmadı, artıq hamı aclıq keçirir. Biz ölkənin istiqrazına, tikinti və silahlanma üçün pul vermişik, pulla hara oldu?" (2,v.361)

"Qızıl Ulduz" DRES-nin qaraj fəhləsi, 1893-cü il təvəllüdlü, bitərəf *Akatov Aleksandr Nikolayeviç* demişdi: "Sovet hökumətinin mövcud olduğu illərdə yaxşı heç nə görmədim və indi deyirlər ki, hər şey satılmışdır. Alman döyüşür, onun hər şeyi var, o güclüdür. Beləliklə, bir şeyi gözləmək lazımdır ki, bizi vursun, almanlar hər şeyi məhv edib bura gələndə biz hamımız həlak olacağıq".

"Dzerjinski" adına zavodun 2 № li sexinin çilingəri, 1903-cü ildə anadan olmuş bitərəf *Çermenskiy İvan Alekseyeviç* "…Hələlik ingilislər ikinci cəbhəni açmağa hazırlaşmırlar, almanlar nəinki Bakıda, həm də Moskvada olacaqlar. İngilislər ancaq vəd verə bilərlər, onlar döyüşməyəcəklər. Çörçil ancaq danışmaq və cəfəngiyatla məşğuldur" demişdi.

"Andreyev" adına zavodun 4 № li sexinin briqadiri, bitərəf *Qavrin Stepan Stepanoviç (2,v.361)*, "Leninneft" trestinin yeraltı təmir operatoru, 1909-cu ildə anadan olmuş, bitərəf *Həsənov Məmməd Məmmədbağır oğlu*, "Kaqanoviçneft" trestinin kompressor təsərrüfatının işçisi, 1902-ci il təvəllüdlü, bitərəf *Vasilyev Vladimir Fyodroviç*, "Azərnefttikinti" trestinin 2 № li tikinti kontorunun içisi, ÜİK (b) P üzvü *Avanesov Nerses Aleksandroviç*, "Əzizbəyovneft" trestinin kompressor stansiyasının maşinisti, bitərəf *Kyazkov İlya Karpoviç (2,v.362),* "Azərneftkombinat" ın işçisi, 1909-cu il təvəllüdlü, bitərəf *Quliyev Heydər Axund oğlu*, "Stalinneft" trestinin kompressor təsərrüfatının yağçısı, 1920-ci il təvəllüdlü *Əliyev Məmmədəli Məmmədhəsən oğlu*, "Əzizbəyovneft" trestinin 2 № li mədəninin yağçısı, bitərəf *Hüseynov Heydər Hüseyn oğlu*, "Qızıl Ulduz" DRES-nin çilingəri, 1905-ci il təvəllüdlü, bitərəf *Nikolayenko Gergey Moiseyeviç (2,v.363)*, "Stalinneft2 trestində peşə məktəbində usta, 1910-cu il təvəllüdlü, bitərəf *Məmmədov Məmməd Nəbi oğlu*, "Kaqanoviçneft2 trestinin traktor bazasının traktorçusu, 1912-ci ildə anadan olmuş, bitərəf *Novitskiy İvan Franseviç* söhbətlərində sovet ordusunun qələbəsinə inamsızlıq ifadə etmişlər. (2,v.364)

Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya göndərdiyi 8 oktyabr

1942-ci il tarixli məktubundakı "Azərbaycan neft sənayesi fəhlələrinin əhvali-ruhiyyəsi haqqında", "Azərbaycan neft sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi haqqında" və "Azərbaycan neft sənayesində işləyən bəzi ÜİK(b)P üzvlərinin əhvali-ruhiyyəsi haqqında" arayışlarının təhlili göstərir ki, antisovet əhvali-ruhiyyədə olanların əksəriyyəti milliyyətcə rus, erməni və yəhudilərdir. Burada diqqəti çəkən odur ki, adları qeyd olunan qeyri-azərbaycanlıların əksəriyyəti idarə, müəssisə və təşkilatlarda daha yüksək vəzifə tuturdular. Təbii ki, onlar sıravi fəhlələrdən daha yüksək əmək haqqı alır və qismən yaxşı yaşayırdılar. Sovet hökumətinin milli siyasətində Azərbaycan və azərbaycanlılara ikili münasibət neft sahəsində daha çox hiss olunurdu. Arayışlar tanışlıq üçün daha çox Azərbaycan SSR XKS-nin sədri T.Quliyevə göndərilir, Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsnin müdiri Novikovanın imzaladığı məktubda həmin məktubların tanışlıqdan sonra Azərbaycan K(b)P MK-ya qaytarılması xahiş olunurdu (2,v.358). Təəssüf ki, görülmüş tədbirlərin nəticələri haqqında əsaslı faktlar yoxdur.

**Azərbaycan neft sənayesi mühəndis-texniki işçiləri arasında antisovet əhvali-ruhiyyənin yayılması.** Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinə 29 sentyabr 1942-ci il tarixdə daxil olan (№ 1476) *"Azərbaycan neft sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi haqqında" XDİK T.Yaquboun 20 sentyabr 1942-ci il* tarixli arayışında (2, v.365-372) bildirilir ki, Azərbaycan neft sənayesinin mühəndis-texniki işçilərinin əsas kütləsinin əhval-ruhiyyəsində yüksək vətənpərvərlik hissləri üstünlük təşkil edir, onların fikirlərində hitlerizm üzərində qələbəyə inam vardır.

*"Azərbaycan nefi sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi" barəsində XDİK-nın 1942-ci il 22 oktyabr tarixli* arayışında (2,v.420-426) isə mühəndis-texniki işçilər tərəfindən söylənilmiş müsbət və mənfi fikirlər ümumiləşdirilir, hadisələrin insanlar, xüsusilə mühəndis-texniki işçilər arasında reaksiyası xarakterizə olunurdu. Arayışda göstərilirdi ki, çoxsaylı müsbət fikirlərlə yanaşı neft sənayesi işçiləri arasında mənfi əhvali-ruhiyyə müşahidə olunur, mühəndis-texniki işçilər qələbəyə inamsızlıq ifadə edirlər. Təbii ki, bu fikirlər fəhlələrin əhval-ruhiyyəsinə mənfi təsir etməklə yanaşı, həm də əmək məhsuldarlığının aşağı düşməsinə, keyfiyyətsiz məhsul istehsalına zəmin yaradırdı.

"Budyonnu" adına zavodun 3-cü sexinin fəhləsi, 1882-ci il təvəllüdlü, bitərəf *Ağamiryan Zaxar Atayeviç* cəbhədə vəziyyət mövzusunda söhbətdə bildirmişdir ki, "Qzıl Ordu kolxozu müdafiə etmək istəmədiyindən döyüşmür, əgər kolxoz olmasaydı daha yaxşı döyüşər, öz mövqeyini möhkəm saxlayardı, çünki onlar vuruşur, ailələri isə evdə acdır. Çarizm vaxtında cəbhədə olan əsgərin ailəsi hər şeylə təmin olunurdu, indi əksinə mənzərə görürük, ona görə cəbhədə uğur əldə olunmur. Biz Rusiyaya kömək etməyəcəyik, çünkü bolşeviklər heç kimi görmək istəmirlər". (2,v.419)

Yardımçı təsərrüfat trestinin asfalt-beton zavodunun çilingəri, 1890-cı il təvəllüdlü, bitərəf *Heybət Ələsgərov* almanların hücumuna münasibət bildirərək mövcud texnika və heç bir döyüş qabiliyyəti olmayan adamları orduya səfərbər etməklə müharibə aparmağın mümkün olmadığını ifadə etmişdi. (2,v.419)

Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə daxil olmuş 14 noyabr 1942-ci il tarixli (№2094) arayışdakı fikirlər mənası və mahiyyətinə görə əvvəlkilərdən fərqlənir. Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik baş mayoru Yaqubovun imzaladığı arayışda (2,v.450-457) mənfi əhval-ruhiyyəni ifadə edən faktlar qeyd olunurdu. Məsələn, "Stalinneft" trestinin 7-ci kompressor stansiyasının mexaniki, 1886-cı il təvəllüdlü, bitərəf *Ximlev Mixail İvanoviç (2,v452).*, "Əzizbəyovneft" trestinin işçisi, 1891-ci il təvəllüdlü, bitərəf *İsmayılov Mirzəağa Məmməd oğlu* hərbi mövzuda söhbətdə bildirmişdilər ki, "…almanlar Mahaçqalaya qədər çatmışlar, Qızıl Ordu isə almanlara müqavimət göstərmək iqtidarında deyildir, artıq ordunun gücü azalmışdır, tezliklə almanları Bakıda görəcəyik. Onda hər şey keçmişdəki kimi olacaqdır. Hər bir kəndli torpaq və bağ alacaq, hər şey ucuz olacaq, aclıq və əzab qurtaracaq. Almanlar işğal etdikləri ərazinin əhalisi ilə çox yaxşı davranırlar, onların vəhşilikləri haqqında bizim qəzetlərimizin yazdıqları doğru deyildir" (2,v.452-453). Oxşar fikirləri "Əzizbəyovneft" trestinin kompressor təsərrüfatı idarəsinin elektrik mantyoru, 1909-cu ildə anadan olmuş *Alek-*

*seyev Mixail Petroviç*, "Orconikidzeneft" trestinin 8-ci mədəninin nasos çilingəri, 1902-ci il təvəllüdlü, bitərəf *Şterman Natan Solomonoviç*, "Molotovneft" trestinin ikinci mədəninin fəhləsi, 1893-cü il təvəllüdlü, bitərəf *Fedosyev Stefan Timofeyeviç*, "Orconikidzeneft" trestinin fəhləsi, *Babayev Mikayıl Cəbrayıl oğlu*, "Azərenerji" nin mühəndisi, 1910-cu ildə anadan olmuş *Vanyuşin Konstantin İvanoviç*, "Stalinneft" trestinin 1-ci mədəninin mexaniki, bitərəf *Rıbakov Andrey Konstantinoviç* və b. söyləmişər. (2,v.453-454)

Fəhlə və mühəndis-texniki işçilərin bir qrupu müdafiə hüdudlarının tikintisində, müharibəyə hazırlıqda nöqsanlara yol verildiyini iddia edərək müharibəyə hazırlıqdan narazılıqlarını bildirirdilər. "Azərneftqaztikinti" nin rəisi *Bandurkin Yevgeni Andreyeviç (2,v.455)*, Orconikidze rayonunun şəhərətrafı təsərrüfatının briqadiri, 1891-ci il təvəllüdlü, bitərəf *Əyyub Aslanov* (2,v.455-456*)* 25 ildir sovet hökumətini müdafiə etmələrinə baxmayaraq ac və çılpaq qaldıqlarını bildirmişdilər. "Siyəzənneft" trestinin işçisi, 1904-cü ildə anadan olmuş bitərəf *Rındin Pyotr Nikolayeviç* ancaq ukraynalıların vuruşduğunu, sibirlilərin isə aldandıqları üçün vuruşmadığını iddia edərək "Vətəndaş müharibəsində bütün sibirlilər bir nəfər kimi ayağa qalxdı və Kolçakı dağıtdılar, əvəzində nə aldılar. İndi onlar ac otururlar və gözləyirlər ki, kolxoz idarəsi gələcək məhsuldan onlara un, yaxud taxıl verəcək. Bizimkilər isə yazırlar ki, Almaniyada aclıqdır. Məncə Hitler axmaq deyil, o, 18 dövləti tutub və özünü hər şeylə təmin edib" demişdi.

"Kirovneft" trestinin hərbiləşdirilmiş muhafizəsinin döyüşçüsü, 1898-ci ildə anadan olmuş, bitərəf Besedin Maksim Fyodroviç hərbi mövzuda söhbətdə qəzet məlumatlarına inanmadığını vurğulamışdır (2,v.456). Əzizbəyov rayonunun şəhərətrafı təsərrüfatının fəhləsi, 1880-ci ildə anadan olmuş *Əliyev Fiti Zer oğlu* da Qızıl Ordunun almanlarla vuruşmaq qabiliyyətində olmadığını, tezliklə Bakının və bütün Qafqazın almanlar tərəfindən tutulacağını iddia edirdi. (2,v.457)

DMK sədri Stalinin Oktyabr inqilabının 25-ci ildönümü munasibətilə məruzəsi ətraında fikirlərə dair Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya ünvanladığı arayışda (2,v.435-440) bildirilirdi ki, Azərbaycan Sənaye İnstitutunun professoru *Yakovlev Fyodr İvanoviç*, ADU-nun dosenti *Qasımzadə Feyzulla Səməd oğlu*, respublkanın əməkdar artisti *Şarlaxov Viktor Petroviç*, Xalq Yaradıcılıq Evinin direktor müavini *Manaflı Ağa Səlim Cəfər oğlu* Stalinin çıxışını böyük həyəcanla dinləmiş və çıxışda hərbi vəziyyətə aydın qiymət verildiyini, müasir vəziyyətin təhlil olunduğunu söyləmişlər. (2,v.435)

Azərbaycan Sənaye İnstitutunun dosenti bitərəf *Orucəliyev Ədhəm Əli Cabbar oğlu*, "Molotovneft" trestinin mühəndisi *Məlikaslanov Didvəli Süleyman oğlu,* "Azərneftkəşfiyyat" trestinin baş energetiki-mühəndis *Səmədzadə Musa Qasım oğlu*, "Kirov" adına mexaniki zavodun çilingəri *Kravçenko Aleksandr Trofimoviç*, "Orconikdzeneft" trestinin 4-cü mədəninin elektrik mantyoru *Lyapina Olqa Nikolayevna*, "Dzerjinski" adına mexaniki zavodun 4-cü sexinin briqadiri *Markuriy Zaxar Yefimoviç* məruzənin dərin təhlillərə əsaslandığını, alman-faşistlərin üzərində qələbəyə səslədiyini bildirmişlər (2,v.443-446). Bununla yanaşı XDİK-nın arayışında qeyd olunur ki, Sənaye İnstitutunun tələbəsi *Friţş Qalina Vlatslanovna*, "Stalinneft" trestinin 1-ci mədəninin neft ustası-mühəndis *Mülkunyans Yakov Petroviç*, həmin trestin ayırma kontorunun çilingəri *Baqarşak Kasparov*, "Oktyabr inqilabı" adına mexaniki zavodun xarratı *Vdovin Konstantin Romanoviç*, "Stalinneft" trestinin qaz kontorunun fəhləsi *Kuznetsova Olqa Tixonovna*, "Kaqanoviçneft2 trestinin 3-cü mədəninin neftayırma ustasının köməkçisi *İsaverdiyev İosif Mkırtıçeviç* və b. məruzədə səsləndirilənlərlə razı olmadıqlarını bildirmişlər. (2,v.446-448)

"Krasin" adına elektrik stansiyasının növbətçi mühəndisi *Xijnyuk Sergey Panteleyeviç* həmin stansiyanın ocaq sexinin növbə rəisi, ÜİK(b)P üzvü *Ufimski Konstantin Yakovleviç* Stalinin məruzəsində qələbəyə inam eşitmədiyini (2,v.439), "Kaqanoviçneft2 trestinin 3-cü mədəninin neft ustası bitərəf *Qafar Manaf oğlu* məruzənin aldadıcı olduğunu, "Stalinneft2 trestinin təmir-quraşdırma kontorunun qaynaqcısı *Jarov Mixail İvanoviç* məruzənin ancaq danışıq olduğunu bildirirdilər. (2,v.440)

Qızıl ordunun Staliqrad rayonunda müvəffəqiyyətli hücumu Bakı şəhər əhalisinin fəhlə

və ziyalıları arasında böyük ruh yüksəkliyi yaratdı. *"Qızıl Ordunun Stalinqrad rayonunda müvəffəqiyyətli hücumu ilə əlaqədar Bakı şəhər əhalisinin əhval-ruhiyyəsi haqqında2* Azərbaycan SSR XDİK T.Yaqubovun 25 və 29 noyabr tarixli arayışlarında ordunun müvəffəqiyyətli hucum xəbərinin insanlar arasında böyük rəğbət hissi oyatdığı, vətənpərvərlik ruhunu qaldırdığı bildirilirdi.

Vətənpərvərlik hissi ilə dolu müsbət fikirlərlə yanaşı mənfi fikirlər də səslənirdi. "Stalinneft" trestinin şəbəkə sahəsinin texniki *Zeynalov Şahsuvar Heydər oğlu* demişdi: 2Mən inana bilmirəm ki, biz o qədər almanı darmadağın etdik. Bu əvvəlki məlumatlara oxşayır. Deyilirdi ki, Xarkov altında bizimkilər çoxlu alman diviziyalarını dağıtmışlar. Bütün bunlar xalqın əhval-ruhiyyəsini qaldırmaq üçündür. Sonra baxarıq".

Sovet qoşunlarının qələbəsinə şübhə ilə yanaşanlar arasında şair *Rbavnin Abraam Lvoviç,* "Bakinskiy raboçiy" qəzeti redaksiyasının sənaye şöbəsinin müdiri *Rıbakov İlya Yakovleviç,* Azərbaycan Tibb İnstitutunun müəllimi *Rəcəb Ağayev,* Bakı şəhərində orta məktəb müəllimi *Teterevatnikov Qriqoy Nikolayeviç*, diş texniki *Vnukov Leonid Karpoviç*, "Kaqanoviçneft2 trestinin 3-cü mədəninin neft ustası *Qafar Manaf oğlu*, "Kirovneft" trestinin mühasibi *Yavrumov Daqrat Nikolayeviç,* Bakıdakı təxliyyə hospitalının sanitarkası *Podyaçeva Sofiya Yakovlevna* və b. vardı. (2,v.483-484)

"Dmitrov" adına zavodun çəkicvuranı *Avanasyev Avanes Aqayeviç*, "Kaqanoviçneft2 trestinin 3 №li mədəninin yeraltı təmir ustası *Ağabala Məmmədov* və b. bu xəbərin xalqın ruhunun qaldırmağa, müttəfiqlərin etibarını möhkəmləndirməyə xidmət etdiyini bildirir, qələbənin müvəqqəti olduğunu iddia edirdilər. (2,v.505-507)

"Stalinneft2 trestinin kompressor təsərrüfatının çilingəri *Sıranov İvan Yakovleviç* Stalinqrad altında və Mərkəz cəbhədə əldə olunan müvəffəqiyyətin almanlar tərəfindən tələ olduğu, almanlar cəbhəni yararaq yazda yenidən hücuma keçəcəkləri bildirilirdi. (2, v.519-521)

XDİK-nın 30 dekabr 1942-ci il tarixli arayışında mühəndis-texniki işçilər arasında pessimis əhvali-ruhiyyə haqqında xüsusi qeydlər vardır. Qeyd olunur ki, bir qrup mühəndis-texniki işçi antisovet fikirlər səsləndirərək, ordunun qələbələrinə şübhə ilə yanaşmış, insanlar arasında rüh düşgünlüyü yaratmağa cəhd etmişlər. "Stalin2 adına zavodun baş mühəndisinin müavini, 1887-ci ildə anadan olmuş bitərəf *Kramskiy Pavel Yevgenyeviç* cəbhədə vəziyyətlə əlaqədar söhbətdə demişdi: "Bizim hissələr hücumda çox tez yorulur, heç nə əldə edə bilmirlər. Ancaq almanlar uzun müddət ərzində hücum edir və yorulmurlar, görünür onlar güclüdürlər2. (2,v.525)

"Stalinneft2 trestinin böyük geoloqu, 1904-cü il təvəllüdlü bitərəf *Nalbadyan Kayşen Nikoviç (2,v.526),* "Azneftkombinat"ın geoloji topoqrafiya kontorunun böyük mühəndisi, 1889-cu il təvəllüdlü bitərəf *Kuşenko Akeriy Timofeyeviç*, "Azərneftlayihə" trestinin böyük mühəndisi, 1876-cı il təvəllüdlü *Şeyni Boris Moiseyeviç*, "Əzizbəyovneft2 trestinin neftvurma üzrə mühəndisi, 1903-cü ildə anadan olmuş bitərəf *Əliyev Hacıbala Çəmil oğlu (2,v.527),* "Azneftlayihə" trestinin böyük mühəndisi, 1909-cu il təvəllüdlü *Adamova Raisa Sumbatovna*, 7 №li zavodun sex rəisi, 1909-cu ildə anadan olmuş *Mirzəyev Fərhad Tağı oğlu (2,v.528)*, "Əzizbəyovneft" trestinin 3-ci mədəninin mexaniki, 1900-cu il təvəllüdlü bitərəf *Sukonkin Mixail Radionoviç* ərzaq məhsullarının qıtlığından və bahalığından, tank və təyyarə kolonlarının tikintisi üçün toplanmış vəsaitin xərclənməsi barədə məlumatların verilməməsindən narazılıqlarını bildirirdilər. (2,v.528)

"Krasin" adına DRES-in elektrik sexinin rəisi, 1910-cü il təvəllüdlü bitərəf *Zamberman Mixail İsakoviç*, "Əzizbəyovneft" trestinin böyük mühəndisi, 1912-ci il təvəllüdlü bitərəf *Pitrublis Leon Vladislavoviç*, "Molotovneft" trestinin quyuların əsaslı təmiri kontorunun mühəndis-geoloqu, 1906-cı il təvəllüdlü bitərəf *Laçınyan Suren Ayrapetoviç*, 2Əzizbəyovneft2 trestinin 1-ci mədəninin neft ustası, 1902-ci ildə anadan olmuş bitərəf *Əliyev Əli Dadaş oğlu*, "Kaqanoviçneft" trestinin qaz təsərrüfatının mexaniki, 1897-ci il təvəllüdlü bitərəf *Panov Anton Petroviç* güzəranın ağırlığından, aclıqdan, yeməkxanaların bərbad vəziyyətindən, ümumiyyətlə həyatın dözülməzliyindən şikayətlənirlər. (2,v.529)

**Nəticə.** Müharibə illərində Azərbaycan ərazisi hərbi əməliyyat meydanı olmadı. Ancaq Bakı səması üzərində və respublikanın bir sıra

rayonlarında, məsələn 1942-ci il mayın 4-də Bakı səmasında, sentyabrın 29-da Xudat da alman təyyarələri göründü, həmin ilin oktyabrın 2-də Xızı üzərində 2 alman təyyarəsi vuruldu. Bu baxımdan antisovet fikirlərdə Bakının taleyi müzakirə mövzusu olması bir tərəfdən doğru olsa da, digər tərəfdən məsələnin həssaslığından istifadə edən düşmən elementlər antisovet fikirlər formalaşdırmağa və yayılmasına cəhd edirdilər.

Qeyd edilənləri yekunlaşdıraraq deyə bilərik ki, antisovet fikirli insanların ifşası sahəsində əməli tədbilər həyata keçirilmiş, antisovet mülahizələr söyləyənlər barəsində inzibati tədbirlər görülmüşdür. İlk növbədə ilk partiya və komsomol təhkilatları adamlar arasında kütləvi-siyasi işin qüvvətləndirilməsi üçün müvafiq tədblər müəyyənləşdirmişlər.

## Ədəbiyyat siyahısı

1.ARPİSSA, f.1, siy.169, iş 110, v.2
2.ARPİİSSA, f.1, siy. 27, sax.vah. 160, v.56
3.AR MDTA, f.1610, siy.10, iş 687, v.14
4.AR MDTA, f.1610, siy.10, iş 707, v.8
5.Советская экономика в период Великой Отечественной войны 1941-1945 гг. М., 1979

## Резюме

**Маис Амрахов**

### Положение работников нефтяной промышленности Азербайджана в годы войны в архивных документах (1941-1945-ые годы)

В статье определяется место Баку в обеспечении фронта нефтью и нефтепродуктами в годы войны, то есть 1941-1945-ые годы, с этой точки – зрения основывается наличие обсуждения судьбы Баку в антисоветских мнениях, попытка формирования и распространения антисоветских мнений враждующими элементами, которые воспользуются чуткостью вопроса. При этом заявляется о том, что значительную роль играет события, происходящие на фронте в ходе формирования антисоветских мнений и настроения, результаты операций советских войск в различных направлениях фронта, в особенности, события, происходящие до боев под Сталинградом. Население основном узнавал о событиях на фронте из газетных записях и сведений Советского информационного бюро. А данных сведениях события не описываются подробно, отчего вражеские элементы направляли событий в различные направления, но пользуются для создания пассивности и пессимизма.

В статье на основе архивных документов анализируется созвучие с антисоветскими соображениями вражеских элементов, которые воспользовались информированием сотрудников, работающих в особенности в нефтяной промышленности, рабочих и служащих, кража скота населения разбойными формированиями, которые воспользовались с тем, что некоторые территории оказались захваченными вражескими войсками, бомбёжка линий обороны вражескими самолетами и влияние данного обстоятельства на настроение населения, продолжение строительства оборонной линии в период войны. В конце статьи указывается проведение действенных мероприятий в сфере разоблачения лиц с антисоветскими мнениями, принятие административных мер в отношении тех лиц, о которых существовали антисоветские соображения, в первую очередь, определение соответствующих мер для усиления массовой – политической работы среди членов партийных и косомолских организаций.

***Ключевые слова:*** *Кавказский план фашисткой Германии, границы обороны, Бакинская нефть, антисоветские мнения, антисоветское настроение*

**Summary**

**Mais Amrahov**

**Azerbaijan oil industry employees' situation in the years of war in archive documents (1941-1945)**

Article is devoted to determination of the place of Baku city in providing of front with oil and oil products in 1941-1945 war, being of Baku fate as a topic of discussion in antisoviet ideas in this point of view, making an effort in formation and distribution of antisoviet ideas of enemy elements using from the sensitivity of the issue are grounded in this article. It is indicated here that, accidents and conflicts occurred in the front, results of the operations of soviet troops in various directions of the front, especially the events occurred in Stalingrade up to batlle played significant role in formation of antisoviet ideas and moods. People were informed about the front incidents mainly from newspaper articles and information of Soviet Information Bureau. Due to incidents were not explained in details in such information, enemy elements refer such incidents to various directions, and used such information for depression and passiveness.

Proceeding of the construction of the limits of defense in the mentioned period, bombing of the defense margins by enemy planes and its affection to the mood of people, robbing of livestock of people by thief group using from capturing of some areas by enemy troops, sounding of antisoviet considerations by enemy elements using from non-informing of workers and servants, especially employees working in oil industry are analyzed by referring to archive documents. Realization of the practical measures in the exposure of people with anti-soviet ideas, taking of administrative measures about the people saying antisoviet considerations, and determination of the corresponding measures for strenghtening of the massive-political works among people by first party and comsomol organizations.

***Keywords:*** *Caucasus plan of fascist Germany, limits of defense, Baku oil, antisoviet ideas, antisoviet mood.*

UOT 94 (479.24)

**MƏRYƏM SEYİDBƏYLİ**
*AMEA Elm Tarixi İnstitutunun direktoru, tarix üzrə elmlər doktoru, dosent, Azərbaycan*
*mseyidbeyli@mail.com*

**BAYRAM QULİYEV**
*AMEA Elm Tarixi İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, Azərbaycan*
*bayramqulusoy@yahoo.com*

# ƏHMƏD BƏY AĞAOĞLUNUN ƏSƏRLƏRİNDƏ MÖVCUD OLAN TARİXİ MƏLUMATLARA ÜMUMİ BİR NƏZƏR

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, Azərbaycan tarixi, Rusiya imperiyası, Osmanlı imperiyası, "İran və inqilabı"*

Azərbaycan xalqının görkəmli ədibi və ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlu 1869-cu ilin dekabr ayında Çar Rusiyasının müstəmləkəsi olan Şimali Azərbaycanın Qarabağ bölgəsinin Şuşa şəhərində anadan olmuş, elə orada ilkin və orta təhsilini aldıqdan sonra, ali təhsilini Fransanın Sarbonna Universitetində tamamlamışdır. Sarbonna universitetində hüquq təhsili alan Əli bəy, dini məzmunlu, daha çox təriqətinə dair məqalələr yazmış, bu əsərlərində İslam və onun əhəmiyyəti haqqında məlumat verərək Avropada İslamı tanıtmağa çalışmışdır. O İslamı tanıtmaqla bərabər, bu dinə dair uydurulmuş bəzi xurafatları da tənqid etməkdən çəkinməmişdir. Onun məqsədi Avropa elitasında islam dini ilə bağlı yanlış olaraq yaradılmış təsəvvürləri düzəldərək ona qarşı münasibəti dəyişmək olmuşdur (22, p. 86-92). Mənbələrə nəzər saldıqda belə məlum olur ki, Əhməd bəy Ağaoğlu özünü "Müsəlman", "Rusiya müsəlmanı", "Qafqaz müsəlmanı" və "Müsəlman türk" kimi adlandırsa da, bir müddət sonra o etnik baxımdan türk olduğunu söyləməkdən çəkinmir. (22, p. 2) Zənnimizcə bu böyük ziyalının türk ifadəsindən istifadə etməyə çəkinməsinin əsas səbəbkarı Çar Rusiyasının yeritdiyi anti-pantürk siyasəti olmuşdur. Digər bir tərəfdən XVIII – XIX əsrlərdə azərbaycanlılar özlərinə daha çox müsəlman deyə xitab edirdilər.

1897-ci ildə H. Z. Tağıyevin dəvəti ilə Bakıya gələn Əhməd bəy Ağaoğlu burada onun maliyyə yardımı ilə nəşr olunan "Kaspi" və "Həyat" qəzetlərində müxtəlif məzmunlu məqalələr çap etdirir. O, 1905-ci ildə yaradılmış və ermənilərin vəhşi əməllərini əks etdirən "Həyat" qəzetinin Əli bəy Hüseynzadə ilə birlikdə baş redaktoru olduğu zaman öz məqalələrində bir çox tarixi məqamlara toxunmuşdur. O bildirirdi ki, XX əsrin əvvəllərində azərbaycanlılara qarşı ermənilərin törətdikləri cinayətlər heç də boşu – boşuna planlaşdırılmamışdı. Burada əsas məqsədlərdən biri də Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına müstəqil erməni dövlətini yaratmaq "vədinin" onlara verilməsi idi (14, s. 41). Qeyd etmək lazımdır ki, "Həyat" qəzetinin bütün materialları, eləcə də Əhməd bəy Ağaoğlunun burada nəşr olunan məqalələrində XX əsrin əvvəlləri Şimali Azərbaycan tarixinə - həmçinin 1905-1907-ci illər erməni-müsəlman münaqişəsinə dair qiymətli və obyektiv tarixi materiallar mövcuddur.

1905-ci ildə Əhməd bəy Ağaoğlu Bakı şəhər Dumasının üzvü seçilib 1909-cu ilə qədər burada fəaliyyət göstərir. 1909-cü ildə Əhməd bəy Osmanlı imperiyasına gedir və orada yaşamalı olur. Şimali Azərbaycanın bir çox ziyalıları Əhməd bəyin vətənini tərk etməsini böyük itki adlandıraraq buna çox təəssüflənirlər. Lakin o, vətəndə olmasa belə, Azərbaycanla bağlı elmi fəaliyyətlə yenə də məşğul olmağa davam edir. Onun "Kaspi" qəzetində nəşr olunan "Türkiyədən məktublar" adlı silsilə məqalələri Şimali Azərbaycan əhalisinin maarifləndirilməsinə yönəlsə də, onların içərisində Çar Rusiyası

və Avropaya ünvanlanmış məqalələr də mövcud idi. Onlardan "İslam və despotizm" adlanan məqalədə müəllif İslamın Avropa və Rusiya İmperiyasının qələmə verdiyi kimi geridə qalmış bir din olmadığını, əksinə onun böyük bir mədəniyyət və mənəviyyat dini olduğunu qeyd edirdi. Eyni zamanda Əhməd bəy İslam və digər iki monoteist dinlər arasındakı oxşarlıqları göstərərək İslamın yanlış dərk edildiyini göstərmişdir (14, s. 68-69). Əslində bu fikirləri söyləməklə o müsəlman tələbələrin öz dinindən imtina etmədən təhsil alma imkanlarının mümkünlüyünü göstərmişdi. Eyni zamanda Əhməd bəy istəyirdi ki, müsəlman olan Azərbaycan əhalisi də yüksək keyfiyyətli təhsil alsın və müvafiq vəzifələri tuta bilsin. Çünki, çar Rusiyasının hakim dairələri müsəlmanlığı bəhanə edərək azərbaycanlıların təhsil almasına və hərbidə iştirak etməsinə mane olurdular.

Əhməd bəy Ağaoğlu Osmanlı imperiyasının pataxtı İstanbula köçdükdən sonra gənc türklərin "İttihad və tərəqqi" firqəsinə daxil olur. Daha sonra Süleymaniyyə Muzeyinin kitabxanasının direktoru vəzifəsini tutan bu böyük mütəfəkkir "Türk yurdu" jurnalına redaktorluq edir, Yusif Akçura ilə görüşür, İstanbul Universitetində "Türk-moğol tarixi" və "Rus dili" fənlərindən mühazırələr oxuyur (11, s. 26-36).

1918-ci ilin sentyabrın 15-də Bakının azad edilməsi üçün Şimali Azərbaycana gəlmiş Qafqaz İslam Ordusunda siyasi müşavir kimi yenidən Ana Vətəninə qayıdan Əhməd bəy Ağaoğlu həm AXC parlamentinə üzv seçilir, həm də Paris Sülh Konfransında iştirak etmək üçün Avropaya gedən nümayəndə heyətinin tərkibinə daxil edilir. İstanbulda "İttihad və tərəqqi" partiyasının üzvü olduğuna görə ingilislər tərəfindən həbs olunub Maltaya sürgün edilən Əhməd bəy Ağaoğlu, sürgündən qayıtdıqdan sonra İstanbulda nəşr olunan "Hakimiyyəti-milliyyət" qəzetinin baş redaktoru təyin edilir. 1923-cü ildə Türkiyə Cümhuriyyəti elan olunduqdan sonra ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilən Əhməd bəy Ağaoğlu, eyni zamanda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün xarici işlər üzrə siyasi məsləhətçisi kimi fəaliyyət göstərmişdir (4, s. 26-36). Əhməd bəy Ağaoğlu 19 may 1939-cu ildə İstanbulda vəfat etmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd bəy Ağayev Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.[1]

Əhməd bəy Ağaoğlunun fikirləri və bu fikirlərin təzahürü olan yazıları daha çox İslam, şiəlik, hüquq və siyasət olsa da, onun əsərlərində həm dövrünün tarixi-siyasi mənzərəsini müşahidə etmək mümkündür və həm də keçmiş dövrlərə dair tarixi faktlara rast gəlinir. Tarixi məsələlərin və faktların ən çox rast gəlindiyi əsər "İran və inqilabı" əsəridir. Ərəb Xilafətinin çökməsindən XX əsrin əvvəllərinə qədərki tarixi proseslərə qısa formada nəzər yetirilən bu əsər ilk dəfə 1941-ci ildə Ankarada nəşr olunmuşdur. Sonradan əsər t.ü.f.d., dos. Almaz Həsənqızı və t.ü.f.d., dos. Boran Əziz tərəfindən Azərbaycan türkcəsinə tərcümə edilmişdir (1). Əhməd bəy Səfəviləri Ağqoyunluların davamı kimi görür və Şah I İsmayılı Ağqoyunlu hökmdarı adlandırır. O, türk ellərinin olduqca geridə qaldığını və bu səbəbdən də bir – birləri ilə savaşdıqlarını yazaraq onları qınayır. Bununla bərabər o qeyd edir ki, türk elləri Osmanlıda Sultan I Səlimi və Sultan I Süleymanı, Səfəvilər Şah I İsmayılı və Şah I Abbası, Əfşarlar Nadir Şahı, Gürganilər Babur Şahı yetişdirdilər. Müəllif təəssüflə bildirir ki, Sultan I Səlim və Nadir Şah Əfşar xaric heç kəs bu türk ellərini birləşdirmək istəmədi. Əhməd bəy Nadir şahın bir çox türk ellərini fəth etdiyini bildirərək yazır ki, Nadir sünni-şiə ixtilafına son qoymaq istədi lakin, İstanbul inad etdi (1, s. 14). Həqiqətən də Nadir Şah Osmanlı imperiyasına bu məqsədlə müraciət etmiş, Osmanlı din adamları buna qarşı çıxmışdılar.

Elədirsə, bəs hansı səbəbdən Əhməd bəy Ağaoğlu "Azərbaycan" ifadəsi yerinə "İran" ifadəsini istifadə etmişdir. Halbuki, XX əsrin əvvəllərində, inqilab baş verən vaxtda Cənubi Azərbaycan və İran Qacarlar tərəfindən idarə olunurdu. Bu fikri daha aydın izah etmək üçün eyni yanaşmaya malik olan digər ölkələrin tarixçilərinin fikirlərinə nəzər salmaq lazımdır. Azərbaycan tarixinə dair tədqiqatçılar aparan

---

[1] ""Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları"nın və "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı"

xarici tarixçilərin bir qismi öz əsərlərində bu məsələyə geosiyasi kontekstdən yanaşırlar. Bu tarixçilər ya antik ədəbiyyatlarda əks olunan "Persiya" kəlməsindən istifadə edirlər, ya da ki, hadisələrə müasir İran İslam Respublikasının sərhədləri çərçivəsində nəzər yetirir və "İran" termininindən istifadə edirlər. Təbii ki, bu cür tədqiqatçılardan bir qismi də dil və ya linqvistik nöqteyi-nəzərdən yanaşırlar. Orta əsr səyyah və diplomatları, eləcə xarici tədqiqatçılar yanlışlığa yol verərək, əksər hallarda Dərbənddən İran körfəzinə qədər torpaqları "Persiya" adlandırırlar. Əslində "Persiya" zamanla "pars" olaraq işləndi, sonrada ərəb dilinə keçən bu söz bu dildə "p" hərfi olmadığı üçün "fars" şəklini aldı və Azərbaycan dilinə də "fars" kimi keçmiş oldu. Tədqiqatlarda və səyahətnamələrdə istifadə olunan və demək olar ki, eyni mənanı ifadə edən bu iki sözdən birincisi Persiya m. ö. II minilliyin sonu – I minilliyin əvvəllərindən – ari tayfalarının Parsamuş ərazisində (müasir İİR-nın cənub-qərb əraziləri – red.) məskunlaşdığı dövrdən etibarən işlənmişdir. Əhəməni imperiyası yarandıqdan sonra "fars"/"pars" anlayışı yalnız bir etnik toplumu deyil, bütün imperiyanı əhatə etdi və bu ad coğrafi məna kəsb edərək yunan tarixi-coğrafi ədəbiyyatına düşmüş oldu . Həqiqətən də antik Yunan və Roma coğrafiyaçıları. Kiçik Anadolu yarımadasından Qara dənizə, oradan da Xəzər dənizinin şimalına, şərqdə Hindistana cənubda isə indiki İran körfəzinə qədər böyük bir ərazini Persiya adlandırmışlar. Strabonun "Coğrafiya" əsərinin ingiliscə və yunanca olmaq üzrə birlikdə ən mükəmməl nəşrində, həm də ilk səhifədə əks olunan xəritədə, eyni zamanda Persiya (Əhəmənilər imperiyası) haqqında verilən məlumata rast gəlmək mümkündür və yuxarıda qeyd etdiyimiz sərhədləri göstərməkdədir (25, s. 101).

Tədqiqatının böyük bir hissəsini İran və Azərbaycan tarixinin orta əsrlər dövrünün tədqiqinə və Moğol tarixinə həsr edən D. Morqan da bildirir ki, Avropa alimləri tərəfindən istifadə olunan "Persiya" anlayışı antik yunan tarixi ədəbiyyatlarında Əhəməni imperiyasını ifadə etmək üçün istifadə olunan latın mənşəli "La Persia" coğrafi adından meydana gəlmişdir (19, s. 1-2). XIII əsrdən etibarən Azərbaycana səyahət edən avropalı səyyahlar da antik yunan coğrafiyasının təsiri ilə Dərbənddən cənuba bütün əraziləri Persiya adlandırırdılar. Alman səyyah Adam Oleari öz səyahət qeydlərində çar Rusiyası sərhədini keçdikdən sonra Persiyaya daxil olduğunu yazır. Dərbənd, Şamaxı, Təbriz kimi tarixi Azərbaycan şəhərlərini Persiya şəhərləri kimi təqdim edir (26, s. 161). Antik tarixi-coğrafi biliklərin təsirinə düşən alimlərdən biri olan Carlz Stori özünün üç hissəli, on cildlik nəhəng "Persian literature: a bio-bibliographical survey" əsərində səyyahların etdiyi səhvi təkrar etmişdir. Əsər bütövlükdə İran ədəbiyyatının tədqiqinə həsr olunsa da, birinci hissəsinin dördüncü kitabında Azərbaycan Persiyanın bir hissəsi kimi göstərilir. Eyni əsərin birinci hissəsinin beşıncı cildi isə "Hindistan tarixi" adlanır (23). Eyni imperiyaların tərkibində olan İranın və Azərbaycanın Persiyanın bir hissəsi kimi təqdim olunması ilk baxışdan normal görünsə də, Hindistanın Persiyanın bir hissəsi kimi göstərilməsi həm tarixi, həm də elmi baxımdan doğru hesab etmək bir o qədər də inandırıcı görünmür.

Əhməd bəy Ağaoğlu da Avropada ali təhsil aldığı (15, s. 373–387) üçün avropalı alimlərlə demək olar ki, eyni biliyə malik idi, eyni universitetdə təhsil almışdı. O, Antik ədəbiyyatdan miras qalan Persiya kəlməsinin artıq XX əsrdə İran kəlməsi ilə sinonimləşməsinin fərqində idi. Digər bir tərəfdən Əhməd bəy avropalı alimlər kimi qərb oxucusunda coğrafi təsəvvür yaratmaq üçün daha çox İran kəlməsindən istifadəni üstün tutmuşdur. Digər bir tərəfdən əvvəl Osmanlı imperiyası, sonra isə Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən Əhməd bəy Ağaoğlu məsələyə müasir sərhədlər çərçivəsindən yanaşmağı üstün tutmuşdur. Halbuki, o öz əsərində nəinki, İranın, hətta bütün Şərqin böyük bir hissəsinin türklər tərəfindən idarə olunduğunu yazır.

Müasir tarixçilər isə Azərbaycan daxil olmaqla bir çox əraziləri müasir sərhədlərə uyğun olaraq İran ərazisi kimi göstərirlər. Halbuki, İran adı 1935-ci ildən etibarən rəsmən siyasi-coğrafi məna ifadə etməyə başladı (19, s. 1). Ari tayfalarının adı ilə bağlı olan "İran" ifadəsi, ilkin mənbələrdə daha çox farsları ifadə etmək üçün də istifadə olunurdu. Çox təəssüflər olsun ki, müasir qərb, eləcə də Rusiya və Türkiyə tarixşünaslığı bu yönlü məsələlərə geosiyasi nöqteyi-nəzərdən yanaşır. XI – XIV əsrlər Azərbaycan və İran tarixləri haqqında məlumat ve-

rən A. Lampton da bu və buraya qonşu olan əraziləri Persiya adlandırır (17). Bu növ əsərlərin sayları çoxdur və təxmini hamısı eyni məzmunludur. Bu cür vəziyyət müasir Türkiyə tarixşünaslığında da mövcuddur. XV əsr Azərbaycan Bayandurlu sülaləsinin hakimiyyətinə həsr olunan tədqiqat əsəri yazmış, İ. Aka isə ərazini İran ərazisi kimi göstərmiş (halbuki paytaxt Təbriz olub) lakin hakimiyyəti Türkmən hakimiyyəti kimi təqdim etmişdir (4). Əhməd bəy isə İranın Abbasilər zamanından bəri türklər tərəfindən idarə olunduğunu yazaraq Qaraqoyunlular və Ağqoyunluların türk olduğuna diqqət çəkir. O Lord Gürzonun "The Persia and the Persian questions" adlı əsərinə tənqidi münasibət bildirərək yazır ki, İrandakı tayfalar arasında tarix boyu ən canlısı və ən fəali türklər olmuşlar. Həm siyasi, həm də iqtisadi proseslərdə İranda Türklərin hakim mövqedə olduğunu yazan Əhməd bəy Ağaoğlu vurğulamaqdadır ki, İranın min illik tarixi ümumtürk tarixinin bir hissəsidir (1, s. 15). İlkin mənbələrə nəzər saldıqda da Əhməd bəyin fikirlərinə bənzər mənzərə ilə qarşılaşırıq. Əmir Teymurun fəthləri haqqında ən unikal mənbə olan Nizaməddin Şaminin "Zəfərnamə" əsərində Azərbaycan (13, s. 249) və İran (13, s. 254) bir məmləkət olaraq ayrıca göstərilmişdir. Ağqoyunlu sülaləsi və dövlətlərinin tarixinin öyrənilməsi üçün ən əsas tarixi qaynaq hesab olunan Əbu Bəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərində də İran coğrafi ərazi kimi və ya siyasi mənada işlədilmir (10). Hər üç əsərdə də hadisələrin baş verdiyi coğrafiyanın mərkəzi Azərbaycan və onun şəhərləridir.

Əhməd bəy Ağaoğlu özünün "İran və inqilabı" adlı əsərində Abbasilər xilafətinin çöküşündən sonra İranın türklər tərəfindən idarə olunduğunu bildirir: "Beləliklə, İranın son min sənəlik tarixi həqiqətdə və doğrudan-doğruya Türk tarixinin bir şöbəsidir. Fəqət nə çarə ki, türklər başqa yerlərdə göstərdikləri zəifliyi burada da göstərmişlər. Felən və maddətən hakim olduqları halda mənəvi hakimiyyətlərini qurmaqda qüsur göstərmişlər. Hökumət, ordu, ticarət, ziraət və hətta ədəbiyyat əllərində ikən şəxsiyyətlərinin ən canlı və ən davamlı amili olan dilləri qəbul etdirməmişlər. Tərsinə olaraq, başqalarının dillərini dövlət dili olaraq qəbul etmişlər və sahibi olduqları dövlətə türk dövləti dedirtməyə önəm verməmişlər. Bu surətlə dövlət milliləşmək qabiliyyətini qeyb etmişdir." (1, s. 14). Qəribədir ki, o, bu əraziləri Sasani sərhədlərinə uyğun formada İran adlandırır, nəinki Azərbaycan. Burada bu coğrafi sərhədlər haqqında təsəvvür yaratmaq məqsədli idi. Əhməd bəy Ağaoğlunun əsərlərində Azərbaycan kəlməsindən siyasi-coğrafi mənada demək olar ki, istifadə olunmur. Əhməd bəy yazır ki, İranda yaşayan əhalinin etnik tərkibi haqqında heç vaxt düzgün məlumat verilməyib. Halbuki, burada ən fəal olan əhali və ən çox nisbətdə əhali türklərdir. O əlavə edir ki, min ildən bəridir ki, İranı türklər idarə etmiş, burada baş verən siyasi proseslərdə türklər yaxından iştirak etmişdir. O, öz dövrünü nəzərdə tutaraq bildirir ki, bu gün də (XX əsrin 20-30-cu illəri) İranda türklər idarəçilikdə yer alır və dövlət adamlarının çoxu türkdür. Əhməd bəy türk hökmdarlarının dillərinə lazımı hörmət qoymamasından şikayətlənir (1, s. 15). Əslində müəllif haqlı idi. Səlcuqlu dövlətindən Osmanlı və Qacar dövlətinə qədər rəsmi dövlət yazışmaları fars dilində aparılmışdır. Baxmayaraq ki, hərbi dili türk dili idi. Doğrudur, Osmanlı imperiyasında əsası farsca və ərəbcədən təşkil olunan bir osmanlıca dili vardı, lakin bu təmiz türk dili deyildi. Əhməd bəy bildirmişdir ki, türk dili onların öz aralarında istifadə etdiyi dil olsa da məktəblərdə və yazışmalarda bu dildən istifadə olunmaması, onu yadlaşdırır, hətta türk əleyhinə olanların sayını da artırır. Bu ərazilərdə mədəniyyətin inkişaf etməsini məhz türklərin hökmranlıq etdiyi zamana təsadüf etdiyini vurğulayan Əhməd bəy Ağaoğlu onu da qeyd edir ki, heç də deyildiyi kimi türk dili zəif bir dil deyildir, bunun üçün Nəvahinin əsərlərinə baxmaq kifayətdir (1, s. 16). Orta əsrlər türk dilində yazılmış olan qaynaqları müşahidə etdikdə görmək mümkündür ki, türk dilindən istər kargüzarlıqda, istərsə də elmi fikirləri ifadə etməkdə istifadə etmək olar.

Oxşar vəziyyət Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair əsərlərdə müşahidə olunur. A. Nyuman öz əsərində sadəcə Səfəvilərin fars imperiyası olduğunu göstərmir, eləcə də Səfəvilərin soykökü ilə bağlı yanlış və əsassız məlumatlar verir (20). A. Nyumandan fərqli olaraq R. Seyvori isə Səfəviləri fars adlandırmayaraq yumşaq davranır, lakin bütün əraziləri fars torpağı kimi göstərir (21). C. Hanvey (16) və L.

Lokkard (18) da məsələyə eyni istiqamətdən yanaşaraq İran və ya fars terminlərindən istifadə etməyi üstün tutur. Səfəvi dövləti haqqında məlumat verən görkəmli alim F. Sümer də İran coğrafi termininindən istifadə etmişdir (12).

Azərbaycan Səfəvilər İmperiyası tarixinə dair ilkin mənbələrdə onların türk əsilli olması və Azərbaycanda dövlət yaratması haqqında məlumatlar kifayət qədərdir. Görkəmli səfəvişünas Azərbaycan alimi Zabil Bayramov "Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu" adlı əsərində Məhəmməd Yusif Qəzviniyə istinadən yazır: "Şərur döyüşündən sonra İsmayıl darossəltəne-ye (paytaxt, mərkəz) Təbrizə üz tutdu və Azərbaycan şahlıq taxtına (təxte səltənete Azərbaycan) oturdu. Bütün Azərbaycan məmləkətində (dər təmam məmləkət-e Azərbaycan) onun adına xütbə oxundu, dinar və dirhəm zərb edildi" (2, 31). Buna bənzər ilkin qaynaqlara istinad verən Əhməd bəy Ağaoğlu yazır: "Səfəvilərin türk və Ağqoyunlu tayfasına mənsub olmalarına şübhə edilməz. Bunlara ilk əvvəl Ağqoyunluların yerləşdiyi sahədə təsadüf edirik. Sonra, bunlar ilk zamanlar yalnız türkcə danışırlar. Ərəbcə və farsca danışdıqlarına dair əlimizdə heç bir dəlil yoxdur. «Rövzətüs-Səfa» sahibi böyük Abbasın matəmini təsvir edərkən eynən deyir ki: «Sofiani Səfəvi ba nohavayi türki», yəni Səfəvi sufiləri cənazəni türkcə ilahilərlə yola salırdılar. Yenə eyni «Rövzətüs-Səfa»da Şah İsmayılın türkcə şerlərinə nümunə verildiyi halda, ərəbcə və farsca şer söylədiyi qeyd edilmir. Sonra bu zatın qurmuş olduğu dövlət təşkilatının həmən bütün adları, bir az sonra görəcəyimiz vəchlə xalis türkcədir." (1, s. 21). Əhməd bəy Səfəvilərin İmam Rzanın nəslindən olması fikrinin mövcud olması haqqında məlumat verərək bu fikrinə inanmadığını göstərməkdədir. O vurğulayır ki, Şah İsmayıl bu addımı ona görə atmışdı ki, ətrafına onu dəstəkləyəcək tərəfdar toplaya bilsin. Daha sonra Şeyx Səfiəddin İshaqdan Şah I İsmayıla qədər təfərrüatlı məlumat verən böyük mütəfəkkir Çaldıran döyüşünün nəticələri haqqında danışarkən bildirir ki, iki Türk dövlətinin arasında baş verən bu döyüşdə demək olar ki heç bir tərəf hər hansı bir xeyir əldə edə bilmədi (1, s. 17-18). Əhməd bəy Ağaoğlu vurğulayır ki, hər iki Türk dövləti Əli övladlarına qarşı sevgi göstərirdilər, lakin göstərmə şəkilləri fərqli idi.

İslam dininin şiəlik məzhəbi ilə bağlı məlumat verən Əhməd bəy Ağaoğlu yanlış olaraq bildirir ki, şiəlik rəsmi olaraq Şah I İsmayılın dövründə dövlət səviyyəsində qəbul olunub (1, s. 20). Halbuki, şiə təriqəti Elxanilər dövləti zamanı Sultan Olcaytu Xudabəndənin zamanında rəsmən dövlət səviyyəsində məzhəb kimi tanınmışdır. Hətta o, paytaxt Sultaniyədə tikdirdiyi Sultan Olcaytu adlandırılan türbəyə Hz. Hüseynin cəsədinin gətirilməsini istəmiş, Nəcəf əhalisi buna etiraz etmişdi (24, s. 637) Onun əsərlərinə diqqət yetirdikdə Elxanilər dövləti haqqında demək olar ki, heç bir məlumata rast gəlinmir. Ola bilsin ki, bu hal onun mövcud qaynaqları əldə edə bilməməsi ilə bağlıdır.

Şah I Təhmasib, Şah II İsmayıl və Şah Məhəmməd Xudabəndənin hakimiyyət illərində baş verən hadisələr haqqında məlumat verən Əhməd bəy Şah I Abbasın "Böyük" ləqəbini alan ilk hökmdar olduğuna diqqət çəkir. Həmçinin o, bu zaman baş vermiş siyasi proseslər haqqında geniş məlumat verir və Şah I Abbasın işğal olunmuş torpaqları bir-bir geri almasını detalları ilə birlikdə təsvir edir (1, s. 29). Əhməd bəy Şah I Abbasın etdikləri dəyişikliklər və gördükləri işlər haqqında danışarkən bildirir ki, bunların içərisində ikisi daha əhəmiyyətli idi. Bunlardan birincisi hərbidə islahatın aparılması və orduya topçu alayının gətirilməsi, ikincisi isə Hörmüzdə yerləşən Bəndər-Abbasın Portuqaliya işğalından təmizlənməsi idi. Şah I Səfi, Şah II Abbas, Şah I Süleyman və digər son Səfəvi şahlarının hakimiyyəti haqqında qısa məlumat verən Əhməd bəy Ağaoğlu bu dövlətin tənəzzülünün səbəblərini aydın formada göstərir. Ədib dövlətin çökməsinin əsas səbəbi kimi, quraqlıq, insanların eyş-işrətə və şəraba aludə olması, şahların zəifliyi və dövlət işlərinə zaman ayırmaması, şikayətlərə baxılmamasının olduğunu göstərir (1, s. 32-33).

Nadir şah Əfşar haqqında məlumat verən Əhməd bəy Ağaoğlu bildirirdi ki, o, İranın sərhədini qısa müddət ərzində Cənubi Qafqazın şimalına, Bağdada, Hindistana və Şərqi Türküstana qədər genişləndirdi. Əhməd bəy Nadir Şah haqqında yazırdı: "Xalqdan törəmiş olan bu türk çocuğu cəhalətinə və savadsızlığına baxmayaraq, türk vəhdətinin, türk sülhünün qiymət və əhəmiyyətini idrak etmişdi. Bu vəhdəti pozan Şiəliyə qarşı ədavət bəsləmişdi. Osmanlı

türkləri ilə daima sülh ilə keçinməyi lazım bilmişdi. Türklüyün hakim olduğu digər yerlərdə türk sülaləsinə toxunmadı. Tərsinə olaraq, yerində tutmaqla bərabər onlarla qohumluq qurmağa çalışdı. Öz sülaləsinin taleyini onların taleyinə bağlamağa çalışdı. Fəqət nə çarə ki, nə İstanbul, nə də Türküstandakı qəbilə rəisləri onu anlamadılar! İştə, bu anlaşılmamaq onun ruhunda dərin acılar oyandırdı və bu əzmkar adam bu acılarını şiddətli icraatları ilə, etdiyi qatlıyamlar və kəsdiyi başlar və burunlarla təskinlik tapdı." (1, s. 37).

Azərbaycanın xanlıqlar dövrünü "dərin uçurumlu 30 il" adlandıran Əhməd bəy Ağaoğlu daha sonra Qacarlar haqqında məlumat verir. Ağa Məhəmməd şah, Fətəli şah zamanında baş verən hadisələri təsvir edən Əhməd bəy çar Rusiyası və Qacarlar arasındakı müharibələr səbəbindən gerçəkləşən Gülüstan və Türkmənçay müqavilələrinin acı nəticələrini pisləyir. O yazırdı: "1813-cü ildə Gülüstan sülhnaməsi ilə bugünkü Qafqaz Azərbaycanı, İrəvan və Naxçıvan istisna edilmək üzrə Rusiyada qalır. Fəqət 1825-ci ildə aparılan digər bir müharibədə İran bu tərəfləri də qeyb edir və 1828-ci ildə əqd edilən Türkmənçay müqaviləsi ilə İran Qafqaz və Azərbaycanı tamamən itirir və üstəlik olaraq da üç milyon ingilis lirəsi təzminatla Bakı dənizi üzərində qüvvə saxlamağı qəbul edir." (1, s. 41). O, daha sonra Babilik hərəkatı və onun ardınca Müzəffərəddin Xan zamanında baş vermiş İran inqilabı haqqında məlumat verir.

Əhməd Ağaoğlunun siyasi, dini-fəlsəfi mövzuda yazdığı "Üç mədəniyyət" əsərinin kiçik bir hissəsi mədəniyyət tarixinə həsr olunmuşdur. Mədəniyyətin yaranma və inkişaf etmə səbəblərini izah edən böyük ədib onun inkişaf etməsinin əsas səbəblərindən biri hökmdarların elm və ədəbiyyat adamlarına qayğısının nəticəsi hesab edir. O Qəznəvilərdə Sultan Mahmudu, Elxanilərdə Hülakü xanı, Teymurilərdə Əmir Teymuru misal göstərir və bildirir ki, mədəniyyətin XII-XV əsrlərdə inkişaf etməsinin ən əsas səbəblərindən biri də bu hökmdarların elm və sənət adamlarına diqqətlə yanaşması, alimlərin bir yerə toplanması, abidələr üçün maddi vəsaitlərin ayrılması və sairədir (9). Əhməd bəyin "Sərbəst İnsanlar Ölkəsində" əsərində tarixi məqamlara rast gəlinmir (8). Onun iki əsəri – "İhtilal mi İnkılap mı" (5) və "Mütareke ve Sürgün Hatıraları" (7) memuar xarakteri daşıyır və dövrün siyasi, sosial, iqtisadi və mədəni həyatı haqqında məlumat almaq üçün əhəmiyyətli qaynaqdır. Adını çəkdiyimiz ilk əsərində Əhməd bəy Osmanlı imperiyasının çökməsi, türklərin milli mübarizəsi, bu mübarizə Atatürkün rolu, qurtuluş savaşı və bu zaman ölkədə siyasi-iqtisadi vəziyyət haqqında məlumat verir. Müəllif hadisələrin birbaşa şahidi olduğu üçün verdiyi məlumatlar da real və obyektivdir. Adını çəkdiyimiz ikinci əsər isə Əhməd bəy Ağaoğlunun sürgündə olarkən yaşadıqlarını əks etdirən memuar xarakterli əsərdir. Burada XX əsrin 20-ci illərinin Avropası haqqında ümumi təsəvvür yaradacaq məlumatlar əks olunmuşdur.

Əhməd bəy Ağaoğlunun "İslamiyyette kadın" adlı əsərində müvafiq tarixi məlumatlar əks olunmasa da çoxlu sayda etnoqrafik məlumatlara rast gəlinir. Müəllif türk qadınlarının İslamın qəbul edilməsindən öncəki zamanlarda sərbəst olduğunu yazır. O bildirir ki, yaşamış olduqları çətin şərait səbəbindən qadınlar güclü olmağa məcbur idilər. onlar kişilərin ən sadiq dostları idi. Əhməd bəy qeyd edir ki, İslamı qəbul edən türk – tatar qadınları digərləri kimi çarşaba bürünmədi, çünki, bu vəziyyət və ənənə onların düşüncəsi ilə tərs mütənasib idi. O əlavə edir ki, hətta XIII əsrdə səyahət edən İbn Bətutə belə türk qadınlarının sərbəstliyini görüb çaşbaş qalmışdı. Əhməd bəy Ağaoğlu türk - tatar qadınlarının bu qədər sərbəstliyə rəğmən olduqca ailəcanlı olmalarını və sərt xarakterli olmaqla bərabər təhsilə və yeni bilik öyrənməyə digər xalqların qadınlarına nisbətdə daha çox meyl etdiklərini yazmaqdadır. O, türk qadınlarının iti zehnini olduğunu, bu səbəblə də Ərəb Xilafətində yüksək vəzifələrə qədər ucaldıqlarını, hətta Xəlifə Harun Ər-Rəşidin anasının türk olduğunu da vurğulamaqdadır (6, s. 54-56).

Göründüyü kimi, müxtəlif məzmunlu əsərlər qələmə alan böyük azərbaycanlı mütəfəkkir Əhməd bəy Ağaoğlu öz araşdırmalarında tarixi məsələlərə də hər zaman yer ayırmış və ən əhəmiyyətli tarixi mövzuları qabartmağı üstün tutmuşdur. Onun əsərlərinin içərisində "İran və inqilabı" əsəri isə tamamilə tarixin araşdırılmasına həsr olunmuşdur. O bu əsərində indi də ən əhəmiyyətli olan tarixi qaynaqlardan geniş formada istifadə etmişdir. Həmçinin, yuxarıdakı məlumatlara nəzər yetirib belə qənaətə gəlmək

mümkündür ki, Əhməd bəy Ağaoğlu daxil olmaqla Avropa təhsili görmüş alimlərin coğrafi biliklərinin təməlində Antik Yunan-Roma coğrafiyaçıların əsərləri dayanır. Bu təsirinin nəticəsidir ki, onlar müasir dövrdə coğrafi əraziləri təsvir edib onlar haqqında təsəvvür yaratmaq üçün Əhəmənilər zamanında istifadə olunan Persiya termindən istifadə edirlər, yaxud da müasir nöqteyi-nəzərdən yanaşaraq İran kimi işlədirlər. Əhməd bəy Ağaoğlundan fərqli olaraq xarici tarixçilər Persiyanı fars kimi nəzərdə tutur və bu əraziləri fars torpağı adlandırırlar. O isə həqiqəti ilkin mənbələr əsasında əks etdirərək bu ərazilərin türk torpağı olduğunu dəfələrlə vurğulayır. Buna rəğmən Avropa təhsilinin nəticəsi olaraq "İran" termindən istifadə doğru olmadığı qədər də ilkin mənbələr ilə öz təsdiqini tapmamışdır. Böyük alimimizin irsinin araşdırılması sadəcə tariximiz üçün deyil elə bu günümüz üçün də əhəmiyyətlidir.

**Ədəbiyyat siyahısı**


1. Ağaoğlu Ə. İran və inqilabı, Bakı, Azərnəşr, 2009, 152 s.
2. Bayramlı Z. H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, "Avropa", 2015, 348 s.
3. Aka İ. İran`da Türkmen hakimiyeti. İstanbul, Türk tarih Kurumu yayınları, 2001, 102 s.
4. Akalın G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Bakı, AzAtaM, 2004, 135 s.
5. Ağaoğlu A. İhtilal mi İnkılap mı. Ankara, Alaeddin Kral Basınevi, 1942, 73 s.
6. Ağaoğlu A. İslamiyyette kadın. Ankara, Birey ve toplum yayıncılık, 1988, 60 s.
7. Ağaoğlu A. Mütareke ve Sürgün Hatıraları. İstanbul, Doğu kitapevi, 2010, 163 s.
8. Ağaoğlu A. Serbest İnsanlar Ülkesinde. Ankara, Sanayi nefise matbaaı, 1930, 128 s.
9. Ağaoğlu A. Üç Medeniyet. İstanbul, Doğu kitapevi, 2013, 112 s.
10. Ebu Bekr-i Tihrani. Kitab-i Diyarbekriyye. Çevr. M. Öztürk. Ankara, Türk Tarih Kurumu yayınları, 2014, 418 s.
11. Gündoğdu A. Ümmetten Millete. İstanbul, IQ Kültür Sanat Yayıncılık, 2007, 352 s.
12. Sümer F. Safevî devletinin kuruluşu ve gelişmesinde Anadolu Türklerinin rolü. Ankara, Twrk Tarih Kurumu yayınları, 1999, 265 s.
13. Nizamüddin Şami. Zefername. Çevr. N. Lugal. Ankara, Türk Tarih Kurumu yayınları, 1987, 399 s.
14. Audrey L. Altstadt. The Azerbaijani Turks: power and identity under Russian rule. Stanford, 1992, 331 p.
15. Georgeon F. Passé turco-tatar, présent soviétique: études offertes à Alexandre Bennigsen. Paris: Editions Peeters, 1986, 566 p.
16. Hanway J. An historical account of the British trade over the Caspian Sea: with the author's journal of Travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. Vol.-I, London, Pater-Noster Rov, 1753, 411 p.
17. Lambton A.K. Continuity and Change in Medieval Persia. Aspects of Administrative, Economic and Social History, 11th-14th Century, Bibliotheka Persia, London, İ. B. Tuaris, 1988, 425 p.
18. Lockhart L. The fall of the Safavi dynasty and the afghan occupation of Persia. Cambridge, Cabridge University Press, 1958, 584 p.
19. Morgan D. O. Medieval Persia (1040 – 1797). New York: Longman Inc., 1988, 197 p.
20. Newman A.J. Safavid İran Rebirth of a Persian Empire. London, İ. B. Tuaris, 2006, 281 p.
21. Savory R. M. İran under the Safavids. Cambridge, Cambridge University Press, 1980, 277 p.
22. Shissler A. Holly. Between Two Empire. Ahmet Ağaoğlu and the New Turkey. London, I.B.Tauris Publishers, 2002, 280 p.
23. Storey C. A. Persian literature: a bio-bibliographical survey. Volume 1. Part 1. Sec. I: Qurʾānic Literature. London: Luzac and Co., 1927, p. 1-60; Sec. II: History, fasc. 1. A. General History. B. The Prophets and Early Islam, London: Luzac and Co., 1935, p. 61–236; Fasc. 2. C-L. Special Histories of Persia, Central Asia and the remaining parts of the world except India. London: Luzac and Co., 1936, p. 237-432; Fasc. 3 History of India.

London: Luzac and Co., 1939, p. 433-780; Part. 2. Biography. Additions and corrections. Indexes. London: Luzac and Co., 1953, p. 781-1444.

24. The Cambridge History of Iran. Volume 5. The Seljuk and Mongol periods / Edited J. A. Boyle. Cambridge: Cambridge University Press, 1968, 709 p.

25. The Geography of Strabo. With and English translation by Horace Leonard John. In eight volumes. Vol 1. London, William Heineman, 1961. 531 p.

26. The Voyages and Travels of the Ambassadors, Adam Olearius, translated by John Davies. London, Temple Barr, 1662, 610 p.

## Summary

**Maryam Seyidbayli, Bayram Quliyev**

### An overview of the historical data of the works of Ahmed Bey Agaoglu

The paper deals with the historical data existing in the work of Ahmed bey Agaoglu who was a prominent Azerbaijani and naturalized Turkish politician, publicist and journalist. All of the works and some of them translations had been used for the getting the scientific conclusion. There are many historical facts and analyses in the work of Ahmed bey Agaoglu including “Üç Medeniyet” (“Three civilizations”), “İslamiyyette kadın” (“Woman in the Islamic World”), “İran ve İnkılabı” (“The Iranian Revolution”) etc. Analyzing the materials of these books, the materials of the work of Ahmed bey Agaoglu on the history should divide into two part: materials on the world history and materials on the Azerbaijani history. The work of A/ Agaoglu titled “The Iranian Revolution” is completely dedicated to the history of Azerbaijan covering the XIV-XIX centuries.

***Keywords:*** *Ahmed Bey Agaoglu, History of Azerbaijan, The Russian Empire, Ottoman Empire, “Iran and Revolution”*

## Резюме

**Марьям Сеидбейли, Байрам Гулиев**

### Обзор исторических данных в работах Ахмед Бея Агаоглы

Статья посвящена обзору исторических данных, содержащихся в работах выдающегося азербайджанского и турецкого политика, публициста и журналиста Ахмед Бея Агаоглы. Всего его произведения, а также переводы некоторых из них получили в статье научное обоснование. В таких трудах Ахмед Бея Агаоглы, как «Üç Medeniyet» («Три ивилизации»), «İslamiyyette kadın» («Женщина в исламском мире»), «İran ve İnkılabı» («Иран и революция»), содержится много исторических фактов, подвергнутых глубокому анализу. В результате рассмотрения этих книг, автор разделяет весь содержащийся в них материал на две группы: материалы по мировой истории и материалы по истории Азербайджана. Работа А.Агаоглы «Иран и революция» полностью посвящена истории Азербайджана XIV-XIX веков.

***Ключевые слова:*** *Ахмед-бек Агаев, История Азербайджана, Российская империя, Османская империя, “Иран и революция”*

UOT 94(479.24)

**ГУСЕЙН РАГИМЛИ**
*Доктор философии по истории,*
*МИД Азербайджанской Республики, Азербайджан*
*dr.rahimli@gmail.com*

# О НЕКОТОРЫХ АСПЕКТАХ АНГЛО-РОССИЙСКОГО СОПЕРНИЧЕСТВА В РЕГИОНЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII ВЕКА

***Ключевые слова:*** *держава, соперничество, дипломатическая деятельность, влияние, торговые связи, империя*

Во второй половине XVIII века сложная международная обстановка в регионе и непрестающее соперничество наиболее сильных государств явились одним из главных препятствий для азербайджанского народа на пути преодоления внутреннего и внешнего кризиса собственными силами. Желание некоторых азербайджанских ханов создать централизованное государство на Кавказе шло вразрез с интересами как российского самодержавия, так и шахских властей, и, исходя из своих национально-колониальных интересов крупные региональные державы всячески препятствовали реализации подобного рода планов местных правителей.

Вызвавший осложнение международной обстановки как на Ближнем, так и Среднем Востоке развал Сефевидского государства способствовал тому, что воспользовавшись создавшейся благополучной ситуацией, Российская и Османская империи, овладели частью территорий некогда входящих в состав азербайджанского государства Сефевидов. В условиях вакуума власти и воцарившегося хаоса на этих территориях выдвинулся энергичный, талантливый полководец Надир хан, который к концу 20-х, началу 30-х годов XVIII века на волне народно-патриотического движения, одержав ряд побед над афганцами и турками, смог установить свою власть над ранее захваченными ими территориями, а также заставить Российскую империю добровольно отказаться от прикаспийских провинций. Воодушевленный победами Надир хан в 1736 году на Муганском курултае, провозгласив себя шахом, объявил Мешхед столицей своего государства, а крепость Келат сделал опрой шахской семьи (11, с.316). Приблизительно с этого времени произошедшие перемены во внешней политике государства Надир шаха переносу военных действий за пределы Ирана, а также захвату шахскими войсками Средней Азии, Курдистана, ряда арабских территорий и Южного Кавказа (13, с.45-47). Русский резидент в Иране В.Братищев, в 1746 году описывая сопровождавшиеся грабежами, разорением покоренных государств, а также жестокой эксплуатацией самого иранского населения, военные походы иранского правителя, доносил: «… таких городов во всей Персии, исключая Мешхеда, уже нет, которые бы в пору против прежнего при моей памяти жилье предоставили, но паче от времени до времени здешнее обитание до подошвы разоряются» (5, с.235). Жестокая эксплуатация, голод и дороговизна вызывали ненависть арабских племен Маската и бахрейна и поднимали их на борьбу против жестокой налоговой политики шахских властей. Повстанческая борьба против шахского владычества в течении трех с небольшим лет с перерывами продолжалась и в Гиляне. Крупное антииранское восстание вспыхнуло в Ширване и Дагестане. Выступления имели место также в Средней Азии, Фарсе, Афганистане, Кирмане и Систане (5, с.215). Носившие наиболее ярко выраженный народно-освободительный характер восстания в Средней

Азии, Азербайджане и арабских областях сыграли значимую роль в распаде иранского государства, а отчаянные попытки Надир шаха удержать ранее завоеванные владения не увенчались успехом.

Во второй половине XVIII века, в особенности после гибели в 1747 году Надир шаха одним из реальных претендентов включившихся в активную борьбу за Южный Кавказ, была Российская империя, которая с точки зрения социально-экономического развития во многом превосходила своих основных противников в регионе. Хотя в изучаемый период Российская империя и продолжала оставаться аграрной страной, в которой господствовали феодально-крепостнические отношения, а также существовала монополия феодалов на землю, тем не менее здесь шел процесс разложения феодализма, в недрах которого развивались капиталистические отношения и прослеживался рост производительных сил (18, с. 163-165). Так, с началом царствования Петра I Российская империя в результате ряда социально-экономических, политических и культурных преобразований начала превращаться в мощную державу. По мере роста экономического могущества укреплялся и международный авторитет Российского государства, и уже с начала XVIII века она, активизировав свою внешнеполитическую деятельность, стала играть важную роль в международных делах. Особенно после завершения Северной войны со Швецией (1700-1721) и заключения Ништадского мира ведущие державы мира не могли уже не учитывать позицию царизма в международных делах (19, с.59).

К этому времени Российская империя стала уже намного опережать своих основных политических оппонентов на Кавказе и в отношении военной мощи. Высокий уровень металлургической промышленности давал возможность обеспечить армию огнестрельным вооружением. Разбросанные по всей территории российские военные заводы в год выпускали от 25 до 30 тысяч огнестрельных ружий, несколько сот орудий, большое количество боеприпасов (18, с.310). Российская армия с ее пехотой, артиллерией, кавалерией и флотом была одной из сильнейших даже в Европе. Опираясь на сильную армию, российское самодержавие стало осуществлять достаточно агрессивную политику, что в результате привело к значительному расширению границ империи. Подтверждением тому может служить тот факт, что в XVII-XVIII веках территория Российской империи расширялась в сутки в среднем на 130 км (7, с. 125; 16, с.25) и в конце XVIII века составила 14.455.124 кв.верст, где проживало 17.815.000 человек (18, с.45).

Вместе с тем во второй половине XVIII века значительный рост международного престижа Российской империи способствовал тому, что ни один важный международный вопрос в Европе не решался без ее участия. Удачные действия российских войск в Семилетней войне (1756-1763), в том числе ряд блестящих побед русской армии под командованием П.А.Румянцева над прусскими войсками, в достаточной степени укрепили авторитет российской армии в глазах западноевропейских государств. Однако с приходом к власти Петра III военные действия в Пруссии были прекращены, и российская армия была отозвана (12, с.12). Хотя участие Российской империи в Семилетней войне не дало ей территориальных приобретений, тем не менее победы над прусскими войсками усилило ее позиции на международной арене и воодушевило на осуществление завоевательных планов на Востоке, в том числе на Кавказе. Вместе с тем, несмотря на ряд преимуществ перед своими основными политическими оппонентами в борьбе за овладение Южным Кавказом, российские правящие круги принимали в расчет то, что без поддержки ведущих европейских государств Российской империи будет не очень-то легко рассчитывать на скорейшую победу и реализацию намеченных планов относительно «кавказского узла».

В изучаемый период основные задачи внешней политики Российской империи определялись защитой ее интересов в Польше, а также на Черном и Каспийском морях. Однако укрепление позиций царизма в этих превратившихся в значительной степени

объект международного соперничества регионах, несомненно, вызвало бы сильное противодействие со стороны Османской империи и в итоге привело бы к открытой конфронтации с султанским двором.

Тем не менее к достижению намеченных планов Российская империя приступила с одобрительного согласия Великобритании. Сравнительный анализ имеющихся актов дает основания полагать, что в 60-80-х годах XVIII века отношение английской дипломатии к завоевательной политике Российской империи на Среднем Востоке было относительно спокойным (22, с.4). Однако в первые годы правления Екатерины II Российская империя стала активно вмешиваться в польские дела, где вскоре представился благоприятный случай для открытого вторжения. Так, после смерти польского короля Августа III в 1763 году, императрица Екатерина II выдвинула на пустующий польский престол кандидатуру Станислава Понятовского. В создавшейся ситуации, дабы не допустить усиления влияния Российской империи в Польше, Франция и Австрия стали подстрекать Османскую империю начать войну против Российской империи, а обращения же польских дворян за помощью к султанскому двору дало возможность османским властям вступить в открытую борьбу (2, с.345-346). Несмотря на противодействие Османской империи и ее западных «покровителей», российской дипломатии все-таки удалось разрешить вопрос в свою пользу. Так, в 1772 году официальный Петербург пошел на заключение с Пруссией и Австрией договора о разделе территории Польши, по условиям которого находившиеся в Варшаве, Белоруссии и Украине российские войска выступали в качестве гаранта вышеупомянутого соглашения. В 1778 году же, присутствие российских войск в Польше было узаконено Сеймом (10, с.279). В дальнейшем Российской империи также удалось одержать ряд крупных побед над Османской империей и претворить в жизнь почти все намеченные захватнические планы.

Вместе с тем, внимательно отслеживая события происходящие как в Европе, так и на восточном направлении, Англия, используя свое промышленное и финансовое могущество, была в состоянии оказывать ощутимое влияние на ход международных событий, а также продолжала укреплять свое господство над колониями и расширять заморские владения. В этом направлении английские колонизаторы уделяли существенное значение захвату опорных пунктов в стратегически важных точках планеты, а также прилагали усилия по созданию на этих территориях мощных военно-морских баз. Заметное влияние Англии на международные дела объяснялось не только вступление ее раньше других государств на путь индустриального развития, но и умением прибегать к политическим маневрам, в том числе разнообразием политико-дипломатической борьбы.

В течении всего XVIII века, за исключением отдельных периодов, английская дипломатия по отношению к Российской империи занимала в достаточной степени враждебную позицию. Как верно отмечает О.П.Маркова, «не воюя с Россией явно, Англия вела постоянную скрытую борьбу, стремясь задержать ее рост, ослабить и свести на роль второстепенной державы» (14, с.19; 16, с.37).

Английская буржуазия хорошо понимала масштаб возможностей, которые могут открыться перед российской дипломатией с приобретением выхода к морям и любыми средствами пыталась воспрепятствовать этому процессу (14, с.18; 1, с.137). Примером тому может служить англо-российский торговый договор, заключенный в декабре 1734 года сроком на 15 лет (21, с. 25). В упомянутом документе особое место отводилось восьмой статье, на основе которой английские купцы получали право и возможность торговать с Ираном посредством территорий Российской империи. Именно эта статья договора открыла путь англичанам на Южный Кавказ и предоставляла хорошую возможность усилить свои позиции в бассейне Каспийского моря. Укрепившись в этом регионе, английская дипломатия могла бы активно препятствовать и предотвратить вторичное завоевание прикаспийских областей российским самодержавием, а также

сдерживать распространение ее влияния далее на юг и одновременно использовать территорию Азербайджана в качестве плацдарма для проникновения в соседние государства (17, с.109). Так, с 1739 года англичане через волжско-каспийский путь начали заваливать иранский рынок товарами собственного производства (4, с.75-76) и, превратившись в основных конкурентов российского купечества, одновременно стали предпринимать ряд соответствующих мер, направленных на осложнение отношений между Российской империей и шахским двором, в том числе предприняли попытку спровоцировать конфликт между двумя государствами: а именно согласно инструкциям из королевской канцелярии английский военный контингент во главе с капитаном Эльтоном принялся инструктировать и оказывать всяческую помощь шаху строить военные корабли (4, с.76-77). Возможность появления иранской военной флотилии в бассейне Каспийского моря сильно встревожило российские деловые круги и вызвало обеспокоенность у военного командования, что было отражено в их рапорте российскому императорскому двору: «И когда персияне из этого флота себе и государственной безопасности пользу извлекут и тогда пусть и Надир шаха не будет, а охота флот содержать у них останется...» (3, д.1, лл.237-237 об.). Подрывая российскую торговлю и тем самым нанося вред купечеству в Азербайджане и Иране, английская дипломатия с целью воспрепятствовать плаванию российских судов на Каспии стала предпринимать действенные шаги в этом направлении, что в результате заставило российскую сторону пойти на жесткие меры, что 23 ноября 1746 года привело к тому, что власти в Петербурге в одностороннем порядке аннулировав восьмую статью договора от 1734 года, запретили английским купцам посредством российских владений следовать далее в Иран (17, с.140). Вышеперечисленные факты еще раз доказывают необоснованность существующей в исторической литературе мнения о том, что якобы до последнего десятилетия XVIII века Англию не беспокоили восточные дела, и она не проявляла особой активности на Ближнем и Среднем Востоке. Как справедливо отмечает О.П.Маркова, «с начала захватов в Индии и возникновения упорной борьбы за шелковый рынок Ирана, британская корона стала уделять восточным делам повышенное внимание. Английская буржуазия гораздо раньше начала интересоваться связями Российского государства с Кавказом и положением русских на Каспийском, Азовском и Черных морях» (14, с.20).

Лишившись прибыльной торговли с Ираном, английская дипломатия активизировала свою деятельность как в Центральном и Юго-Западном Иране, так и в Персидском заливе, в том числе в зоне османского влияния. Организованная в 1600 году и просуществовавшая вплоть до 1858 года, имевшая в своем распоряжении первоклассный флот, сильную армию и возможность оказывать давление на свое правительство английская Ост-Индская компания, сыграла существенную роль в проведении британской колониальной политики в Индии, Иране, Ближнем Востоке и в других частях света. Вместе с тем победа в Семилетней войне способствовала заметному укреплению позиций британского торгового капитала на Ближнем и Среднем Востоке, в районе Персидского залива и Иране, в том числе в прикаспийских областях. В результате этой войны Англии удалось ослабить позиции своего основного соперника – Франции, и тем самым вытеснить ее из Канады и Луизианы, а также прибрать к рукам французские колонии в Индии. После победы в Семилетней войне англичане смогли занять доминирующее положение не только в Индии, но и стали проявлять активный интерес к Ирану и Азербайджану: эти территории представляли важность английской стороне не только с точки зрения укрепления позиций на подступах к Индии, но и в качестве рынка сбыта и доступа к источникам сырья, что в первую очередь давало возможность вывозить, необходимый для обеспечения нужд английской текстильной промышленности, шелк-сырец (9, с.69). Подтверждением тому может служить тот факт, что в 1763 году англичане получили от правительства Керим хана ряд исключительных прав и

Naxçıvantəpə qədim yaşayış yerinin bir qrup keramikasında barmaq basmalarının simmetrik yerləşdirilməsinə cəhd edilmiş, lakin qablar əldə hazırlandığından bu simmetriya bəzən pozulmuşdur. Naxışlar qabların ağız hissəsindən bir qədər aşağıya doğru bir-birinə yaxın şəkildə tətbiq olunmuşdur. Batıqların ölçüsü barmaq ucu ölçüsü qədər və yaxud bu ölçüdən müəyyən qədər kiçikdir. Barmaq basmaları bir-birindən icra üsuluna görə fərqlənirlər. Ornamentlər bəzən dairəvi (Şəkil 3, 2; 1, şəkil 81, 1), bəzən də ovalşəkillidir (Şəkil 3, 1; 1, şəkil 73, 5). Bir qrup gil qab qırıqlarının üzərindəki basma naxışların düzülüşü şaquli istiqamətdə, bir-birinə paralel icra olunmuşdur (Şəkil 2, 1-5; 1, şəkil 86, 5; şəkil 87, 1; şəkil 105, 1; şəkil 186, 2, 5). Bu üsulla naxışlanmış keramika Sonqar Vadisi (14, təs. 3), Dalma Təpə (11, Pl. II, b, 1), Seh Gabi B (9, p. 242-251, fig. 49-54), Təpə Siahbid (10, fig. 104), Çoga-Maran (10, fig. 105), Lavin Tepe (13, fig. 9, 172; fig. 10, 1069), yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı da aşkar olunmuşdur.

Digər bir qrup keramikanın üzərindəki barmaq basmaları isə çəpəki və bir-birinə paralel şəkildə tətbiq olunmuşdur (1, şəkil 81, 1, 3; şəkil 186, 1, 3). Bəzi gil qablarda isə barmaq basmaları assimetrik və qarışıq şəkildə tətbiq olunmuşdur (1, şəkil 89, 1; şəkil 101, 3; şəkil 162, 3; şəkil 164, 2; şəkil 173, 5; şəkil 174, 7; şəkil 179, 2; şəkil 180, 4; şəkil 183, 3; şəkil 187, 4, 5; şəkil 189, 1, 2; şəkil 191, 1). Bu tip bəzəmələr Sonqar Vadisi (14, təs. 3; təs. 5), Lavin Təpə (13, fig. 9, 1021, 1023; fig. 10, 1, 1069), Dalma Təpə (12, fig. 1; PL. II, b, 5; d, 1, 2, 5; fig. 8, c, d), Seh Qabi B kimi qədim yaşayış yerlərindən tapılmış qabların naxışları ilə bənzərdir (10, fig. 49, 1-7, fig. 50, 1, 3-6, 9; fig. 52, 1, 2; fig. 53, 2-4;).

Naxçıvantəpə yaşayış yerindən aşkar olunmuş gil qabların bir qrupunun üzərindəki barmaq basmaları keramikanın üzərinə üfiqi xətt boyunca, asimmetrik olaraq tətbiq olunmuşdur (Şəkil 2, 1; 1, şəkil 89, 3; şəkil 99, 3; şəkil 167, 3; şəkil 170, 2; şəkil 176, 6; şəkil 183, 4; şəkil 186, 4; şəkil 187, 1, 2, 3). Bu naxışların paralellərinə Sonqar Vadisi (14, fig. 4; fig. 5), Hacı Firuz (15, fig. 20, b, d, e), Təpə Siahbid (10, fig. 104, 2-6; fig. 105, 1-3; fig. 50, 2, 10; fig. 51, 1, 2) qədim yaşayış yerlərindən aşkar olunan keramika nümunələrində də rast gəlinmişdir.



***Şəkil 2.*** Basma naxışlı keramika (Naxçıvantəpə).

Bəzi gil qablarda üfiqi xətt boyunca, bir-birinə paralel düzülmüş barmaq basmaları bir-birinə bitişik şəkildədir (Şəkil 2, 2; 1, Şəkil 173, 3).

Naxçıvantəpə abidəsindən tapılmış keramika nümunələrindən bəzisinin yalnız oturacağı, bəzən həm oturacağı, həm də gövdə hissəsi barmaq basmaları ilə naxışlanmışdır (1, şəkil 93, 5). Barmaq basqısından əlavə bu qabların bəzisi həm içəridən, həm də xaricdən qırmızı boya ilə örtülmüş və mükəmməl sənət əsərinə çevrilmişdir. Bu tip naxışlama üsulu Hacı-Firuz yaşayış yerindən də məlumdur (15). Ümumiyyətlə, Eneolit dövrü keramikasında gil qabların oturacaq hissəsinin naxşlanmasına çox az rast gəlinir. Naxçıvantəpədən tapılmış bu keramika nümunələri nadir sənətkarlıq əsərlərindəndir.

Naxçıvantəpə yaşayış yerindən aşkar olunmuş keramikanın araşdırılması zamanı məlum olmuşdur ki, barmaq basmaları həmçinin, kəmərşəkilli, qulpşəkilli qabartmalara da tətbiq olunmuşdur. Belə qablardan birinin gövdəsi bir qədər qabardılaraq  ağız hissəsindən fərqləndirilmişdir. Qabın qabardılmış hissəsi aşağıya doğru, sıx yerləşdirilmiş barmaq basmaları ilə naxışlanmışdır (1, şəkil 99, 4). Bu qab hələlik bir nümunə ilə təmsil olunmuşdur.

Digər keramika nümunəsinin üzəri ensiz yastı kəmərlə əhatələnmiş, kəmər ortadan içəriyə doğru yığılmış və hər iki tərəfi barmaq basması ilə naxışlanmışdır (1, şəkil 91, 4). Bu gil qab parçası da bir nümunə ilə təmsil olunmaqdadır. Araşdırmalar göstərir ki, bu tip naxışlar Erkən Eneolitin sonunda, e. ə. V minilliyin ortalarına yaxın meydana çıxmışdır.

Naxçıvantəpə qədim yaşayış yerindən tapılmış gil qab parçalarından birində ensiz, uzunsov qulaqcıqşəkilli çıxıntı var. Qulaqcıqşəkilli çıxıntının ətrafı barmaq basmaları ilə qarmaqarışıq naxışlanmışdır (1, şəkil 165, 3). Bir nümunə ilə təmsil olunmuş bu gil qab parçası Erkən Eneolit mərhələsində yeganə tapıntıdır. I Kültəpə abidəsindən Neolit dövrünə aid edimiş gil qablarda buna bənzər qulqaqcıqşəkilli çıxıntılara rast gəlinmişdir (4, Tablo X, 13). Bu tip qabartmalar Uzunoba (7, c. 108-121, рис. 5. 1), Xələc (3, s. 64, foto 56) və  Culfa Kültəpəsindən (8, fig. 13, 1-4, fig. 15, 3) məlum olsa da Naxçıvantəpədən aşkar olunan keramika onlardan barmaq basqısının olması ilə fərqlənir.

Gil qab parçalarından birinin gövdə hissəsi böyük ölçülü barmaq basması ilə naxışlanmışdır (1, şəkil 111, 1). Dalma Təpə üslubunda barmaq basmaları ilə naxışlanmış qablar Naxçıvanda Orta Eneolit dövründə tətbiq olunsa da Son Eneolit dövründə bu tip ornamentasiya müşahidə olunmamışdır. Amma qabarıq kəmər üzərində yapılan barmaq basmaları və qulaqcıqşəkilli qabartmalar Son Eneolit və Tunc dövründə öz əhəmiyyətini itirməmişdir. Bu tip naxışlar sonrakı dövrlərdə də gil qablara tətbiq olunmaqda davam etdirilmişdir.

Müxtəlif ucluqlu alət basmaları.Naxçıvantəpə yaşayış yerindən əldə olunmuş gil qab parçalarının bir qrupu yuvarlaq, oval, üçkünc ucluqları olan alətlə basma üsulu ilə naxışlanmışdır. Barmaq basmalı gil qablarda olduğu kimi müxtəlif alətlə naxışlanmış gil qab parçalarının da xarici səthindəki naxışlar fərqli kompozisiyada tətbiq olunmuşdur.

Oval ucluqlu alət basmaları.      Naxçıvantəpə yaşayış yerindən tapılmış gil qab parçalarından bir qrupu kiçik ölçülü oval ucluqlu alətlə naxışlanmışdır. Naxışlar qrup halında yerləşdirilmişdir (1, şəkil 74, 4). Keramikanın biri ağız hissədən bir qədər aşağıya doğru bir-birinə paralel yerləşdirilmiş bir neçə cərgə ovalşəkilli basma ornamentlə bəzədilmişdir (Şəkil 2, 3). Digər bir qabın ağızının altı çevrə boyunca oval ucluqlu alətin basqısı ilə naxışlanmışdır (1, şəkil 74, 1). Keramika parçalarından biri şaquli istiqamətdə, simmetrik yerləşdirilmiş oval basmalarla naxışlanmışdır (Şəkil 2, 5; 1, şəkil 105).

Üçbucaq ucluqlu alət basmaları. Üçbucaq ucluqlu alət basmaları ilə icra olunmuş naxışlar da Naxçıvantəpə yaşayış yerindən tapılmış gil qabların səthinə müxtəlif kompozisiyada tətbiq olunmuşdur. Üçbucağın təpə nöqtəsi qablarda fərqli istiqamətdə tətbiq olunmuşdur. Üçbucaqların təpə nöqtəsi bəzi qablarda sol tərəfə, bəzilərində yuxarı, digərlərində isə sağa doğru çəpinə yönləndirilmişdir. Qablardan birinin xarici səthi üfiqi istiqamətdə üçbucaq basmalarla naxışlanmışdır (1, şəkil 78, 2; şəkil 164, 5; şəkil 168, 2, 3, 4). Naxışlar bəzən qabların gövdəsinin aşağı hissəsini əhatə etmişdir (şəkil 9, 1; 1, şəkil 78, 4). Bu nümunədə üçbucaqların təpə nöqtəsi sağa doğru çəpinə istiqamətləndirilmişdir. Gil qab parçalarının bir qrupu ağız hissədən bir bir qədər aşağıya doğru qabın xarici səthi

boyu üfiqi istiqamətdə bir-birinə paralel basmalarla naxışlanmışdır (Şəkil 2, 4; 1, şəkil 79, 5; şəkil 98, 4; şəkil 100, 4; şəkil 106, 2, 3). Bu qablarda üçbucaqların ucu sola doğru, birində isə yuxarıya doğru istiqamətləndirilmişdir (1, şəkil 106, 3). Keramika nümunələrindən birinin xarici səthinə tətbiq olunan basma üçbucaqlar şaquli istiqamətdə yerləşdirilmişdir (Şəkil 2, 6). Burada üçbucaqların ucları fərqli istiqamətlərə yönləndirilmişdir.

Daraq basmaları. Naxçıvantəpənin Erkən Eneolit dövrü gil qablarının naxışlanmasında daraqşəkilli alətdən də istifadə olunmuşdur. Digər alətlərlə bərabər daraqşəkilli alət bu günə kimi tapılmamışdır. Basma naxışların digərləri kimi daraq basmaları da keramikanın səthinə fərqli kompozisiyalarda tətbiq olunmuşdur. Onlar bəzən qarışıq şəkildə yerləşdirilmiş, bəzən isə müəyyən kompozisiyada yerləşdirilməklə zövqoxşayan ahəngdar görünüş yaratmışdır.

Naxçıvantəpənin Erkən Eneolit dövrü qablarını bəzəyən daraq dişlərinin sayı olduqca müxtəlifdir. Bu dişlərin sayı 32-yə qədər arta bilir. Bu cür bəzəməli qabların hamısı yalnız parçalardan ibarətdir. Demək olar ki, hər qab nümunəsinin yalnız bir parçası aşkar olunduğundan onları bərpa etmək də mümkün olmamışdır. Keramika nümunələrinin qabın yalnız bir, kiçik hissəsinə aid olmasına baxmayaraq həmin dövrün sənətkarlığı və bədii zövqü haqqında müəyyən fikir demək mümkündür. Gil qab parçalarından birinin səthi tamamilə sağa doğru əyilmiş maili xətt boyunca naxışlanmışdır (1, şəkil 70, 4, s. 138; şəkil 80, 1, s. 148; şəkil 94, 3, s. 162; şəkil 180, 1). Daraq basqıları iki dəfə olmaqla bir-birinə paralel vurulmuş, növbəti gedişdə isə digər ucdan başlanmışdır. Daraq dişlərinin sayı 12 ilə 30 arasında dəyişir. Digər bir nümunənin üzərindəki daraq basmaları sola doğru əyilmiş (Şəkil 1, 4) başqa birində isə şaquli xətt boyunca bir-birinə paralel 8-12 dişli daraqla naxışlanmışdır. Naxışların çəkilməsində bəzən simmetrikliyə əməl olunmamışdır (1, şəkil 80, 5). Bəzi nümunələrdə daraq basmaları sağa əyilmiş şəkildədir (1, şəkil 88, 6; şəkil 178, 3).

Keramikanın bir qrupunda daraq basmaları qabın xarici səthinə qarışıq şəkildə tətbiq olunmuşdur (1, şəkil 92, 1, s. 160; şəkil 96, 2, s. 164), bəzilərində isə həm şaquli, həm də üfiqi istiqamətdə düzülmüş ardıcıl daraq basqılarına da rast gəlinmişdir (1, şəkil 101, 1). Qablardan birində daraq basmaları şaquli xətt boyunca (1, şəkil 106, 4), digərində isə dişləri 15 ilə 17 arasında dəyişən darağın basqısı ilə bir-birinə azacıq perpendikulyar şəkildə tətbiq olunmuşdur (1, şəkil 179, 1). Bəzi nümunələr isə yalnız üfiqi xətt boyunca naxışlanmışdır (1, şəkil 110, 3; şəkil 163, 2; şəkil 191, 2). Gil qab qırıqlarından birində daraq basmaları həm şaquli, həm də üfiqi istiqamətdə bir-birinə paralel olaraq ardıcıl, səlis düzülmüşdür (1, şəkil 176, 3). Bu nümunədə daraq basqıları qabın ağzına çox yaxın hissədən başlayır və aşağıya doğru təkrarlanır. Daraq basmaları ilə naxışlanmış analoji bəzəkli gil qablara Dalma Təpə yaşayış yerindən aşkar olunmuş materiallarda da rast gəlinmişdir (12, fig. II, b, d).

Darama naxışlar. Keramika nümunələrinin bir qismi daraq dişlərinin basqısı ilə deyil, daraqşəkilli alətin üfiqi, bəzən isə şaquli istiqamətdə çəkilməsi ilə yaradılan naxış effekti ilə bəzədilmişdir. Bu keramika məmulatının hazırlanma texnologiyası ilə bağlı olmuşdur. Qabların üzərinə yeni gil təbəqəsini yaxşı bitişdirmək üçün altdakı lay daraqlanmışdır. Bu sınıq qab parçalarında özünü aydın şəkildə göstərir.

Naxçıvantəpənin Erkən Eneolit dövrü keramikasına tətbiq olunmuş darama naxışlar darqşəkilli alətlə icra olunmuşdur (1, şəkil 184, 5; şəkil 185, 3; şəkil 190, 1). Bu tip daramalar gil qabların həm daxili (1, şəkil 102, 3; şəkil 178, 4; şəkil 110, 1; şəkil 190, 1; şəkil 102, 4), həm də xarici səthinə tətbiq olunmuşdur (Şəkil 1, 4; 1, 1, şəkil 102, 3, 4; şəkil 110, 1; şəkil 168, 4; şəkil 178, 4). Gil qab parçalarından birinin xarici səthi bir-birinə perpendikulyar şəkildə daranmışdır (1, şəkil 104, 3). Daxili səthi daraqla daranmış gil qablar Sonqar Vadisindən (14, fig. 7, 8), xarici səthi daranmış qablar isə Culfa Kültəpəsinin VIII-VII təbəqələrindən aşkar olunmuşdur (8, fig. 9, 1).

Boya ilə çəkilmiş naxışlar. Naxçıvantəpədən əldə olunmuş keramika məmulatının bir qismi boya ilə bəzədilmişdir. Qazıntılar zamanı kiçik həcmli qabın içərisində qırmızı (1, s. 12), narıncı rəngdə boyaq qalığının (1, s. 16) aşkar olunması Naxçıvantəpədə yaşayan qədim insanların boyaq hazırlamağı bacardığını göstərir. İçərisində qırmızı boya qalıqları olan qablar

həmçinin Osman Həbibullayevin I Kültəpə qazıntıları zamanı da Neolit dövrünə aid təbəqədən tapılmışdır (1, s. 12). Naxçıvantəpənin gil qablarında bəzən naxışlar bir başa qabın saxsısı üzərinə, bəzən isə onların boyanmış səthinə çəkilmişdir. Gil qabların boyanmasında və yaxud naxlışlanmasında müxtəlif rənglərdən istifadə olunmuşdur. Qabların naxışlanmasında əsasən qara, qəhvəyi, qırmızı, bəzən isə ağ rəngdən istifadə olunmuşdur.




***Şəkil 3.*** Boyalı keramika (Naxçıvantəpə).

Naxçıvantəpənin gil qabları qırmızı, narıncı, sarı, çəhrayı, az miqdarda qablar boz və qara rənglə boyanmışdır. Fərqli rəglərlə boyanmış qablar sadə və naxışlı olmaqla iki qrupa ayrılır.

Sadə, boyasız olan gil qablarda da naxışlara rast gəlinir. Bəzi qablar fırça vasitəsilə çəkilmiş enli qırmızı xətlərlə naxışlanmışdır (Şəkil 3, 3; 1, şəkil 105, 3, 4; şəkil 171, 2; şəkil 79, 3; şəkil 86, 2; şəkil 189, 5; şəkil 97, 2; şəkil 107, 3; şəkil 169, 5; şəkil 77, 8; şəkil 81, 6; şəkil 87, 3; şəkil 84, 4). Bu tip qablara Xalaf mədəniyyətinə aid abidələrdə, Dalma Təpə (12, fig. 5; fig. 6) yaşayış yerindən və Sonqar vadisinin yaşayış yerlərindən (14, fig. 3-8) aşkar olunmuş nümunələrdə rast gəlinmişdir. Enli qırmızı zolaqlarla naxışlama tək-tək nümunələrlə Çalağan təpə (5, c. 503, tablo 379), İlanlı təpə (5, c. 351, tablo 227, 3) və Küllü təpə (4, 122, tablo 90, 1) yaşayış yerlərindən də məlumdur.

Qabların bir neçəsinin gövdəsində boya ilə naxışlama zamanı boyanın axmasına rast gəlinir ki, bu da fırçadakı boyanın ya bol olması, ya da onun duru olması ilə bağlı olmuşdur (Şəkil 3, 1; şəkil 162, 4; şəkil 75, 5). Boya ilə çəkilən naxışlar enlidir. Bu tip boyalı qablar Xalf mədəniyyətində rast gəlinmişdir.

Digər qrupda isə qab qırmızı rəngə boyandıqdan sonra onun üzərinə qara boya ilə müxtəlif həndəsi elementlərdən təşkil olunmuş fərqli naxışlar çəkilmişdir (Şəkil 3, 4, 5; 1, şəkil 75, 2; şəkil 82, 4; şəkil 72, 1; şəkil 72, 2; şəkil 99, 2; şəkil 77, 1-3, 5-7; şəkil 69, 1; şəkil 175, 5; şəkil 177, 2; şəkil 96, 3, 4; şəkil 72, 5; şəkil 88, 2). Naxışlar əksər vaxt nazik düz xətlərlə təsvir olunmuşdur. Qablar qırıq olduğundan naxışların birləşib kompozisiyada hansı motivi yaratdığını demək çətindir. Araşdırmalar bu tip naxışların həndəsi motivli olduğunu göstərir. Bəzi qab parçalarında isə xətlər birləşib müxtəlif ölçülü bucaqlar yaradır. Bəzən bucaqlar iç-içə yerləşdirilərək bir-birini təkrarlayırlar. Bəzən isə bucaqların içərisi bir-birinə paralel xətlərlə doldurulur. Bu tip naxışlı qabların üzəri qırmızı, narıncı, açıq qəhvəyi rənglə boyandıqdan sonra qara rənglə naxışlanmışdır. Buna bənzər naxışlara Culfa Kültəpəsidən aşkar olunmuş gil qabların üzərində rast gəlinmişdir (8, fig. 8, 1, 6, 7-9; fig. 9, 3, 4, 7, 8; fig. 10, 1-3, 5-8). Qeyd etmək lazımdır ki, bu tip ornamentasiya Orta Eneolit dövründə daha geniş işlədilmişdir.

Bəzi naxışlar sünbülvari formadadır (1, şəkil 174, 4). Keramikanın üzəri sarı rənglə boyandıqdan sonra qəhvəyi rənglə paralel xətlər arasına alınmış sünbülşəkilli ornamentlə naxışlanmışdır. Bəzi qabların üzəri sarı rənglə boyandıqdan sonra qırmızı rənglə bir-birinin üzərində yerləşdirilmiş üçbucaqlarla naxışlanmışdır (Şəkil 3, 2). Bu tip boyalı keramika məmulatı Dalma Təpə (12, fig. 4, A, E; fig. 7, D; fig. 10, A), Culfa Kültəpəsi (8, p. 38, fig. 10, 1-3,5-8), Seh Gabi B (10, p. 253-304, fig. 55, 1.1, 1.2; fig. 56, 14.1, 14 3; fig. 61, 53.1, 53.8), Lavin təpə (13, p. 95-117. fig. 7-9), Sonqar vadisi (14, № 19, p. 1-14. fig. 6, 15-17), Hacı-Firuz (15, p. 396, fig. 97) və digər yaşayış yerlərindən məlumdur.

Bu dövrə aid qabların biri naxışlarının orijinallığı ilə fərqlənir. Keramika nümunəsinin

üzəri sarı rənglə örtülmüş, qırmızı rənglə mərkəzi hissədə düzbucaqlının içərisində şahmat taxtası, onun ətrafında isə torlu üçbucaqlar yerləşdirilərək orijinal kompozisiya yaradılmışdır (1, Şəkil 7, 8). Bu tip naxış üsulu Dalma Təpə (12, fig. 4), Seh Gabi B (10, p. 258, fig. 56, 13.2, 13.3, fig. 58, 26.1) yaşayış yerindən məlumdur.

Naxçıvantəpə qablarından birinin üzəri düz xətlərlə boyanaraq zərif torşəkilli naxış yaradılmışdır (Şəkil 14 a, 5; 1, Şəkil 190, 2,). Bu qabdakı naxışın xətləri digərlərindən fərqli olaraq bir qədər incədir. Bu cür naxışların paralellərinə Azərbaycanın digər bölgələrində Göy Təpədən tapılan dekorativ-tətbiqi sənət nümunələrində (9, fig. 6, 310) rast gəlinmişdir.

Naxçıvantəpənin alt qatlarından götürülən kömür analizi bu dövrün e. ə. V minilliyin birinci yarısına aid olduğunu göstərmişdir (1, s. 21).

Erkən Eneolit dövrünün qabartma, basma naxışlı və boyalı keramikasının araşdırılması onların Azərbaycanın cənubunda yayılan Dalma Təpə mədəniyyəti ilə bağlı olduğunu göstərir. Dalma Təpə tipli keramika məmulatı başlıca olaraq Şimal-Qərbi İranda (Cənubi Azərbaycan), qismən isə Şərqi Anadoluda yayılmışdır. Bu tayfalar oturaq həyat tərzini mənimsəmiş, köçmə maldarlıqla məşğul olmuşlar.Naxçıvantəpə keramikasının naxış motivlərinin araşdırılması Naxçıvanın Erkən Eneolit mədəniyyətinin Urmiya hövzəsi və Şərqi Anadolu ilə baxlı olduğunu göstərir. Ornament motivlərinin araşdırılması, onların regional paralellərinin müəyyənləşdirilməsi qədim insanların estetik zövqünü, ideologiyasını və mədəni əlaqələri öyrənməyə imkan verir.

**Ədəbiyyat siyahısı**


1. Baxşəliyev V., Quliyeva Z., Həşimova T., Mehbalıyev K., Baxşəliyev E. Naxçıvantəpə yaşayış yerində arxeoloji qazıntılar. Naxçıvan: Əcəmi, 2018, 264 s.

2. Baxşəliyev V. I Kültəpə və onun ətrafında arxeoloji araşdırmalar. Bakı: Mütərcim, 2017, 272 s.

3. Seyidov A.Q, Baxşəliyev V.B, Mahmudova V. Xələc. Bakı: Elm, 2010, 220 s.

4. Абибуллаев О.А. Энеолит и бронза на территори Нах.АССР. Баку: Элм, 1982, 314 с.

5. Ахундов Т. У истоков Кавказской цивилизации Гарабагского неолита. Баку: Афполиграф, 2017, 918 с.

6. Бахшалиев В.Б. Новые материалы эпохи неолита и энеолита на территории Нахчывана // Российская археология, 2015, № 2, с. 136-145.

7. Бахшалиев В.Б. Исследование энеолитических памятников Сирабчайской и Нахчыванчайской долин. Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии, 2017, с. 108-121.

8. Abedi A., Khatib Shahidi H., Chataigner CH., Niknami K., Eskandari N., Kazempour M., Pirmoham-madi A., Hoseinzadeh J. and Ebrahimi GH. Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report // Ancient Near Eastern Studies. Vol. 51, 2014, pp. 33-167.

9. Brown T.B. Excavation in Azerbaijan 1948. London: John Murra, 1951, 179 pp.

10. Henrickson E.F. Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, İran. A Thesis submitted in conformity with the requirwments for the degree of Doctor of philosophy in the University of Toronto. Toronto, 1983, pp. 253-304.

11. Henrickson E.F. and Vitali V. The Dalma Tradition: Prehistoric Inter-Regional Cultural Integration Highland Western Iran, Paleorient, Vol. 13, № 2, 1987, pp. 37-45.

12. Hamlin C. Dalma Tepe // Iran, 13, 1975, pp.111-127.

13. Hejebri N., Binandeh A., Nestani J. and Vahdati N. H. Excavation at Lavin Tepe North-west Iran // Ancient Near Eastern Studies, Vol. 40, 2012, pp. 95-117.

14. Heyderyan M., Zeydi M., Herieyan H. Kirmanşahın Sonqar vadisində Orta Kalkolitik yaşayış yerləri // Payambastanşünas, 1392, № 19, pp. 1-14.

15. Voigt M.M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983, 396 pp.

**Резюме**

**Физза Гулиева**

**Орнаментальные мотивы керамики раннего энеолита Нахчыван тепе**

Предметы декоративно-прикладного искусства эпохи раннего энеолита в Нахчыване выявлены из поселения Нахчыван тепе. Исследование рельефных, импрессованных и расписных орнаментов эпохи раннего энеолита показывают, что они связаны с Дальматепинской культурой, распространенной на юге Азербайджана. Керамика типа Дальма Тепе в основном распространена Северо-Западном Иране (Южный Азербайджан) а частично в Восточной Анатолии. Исследование показывает, что эти племена, осваивая сидячий образ жизни, а также занимались кочевым скотоводством. Исследование орнаментальных мотивов керамики Нахчыван тепе показывает, что культура эпохи раннего энеолита Нахчывана тесно связана с памятниками Урмийского бассейна и Восточной Анатолии. Исследование орнаментальных мотивов, выявление их региональных параллелей позволяет изучать эстетический вкус и идеологии  древних людей, а также культурные связи.


***Ключевые слова:*** *Нахчыван тепе, Урмийский бассейн, Восточная Анатолия, ранний энеолит, импрессованный орнамент, расписная керамика.*



**Summary**

**Fizza Guliyeva**

**Ornamental motives of ceramics of early chalcolithic age Nakhchivan Tepe**

Objects of arts and crafts of Early Chalcolithic Age in Nakhchivan are revealed from the settlement of Nakhchivan Tepe. The research of relief, impression and painted ornaments of Early Chalcolithic Age is shown that they are connected with the culture Dalma Tepe, extended in the south of Azerbaijan. The Dalma Tepe ceramics is generally widespread Northwest Iran (the Southern Azerbaijan) and partially in East Anatolia. The research shows that these tribes, mastering a sedentary life and also were engaged in nomadic cattle breeding. A research of ornamental motives of ceramics Nakhchivan Tepe shows that the culture of Early Chalcolithic Age Nakhchivan is closely connected with monuments of the Urmia basin and East Anatolia. The research of ornamental motives, identification of their regional parallels allows to study esthetic taste and ideologies of ancient people and cultural ties.


***Keywords:*** *Nakhchivan Tepe, Urmia basin, East Anatolia, Early Chalcolithic Age, an impression ornament, painted ceramics.*

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin inkişafı fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. **Qrant № EİF KETPL-2-2015-1(25)-56/47/5.**

UOT 82.09: 17: 1.091

**ƏLƏDDİN MƏLİKOV**
*Fəlsəfə üzrə elmlər doktoru, dosent*
*AMEA Elm Tarixi İnstitutunun Elmşünaslıq və elmin sosial problemləri şöbəsinin müdiri, Azərbaycan İlahiyyat İnstitutu, Azərbaycan; aladdin.malikov@mail.ru*

# DİN FƏLSƏFƏSİNİN TARİXİ, TƏRİFİ VƏ DİGƏR ANLAYIŞLARLA FƏRQİ

***Açar sözlər:*** *Din fəlsəfəsi, Dini fəlsəfə, Dinin fəlsəfəsi, Epistemologiya, Teologiya, Kəlam, İslam fəlsəfəsi*

## Din fəlsəfəsinin tarixi

"Din Fəlsəfəsi" termini fəlsəfi ədəbiyyata son əsrlərdə daxil edilmişdir. Din fəlsəfəsi "din" və "fəlsəfə"-nin vəhdətindən yaranmış fəlsəfi bir sahədir. Onun müstəqil bir elm olaraq ərsəyə gəlməsi 19- cu əsrin birinci yarısına təsadüf edir. Bu terminin filosoflar arasında daha çox işlədilməsinə Hegelin "Din fəlsəfəsinə dair mühazirələr" adlı əsəri səbəb olmuşdur. [8, s. 3] Amma bu o demək deyil ki, din fəlsəfəsi mövzuları Hegeldən sonra meydana gəlmişdir. Din barədə fəlsəfi fikirlər və dinin ağıl və təfəkkür baxımından araşdırılması dinin özü qədər qədim tarixə malikdir. Din ərsəyə gəldiyi zamandan bəri dini mövzular barədə düşüncələr və müzakirələr olmuşdur. Əlbəttə bir mövzu üzərində düşünmək və müzakirə etmək zəruri mənada fəlsəfi düşüncə demək deyil. Bu səbəbdən, din haqqında söylənmiş bir çox hikmətli ifadələr din fəlsəfəsinə aid edilmir. Dini mövzuların hər biri fəlsəfi baxımdan araşdırma mövzusu olmaya bilər. Amma din fəlsəfəsinin varlığı üçün həm fəlsəfi, həm dini düşüncənin müəyyən bir müstəvidə olması zəruridir. Nümunə üçün qeyd edə bilərik ki, qədim Yunanıstanda fəlsəfi düşüncə diqqətəlayiq bir şəkildə inkişaf etsə də, dinlə əlaqəli mövzu və müzakirələr formalaşmamışdır. Bu səbəbdən din fəlsəfəsi anlayışı o dövrdə olmamışdır. Qədim Yunanıstanda sistematik dinlərin mövcud olmaması bunun aydın göstəricisidir. Platonun bəzən "tanrı", bəzən isə "tanrılar" ifadəsini işlətməsi və ya Aristotelin "tanrı" ilə birgə maddənin də əzəli olmasını qeyd etməsi ciddi problemlər törətmirdi. Din- fəlsəfə münasibətləri Akvinalı Foma, Farabi, İbn Sina, İbn Rüşd kimi orta əsr xristian və müsəlman filosofların əsərlərində daha sistematik şəkildə öz əksini tapmışdır. Qısaca olaraq qeyd edə bilərik ki, din adı altında olan hər bir mövzu və ya baxış, fəlsəfi cəhətdən müzakirə obyekti və ya tədqiqat mövzusu olmaya bilər.

## Din Fəlsəfəsinin jaranma səbəbləri

Din barədə fəlsəfi araşdırmaların uzun bir tarixə malik olması heç kəsdə şübhə doğurmur. Zira fəlsəfə və din bəşər mədəniyyətinin ən qədim təzahürlərindəndir. Tarixin ilkin çağlarından bəşəriyyətin dini məsələlərə meyl və maraq göstərməsi filosofları müxtəlif dinlərin müddəaları, onların əsaslandığı arqumentlər, bu arqumentləri dəyərləndirmək meyarları və bütövlükdə dini ideyaların dünyaya ümumi bir baxış verib- verməməsi barədə araşdırmalar aparmağa yönəltmişdir. Bu məsələlərlə məşğul olan filosofların bir qismi dini baxışların ağlabatan və əsaslı olması fikrini irəli sürmüşlər. Başqa bir qismi müəyyən dini ideyaları rədd etmiş və ya onlara şübhə ilə yanaşmışlar. Bir sıra filosoflar isə tam bitərəf mövqedə dayanıb yalnız bu məsələni aydınlaşdırmağa çalışmışlar ki, dini ideya və təsəvvürlərdə xüsusi növ idrak və bilik mövcuddur, yoxsa yox.

Bu qədim tarix din fəlsəfəsinin özünə aiddir, həmin terminin meydana gəlməsi və eyni adlı kitabların və məqalələrin yazılması isə XIX əsrə aiddir. yeni bir hadisədir. [7, s. 14-15]

Bəzi mütəxəssislərin fikrincə, maarifçilik dövrünə qədər filosoflar arasında belə bir mövqe hakim olmuşdur ki, fəlsəfə ilahiyyatın xidmətçisidir. Lakin həmin dövrdən başlayaraq, bu baxış aradan qalxmağa başlamış və əvəzində fəlsəfə təbii elmlərin xidmətçisinə çevrildi. Bu proses "din fəlsəfəsi"nin meydana gəlməsi ilə nəticələndi. Lakin yenidən İlahiyyata meyl

edən fəlsəfə artıq İlahiyyatın xidmətçisi olan fəlsəfə deyil, daha çox suallar və şübhələr doğuran fəlsəfədir. Məhəmməd Qrey Legenhauzen bu barədə yazır:

“Maarifçilik dövründən başlayaraq, Avropada əksər filosoflar və ilahiyyatçılar fəlsəfənin ilahiyyata xidmət etməsi fikrinə qarşı çıxmışlar. Lakin nəticədə fəlsəfə azadlıq qazanmaq əvəzinə, öz övladlarının xidmətçisinə çevrilmişdir. Pozivitizmin çiçəkləndiyi dövrdə elan olundu ki, fəlsəfə təbii elmlərin xidmətçisidir və onun vəzifəsi qalan (həll edilməmiş) məsələləri həll etməkdən ibarətdir. Bunun ardınca fəlsəfə yeni bir paltarda- din fəlsəfəsində- meydana çıxır, və təkəbbürlə öz suallarını ilahiyyatçının qarşısına qoyur. İlk nəzər saldıqda bunlar ilahiyyatçını əsrlər boyu məşğul edən suallar kimi görünür. Lakin insan bu suallardan doğan yeni problemlərlə tanış olduqda, anlayır ki, din fəlsəfəsi göründüyü qədər də günahsız deyildir. Fəlsəfə təbii elmlərə qulluq etdiyi uzun müddət ərzində dinin əleyhinə olan antropologiya, materializm, naturalizm və digər ideologiyalarla saysız kompromislərə getməyə məcbur olmuşdur və indi ilahiyyatçılar qarşısında öz suallarını qoyarkən, həmin ideologiyaların dəlillərini də qoltuğunda tutmuşdur... Din fəlsəfəsi heç bir vəchlə ənənəvi anlamda götürülən rasional ilahiyyatın başqa adı deyildir, çünki burada məhz teoloji məsələlərdə istifadə olunan rasional meyarlar dəyişikliyə uğramışdır. İlahiyyatçı bu faktı nəzərdən qaçırmamalıdır”. [5, s. 24]

Q.Legenhauzenin söylədikləri aşağıdakı qənaətlərə gəlməyə imkan verir:

1. Din fəlsəfəsinin ənənəvi və yeni mənaları bir- birindən fərqlənir. Bunlardan ilki dinin xidmətçisi və müdafiəçisi olunmuşdur, ikincisi isə dinə münasibətdə düşmən mövqedə dayanır.

2. Din fəlsəfəsi yeni anlamda Avropada maarifçilik dövründə (XVIII əsrdə) və sonrakı əsrlərdə meydana gəlmişdir.

3. İlahiyyatçı din fəlsəfəsini qidalandıran elmləri, yəni “yeni elmləri” və onlara məxsus fəlsəfələri mükəmməl şəkildə mənimsədiyi təqdirdə yalnız dini və dini iddiaları tam müdafiə edə bilər.

**Din fəlsəfəsinin tərifi**

Din fəlsəfəsinin tərifinə dair müxtəlif fikirlər irəli sürülmüşdür. Ümumilikdə onları üç qrupa bölmək mümkündür:

1) Bir çox mütəxəssislər belə hesab edirlər ki, din fəlsəfəsi müəyyən bir tərifə sığmır və onun ümumi tərifini vermək qeyri- mümkündür. Alman keşişi və ilahiyyatçısı Gotingen bu barədə yazir: “Din fəlsəfəsi termini, o qədər bulanıqdır ki, onun aydın bir tərifini vermək çətindir. Belə görünür ki, heç kəs din fəlsəfəsinə dəqiq və hərtərəfli bir tərif verməyə qadir deyil. Fəlsəfənin özü aydın və konkret bir tərifə malik olmadığı halda, din fəlsəfəsinə dair aydın tərif irəli sürülə bilərmi?!”. Həqiqətən də, din fəlsəfəsinə ümumi bir tərif vermək müəyyən çətinliklərlə müşayiət olunur. Bunlardan birincisi “din fəlsəfəsi” birləşməsində nəzərdə tutulan fəlsəfənin özünə dəqiq tərif verməyin çətinliyidir. İkinci çətinlik həmin birləşmədəki “din” anlayışına hansı konkret məzmun verilməsi ilə bağlıdır. Lakin buna baxmayaraq, din fəlsəfəsinin predmetini müəyyənləşdirməyin qeyri-mümkün olduğunu da düşünmək düzgün deyildir. Yəni, din fəlsəfəsindəki ümumi xüsusiyyətlərdən çıxış edərək, ona konkret bir tərif vermək mümkündür.

2) Bir sıra mütəxəssislər din fəlsəfəsinin “dinin rasional müdafiəsi” kimi səciyyələndirirlər. Con Hik bu məsələdən bəhs edərkən, yazır: “Bir vaxtlar din fəlsəfəsi bütövlükdə din barədə fəlsəfi düşüncə, yəni dini görüşlərin fəlsəfi müdafiəsi sayılırdı; din fəlsəfəsi vəhyani ilahiyyatdan (Revealed Theology) fərqləndirilən təbii ilahiyyatın (Natural Theology) rolunu və funksiyasını yerinə yetirən bir predmet hesab olunurdu. O, son nəticədə əqli dəlillər vasitəsilə tanrının mövcudluğunu isbat edir və beləliklə, vəhy tərəfdarlarının işini asanlaşdırırdı”. Con Haspers də din fəlsəfəsi üçün buna uyğun vəzifə müəyyənləşdirərək, qeyd edir: “Bütün digər hallarda olduğu kimi, din sahəsində də fəlsəfənin işi inancı əsaslandırmaqdan ibarətdir”. [9, s. 19] Din fəlsəfəsinin bu formada mənalandırılması hal- hazırda geniş yayılmışdır. Amma din fəlsəfəsini bu formada təqdim etmək doğru deyildir. Con Hikin sözlərindən də anlaışldığı kimi, belə olan təqdirdə, din fəlsəfəsi teologiya elmi və rasional ilahiyyatla eyniləşdirilir.

3) Günümüzdə din fəlsəfəsinin ən geniş yayılmış tərifi belədir: Din fəlsəfəsi- fəlsəfənin digər qolları (hüquq fəlsəfəsi, əxlaq fəlsəfəsi, elm fəlsəfəsi və s.) kimi, dini iddia və baxışların fəlsəfi cəhətdən araşdırılması deməkdir.

Aşağıda din fəlsəfəsinin bu tərifini əks etdirən bəzi fikirləri qeyd edirik:

a) Con Hik: "Din fəlsəfəsi termini elm fəlsəfəsi, sənət fəlsəfəsi və s. kimi terminlərlə analoji şəkildə işlədilir. Yəni din haqqında fəlsəfi düşüncə mənasındadır. Bu tərifə əsasən, din fəlsəfəsi dini öyrənmək vasitəsi deyil. Əslində ona, ümumiyyətlə, dini mövqedən yanaşmağa eytiyac yoxdur. İnananlarla, inanmayanlar eyni şəkildə din barədə fəlsəfi düşüncələri müzakirə edə bilərlər. Din fəlsəfəsi- dinin əsas anlayış və institutlarını, dini təcrübənin başlıca təzahürlərini və ibadət mərasimlərini araşdırır. Necə ki, hüquq fəlsəfəsi- hüquqi anlayış və prinsipləri, sənət fəlsəfəsi- estetik kateqoriya və metodları fəlsəfi baxımdan öyrənir". [1, s. 173-174]

b) Ronald Hepburn: "Din fəlsəfəsi dini anlayışların, baxışların və müddəaların fəlsəfi baxımdan araşdırılması və onların isbat olunub əsaslandırılması deməkdir".

c) Prof. Hoblinq: "Din fəlsəfəsi rasional əsasda müxtəlif dini baxışların tənqidi təhlilini verməyə çalışır. Din fəlsəfəsinin ən mühüm sahəsi tanrı haqqında fəlsəfi nəzəriyyə, yəni tanrı haqqında rasional təlimdir." Müxtəlif fəlsəfi sistemlər mövcud olduğu kimi, din fəlsəfəsində də çeşidli cərəyanlar mövcuddur.

**Fəlsəfə və dinin funksional münasibətləri**

Fəlsəfənin dinə münasibətdəki rolu və funksiyası barədə tarix boyu müxtəlif baxışlar mövcud olmuşdur. Onlardan ən əhəmiyyətliləriləri aşağıdakılardır:

1. Fəlsəfə dinin əleyhinədir və onu rədd edir. Ağıl dini baxışların yanlışlığını aşkara çıxarır. Dinin psixoloji və ya sosial köklərini göstərməklə, dini görüşlərin metafizik, yaxud elmi baxımdan kənar olduğunu göstərir cəhd edir. Bu ideya Karl Marks və Ziqmund Freyd tərəfindən həyata keçirilmişdir.

2. Fəlsəfə dini inkar edə bilməz. Fəlsəfənin gücü yalnız dini baxışlarda istifadə olunan anlayışları təhlil edə bilər. Bu mövqe Karl Bartın əsərlərində öz əksini tapmışdır.

3. Fəlsəfə dini ideyaları əsaslandıra bilməz, amma dinə zəmin yaradan vasitə kimi istifadə oluna bilər. Yəni ağlın məhdudluğu və axtarış zərurətini nəzərə alsaq, insanın həyati suallarına cavab vermək üçün başqa bir metod və sahə göstərə bilər. Bu fikir Paskal, Kyerkeqor və J.Bruner kimi filosoflar tərəfindən irəli sürülmüşdür. Bu baxışın başqa bir variantına İ.Kantın əsərlərində rast gəlirik. O, etikanı fəlsəfənin çıxış nöqtəsi kimi götürmüş və tanrının varlığı etikanın ilkin prinsipləri sırasına daxildir, nəticəsinə gəlmişdir.

4. Fəlsəfə apologetika (Apologetika hər hansı bir təlimi rasional dəlillərlə müdafiə etməkdən ibarətdir.) yolu ilə dini inancı əsaslandıra bilər. Xristian, İslam və Yəhudi fəlsəfəsində bu mövqe geniş yayılmışdır. Anselm, Foma Akvinski, İbn Rüşd, İbn Sina və İbn Meymun dinə belə fəlsəfi yanaşmanın parlaq nümayəndələridir.

5. Fəlsəfə inancın başqa formasıdır. Yəni fəlsəfə də dinin irəli sürdüyü ideyaları ifadə edir. Sadəcə fərq budur ki, fəlsəfə dəqiq rasional metodla, din isə metafizik və emosional formada idrakın mənbəyi kimi qəbul edir. Bu fikir Hegelin əsərlərində daha çox öz əksini tapmışdır.

**Din fəlsəfəsilə epistemologiyanın fərqi**

Epistemologiya fəlsəfəsinin ən əhəmiyyətli mövzularından biridir. Nümunə üçün qeyd etmək yerinə düşər ki, ağıl və din münasibətinin keyfiyyəti tarix boyu insanlar üçün əsas suallardan biri olmuşdur. Digər tərəfdən inanmayanlar imanın rasional bir boyutdan yoxsul olduğunu iddia edərək, bu mövzunu ateizmin təməli olaraq dəyərləndirmişlər.

Rasionallıq məna etibarılə ağıla uyğunluq deməkdir. Hər hansı bir iddianın rasionallığını araşdırmaq, onun ağıla uyğun olub-olmadığını göstərməkdir. O zaman belə bir sual meydana çıxır: Rasionallığın meyarı nədir? Ağıla uyğun bir iddia ağıla uyğun olmayan bir iddiadan hansı metod və düzturlarla ayrılır? Bu sualları cavablandırmaq vəzifəsi fəlsəfənin epistemologiya sahəsinə aiddir. Dəqiq məsələyə nəzər saldıqda, epistemologiya din fəlsəfəsindən öncə bəzi sualların cavablarını dəqiqləşdırır. Bu səbəbdən epistemologiya din fəlsəfəsinin rasional düzturlarını müzakirə edən elmdir.

Mövzuya diqqətlə baxdıqda, qeyd edilən sualların vahid fəlsəfi cavablarını din fəlsəfəsində axtarmamalıyıq. Bu suallar epistemologiyada araşdırılır. Burada bu sualın cavabında qısaca rasionallığın əsas iki meyarını qeyd edirik. Bu iki meyar uyğunluq üçün yetərli şərtlər olmasa da zəruri şərtlərdir. Bu ikisindən birinin olmadığı təqdirdə rasionallıqdan söhbət belə oluna bilməz.

1- İlk meyar: Müəyyən bir mövzu ilə əlaqədar düşüncələrimiz, inanclarımız arasında açıq və ya gizli tutarsızlıqlar olmamalıdır.

2- İkinci meyar: Bir iddianın, düşüncənin rasional olması üçün "yetərli arqumentlərin olması" zəruridir. Bu səbəbdən hər hansı bir iddia, inancı dəstəkləyən kifayət qədər arqument yoxdursa, onu iddia etmək və inanmaq rasional deyildir. Bu səbəbdən yəqinlə təsdiq edilən elm dəyişilməzdir. [3, s. 52]

**Din fəlsəfəsi, dini fəlsəfə və dinin fəlsəfəsi**

Bir çox hallarda üç kateqoriyanı: "din fəlsəfəsi", "dini fəlsəfə" və "dinin fəlsəfəsi" anlayışlarını səhvən eyniləşdirilirlər. [4, s. 476] "Din fəlsəfəsi" termininə öncə ətraflı aydınlıq gətirildi. "Dini fəlsəfə" isə dinin daxilində meydana gəlmiş fəlsəfəyə deyilir. Lakin "dinin fəlsəfəsi" dini ehkamların səbəblərinə deyilir. [2, s. 254]

"Din fəlsəfəsi" fəlsəfənin dinə münasibətini aydınlaşdırmağı nəzərdə tutur. Yəni burada qarşıya çıxan əsas sual budur: Fəlsəfə dini təsdiq edir, ya onun əleyhinədir? Əlbəttə, müxtəlif fəlsəfi sistemlər baxımından bu sualın cavabı da fərqlidir.

"Din fəlsəfəsi" dini ideyalar, inanclar və dəlilləri araşdırmaqla məşğul olur. Yəni bu sahə fəlsəfənin "din haqqında" təməl arqumentlərini tədqiq etmək şəklində başa düşülməlidir. Din fəlsəfəsi dinin nəzəri cəhətdən fəlsəfi əsaslarla təhlil və tənqidindən ibarətdir. Dinlə fəlsəfənin münasibətindən ərsəyə gələn "din fəlsəfəsi" müxtəlif aspektlərdə formalaşır. Burada din fəlsəfəsinin vəzifələri aşağıdakılardır:

"Din fəlsəfəsi" fəlsəfənin qollarından biridir. "Din fəlsəfəsi" fəlsəfənin digər qolları (hüquq fəlsəfəsi, əxlaq fəlsəfəsi, elm fəlsəfəsi və s.) kimi, dini baxışların fəlsəfi cəhətdən araşdırılması deməkdir. "Din fəlsəfəsi" dini öyrənmək vasitəsi deyil. Əslində ona, dini mövqedən yanaşmağa da eytiyac yoxdur. Ateistlər və dindarlar eyni şəkildə "din fəlsəfəsi" ilə məşğul ola bilərlər. "Din fəlsəfəsi" dinin əsas mahiyyət və anlayışlarını, dini təcrübənin başlıca təzahürlərini və ibadət mərasimlərini araşdırır,

"Dini fəlsəfə" nədir? "Dini fəlsəfə" dedikdə varlıq və insanın mahiyyəti haqqında müddəaların dində qeyd edilən formasını əsas götürülərək, meydana çıxır. Yəni həmin təlimlər toplusu dində əhəmiyyət daşıyan mövzuları düşüncə sistemi əsasında təhlil edir. Hərçənd bəzi məsələlərdə dini mövzularla fəlsəfi anlayışlar arasında paradoks yaranır. Belə hallarda dini fəlsəfə ilə məşğul olan mütəfəkkir onları təhlil edir və həmin ziddiyyətlərin həlli üçün yollar axtarır.

"Dinin fəlsəfəsi" din daxilində olan ehkam və şəriət hökmlərinin səbəblərini açıqlayır. Din alimləri bu sahədə kitablar yazmış və bir sıra dini ayin və əməllərin fəlsəfələrini və səbəblərini açıqlamışlar.

**Din fəlsəfəsi, kəlam və din elmləri**

Mövzu etibarılə din fəlsəfəsinə ən yaxın olan sahə kəlamdır. Amma din fəlsəfəsi onunla da eynilik təşkil etmir. İslam mədəniyyətində kəlam elmi əqli və nəqli arqumentlərlə təməl dini mövzuları tərif, təhlil, tənqid edən, sistemləşdirən və müdafiə edən disiplin şəklindədir. Digər dinlərdə də ilahiyyat bu formadadir.

Din fəlsəfəsi sistematik kəlamla əlaqəli inkişaf edir. Hətta birincinin ikincini böyük ölçüdə ehtiva etdiyini də iddia edə bilərik. Bu yaxınlığın səbəbi "din fəlsəfəsi"ni klassik mənada "fəlsəfi kəlam" olaraq bəzilərinin adlandırmasından qaynaqlanmışdır.

Din fəlsəfəsi araşdırmaçısının mütəkəllimlə (Kəlam elmi ilə məşğul olan mütəfəkkirə "Mütəkəllim" deyilir.) fərqi budur ki, mütəkəllim açıq və ya gizli bir şəkildə təsdiq ilə yola çıxır. Bu mənada mütəkəllim ilə kəlam tarixçisini də qarışdırmamaq lazımdır. Mütəkəllim kəlam mövzusunu həyati bir məsələ hesab edir. O söylədikləri və yazdıqları ilə din mövzusunda olan şəkk-şübhələri aradan qaldırmaq və ağıla əsaslanan bir tərzdə cavab vermək istəyir. Bu səbəbdən dinin əsas inancları hər çür şübhənin fövqündədir. Mütəkəllim məsələnin başından belə inanır, belə düşünür və bunu isbat etməyə çalışır. Qısaca kəlamda dini əsaslar aksioma olaraq doğulur, ən kiçik suala belə yer yoxdur. Din fəlsəfəsi tədqiqatçısı isə dəlil və arqumentsiz heç bir nəsnəni məqbul saymaz. Ən azından üzərində işlədiyi tədqiqatın inandığı olduğunu ortaya qoymaz. Din fəlsəfəsinə edilən tənqid və etirazların əksəriyyəti filosofların şəxsi azadlıq havasından irəli gələn məsələlərədir. Belə ifadə etmək doğru olarsa, fəlsəfədə filosof dinlə uzaqdan və ya yaxından; bir haldakı, kəlamda mütəkəllim mövzuya bağlı olaraq və ekzistensial bir formada inanaraq, məşğul olur.

Burada əsas suallardan biri budur ki, "din fəlsəfəsi" fəlsəfənin qoludur yoxsa ilahiyyatın? Aydındırki, "din fəlsəfəsi" fəlsəfənin bir sahəsidir ilahiyyatın yox. Bunun əsas arqumenti budur ki, din fəlsəfəsinin metodologiyası fəlsəfi

metodologiyadır. Din fəlsəfəsi dini mövzulara obyektiv yanaşır. Din fəlsəfəsi baxımından dini mövzular isbat və inkara bərabərdirlər. Kəlam elmi İslam inanclarının dini mətnlərdən çıxarışı, izahı, tənzimlənməsi və əsasladırılması ilə məşğuldur. Mütəkəllimin dörd əsas vəzifəsi bunlardır: a) Orijinal dini qaynaqlardan (kitab və sünnə) İslam etiqadlarının çıxarışı; b) Dinləyicilərin anlayacağı anlayış və terminlər fonunda həmin biliyin izah və təfsiri; c) Dini maarifi sistemləşdirmək, belə ki, bütün inanclar ziddiyyətsiz və bir-birilə əlaqəli şəkildə olsunlar; d) Əldə edilən etiqadların rasional isbatı və müdafiəsi. Ümumi mənada həqiqəti tədqiq edən və ya ontologiya elmi olan fəlsəfə, rasional-deduktiv metodla həqiqət axtarışında olsa da, onun müdafiəsini öz öhdəsinə almır. Din fəlsəfəsi dinlərin ümumi ilkin fərziyyələrini, müştərək mövzularını qiymətləndirməklə məşğuldur və burada teist və ateist eyni dərəcədə çıxış edir. Kəlam elmi yeni mövzuların ortaya çıxması ilə, köhnə suallara yeni cavablar, fərqli konsepsiyalardan istifadə və dinin bəşəri və maddi yönlərinə diqqət artımı nəticəsində dəyişikliyə uğrayır, bu üzdən ona *"yeni kəlam"* demək olar. Lakin bu yeni ad, kəlam elminin mahiyyətcə dəyişdiyini ortaya qoymur. Din fəlsəfəsi və kəlam iki elm kimi bir-birilə ilə qarşılıqlı münasibətdədir. Bir-birinin sual-cavablarını nəzərə alır, onlardan istifadə edirlər. Amma eyni deyillər. Kəlam çox metodlu elmdir, bəşərin məşhur olan bütün elmi metodlarından istifadə edir. Din fəlsəfəsi isə rasional zəkaya asaslanan və yalnız həqiqətin kəşfi üçün araşdırmalar edən fəlsəfi sahədir. Burada belə bir sual meydana çıxır ki, sxolastik fəlsəfə din fəlsəfəsidirmi? Nümunə üçün İslam fəlsəfəsi din fəlsəfəsi ilə eynidirmi? Cavab: xeyir. Sxolastik fəlsəfə dini fəlsəfə hesab edilir. Din fəlsəfəsi ilə dini fəlsəfənin fərqlərini yuxarıda qeyd etmişik.

**Din fəlsəfəsinin problemləri (mövzuları)**

Din fəlsəfinin problemləri dedikdə əsasən müxtəlif filosofların dinə baxışları nəzərdə tutulur. Din fəlsəfəsinin tərifindən aydın olduğu kimi, burada da vahid tərif mövcud deyil. Bu səbəbdən din fəlsəfəsinin mövzuları da müxtəlif fəlsəfi sistemlərin yanaşmalırına bağlı olaraq dəyişir. Fəlsəfədə olduğu kimi, din fəlsəfəsində də rasionalistlər, empiristlər, realistlər və idealistlər vardır. [6, s. 12-13] Din fəlsəfəsi ümumilikdə aşağıdakı əsas problemlərlə üzləşir:

1- Ontolojik və kosmoloji problemlər. Tanrının varlığı və mövzuya aid isbat və inkar arqumentləri. Kainatın yaradılışı. İnsanın aləmdəki yeri. Vəhyin mümkünlüyü. Ölümdən sonrakı həyat və ruhun ölümsüzlüyü.

2- Epistemolojik problemlər. Aləmlə əlaqədar məlumatlarımızdan Tanrının varlığına yola çıxmağın epistemolojik dəyəri. Məlumat mənbəyi olaraq vəhy və dini təcrübə. İnanmaq, bilmək, şübhə etmək, zənn etmək, yəqin və oxşar anlayışların tərifi, təhlili və tənqidi. Təməl dinin anancların doğru və ya yanlış olması.

3- Dini inancların dil və məntiq cəhətdən tənqid və təhlili. Din dili məntiqlidirmi?

4- Dinin əxlaq və incəsənətlə münasibətləri. Bütün bəşər təcrübələrinin qovuşması və yeni dini fikir sisteminin qurulması.

5- Dini simvolların məna və əhəmiyyəti.

Fəlsəfənin bu qolu haqqında ümumi bir mənzərə yaratmaq üçün mövzuları sırf bəndlər formasında topladıq. Əslində hər bir mövzu bir çox baxımdan digər bəndlərlə çox yaxından əlaqəlidir. Nümunə üçün Vəhy mövzusunu qeyd edə bilərik. Vəhyin bir tərəfi metafizik və ontolojik digər tərəfdən epistemolojik bir mövzudur. Allahın varlığının arqumentləridə həmçinin.

Burada bir məsələyə diqqət çəkmək yerinə düşər. Bir filosofun din fəlsəfəsi ilə məşğul olması üçün qeyd edilən problemlərin bütünü ilə məşğul olması zəruri deyil. Dekart, Leybnits və Spinoza kimi rasionalist filosoflar ümumən dinin rasional baxışlarını, xüsusən Tanrının varlığını rasional arqumentlərlə isbat etmək istəmişlər.

Digər tərəfdən empirist filosoflar din fəlsəfəsində dini təcrübə mövzularına daha çox əhəmiyyət verməkdədirlər. Onlar din dilini məntiq və linqivistik yöndən təhlil və tənqid etməkdədirlər. Digər filosoflar isə ekzistansialist və fenomenolojik təhlillər mərkəzli tədqiqatlar aparırlar.

Fəlsəfə sahəsində olan bu çalışmalar dinə daha fərqli bir tərəfdən baxan teolojidə öz əksini tapmışdır. Nəticədə bir sıra yeni mövzular ortaya çıxarmışdır. Bəzi mütəfəkkirlər onu yeni kəlam və ya müasir kəlam adlandırmışlar. Günümüzdə klassik mənada rasionalist və empirist cərəyanlarının teologiyaya baxışı fərqlidir. Bunlara bir də ateizm görüşlərini və qərbdəki individual tanrı anlayışlarını əlavə etsək, din sahəsində necə bir canlanmanın və o qədər də qarışıqlığın olduğunu müşahidə edəcəyik. İnformasiyaların partlayışı və millətlərarası fikir alış-verişində olan süräti diqqətə aldığımız təq-

dirdə, hər fəlsəfi məktəbin ciddi şəkildə din üzərində düşünən insanlara nə qədər ehtiyac duyacağı özü-özlüyündə ortaya çıxar.

### Ədəbiyyat siyahısı

1. Manafov, Rafiz. Con Hikin Din Fəlsəfəsinin əsas prinsipləri // Bakı İslam Universiteti Zaqatala Şöbəsinin Elmi Məcmuəsi, 2007. № 2, s. 173-185.

2. Məlikov, Ələddin. İbn Rüşdün Din Fəlsəfəsi // Din araşdırmaları jurnalı, 2018. № 1, s. 249-264.

3. Məlikov, Ələddin. Sədrəddin Şirazi fəlsəfəsində ağıl və iman münasibətlərinin təhlili // Metafizika Jurnalı, 2019. Vol. 2, № 5, s. 249-264.

4. Rüstəmov, Yusif. Fəlsəfənin əsasları, Bakı: Elm nəşriyyatı, 2004, 498 s.

5. Yaqub, Mail. Din Fəlsəfəsi, Bakı: Qanun nəşriyyatı, 2017, 247 s.

6. Mehmet S.Aydın, Din Felsefesi, İzmir: İlahiyyat Fakültesi Vakfı Yayınları, 2002, 362 s.

7. Reçber, Mehmet Sait. Din Felsefesi, Ankara: Grafiker yayınları, 2016, 432 s.

8. Hegel, G.W.F. Lectures on the Philosophy of Religion, İng. Tərcümə: Speirs, E.B. Sanderson, J.B. New York: Humanities Press, 1974, 347 p.

9. Legenhausen, Muhammad Gary. The relationship between Philosophy and Theology in the Postmodern age // Al-Towhid Journal, Vol: 14, №1 // URL: http://www.alseraj.net/maktaba/kotob/english/Hadeeths/Words/al-tawhid/legenhausen/philo_theo.htm

### Summary

**Aladdin Malikov**

### History and definition of the philosophy of Religion and its difference from other notions

The term of “philosophy of Religion” was introduced into philosophic literature in the recent centuries. The notion of “philosophy of Religion” means the philosophical sphere based on unity of “religion” and “philosophy”. Its development as an independent field of science goes back to the first half of the 19$^{th}$ c.

The present article is devoted to such problems as definitions of the Philosophy of Religion, its distinction from the Religion philosophy and philosophical essentials of Religion, and whether the philosophy of Religion is a field of philosophy or it relates to scholasticism, as well as are there any common or specific features of it in comparison with the scholastic philosophy as an Islamic philosophy and with such other theories as Theology and Epistemology.

***Keywords:*** *philosophy of Religion, the Religion philosophy, philosophical essentials of Religion, Epistemology, Theology, Dictum, the Islamic philosophy*

### Резюме

**Аладдин Меликов**

### История и определение философии религии и ее различие с другими понятиями

Термин «философия религии» был введен в философскую литературу в последние века. Философия религии – это философское поле, основанное на единстве «религии» и «философии». Ее развитие как самостоятельной науки восходит к первой половине 19 века.

В данной статье объясняются определения философии религии, ее отличие от религиозной философии и философских основ религии, является ли философия религии областью философии или схоластики, имеются ли черты сходства или отличия ее от схоластической философии как исламской философии, а также других теорий, как теология и эпистемология.

***Ключевые слова:*** *философия религии, религиозная философия, философские основы религии, Эпистемология, Теология, изречение, исламская философия.*

**UOT 1(09)**

**KÖNÜL BÜNYADZADƏ**
*Fəlsəfə elmləri doktoru, AMEA-nın müxbir üzvü, AMEA-nın Fəlsəfə İnstitutunun İslam Fəlsəfəsi Şöbəsinin müdiri, Azərbaycan*
*bkonul885@hotmail.com*

# FƏLSƏFƏDƏ YENİ CƏRƏYAN – FƏLSƏFİ MƏSLƏHƏTLƏŞMƏ

## *Giriş*

Müasir dövrün xarakterik cəhətlərindən biri insanın get-gedə daha çox təkliyə qapılması və nəticədə depressiyaya qarşı acizləşməsidir. Maraqlıdır ki, insanı öyrənən elmi sahələrin, metodların sayı günü-gündən artdıqca, insanın problemləri də artmaqda davam edir. Uzaq ulduzları, yerin yeddi qatını öyrənməyə qadir olan insan öz şəxsiyyətini tam dərk edə bilmir, 5000 il əvvəlki tarixi yaza bilən, 15 dəqiqə sonra nə baş verəcəyindən xəbərsizdir. Rus yazıçısı Mixail Bulqakovun qəhrəmanı Volandın dediyi kimi, insanın “öz həyatını idarə edə bilməsi üçün heç olmasa bir layiqli planı olmalıdır”. Bu isə qeyri-mümkündür. İnsanın qadir olduğu ən kamil addımı tarixdən, kitablardan əldə etdiyi biliklərə, özünün və başqalarının qazandığı təcrübəyə əsaslanaraq, həyatının indi adlanan anını düzgün dərk edib, növbəti ana şüurlu və problemsiz keçə bilməsidir.

Bu istiqamətdə çıxış yolları axtaranlardan biri də fəlsəfədir. Problemləri həll etmək üçün-gah mətnlərin sətiraltına enərək hermenevtik üsula baş vurur, gah praqmatik mövqedən yanaşaraq real həyatın ən məhsuldar tərəfini yaşamağa çalışır, gah hər şeyi kənara ataraq bütün cavabları yalnız şüurda axtarırvə adını da fenomenologiya qoyur. Gah da olanları dərindən təhlil edərək, ənənəvi fəlsəfəyə rəqib olan anlayışların analitik təhlilini verir və mətnlərə baxmaq üçün linqvistik bucağa çəkilir. Bu və adını çəkmədiyimiz neçə fəlsəfi cərəyan insan varlığını, cəmiyyəti öyrənməyə çalışsa da, yeni nəzəriyyələr irəli sürsə də, özləri də yeni sualların yaranmasına səbəb olublar. Bu proseslər zəncirvari reaksiya kimidir və necə, nə vaxt, harada bitəcəyi məlum deyil. Məlum olan budur ki, 10, hətta 100 əsr bundan əvvəlki insanı narahat edən problemlər bu gün də öz həllini tapmayıb.

Onu da əlavə etmək lazımdır ki, fəlsəfi cərəyanların üsulları, yanaşma metodları fərqli olduğu kimi “axtarış məkanları” da fərqlidir. Biri insanın ruhunda, digəri maddi bədəndə, biri kosmosun harmoniyasında, bir başqası hətta cəmiyyətin xaosunda həqiqət axtarır. Əslində bunun səbəbi çox sadədir – insan özünü harada kəşf edirsə, bütün digər suallarının cavabının da orada olduğuna əmin olur. Başqa sözlə desək, *özünü kəşf etmiş insan özünün axtarış çərçivəsini, yəni bütün gələcək təhlillərinin, düşüncə gərdişlərinin hüdudlarını təyin etmiş olur. Deməli, insan öz varlığında nə qədər böyük həqiqətlər kəşf edərsə, düşüncə üçün üfüqləri də bir o qədər geniş olacaq.*

Son illər yaranmış yeni cərəyanlardan biri də fəlsəfi məsləhətləşmədir (philosophical counselling). Bunu müəyyən mənada tətbiqi fəlsəfə və ya fəlsəfi terapiya da adlandırmaq olar. Bu, məsələyə yanaşma tərzindən asılıdır - kimsə bunu fəlsəfi ideyaların, nəzəriyyələrin gündəlik həyata tətbiqi kimi, bir başqası isə fəlsəfəni müalicə metodu olaraq qəbul edir. Mənim fikrimə görə, insan uzun müddət kiminsə idarəsi, təyinatı ilə yaşasa, öz şəxsiyyətini, orijinallığını itirər. Bir çox hallarda yaranan problemlərin kökündə də əksər hallarda bu fakt durur. Öz düşüncəsinin aktivləşməsi, özünü bərpa üçün insan düşünməyi bacarmalıdır. Bunun üçün onun bir filosofla məsləhətləşməsinin, söhbətləşməsinin böyük effekti ola bilər. Fəlsəfi məsləhətləşmənin mahiyyəti məhz budur. Bu səbəbdən mən bu terminə üstünlük verdim.

Təqdim edilən məqalənin iki məqsədi var: a) Azərbaycan oxucusunu yeni fəlsəfi məktəblə tanış etmək və b) bu cərəyanın Azərbaycanda özünəməxsus qolunun yaranması üçün ilk addımları atmaq. Nə üçün özünəməxsus? Çünki hər hansı bir fəlsəfi ideyanın kor-korana tətbiqi

yalnız problem yaradır və tezliklə sönməyə məhkumdur. Söhbət Azərbaycan elmi mühitində yenilik etməkdən də getmir. Söhbət mövcud fəlsəfi potensialın arxiv halından çıxarmaq, onlardan istifadə edərək insanı düşünməyə vadar etməkdir. Və bu, barmağını gicgahına qoyub hansı isə mücərrəd bir mövzu deyil, öz həyatı, öz varlığı, getdiyi həyat yolu haqqında düşünməkdir. Təbii ki, bununla həm də Azərbaycan oxucusunu dünyada gedən fəlsəfi hərəkatlardan xəbərdar etmiş olacağıq.

### *Fəlsəfi məsləhətləşmə - ilk tanışlıq*

Yaxın tarixdən belə məlum olur ki, ilk dəfə XX əsrin yetmişinci illərində Kaliforniyanın San-Xose Ştat Universitetinin professoru Peter Koestenbaumun "İnsanın yeni siması: Klinik fəlsəfənin nəzəriyyəsi və təcrübəsi" adlı əsərində fərdin problemlərinin həllində fəlsəfi düşüncənin, müzakirənin tətbiqi təklif edilir. Onun fikrinə görə, "klinik fəlsəfə[1] dünyada insan kimi var olmağın şərtsiz (bu, nə qədər mümkündürsə) izahıdır. Düşünürəm, Haydegger "Varlıq və zaman"da öz üsulu ilə buna cəhd edir. Ondan əvvəl isə Dekart özünün "Düşüncələrində" və "Metod haqqında düşüncələrində" bunu etmişdi. Klinik fəlsəfə məhz bunu etməyə cəhd edir. Heç kim mükəmməl deyil, ancaq layihə buna dəyər". (6, səh. 32) Kostenbaum, ona verilən suallardan və cavablardan belə məlum olur ki, klinik fəlsəfəni psixoterapiyaya əlavə kimi qəbul edir və bu səbəbdən bəzi filosoflar tərəfindən fəlsəfi məsləhətləşmə kimi qəbul edilmir. Psixologiyadan və psixoterapiyadan tamamilə ayrılmış və öz metodları ilə fəaliyyət göstərən fəlsəfi məsləhətləşmə isə ilk dəfə səksəninci illərin əvvəlində alman filosofu Gerd B. Achenbachın yaratdığı Alman Fəlsəfi Praktika və Məsləhətləşmə Cəmiyyətində təcrübədən keçirildi və hal-hazırda dünyada fəlsəfi məsləhətləşmə Peter Kostenbaumun deyil, məhz Gerd B. Achenbachın adı ilə əlaqələndirilir. Lakin bu fəlsəfi məktəb Avropada deyil, məhz Birləşmiş Ştatlarda geniş vüsət qazandı və orada ilk dəfə 1992-ci ildə Elliot D. Cohen, Paul Sharkey, and Thomas Magnell kimi filosoflar tərəfindən Milli Fəlsəfi Məsləhətləşmə Assosiasiyası (NPCA) yaradıldı. Hazırda belə Assosiasiyaların, Cəmiyyətlərin sayı da artıb və bu sahədə kifayət qədər geniş araşdırmalar aparılmaqda, təcrübələr keçilməkdədir. Hazırda, artıq Avropanın bəzi ölkələrində, o cümlədən, Türkiyədə, Rusiyada bu istiqamətli bəzi cəmiyyətlər yaranıb, əhaliyə xidmət göstərir, seminarlar, hətta konfranslar da keçirilir.

Fəlsəfi məsləhətləşmənin psixoterapiya ilə eyniləşdirilməsi halları təbii ki, Koestanbaumla bitməyib. Məsələn, 2010-cu ilin noyabr ayında YUNESKO-nun İnsanın təhlükəsizliyi, demokratiya və fəlsəfə departamenti əsas mövzusu "Ruhun fəlsəfəsi və dərmanı" olan "Yeni fəlsəfi təcrübələr" adlı simpozium təşkil etmişdi. Burada əsas məqsəd "fəlsəfə və psixoterapiya" cütlüyünün, bir növ tandeminin mahiyyətini təhlil etmək idi. Həmin mötəbər tədbirdə mən "Sufizm ruhun dərmanı kimi" mövzusu ilə qatılmışdım və dinlədiyim məruzələrin bəzilərində belə bir hal müşahidə etdim: nisbətən yeni bir cərəyan olan fəlsəfi məsləhətləşmə özünü təsdiq etmək üçün artıq kifayət qədər tanınan, qəbul edilən psixoterapiyaya söykənmək istəyir. Əslində, ilk dəfə klinik fəlsəfə adlı fəlsəfi məsləhətləşməni elmi mühitə gətirmək üçün Koestanbaum da dəstək üçün psixoterapiyaya müraciət edir. Fəlsəfi məsləhətləşmənin məqsədini və mahiyyətini artıq kifayət qədər aydınlaşdıran filosoflar isə belə bir əlaqəni qəbul etmir. Məsələn, fəlsəfi məsləhətləşmənin tanınmış nümayəndəsi Ran Lahav yazır:"Psixoterapiya və fəlsəfi məsləhətləşmə kəsişməyənvə bir-birini tamamlayan sahələr kimi baxılmamalıdır. Onlardan hər biri həyatın fərqli aspektlərinə yönəlidir". (1) Ən vacibi isə, psixoterapiya insanın psixi halı, hissləri, inancları, gizli həyəcanları, uşaqlıq xatirələrinə istinad edir, fəlsəfi məsləhətləşmə isə insanın varlığı, müəyyən vəziyyəti ilə əlaqəli olan abstrakt ideyalara. (2, səh. 5) Lou Marinoff isə belə hesab edir, fəlsəfi məsləhətləşmə "keçmişə baxan ənənəvi psixoterapiyadan fərqli olaraq, gələcəyə baxır". (3, səh. 9) Belə məlum olur ki, hər ikisi problemin həllinə çalışsa da və bu, əsasən söhbət, məsləhətləşmə (psixoterapiyada həm də dərmanlar) vasitəsi ilə aparılsa da, məsələyə yanaşma kökündən fərqlənir. Bu fərqin nə qədər böyük olduğunu göstərmək üçün fəlsəfi məsləhətləşmənin başqa bir tanınmış nümayəndəsi Lou Marinoff özünün bu sahəyə aid ən böyük əsərini

[1] Kostenbaum klinik fəlsəfə deyəndə məhz fəlsəfi məsləhətləşməni və ya fəlsəfi terapiyanı nəzərdə tutur.

“Prozak yox, Platon! Əbədi Hikmətin gündəlik problemə tətbiqi” adlandırır. (3) Prozak antidepresan, propilamin əsaslı dərmandır. Məhz bunu nəzərdə tutan filosof öz müsahibəsində qeyd edir ki, “bizim müştərilərə təklif etmək üçün olduqca faydalı ideyalardan ibarət böyük bir dəstimiz var – 2500 illik yığılmış müdriklik”. (4, səh. 3) Bəli, fəlsəfi məsləhətləşmənin ən böyük silahı da, ən faydalı metodu da, ən incə yanaşması da yalnız fəlsəfi ideyalar, hikmətlərdir. Məhz onlar vasitəsilə məsləhətçi-filosof qarşıdakını düşünməyə, mövcud biliklərini və potensialını aktivləşdirməyə və bu yolla öz probleminin həllini axtarmağı öyrədir.

***Fəlsəfi məsləhətləşmə – yaxşı unudulmuş keçmiş***

Beləliklə, fəlsəfi məsləhətləşmə nədir və nə üçün öyrənilməli, tətbiq edilməlidir?

Fəlsəfi məsləhətləşmə haqqında ilk fikir budur ki, “bu yeni bir şey deyil!” Koestanbaum müsahibəsində bu ənənəni Dekart və Haydeggerə bağlayır. Bu prosesin müəyyən incəliklərini ön plana çəkən sonrakı nümayəndələr isə öz təcrübələrinin Sokratdan başladığını bildirirlər. Tarixdən də belə məlum olur ki, bu ənənə - insanların gündəlik həyatını fəlsəfi söhbətlər vasitəsilə dəyərləndirmək, mövcud problemləri, sualları fəlsəfə vasitəsilə həll etmək, olan hadisələrin mahiyyətini dərk etmək hələ antik dövrdə Sokratdan başlayır. Marinoff müsahibəsində deyir: “Antik dünyada fəlsəfə həyatın və daha yaxşı yaşamağın bələdçisi idi. Fəlsəfi prasktika həmin şeyi təkrar səhnəyə qaytarır. Beləliklə, bizə elə gəlir ki, biz çox qədim bir iş görürük, yeni tərzdə olsa da. (4, səh. 3) Lakin sual yaranır: bu üsuldan yalnız Sokratmı istifadə edibdir?!

Hər şeydən əvvəl qədim dövrdə həm Şərq, həm də Qərb üçün ortaq bir fakta diqqət çəkək: filosoflar, ustadlar müdrikliyi bağlarda, gözəl məkanlarda təşkil etdikləri müzakirələr və söhbətlər vasitəsilə axtarıb, cilalayıb, verilən sualları cavablayıb, hər vəziyyətin mahiyyətində gizli olan hikməti üzə çıxarmağa cəhd ediblər. Bəzən öz məkanı darlıq edəndə həqiqətləri öyrənmək üçün uzaq ölkələrə üz tutub, digər müdriklərin də söhbətinə qoşulublar. Daha sonra öyrəndiklərini öz xalqının milli təfəkkürünə uyğunlaşdırıb, öz fikir süzgəcindən keçirdikdən sonra şagirdlərinə təqdim edərmiş. Məsələn, bu gün daha çox Yunan fəlsəfəsi kimi tanınan antik fəlsəfə əslində əksər filosofların – Pifaqorun, Demokritin, Platonun Şərqə səyahətlərinin, orada öyrəndikləri hikmət üzərində qurduqları fəlsəfədir. Təbii ki, eyni ənənə Şərq filosoflarında – Lao Tsı, Konfutsidə də olub. Burada əhəmiyyətli bir məqamı vurğulayım: belə filosofların səyahətləri, həyat tərzi, şəxsiyyəti arxa plana çəkilib, önə isə onların hikmət zirvəsində qazandıqları və şəxsi düşüncə süzgəcindən keçən ümumbəşəri ideyaları çıxıb. Belə düşünmək olar ki, belə geniş arealda doğulub yetişən hikmət vaxt, məkan hüdudlarına sığa bilməzlər. Onların düşüncələrinin milliyyəti, dini olmasa da, hər kəs öz mənəviyatına lazım olan hikməti dərk edə bilir! Təkrar edim: real təcrübədən doğulduğuna görə məhz canlı ünsiyyətdən.

Yeri gəlmişkən, dediklərimizdə daha bir maraqlı məqamı da vurğulamaq istərdim. Fəlsəfi məsləhətləşmə, söhbət zamanı iki qarşılıqlı proses gedir: bir tərəfin, filosof-məsləhətçinin onun mövcud vəziyyətinə uyğun təklif etdiyi ideya vasitəsilə düşüncəsinin müəyyən qatı aktivləşir, öz halını yenidən dəyərləndirir, addımlarını ölçüb-biçir və öz qərarını verir. Eyni zamanda, filosof-məsləhətçi özü də bildiyi həqiqətlər, nəzəriyyələr sırasında əlavə nə isə öyrənir. Axı, Sokrat yalnız öyrətməyib, özü də öyrədə-öyrədə nə isə dərk edib.

Aristoteldən başlayaraq bu ənənəyə yenilik ayaq açdı. Özü Platonun söhbətlərində yetişsə də, hətta şəxsən bir məktəbin – məşşailiyin yaradıcısı olsa da, onun fəlsəfəsi bu ənənənin sonunun başlanğıcı oldu. Ensiklopedik təfəkkürə sahib Aristotel yalnız öz düşüncəsinin məhsulu olan nəzəriyyələr, prinsiplər irəli sürdü. Nəticədə fəlsəfənin bətnində yeni elmlər doğulmağa və hər biri müstəqil həyat qazanıb ayrılmağa başladı. Fəlsəfəyə quru nəzəriyyə, ideyaların yalnız təqdimi qaldı. Nəticədə fəlsəfə reallıqla əlaqəsi itmiş, mürəkkəb prinsip və kateqoriyalarla danışan, yalnız Universumla, Mütləqlə, transsendent dünya ilə maraqlanan bir sahəyə çevrildi. Yalnız XVII əsrdə Dekart “kəşf elədi” ki, düşünürmüş, ona görə də varmış, Kant saf təfəkkürə istinadən iddia elədi ki, “dünya bizə təcrübə vasitəsilə verilir” və “özünüdərk insanın təbii keyfiyyəti olan eqoizmi yaradır”. (9) Bu siyahını maraqlı ideyalarla zənginləşdirmək olar. Lakin məqsədimiz sadəcə fəlsəfənin gün-

dəlik həyatdan, bir fərqin düşüncə tərzinin çox fövqünə qalxdığını vurğulamaqdır. Təbii ki, təfəkkürü ümumbəşəri səviyyədə işləyən şəxslərin yaratdığı fəlsəfə yenə də vaxta və məkana qalib gəlirdi, bir fərd çərçivəsini aşa bilməyən ideyaların həyatı isə bir ömrə ancaq sığırdı. Bəli, Platonun dediyi kimi, fəlsəfə seçilmiş elitaya məxsus bir düşüncə, hətta həyat tərzinə çevrilirdi. Məsələn, XIX əsrdə Avropada qadın fəlsəfə üzrə doktor və ya professor ünvanı almaq üçün mütləq bir professorla evli olmalı idi, çünki "doktor elmi ünvanı almaq o zamanlar sırf kişilərə xas bir şey idi". (7, səh. 277) Yəni fəlsəfə artıq bir zivə hesab edilirdi və bu fakt filosofların özünün də xoşuna gəlirdi. Nəticədə *get-gedə filosoflar tək qalır, öz hikmətlərini yalqızlıqda yaradır, xalq isə fəlsəfəsiz qalırdı.*Söhbət fiziki yalnızlıqdan daha çox, mənəvi, düşüncə yalnızlığından gedir. Hətta həmin filosofların davamçılarının yaratdığı fəlsəfi məktəb də o zirvəyə yol açmırdı. Burada əhəmiyyətli, eyni zamanda qorxulu məqam onda idi ki, bu proses bir qanunauyğunluq olaraq qəbul edilirdi.

Bu gün insanlar, qeyd etdiyimiz kimi, informasiya bolluğu içində boğulur, özünü unudur. Hər nə qədər fəlsəfə kütləvilikdən aralı qaçsa da, özü də boğulmaqdadır. Düzdür, bütün dünyada fəlsəfə üzrə yazılan elmi işlər, keçirilən simpozium və konfranslar artmaqdadır. Fakt kimi yalnız bunu vurğulayaq ki, 2018-ci ildə Pekində keçirilən Dünya Fəlsəfə Konqresində 10 mindən çox insan iştirak edirdi. Adı fəlsəfə ilə bağlı olan bu mötəbər tədbirdə 10 min nəfərlik insan selinin içində görünməz olan həqiqi filosofları düşündükcə, bu gün dünyada ən dəyərsiz şeyin nə üçün insan olduğunu anladım.

Əlbəttə, Platon "Respublika" əsərində təqdim etdiyi filosof portretindən belə məlum olur ki, o, digər insanlara xas olmayan ən yüksək keyfiyyətə, biliyə, həqiqətə istək, ədalət hissləri güclü olmalı, ən vacibi isə zərif ruha malik olmalıdır. Əks halda həm fəlsəfə, həm də dövlət tənəzzülə uğrayar. Bəli, filosofun düşüncə tərzi, ilahi həqiqət dünyası ilə maddi dünya arasında bir "ötürücü" olmaq missiyasına, bacarığına görə digər insanlardan fərqlənir, lakin bu, onu təcrid etmir, etməməlidir. Əksinə, filosof "yalnız öz kamilliyi ilə məhdudlaşmır və insanların şəxsi və ictimai gündəlik həyatlarının qayğısına qalır" (5) və ən vacibi bunu etmək üçün əvvəlcə insanların mənəviyyatını, dövləti ağ lövhə kimi təmizləməlidirlər. (5, səh. 501) Əslində, fəlsəfi məsləhətləşmənin nüvəsini məhz bu nöqtədə axtarmaq lazımdır – özü yüksək keyfiyyətə və dərin biliyə malik olan filosof ətrafındakı insanları və cəmiyyəti də öz səviyyəsinə çatdırmağa cəhd edir. İllər sonra eyni ideyaya Rabindranath Tagorda da rast gəlirik: «Güclü və qüdrətli olmaq qüvvəyə görə üstün olmaq deyil, zəifi öz zirvənə qaldıra bilməkdir». (11, səh. 45)Bəli, əgər bir şəxsə ilahi aləmlə əlaqəli olub, ən ali həqiqətlər dərk etmək qabiliyyətinə malikdirsə, deməli, qazandıqlarını digər insanlarla bölüşməlidir, bir bələdçi, ötürücü missiyasını daşımalıdır. Məsələn, amerikan şairi Ezra Paund Nobel mükafatı alan Rabindranath Tagora məhz "Qərb həyatının xaosu içərisində unudulan müdrik həqiqətləri bir daha xatırlatdığına görə" xüsusilə böyük dəyər verir. Deməli, filosof yalnız öz şəxsiyyətində qala bilmədiyi kimi, düşüncələrinin təqdimində də bunu nəzərə almalıdır – dərk etdikləri cəmiyyətin, fərqlərin düşüncələrinin yüksəlməsinə, təmizlənməsinə xidmət etməlidir. Başqa sözlə desək, Dekartın, Kantın, Yaspersin hikmətini tətbiq etməyi bacarmaqdır.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, söhbət heç də gündəlik həyatı "fəlsəfiləşdirməkdən", yaxud hər kəsi filosofa çevirməkdən, yüksək həqiqətləri bayağılaşdırmaqdan getmir. Söhbət həyatın özünə fəlsəfə zirvəsindən baxmaqdan, "filosofluq etməkdən" gedir. Ran Lahavın qeyd etdiyi kimi, "burada dar mənada deyilən filosofluq etmək həyata və dünyaya daha müdrik bir yanaşma göstərməkdir, yəni əsas həyati problemlərə daha tənqidi, geniş və dərin münasibət. Bu mənada filosofluq etmək və müdriklik anlayışları sıx əlaqəlidir. (2, səh. 5) Mövcud problem, yaxud hadisə ətrafında aparılan müzakirə ali həqiqətləri necə aça bildiyinə inanmaq üçün, düşünürəm, sadəcə, Platonun "Dialoqlar"ını xatırlamaq yetər.

### *Həyat, problemlər və fəlsəfi məsləhətləşmə*

Müasir dövrün xarakterik cəhətlərindən biri də informasiya bolluğudur. Hər nə qədər informasiyanın yaradıcısı, mənbəyi insan özü olsa da, yenə də onun hökmü altında, onun diktəsi ilə hərəkət etməli olur. Kant deyirdi ki, "Şəxsiyyətdə, doğrusu, yüksək heç nə yoxdur, çünki

əxlaq qanununa tabedir, lakin onda ali bir şey də var, çünki bu qanunu onun özü qoyur, buna görə də ancaq ona tabe olur”. (10, səh. 219) Əxlaq anlayışını informasiya ilə əvəz etsək, müasir dövrün aydın bir mənzərəsi yaranar – İnsan öz yaratdığı informasiyanın quluna çevrilib. Biliklər yalnız informasiya şəklində qəbul edilir və bu hal o dərəcədə geniş yayılıb ki, bütün sahələri idarə etməyə başlayıb, hətta fəlsəfəni də. Hələ XX əsrin ikinci yarısında Karl Yaspers yazırdı ki, “Çox vaxt fəlsəfə öz təbiətini düzgün anlamayaraq, özünü müasir elmlə eyniləşdirirdi və ya bütün bu əsrlər ərzində “o da elm” kimi çıxış edirdi. Bu günün vəzifəsi onu özünə qaytarmaqdır”. (12, səh. 133) Ancaq o vaxtdan texnika və texnologiyanın imkanları daha da genişlənib, nəticədə informasiyanın yayılma sürəti və bilavasitə şüuraltına təsir qüvvəsi artıb. Bütün bunlar insanın diqqətini daha çox kənar aləmə, ətrafa fokuslanmağa məcbur edir və özünü də artıq bu kontekstdə görür. Başqa sözlə desək, insan özünü kamilləşdirərək ətrafa da o kamilliyin ötürülməsini düşünmək yerinə, özünü ətrafın ümumi mənzərəsinə köklənməyə, uyğunlaşdırmağa çalışır. İnsan bir növ öz ruhu, öz nüvəsi ətrafında toplaşmaq, sıxlaşmaq əvəzinə, dağılır, parçalanır və ... ruhu yalqız qalır. Bir paralel aparsaq, görərik ki, bütün elmlərə ev sahibliyi edə-edə özü tənha qalan fəlsəfə kimi insan da yaratdığı texnologiyalar, informasiya xaosu, sosial şəbəkələr arasında tənhadır.

Burada əhəmiyyətli bir məqam da mütləq vurğulanmalıdır. Əslində, hər insanın mənəvi kamilləşməsi üçün onun təkliyə bir ehtiyacı var – öz ruhu ilə baş-başa qalıb, ruhu vasitəsi ilə ilahi aləmə yüksələ bilməsi, oradan bilik ala bilməsi üçün. Lakin burada vəziyyət fərqlidir – insan nəinki öz ruhu ilə baş-başa qala, onu dinləyə bilmir, heç onu görməyə macal da tapmır, çünki diqqət başqa obyektlərə yayınıb. Deyilənlərin fonunda müasir insan portretinə baxaq... İnformasiya selində boğulan, yalqız olduğu üçün kimsədən kömək gözləyə bilməyən və hansı isə uzaq təşkilatlara, mücərrəd qüvvələrə üz tutub yardım gözləyən, hər addımda problemlər yaşayan və tapdığı həll yolu mütləq başqa problemin yaranmasına səbəb olan, bunları yaşamamaq və gündəlik informasiyaları vaxtında və lazımi qədər mənimsəmək üçün robotlaşma səviyyəsinə çatan sosial bioloji varlıq. Bu varlığın kimliyini açmadan (çünki bu, artıq ən müxtəlif sahələrin obyektidir) biz diqqəti başqa yerə yönəldək – problemin yaranma səbəblərinə.

Hər ideyanın inkişaf trayektoriyası dairəvidir. İlk nöqtədən çıxan ideya müəyyən çevrə cızandan sonra öz ilkin nöqtəsinə qayıtmalıdır. Hegel yazır: “Bu, əvvəlin və sonun birləşməsidir – bu, anlayışın özünün mövcudluğu prosesi boyunca özünə qayıtmasıdır. Lakin ruhda canlı varlığında olduğundan daha kamil formada təzahür edir...”. (8, səh. 12) İnsan da bütövlükdə mürəkkəb bir ideyadır, daha doğrusu ideyalar kompleksidir. Bu səbəbdən, onun həyatı fərqli diaqonallı çevrələrdən xarakterlidir. İnsanın ömrü boyu bilik qazanıb, həm fiziki, həm də əqli baxımdan böyüdüyünü, kamilləşdiyini nəzərə alaraq belə nəticə çıxartmaq olur ki, bu çevrələr kiçikdən böyüyə doğru davam edir. Müəyyən inkişaf yolunun sonuna gələndə insan, bir tərəfdən eyni varlıqdır, digər tərəfdən artıq öz düşüncə səviyyəsində üst qata qalxa bilmiş biridir. Bu prosesin hər yeni mərhələsinin çevrəsi əvvəlki iləilk və son nöqtədə üst-üstə düşsə də, çevrə özü əvvəlkindən daha geniş olur. Eyni çevrə boyunca hərlənmək durğunluqdur. Çevrə özünüdərk prosesidir, ilk nöqtəyə, yəni öz “mən”inə yeni baxışın formalaşmasıdır. Çevrənin ilk və son nöqtəsi birləşməsə, ideya tamamlanmamış qalır və deməli yeni ideyanın doğuluşu, yeni tsikl başlaya bilmir. Burada söhbət bir nöqtədə birləşən və get-gedə böyüyən çevrələrdən gedir. Başqa sözlə desək, yalnız yaşına görə deyil, zehnində də uşaqlığını – uşaqlıq çevrəsini tamamlaya bilməyən bir insan yeniyetməliyə, daha sonra gəncliyə keçə bilməz. Onun həyat xətti haradasa ya əyilərsə, ya düyünə düşüb dayanarsa, onun həyat hərəkəti dayanmış olur və bu, onu incidir. Bu, problemin yaranma məqamdır. Məsələn, Türk musiqisinin ustadlarından biri Rəhmi Oruc Güvənin bildirdiyinə görə, insan orqanizmində hər hüceyrənin öz səsi var və yalnız bu səslər harmonik şəkildə səslənəndə insanın həm bədəni, həm də düşüncəsi rahat və sağlam olur. Musiqi terapiyası da məhz harmoniyadan çıxan və bununla da öz sahibini narahat edən hüceyrəni sakitləşdirməkdir. Problemli insan – həyat xətti dolaşmış, düyünə düşmüş insandır. Necə ki, harmoniyası pozulmuş hüceyrə orqanizmi xəstələndirir, elə-

cə də, düyün düşmüş xətt həyatı mürəkkəbləşdirir. Fəlsəfi məsləhətləşmənin– fəlsəfi terapiyanın əsas funksiyası düşmüş düyünü açmaqdır. Xüsusilə vurğulayaq ki, Qordi düyünü kimi kəsmək yox, məhz açmaq. Zənnimcə, sərkərdənin ustadı Aristotel günlərlə düşünüb o düyünü açardı.

Belə məlum olur ki, problem – insanın ya öz daxili aləminin, ya da ətraf aləmlə harmoniyasının pozulmasıdır. Eyni zamanda, problem insanın ruhunun və maddi orqanizminin arasında harmoniyanın pozulmasından yarana bilər. Bəs bu məsələdə, fəlsəfi məsləhətləşmənin funksiyası nədən ibarətdir?! Fəlsəfi məsləhətləşmə insanı tənhalıqdan çıxarıb filosoflarla "ünsiyyətə" cəlb edən vasitədir. Axı, ünsiyyətlər fərqli olur. Bir var dəmir mülayim su, nəmlə "qol-boyun ola", bir də var sərt çəkic, od, zindanla çəkişə-bərkişə. Birinin sonunda ortada pas atmış, çürüməkdə olan lazımsız dəmir parçası qalır, digərinin sonunda qılınc! Hətta bir dəmirin də bir qılınca çevrilməsi üçün çəkic, od, zindanla "ünsiyyətdə olması" zəruridir.

Məsələ burasındadır ki, hər nə qədər insan özlüyündə mükəmməl bir varlıq olsa da, o, həm də sosial varlıqdır və mütləq öz əməllərinin inikasını görməlidir. İnsan daha çox öz Yaradanı ilə müqayisə olunur və qüdsi hədislərin birində deyilir ki, "Mən tanınmaq istədim və xəlqi yaratdım". Başqa sözlə desək, hətta Mütləq Yaradan da "tanınmaq istədiyi üçün" xəlqi yaradırsa, deməli, Onun yer üzündəki xəlifəsi olan İnsanın da özünü tanıması üçün cəmiyyətə üz tutması və ondan aldığı əks reaksiyalarla özünü dərk etməsi bir qanunauyğunluqdur. Hər ruhun öz "həmsöhbəti" olmalıdır ki, nəticə mükəmməl olsun. Məsələn, deyilənə görə, heykəltəraş daşa baxanda onun "ruhunu" görür və onu üzə çıxarır. Zərgər daşın iç işığını tutub ona uyğun cilalayır ki, işıq gözəl cilvələnsin. Əks halda, gərəksiz bir şey alınar. Fəlsəfi məsləhətləşmə fəlsəfə tarixinə baş vurub qarşıdakı şəxsə həmsöhbət ola biləcək filosofu tapır və həmin "ünsiyyətin" baş verməsi üçün şərait yaradır.

***Müasir Azərbaycanda fəlsəfi məsləhətləşmə***

Azərbaycan 70 il ərzində Sovet İttifaqı tərkibində olanda bəlli bir ideologiya çərçivəsində yaşayıb inkişaf edirdi. Rəsmi araşdırmalar, əsərlər bu təfəkkürün inikası, eyni zamanda, təfəkkürlərin bələdçisi olurdular. Düzdür, bununla paralel olaraq, düşüncənin alt qatında gizli bir proses də gedirdi – şairlərin, yazıçıların yaradıcılığında, folklorda, milli musiqidə, xalq oyunları, bayramlarında, mərasimlərində milli dəyərlər, milli ruh yaşayır və buna səbəb millətin identikliyi qorunurdu. Beləliklə, üst qatda yaranan hər hansı problem, fikir dolaşıqlığı hakim partiya tərəfindən təyin edilmiş standart üsullarla həll olunurdu – komsomol, partiya, həmkarlar iclasları, töhmətlər, tərifnamələrlə. Alt qatda gedən proseslər də bəlli, illərin sınağından keçmiş ənənəvi yollarla həll olunurdu – ağsaqqal-qarasaqqal məsləhəti, adət-ənənə.

Postsovet dövrü bir çox yeni şey verməklə yanaşı, həm də standart ideoloji çərçivələri dağıtdı. Əslində çərçivələrin ortadan götürülməsi yalnız içdən çölə deyil, həm də çöldən içəri gedən axınlara şərait yaratdı. Nəzərə alsaq ki, Sovet İttifaqının sərhəddindən kənarda gedən proseslər daha zəngin, daha rəngarəng idi, ikinci istiqamətdə gedən axın daha sürətli, daha güclü oldu. Nəticədə müasir azərbaycanlı böyük bir ideyalar xaosunun ortasına düşdü. Beləliklə, tək ideologiya çoxsaylı naməlum cərəyanlarla əvəz olundu, adət-ənənə, milli mentalitet köhnəliyin qalığı kimi tənqid olundu. Başqa sözlə desək, təfəkkürlərin yalnız üst qatı deyil, alt qatı – milli təfəkkür də hücuma, hətta dağıntıya məruz qaldı. Belə olan halda insanın qarşılaşdığı problemlərin həllində də artıq bəlli bir yolun, üsulun tətbiqi real görünmədi. Bu səbəbdən gənclərin hər hansı dini sektalara üzv olması, terror qruplaşmalara qoşulması, ailələrin qurulmasının və dağılmasının az qala oyuna çevrilməsi, milli dəyərlərinin dəyərsizləşməsi, milli ruha yad olan keyfiyyətlərin məcburi şəkildə cəmiyyətə "peyvənd" edilməsi "müasirlik", "azad düşüncə" kimi qəbul edilməyə başladı. Bütün bunlar insanları mahiyyətini anlaya bilmədikləri yeni problemlərlə üz-üzə qoyurdu. Vəziyyətin ən dramatik tərəfi onda idi ki, insanlar problemin özünü yaşasalar da onun əsl mahiyyətini görə bilmirdilər və bu, onun həllini ya mümkünsüz edirdi, ya da yanlış yol tutulurdu.

Təfəkkürlərin belə bir xaos halında fəlsəfənin, yəni gənclərə düşünməyi öyrətməli olan, onlara həqiqətin yolunu göstərməli olan fənnin tədrisində böyük yanlışlığa yol verildi. Əvvəlcə, ilk addım kimi, marksizm-leninizm düşmən

ideologiya kimi qəti şəkildə inkar edildi, ancaq dərsliklərdən yalnız termin kimi çıxarıldı, ya da müasir bir sözlə əvəz edildi. Xüsusilə vurğulayım, silinən yalnız termin oldu! Mətnlər, üsullar, münasibətlər isə yerində qaldı. Burada əhəmiyyətli bir məqam unuduldu: yolu, baxışı bütün dünyaya açılmış Azərbaycan gəncinə yenə də bəlli çərçivədə yazılmış dərslikdən fəlsəfə öyrətməyə davam etdilər! İkinci addım gənclərin özü tərəfindən atıldı – Qərb fəlsəfəsi, ayrı-ayrı filosoflarböyük sevgiylə, təşnəylə öyrənilməyə başladı. Əslində, tədris proqramında da əsas yeri Qərb fəlsəfəsi tutdu. Birinci addımdan sonra bu, qaranlıqda ani parıltı effekti yaratdı. Düşünməyə meylli gənclər, təbii ki, məhdud çərçivədən çıxmaq üçün o parıltıya yönəldilər, Qərbdə artıq yaranmış, bəzən hətta uğursuzluqla bitmiş cərəyanlar Azərbaycanda Qərb təfəkkürünün uğuru kimi təbliğ edilməyə başladı. Düşüncənin alt və üst qatları qarışdı, bir-birinə zidd hala gətirildi. Nəticədə çox təhlükəli, hələ də gücünü itirməyən haqsız bir rəy formalaşdı: *Azərbaycanda fəlsəfə yoxdur*!

Respublikada vəziyyət tədricən sabitləşdikcə, düşüncələrdə durulma halı baş verdikcə tədricən problemlər də daha aydın görülməyə başladı. Ən vacibi isə düşüncələrin alt qatı gizlilikdən üzə çıxarıldı, daha dəqiq desək, özünü bərpa etdi. Yəni milli ruh, milli dəyərlər və onların hikməti açıq təbliğ edilməyə başladı. Bu, bir tərəfdən, böyük bir düşüncə potensialının üzə çıxması, digər tərəfdən isə xaricdən gələn ideya axınını saf-çürük etmək qabiliyyətinin formalaşması demək idi.

Hazırda Azərbaycanda hər hansı konkret fəlsəfi cərəyanın varlığı haqında danışmaq çətindir. Ali məktəblərdə fəlsəfə ümumi şəkildə, hətta seçmə fənn kimi tədris edilir, müstəqil şəkildə, tədqiqat institutlarında, yaxud sərbəst şəkildə fenomenologiya, hermenevtika, ekzistensializm, etika, tarixin fəlsəfəsi, yaxud buddizm, təsəvvüf öyrənilir, dinşünaslıq sürətlə yayılır, əsərlər tərcümə edilir, təhlillər verilir, yeni fəlsəfə dərslikləri yazılır, ancaq hər hansı bir fəlsəfi cərəyan əsaslı şəkildə kök salmır, fəlsəfi məktəb yoxdur. Yəni gənclərin təfəkkürü fəlsəfi mənada müəyyən çərçivəyə salınmır, eyni zamanda istiqamətləndirilmir. Bu mənada təfəkkürün üst qatı yenə pərakəndə haldadır. Təsadüfi deyil ki, bu gün də gənclər "ciddi fəlsəfi təhsil" almaq üçün xarici ölkəyə üz tutmağa üstünlük verirlər.

Əvəzində təfəkkürün alt qatı, daha dəqiq desək, təməli sürətlə sabitləşməkdə və özünü təsdiq etməkdə idi. İşin müsbət tərəfi ondadır ki, milli ruhun və milli dəyərlərin qorunması, təbliği məhz dövlətin prioritet istiqaməti kimi qəbul edilməklə bu axının daha da dərinləşməsinə və genişlənməsinə şərait yaratdı. Onu da mütləq vurğulayaq ki, bu iş yalnız ölkə daxilində deyil, beynəlxalq səviyyədə aparılır. Bununla Azərbaycanın böyük bir hikmət xəzinəsinə malik olduğu nümayiş etdirilir və tarixən dünya fəlsəfəsinə orijinal fəlsəfələr bəxş edən bir xalqın bu gün də var olduğunu təsdiq edir. Bəli, bir xalqın düşünmək qabiliyyəti varsa, deməli, var və olacaq!

Dediklərimizin fonunda müasir azərbaycanlının portretinə bir daha baxaq: artıq bəlli çərçivə arasında düşünməyən, dünyada gedən proseslərdən kənarda qalmaq istəsə də qala bilməyən, sabit, çoxəsrlik bir təmələ sahib olsa da, təəssüf ki, çox vaxt onu fəlsəfə kimi qəbul etməyən bir insan. Təbii ki, onun problemləri də artıq bəlli çərçivə arasında yaranan və elə həmin miqyasda da həll oluna bilən problem deyil. Əslində, bütün dünyada insanların problemləri qalxan xətt boyunca inkişaf edir. Belə olan halda, məntiqli olaraq bu problemlərin həlli də düşünülür. Fəlsəfə də bunu düşünür və təklif edir ki, məsələyə elə bir yanaşma olmalı, problem elə həll edilməlidir ki, çərçivəsiz bir məkanda bütün xarici təsirlərin, axınların mərkəzində dursa da, insanı öz sabit kökü üzərində durduğuna, öz potensialına inansın. Bunun üçün isə ilk növbədə düşünmək, mövcud vəziyyətin mahiyyətini dərk etmək lazımdır. Fəlsəfi məsləhətləşmə isə bunun üçün ən uyğun üsuldur. Bu cümlə müəyyən mənada cavab hesab edilsə də, zənnimcə, fəlsəfi məsləhətləşmənin Azərbaycan üçün aktuallığının səbəbləri açıqlanmalıdır.

Əvvəla, fəlsəfi məsləhətləşmə insana özünü tanıtmaqdır. Bu isə milli ruhun və milli təfəkkürün mahiyyətini dərk etməkdən başlayır. Məsələ burasındadır ki, bir çox hallarda məhz düşüncənin alt qatında yatan bir hikmət vacib çıxış yolunu göstərə bilir.Onu da mütləq vurğulayaqki, milli ruhun daha bir zəruri missiyası isə dünyada gedən dehumanizasiya prosesinin

Azərbaycanda qarşısını ala bilən yeganə qüvvədir. Hegel fəlsəfəsi hər nə qədər mükəmməl bir sistem olsa da, gündəlik həyatında düyün düşmüş bir azərbaycanlı üçün onun bir faydası olmaya bilir. Fəlsəfi məsləhətləşmə şəxsin altşüurunda mövcud olan hikmətləri aktivləşdirməkdir və onlar üzərində çıxış yolu tapmaqdır. Məsələn, Lou Marinoff öz əsərində gətirdiyi nümunələrdə bu və ya digər fəlsəfi ideyaların insanlara gündəlik həyatlarında necə yardım etdiyini göstərir. Bu sırada işindən heç cür zövq almayan gənc, ailə həyatını heç cür öz axarına sala bilməyən bir xanım, illərin arzusunu reallaşdıra bilmədiyinə görə özünü uğursuz hesab edən məmur və ilk baxışda normal görünən, daxildə böyük üsyan yaşayan, yaxud həyatının qara zolağından çıxa bilməyən bir çox  insan var. Bunu içini qurd yeyən və bir gün yıxılacaq ağaca bənzətmək olar. Bəli, istisnasız olaraq hər problem ağıllı münasibət tələb edir və problem sahibi ilk növbədə öz varlığını dərk etməlidir ki, mənzərəni aydın görə bilsin. Sokratın dediyi kimi, "araşdırılmamış həyatı yaşamağa dəyməz". Bir həyatın araşdırılmasında isə ilk növbədə onun fitrətində olan hikmətləri bilmək və onları aktuallaşdırmaq vacibdir.

İkincisi, fəlsəfi məsləhətləşmə fəlsəfə tarixinin və əsas fəlsəfi ideyaların yüksək səviyyədə  bilinməsi və tətbiqi deməkdir. Məhz bütün ideyalar fonunda aparılan müzakirə və söhbət vəziyyətin düzgün anlaşılmasına və dəyərləndirilməsinə imkan verir. Xatırladaq ki, bugünün insanı yalnız öz cəmiyyətinin deyil, bütün dünyanın, xüsusilə məqsədyönlü yürüdülən ideoloji hücumlarına məruz qalır, deməli, onun problemlərinin həllində də fəlsəfə tarixinin bütün səhifələri araşdırılmalıdır. Bundan əlavə, məhz dünya fəlsəfəsindən xəbərdar olan insanın şüurunun üst qatı aktivləşə bilər. Nəzərə almaq lazımdır ki, problemlər heç də həmişə şüurun altqatının gücü ilə dərk edilmir və deməli, həll edilə bilər.

Üçüncüsü, fəlsəfi məsləhətləşmə keçmiş, indi və gələcək arasında müqayisə aparmaq imkanı verir. Son 30 ildə Azərbaycanda siyasi, iqtisadi, hətta milli məsələlərdə də sürətli dəyişikliklər oldu, azərbaycanlı bütün bu halları bilavasitə yaşadı, gərginləşdi, çaş-baş qaldı, öyrəndi, faciə yaşadı, sevindi. Bu mənada Azərbaycanda yaşlı, orta və gənc nəslin hər birinin özünəməxsus problemləri var ki, birinin həlli digəri üçün qətiyyən uyğun gəlmir, çünki fərqli baxış bucağına, hətta fərqli dəyərlərə malikdirlər. Bu mənada fəlsəfi məsləhətləşmə hər insana fərdi yanaşmanı təmin edən, düşüncələrdə yaranmış ziddiyyətləri həll etmək, həyatı öz axarına salmaq üçün bir üsuldur. Burada ən vacib məqamlardan biri də budur ki, fəlsəfi məsələhətləşmə müasir dünyanın mürəkkəb vəziyyətinə uyğun gəlməklə yanaşı, problemin zəif halqasını görməkdə də yardım edə bilir. Biz təsadüfən zəif halqa adlandırmırıq. Qeyd etdiyimiz kimi,problem zəncirvari bir proses nəticəsində yaranmış, bəzən kifayət qədər möhkəmlənmiş bir düyündür. Onu açmaq üçün mütləq zəif məqamını tapmaq lazımdır. Filosof-məsləhətçi qarşı tərəfə məsələyə kompleks baxmağı və lazımi məqamı görməyi öyrədir.

Nəhayət, vacib faktlardan biri də fəlsəfənin tətbiqi məsələsidir. Bu gün Azərbaycan dünyanın aktiv məkanlarından biridir. Bir tərəfdən, qaynar nöqtələrdən biri – Qarabağ münaqişəsi buradadır, digər tərəfdən, Azərbaycan meqalayihələrin üzvi hissəsi, hətta aparıcı qüvvələrindən biridir. Bu baxımdan, azərbaycanlıların, xüsusilə gənclərin düşünməsi, öz mahiyyətini dərk etməsi bir zərurətdir ki, lider dövlətlərin, gizli meqa-maraqların xammalına çevrilməsinlər. Əslində, bəzən yaradılan süni problemlərin və xaricdən təklif edilən "çıxış yollarının" əsl məqsədi məhz budur. Maraqlıdır ki, böyük proseslərin fonunda insanlar, onların mənəvi dünyası çox kiçik, hətta görünməz qalır. Yaranan müəyyən problemlərin həllində düşüncə qatına enmədən ya hisslər səviyyəsində - psixoloqlar, ya fiziki səviyyədə - həkimlər, psixiatrlar, ya da mistik səviyyədə - ekstrasenslər, falçılar vasitəsilə çözməyə cəhd edirlər. Üzdə problem həll olunur, düşüncə qatında isə "düyün" qalır. Marinoffun qeyd etdiyinə görə, bu problem Amerika Birləşmiş Ştatları üçün də çox xarakterik və həllini gözləyir. Həlli isə fəlsəfədədir. Sual yaranır: əgər öz həqiqətini tapmaqda, "var olduğunu anlamaq üçün düşünməkdə", ruhunun ilahi aləmə qədər uzanan yolunu, özünün Mütləq ruhla əlaqəsini dərk etməkdə, insan şəxsiyyətinin, ölkə vətəndaşının formalaşmasında fəlsəfə iştirak etməyəcəksə, ən yaxşı halda seyrçi qalacaqsa, o zaman fəlsəfənin tədrisinin azaldılması, başqa sahələr yanında lazımsız görülməsi

özünün rəva bildiyi mərtəbə deyilmi?! Nə qədər sərt səslənsə də, bu sualda həqiqət payı kifayət qədərdir. Əslində həyatın içində olub, onun mahiyyətini anlatmalı olan fəlsəfə kənarda qalmamalıdır. Bunu edən isə fəlsəfi məsləhətləşmədir.

**Nəticə**

Beləliklə, XX əsrin sonlarında yaranmış çoxsaylı fəlsəfi cərəyanlar arasında məhz fəlsəfi məsləhətləşməni seçməyimiz bir təsadüf deyil, məhz reallığın dəyələndirilməsidir. Əslində, bu məqalə yalnız Azərbaycan oxucusunu fəlsəfi məsələhətləşmə ilə tanış etmək və fikrimizi əsaslandırmaq məqsədi daşıyır.Əslində, fəlsəfi məsləhətləşməni cərəyan deyil, fəlsəfi üslub adlandırsaq hal-hazırkı vəziyyəti daha dəqiq ifadə edə bilərik.Bununla belə, üslubun kökündə müəyyən bir ideya durmasa, aparılan söhbətlər aydın bir sistemə istinad etməsə, insanlara xeyirdən çox zərər vurar.Bu etibarla mən məhz fəlsəfi cərəyan termini işlədirəm.

Mən, bir tərəfdən fəlsəfi məsləhətləşmənin özünün tarixini, mahiyyətini açmağa, digər tərəfdən, onun müasir Azərbaycanın düşüncəsində yerini təyin etməyə çalışdım.Məsələ burasındadır ki, modern dünyanın dəbi ilə ayaqlaşaraq hər hansı fəlsəfi cərəyanı gündəmə gətirmək, yenilik gətirmək arzusu ilə kimi isə təəccübləndirmək çətindir.Bu səbəbdən mən məhz fəlsəfənin reallığını açmağa cəhd etdm.Məhz reallığın özünün tələbi ilə hərəkət edəndə həm fəlsəfənin əsl mahiyyəti özünə qayıdır, həm də cəmiyyət aralı düşdüyü hikməti qaytarmağın, düşüncələrində yaranmış "tıxac" nəticəsidə həyatında yaranan problem həll etməyin bir yolunu öyrənir.

**Ədəbiyyat siyahısı**

1. Lahav Ran. Philosophical Counselling as a Quest For Wisdom. http://www.society-for-philosophy-in-practice.org/journal/pdf/4-1%2006%20Lahav%20-%20Quest%20for%20Wisdom.pdf

2. Lahav Ran. The Efficacy Of Philosophical Counselling: A First Outcome Study // PRACTICAL PHILOSOPHY, JOURNAL OF THE SOCIETY FOR PHILOSOPHY IN PRACTICE, Volume 4, No. 2 August 2001 https://rossellapoiein.files.wordpress.com/2012/08/practical-philosophy.pdf

3. Marinoff Lou. Plato, Not Prozac!: Applying Eternal Wisdom to Everyday Problems. Quill; Reprint edition 2000.

4. Philosophical Counselling: an Interview with Lou Marinoff p.3 http://www.loumarinoff.com/wp-content/uploads/2014/08/australia02.pdf // PSYCHOTHERAPY IN AUSTRALIA . VOL 8 NO 3 MAY 2002

5. Plato. The Republic. Book Three. Trans. by Benjamin Jowett // http://classics.mit.edu/Plato/republic.html

6. Raabe Peter B. Issues in Philosophical counseling. Preager. London, 2002

7. Rullmann, Marit. Kadın Filozoflar 1. Antikçağ`dan Aydınlanmaya kadar. Çev. Tomris Menguşoğlu, İstanbul, Kabalcı Yayınevi, 1996.

8. Гегель Г.В.Ф. Философия духа // Энциклопедия философских наук: В 3-х т. Т. 3, М., Мысль, 1977.

9. Гулыга А. В. Кант. М., «Молодая гвардия», 1977. – 304 с., ил. (Жизнь замечат. людей. Серия биографий. Вып. 7 (570)).

10. Кант И. Основоположения метафизики нравов. М., 1994.

11. Лазарев С.Н. Диагностика кармы. Книга 1. Система полевой саморегуляции, С.-П., 2002.

12. Ясперс К. Философская автобиография // Западная философия. Итоги тысячилетия. Екатеринбург, Деловая книга, 1997.

**Summary**

**Konul Bunyadzade**

**The New Philosophical Movement– Philosophical Counselling**

In the paper is studied the new philosophical movement– philosophical counselling that started during the early Eighties in Europe and the US. The paper consists of 4 parts. First, the author considered briefly the history, main methods and representatives of this movement and differed it from the psychology and psychotherapy. The second part is the analyses of the historical roots of the philosophical counselling, its philosophical theories and sources. It helps to understand that the philosophical counselling is the tradition that started during Sokrat – Antic philosophy. In the third part, the author studied the relevance and the importance of the topic for the modern time. Finally, the fourth part of the paper is considered the importance of the philosophical counselling for Azerbaijan.

***Keywords:*** *philosophical counselling, man and philosophy, philosophical treatment, a new movement, psychotherapy*

**Резюме**

**Кенуль Буньядзаде**

**Новое философское течение – философское консультирование**

Статья посвящена анализу нового философского течения, которое было основано в ранние 80-е годы в Европе и США. Статья состоит из 4-х частей. В первой части автор вкратце представляет историю, главные методы и представителей этого течения и показывает отличительные черты от психологии и психотерапии. Вторая часть является изучением исторических корней философского консультирования, его философскиз теорий и источников. Это помогает понять, что филосфское консульторивание традиция, начинающаяся с античного периода – с Сократа. В третей части автор анализирует актуальностьи важность течения для современного периода. И наконец в последней части изучается важность филооофского консультирования для Азербайджана.

***Ключевые слова:*** философское консультирование, человек и философия, философское лечение, новая течение, психотерапия

**UOT 342; 349**

**ORUC MƏMMƏDOV**
*hüquq üzrə fəlsəfə doktoru, UNEC-in İqtisadiyyat və biznesin idarə edilməsi kafedrasının dosenti, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru, Azərbaycan*
*oruc_mammadov@mail.ru*

# DÖVLƏT QULLUQÇULARININ ƏMƏK MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ KONSTİTUSİYA, İNZİBATİ, ƏMƏK VƏ SOSİAL TƏMİNAT HÜQUQ NORMALARININ NİSBƏTİ

***Açar sözləri:*** *dövlət qulluğu, dövlət qulluqçusu, konstitusiya hüququ, inzibati hüquq, əmək hüququ, sosial təminat hüququ, hüquq normaları*

**Problemin aktuallığı.** Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qulluğunun hüquqi bazası yaradılıbdır. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdirilərək həyata keçirilir. Uğurla həyata keçirilən məqsədyönlü siyasətin nəticəsində dövlət qulluğu hüquq institutu yaranmış, formalaşmış və inkişaf etmişdir. Bununla yanaşı müasir dövlət qulluğu hüquq institutunun elmi təhlili zəruri olan, təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edən bir sıra aktual problemləri mövcuddur. Bu problemlərdən biri də dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemini təşkil edən hüquq normalarının nisbətinin müəyyən edilməsidir. Fikrimizcə, bu normalar sistemində konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normaları daha çox və üstün yer tutur. Bu cəhət dövlət qulluğunun həm ictimai-hüquqi, həm də fərdi-hüquqi xarakterinin göstəricisidir. Dövlət qulluqçularının statusunun müəyyən edilməsində və onların fəaliyyətinin tənzimlənməsində müxtəlif hüquq sahələrinə aid normalardan, qanunvericilik aktlarından geniş istifadə edilir. Mahiyyət etibarı ilə, dövlət qulluğu münasibətlərini tənzim edən hüquq normalarının birliyi dövlət qulluğu haqqında vahid qanunvericilik sistemini yaradır. Nəzərə almaq lazımdır ki, bu xüsusiyyət hər bir hüquq sahəsi üçün xarakterikdir. Yəni, tənzim etdiyi ictimai münasibətlərin xarakterindən asılı olaraq müvafiq hüquq sahələri bir-biri ilə qarşılıqlı əlaqədə olur, biri digərinin tənzim etdiyi sahədə özünü büruzə verir, həmin sahənin qanunvericilik sisteminin tərkibinə daxil olur və ictimai münasibətlərin tənzimlənməsinə təsir göstərir. Qeyd edilənlər göstərir ki, dövlət qulluğu hüquq münasibətləri müxtəlif hüquq sahələrinə aid normalar vasitəsilə tənzimlənir. Bu normaların tənzim etdiyi məsələlərdən biri də dövlət qulluqçularının əmək münasibətləridir. Qeyd edilənlər belə qənaətə gəlməyə əsas verir ki, müasir dövrdə dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsində, onların əmək münasibətlərinin və peşəkar fəaliyyətinin hüquqi tənzimlənməsində əsas yer tutan hüquq sahələrinin - konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbətinin müəyyən edilməsi aktual məsələlərdən biridir. Demək olar ki, bu problemin elmi təhlili müasir dövrdə aktuallığı ilə seçilir, nəzəri-konseptual və təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanda dövlət qulluğunun hüquqi problemlərinə, o cümlədən dövlət qulluğu təsisatına dair kompleks elmi təhlillər çox az həsr edilmişdir [14; 23; 24]. Bu fakt Azərbaycan hüquq elmi üçün seçilmiş mövzunun aktuallığını, onun elmi təhlilinin zəruriliyini, elmi yeniliyini və təcrübi əhəmiyyətini özündə ehtiva edən əsas cəhətlərdən biridir.

Tədqiqatın **məqsədi** dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemində əsas yer tutan hüquq sahələrinin - konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbətini müəyyən edən elmi və nor-

mativ müddəaların təhlilindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat zamanı qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur: dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemində əsas yer tutan hüquq sahələrinin - konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbətinə dair: elmi-nəzəri müddəaları ümumiləşdirmək; onun hüquqi əsaslarını müəyyən etmək; tərkib hissələrini fərqləndirmək; mövcud qanunvericiliyin təkmilləşdirilməsinə və müasir elmi-nəzəri konsepsiyanın formalaşmasına aid mülahizələr ifadə etmək.

**Əsas materialın şərhi.** Dövlət qulluğu institutunun hüquq sistemində tutduğu yerə dair məsələ bir sıra müəlliflərin çoxsaylı elmi əsərlərində bu və ya digər məzmunda təhlil edilmişdir. Nəticədə dövlət qulluğu hüquq institutunun nəzəri bazası əsasən yaradılmışdır. Fikrimizcə, dövlət qulluğu institutunun hüquqi tənzimlənməsində ictimai-hüquqi və fərdi-hüquqi elementlərin mövcudluğu, müxtəlif hüquq sahələrinə aid normaların nisbəti məsələsi daha çox diqqəti cəlb edən problemlərdən biridir. Dövlət qulluğu hüquq institutunun mənbələri sistemində konstitusiya, inzibati, əmək, sosial təminat və digər hüquq sahələrinə aid normalar birləşir. Məntiqi olaraq həmin normaların nisbəti elmi-nəzəri maraq və təcrübi əhəmiyyət kəsb edir. İnkişaf tarixi baxımdan qeyd etmək olar ki, dövlət qulluğunun hüquqi problemləri N.M.Korkunov, A.D.Qradovskiy, N.İ.Lazarevskiy, B.N.Çiçerin və b. alimlər tərəfindən XX əsrin əvvəlærindən üzə çıxarılmış, təhlil edilmiş, lakin tam həll edilməmişdir. Hər hansı bir elmi problemin həllini konkret dövr üçün həll edilmiş hesab etmək olar. Fikrimizcə, elm elə bir sahədir ki, o klassik elmi baxışlara əsaslanaraq, dövrü üçün ehtiyacları nəzərə alaraq daimi təkmilləşdirmə zərurətilə qarşılaşır. Təbiət, cəmiyyət, sosial, siyasi, iqtisadi və ictimai mühit dəyişdikcə hər bir elm sahəsi də yeni yanaşmaların ərsəyə gəlməsilə inkişaf edir. Bu mülahizələr hüquq elmi üçün birbaşa və xüsusilə xarakterikdir. Çünki, ictimai münasibətlər dəyişdikcə yeni hüquq normalarının qəbuluna və tətbiqinə mütləq zərurət yaranır. Fikrimizcə, təcrübi problemlərin həlli yollarının ilk növbədə elmi-nəzəri baxışlarda və konsepsiyalarda ifadə edilməsi olduqca faydalı amillərdən biridir.

N.M.Korkunov dövlət qulluğunu "dövlətin adından yerinə yetirilən və dövlət fəaliyyətinin müəyyən bir vəzifəsinin həyata keçirilməsinə yönəldilmiş, öz məzmununa malik məcburi fəaliyyətə və tabeçiliyə əsaslanan, dövlətlə qulluqçunun xüsusi ictimai-hüquqi münasibəti" kimi xarakterizə edir [36, s.400-401]. N.M.Korkunov tərəfindən XX əsrin əvvəllərində irəli sürülmüş elmi müddəalarda dövlət qulluğunun subyekt tərkibi, əsas xarakterik xüsusiyyətləri, siyasi, hüquqi və ictimai mahiyyəti ehtiva olunur. Bu müddəalarda dövlət qulluğunun konstitusion, inzibati, əmək və sosial təminat hüquqi elementləri aydın görünür. N.M.Korkunovun baxışları müasir dövr üçün də böyük elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

Dövlət qulluğunun həyata keçirilməsi onun növündən asılı olmayaraq dövlət qulluqçusunun müəyyən növ hüquqi münasibətlərə girməsini nəzərdə tutur. Bunlara aşağıdakıları aid etmək olar: 1) dövlət qulluqçusunun dövlətin konstitusion məqsədlərinin və funksiyalarının həyata keçirilməsi üzrə dövlətlə yaranan münasibətləri dedikdə, konstitusion hüquq münasibətləri başa düşülür; 2) dövlət qulluqçusunun öz peşəkar fəaliyyəti üzrə dövlət orqanı və ya dövlət orqanının rəhbəri ilə yaranan münasibətləri dedikdə, əmək hüquq münasibətləri anlaşılır; 3) dövlət qulluqçusunun dövlət hakimiyyəti və idarəetmə səlahiyyətlərinin (öz səlahiyyətləri daxilində müəyyən qanuni göstərişlərin və sərəncamların verilməsi, üçüncü şəxslər üçün icrası məcburi olan qərarların qəbulu, davranış qaydalarının müəyyən edilməsi və s.) icrası ilə bağlı üçüncü şəxslərlə - idarə, müəssisə və təşkilatlarla və ya vətəndaşlarla yaranan münasibətləri dedikdə, inzibati hüquq münasibətləri başa düşülür; 4) dövlət qulluqçusunun sosial hüquqi müdafiəsi ilə bağlı yaranan münasibətləri dedikdə isə, sosial təminat hüquq münasibətləri anlaşılır [18, s.35-36]. Məsələn: Qanunvericilik hakimiyyəti orqanlarında seçkili və ya təyinatlı vəzifə tutan hər bir şəxsin fəaliyyətinin əsasını dövlət qulluğu hüquq münasibətləri təşkil edir. Bu münasibətləri tənzim edən normalar əsasən konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarından təsbit edilməklə dövlət qulluğuna dair qanunvericilik sistemində birləşir [43].

İ.Məmmədov dövlət qulluqçusunun fəaliyyətini digər peşə fəaliyyətlərindən fərqləndirən

səciyyəvi əlamətlərə aşağıdakıları aid edir: dövlət qulluqçusu konkret dövlət qulluğu vəzifəsinə malik olmaqla dövlətə xidmət edir; dövlət qulluqçusu dövlət orqanlarında peşə fəaliyyəti ilə məşğul olur; dövlət qulluqçusu öz peşə fəaliyyəti ilə dövlətin funksiyalarının həyata keçirilməsində iştirak edir; dövlət qulluqçusu hakimiyyət nümayəndəsi olmaqla dövlət hakimiyyətinin, dövlət idarəçiliyinin həyata keçirilməsində iştirak edir; dövlət qulluqçusu məxsusi hakimiyyətə, təşkilati-sərəncamverici funksiyalara malikdir; dövlət qulluqçusu ilə vətəndaşlar arasındakı münasibətlər inzibati-hüquqi xarakterə malikdir; dövlət qulluqçusu dövlətə xidmət göstərdiyinə görə dövlət büdcəsi vəsaitindən maaş alır və ona qanunvericiliklə müəyyənləşmiş təminatlar verilir; dövlət qulluqçusu siyasi partiyaların fəaliyyətində iştirak etmək hüququna malik deyil [17, s.393-394]. Dövlət və hüquq nəzəriyyəsində ifadə edilən bu mülahizələr dövlət qulluqçularının fəaliyyətinin xarakterizə edilməsi baxımından təqdirə layiqdir. Qeyd edilən fərqləndirici əlamətlər dövlət qulluqçularının hüquqi statusunun, onların fəaliyyətinin mürəkkəb tərkib elementlərini özündə ehtiva edir.

H.Cindemir dövlət qulluqçularının həmkarlar ittifaqlarında birləşmək hüququnu təhlil edərkən bir sıra Avropa dövlətlərinin (Britaniya, Fransa, Almaniya və İsveç) modellərinə istinad etmişdir. Müəllif qeyd olunan dövlətlərin və Türkiyə modelinə əsaslanaraq dövlət qulluqçularının əmək hüquq subyektliyini əsaslandırmışdır [26, s.553-566]. İ.N.Bartsis və S.V.Başno yazırlar ki, dövlət qulluğunda münasibətlərin tənzimlənməsi üçün əsasən imperativ metoddan istifadə edilir. Bu dövlət qulluğu münasibətlərinin xüsusiyyəti ilə əvvəlcədən müəyyən edilmişdir. Həmin münasibətlərin tərəfi kimi bir tərəfdən dövlət hakimiyyəti orqanı, digər tərəfdən isə dövlət qulluqçusu çıxış edir. ... İntizam – qulluq münasibətlərinin mühüm atributudur [27, s.18]. Müəlliflərlə razılaşmaqla yanaşı qeyd etmək lazımdır ki, dövlət qulluqçularının əmək müasibətlərinin tənzimlənməsi sistemində imperativ normalarla yanaşı dispozitiv normalarda mövcuddur. A.E.Rəhimov yazır: "dövlət qulluğuna münasibətdə əmək hüququnun fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o, dövlət qulluqçusunun əmək münasibətlərini bu və ya digər formada tənzimləyir. Bu da öz növbəsində onu göstərir ki, dövlət qulluqçularının əmək və sosial müdafiəsinin tənzimlənməsi zamanı yaranan hüquqi münasibətlər obyektiv xarakterə malik olması səbəbindən hüququn digər sahələri ilə əmək hüququ ilə bağlıdır [24, s.7].

Dövlət qulluğu hüquq münasibətlərinin tənzimlənməsinə dair məsələnin konstitusiya, inzibati, əmək, sosial təminat və digər hüquq sahələrinin predmetinin tərkibinə daxil edilməsi müasir dövrdə də müzakirə obyekti olaraq qalmaqdadır. Bu aspekt onu göstərir ki, həmin məsələnin həllini klassik və müasir yanaşmalardan, səmərəli elmi-tədqiqat metodlarının tətbiqindən istifadə etməklə əsasən təmin etmək olar. Fikrimizcə, bu metodlardan biri xüsusilə fənlərarası yanaşma metodu ola bilər. Bu cür yanaşmanı hüquqi tənzimetmənin imperativ və ya dispozitiv tənzimetmə metodlarından imtina hesab etmək olmaz. Bu metodlar dövlət qulluğu sahəsində yaranan hüquq münasibətlərinin ayrı-ayrı istiqamətlərinin fərqləndirilməsini və onun vahidliyini nəzərdə tutur. Dövlət qulluğu hüquq münasibətlərini tənzim edən normativ hüquqi baza kifayət qədər mürəkkəb və çoxsaylıdır. Müxtəlif hüquq sahələrinə aid normativ müddəalar dövlət qulluğu haqqında qanunvericiliyin predmetini təşkil edir. Fikrimizcə, müasir dövlət qulluğunun xüsusiyyətlərinin məzmunu, dövlət qulluğu sahəsində yaranan ictimai münasibətlərin həcmi və əhatə dairəsi göstərir ki, dövlət qulluğunun müstəqil hüquq və qanunvericilik sahəsi kimi təsnifata daxil edilməsi, sistemləşdirilməsi və məcəlləşdirilməsi zəruridir.

Azərbaycan Respublikasının qanunvericilik sahələrinin ümumhüquqi təsnifatında "Dövlət qulluğu haqqında qanunvericilik" müstəqil sahə kimi öz əksini tapmışdır [4]. Bunu müsbət hal və dövlət qulluğu hüquq institutuna dair milli modelin bazası kimi qiymətləndirmək olar. Qanunvericilik sahələrinin ümumhüquqi təsnifatında dövlət qulluğu haqqında qanunvericiliyin müstəqil sahə kimi təsbit edilməsi onu göstərir ki, Azərbaycan Respublikasında dövlət qulluğu müstəqil qanunvericilik sahəsi kimi leqal şəkildə tanınır. Həmin təsnifatda dövlət qulluğu haqqında qanunvericiliyin tərkib hissələri aşağıdakı istiqamətlər üzrə müəyyən edilmişdir: "Ümumi məsələlər; Dövlət qulluğu sistemi; Dövlət qulluqçularının kateqoriyaları (dərəcələr, rütbələr); Dövlət qulluğu qaydası; Dövlət

qulluqçularının sosial müdafiəsi: Maddi məişət xidməti; Tibbi xidmət". Dövlət qulluğu haqqında qanunvericiliyin tərkib istiqamətlərindən aydın görünür ki, burada hüququn müxtəlif sahələrinə aid normaların məcmusu nəzərdə tutulmuşdur. Bu tərkib bir tərəfdən belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluğu sahəsində yaranan ictimai münasibətləri tənzim edən hüquq normaları əsasən konstitusiya, inzibati, əmək və sosial təminat hüquq sahələri sisteminə daxil olan normalarla qarşılıqlı vəhdət təşkil edir. Digər tərəfdən isə, dövlət qulluqçularını xüsusi statuslu işçi kateqoriyası kimi xarakterizə edir. Eyni zamanda dövlət qulluğu haqqında qanunvericiliyin tərkib istiqamətləri dövlət qulluqçularının əmək münasibətlərinin hüquqi tənzimlənməsi sistemini özündə ehtiva edir. Bu sistemin tərkibinə dövlət qulluqçularının konstitusion əmək hüququnun realizəsini təmin edən ümumi və xüsusi normalar daxildir. Fikrimizcə, bu amil dövlət qulluğu hüquq münasibətlərinə dair vahid mövqeyin olmamasının əsas səbəblərindən biridir.

Tədqiqatın mövzusuna uyğun olaraq dövlət qulluğu və ya dövlət qulluqçularının fəaliyyəti ilə bağlı hüquq münasibətlərini tənzim edən hüquqi aktların mənsub olduğu qanunvericilik sahələrinin nəzərdən keçirilməsi zəruridir. Belə ki, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli Qanunu [16] əmək qanunvericiliyi və "məhkəmə, ədliyyə, prokurorluq" haqqında qanunvericilik təsnifatlarına; "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının 2001-ci il 22 iyun tarixli Qanunu [8] əmək qanunvericiliyi və dövlət qulluğu haqqında qanunvericilik təsnifatlarına; Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli Fərmanı [9] "Dövlət quruluşunun əsasları" və "Dövlət qulluğu haqqında qanunvericilik" təsnifatlarına; “Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) Siyahısı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli Fərmanı [11] əmək qanunvericiliyi təsnifatına; “Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli Fərmanı [12] əmək qanunvericiliyi və dövlət qulluğu haqqında qanunvericilik təsnifatlarına; “Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli Qərarı [21] sosial sığorta və sosial təminat qanunvericiliyi və dövlət qulluğu haqqında qanunvericilik təsnifatlarına daxil edilmişdir. Göründüyü kimi həmin hüquqi aktlar dövlət vəzifəli şəxslərin və ya dövlət qulluqçularının əmək fəaliyyəti ilə bağlı münasibətləri tənzim edir.

Fikrimizcə, dövlət qulluğu hüquq institutu olaraq tam bir təsisatdır. Tamın hissələrini müxtəlif hüquq sahələrinə aid normalar təşkil edir. Bu normalar dövlət qulluğu hüquq münasibətləri sistemində təsir dairəsinə görə özünəməxsus çəkiyə malikdir. Dövlət qulluqçularının fəaliyyətini tənzim edən və onların hüquqi statusunu müəyyənləşdirən normalar kompleksi - konstitusiya, inzibati, əmək, sosial təminat və digər hüquq sahələrinin varlığından ibarətdir. Fikrimizə, bu hissələr içərisində əmək hüququ tamın ən azı yarısını təşkil edir. Çünki, dövlət qulluğu peşəkar fəaliyyət növü, peşəkar əmək fəaliyyətinin xüsusi növü, əmək fəaliyyətinin tərkib hissəsi, vətəndaş statusuna malik dövlət qulluçusunun konstitusion əmək hüququnun realizə formalarından biridir, dövlət qulluqçuları isə xüsusi statuslu işçi kateqoriyasıdır.

Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununa əsasən məşğulluq dedikdə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra - şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyəti (maddə 1.1.10)

nəzərdə tutulur [20]. Həmin Qanunla müəyyən edilmiş məşğul şəxslər sırasına "haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər" (maddə 4.1.4) və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər" (maddə 4.1.5) də daxil edilmişdir [20]. Qanunun məzmunundan görünür ki, dövlət qulluğu fəaliyyət növü, haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər - yəni, dövlət vəzifəli şəxslər və ya dövlət qulluqçuları, o cümlədən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər məşğul şəxslər hesab olunurlar.

Ədəbiyyatda dövlət qulluğuna, o cümlədən dövlət qulluğu hüquq münasibətlərinə dair elmi maraq kəsb edən müxtəlif məzmunlu konsepsiyalar, yanaşmalar və fərqli baxışlar mövcuddur. Əmək hüququ üzrə mütəxəssislər tərəfindən ümumi əmək münasibətlərilə müqayisədə dövlət qulluğunun xüsusiyyətləri şərh edilir, dövlət qulluqçularının əməyinin hüquqi tənzimlənməsi təhlil olunur, dövlət qulluqçuları xüsusi işçi kateqoriyası kimi fərqləndirilir və dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növü kimi əsaslandırılır [31; 40].

Beynəlxalq və regional aktlarda, bir sıra ölkələrin konstitusiyalarında vətəndaşların dövlət qulluğuna bərabər buraxılış hüququ təsbit edilibdir [37, s.156-162]. Elmi ədəbiyyatlarda vətəndaşların dövlət qulluğuna bərabər buraxılış hüququnu reallaşdıran konstitusion müddəaların şərhi mübahisəli xarakterə malikdir. Fikrimizcə, vətəndaşların dövlətin idarə olunmasında iştirak hüququ onların konstitusiya hüququnun reallaşdırılmasının müstəqil forması olaraq dövlət qulluğu hüququnu ifadə edir. Bir çox alimlər hesab edirlər ki, dövlət qulluğu institutunun əmək hüququnun predmetinə daxil edilməsi müvəqqəti haldır. Onlar bu institutun əmək hüququnun tənzimlənməsinin predmetindən çıxarılmasının zəruriliyini əsaslandırmağa çalışırlar. Fikrimizcə, elmi ədəbiyyatda formalaşmış bu tip ümumi mülahizələr mübahisəlidir. Nəzərə almaq lazımdır ki, dövlət qulluğu institutunun müstəqil hüquq sahəsi kimi formalaşmasından asılı olmayaraq dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növüdür, dövlət qulluqçuları isə əmək hüququnun xüsusi statuslu subyekti, qanunla müəyyən edilmiş məxsusi hüquqi keyfiyyətlərə malik işçi kateqoriyasıdır. Dövlət qulluqçuları konstitusiyada təsbit edilmiş əmək hüququnu həyata keçirmə imkanlarından biri kimi dövlət qulluğunu özünə fəaliyyət növü seçir. Fikrimizcə, dövlət qulluğu peşəkar fəaliyyətin xüsusi növü olaraq əmək hüququnun ayrılmaz tərkib hissəsini təşkil edir və gələcəkdə də təşkil edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci və 55-ci maddələrində dövlət qulluğunu vətəndaşın konstitusion əmək hüququnun realizə formalarından biri kimi xarakterizə edən normalar təsbit edilibdir. Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsində təsbit edilir ki, "Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. ... Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər [1]. Azərbaycan Respublikasının Konstitusiyasının 35-ci maddəsində isə təsbit edilir ki, "... Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. ..." [1]. Konstitusion normalarda əmək hüququ üçün mühüm olan bir sıra prinsiplər, o cümlədən də əməyin azadlığı prinsipi təsbit edilmişdir. Prof. A.M.Qasımov əmək hüququnun əsas prinsiplərini şərh edərək əməyin azadlığı prinsipinin əsas mahiyyətini aşağıdakı kimi ifadə etmişdir: "Əməyin azadlığı hər kəsin azad surətdə seçdiyi, yaxud hər kəsin azad surətdə razılaşdığı əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ da daxil olmaqla, əməklə bağlı olan bütün ictimai münasibətlərin hüquqi tənzimlənməsini xarakterizə edən sahələrarası prinsipdir" [22, s.118]. Müəllif haqlı olaraq əməyin azadlığı prinsipini sahələrarası prinsip adlandırır. Əməyin azadlığı prinsipi dövlət qulluqçularının əməyinin hüquqi tənzimlənməsi nöqteyi-nəzərdən sahələrarası prinsip kimi çıxış edir və böyük əhəmiyyət kəsb edir. Vətəndaşlar dövlət qulluğunu özünə fəaliyyət növü seçməkdə tam sərbəsdir. Bu sərbəstlik vətəndaşların konstitusion əmək hüququnun əməyin azadlığı prinsipindən irəli gəlir. Nəticə etibarı ilə demək olar ki, dövlət qulluğu əmək hüququ çərçivəsində, sərbəst seçim və

əməyin azadlığı prinsipi əsasında vətəndaşlar tərəfindən həyata keçirilir.

Ədəbiyyatda qeyd edilir ki, insan və vətəndaşın hüquqi statusuna onun hüquq və azadlıqlarından başqa həm də vəzifələri daxildir. Hüquq və azadlıqlarla sıx bağlı olub, onları məntiqi və hüquqi cəhətdən tamamlayan hüquqi vəzifələr müvafiq surətdə zəruri davranışın həddini bildirirlər. Konstitusiyada təsbit edildiyindən onlar vətəndaşların ictimai zəruri davranışlarının növünü və hüdudlarını bildirir, şəxsiyyətin davranış və hərəkətləri üçün məcburi olan tələbləri müəyyən edirlər [15, s.53]. T.A.Ulizkonun fikrincə, əmək qanunvericiliyi dövlət və ya bələdiyyə qulluğunun özünə deyil, qulluqçulara şamil edilir. Əmək qanunvericiliyinin normaları yalnız dövlət və bələdiyyə qulluqçularının müəyyən əmək şəraitinin tənzimlənməsinə, yəni faktiki əmək münasibətlərinin tənzimlənməsinə tətbiq edilir, lakin onlarla əlaqəli və ya əlaqəsi olmayan münasibətlərə tətbiq edilmir [41, s.68]. T.A.Ulizkonun fikirlərindən aydın görünür ki, əmək qanunvericiliyi dövlət qulluğuna münasibətdə yalnız dövlət qulluqçularının əmək münasibətlərinin hüquqi tənzimlənməsi zamanı tətbiq edilir. Müəllif bununlada dövlət qulluğu münasibətlərini tənzim edən normaların müxtəlif hüquq sahələrinə aid olduğunu ifadə edir. Y.Y.Kolometsin fikrincə, işçinin əməyi ilə qulluqçunun peşəkar işi arasında prinsipial fərq yoxdur. Dövlət qulluğu ilə əlaqədar olaraq onun aşağıdakı tərkibdə bir sıra spesifik xüsusiyyəti vardır: qulluqçunun işi dövlətin funksiyalarının həyata keçirilməsi ilə bağlıdır [35, s.33]. Müəllif haqlı olaraq əsas spesifik xüsusiyyət kimi dövlətin funksiyalarını ifadə edir. Dövlətin funksiyaları isə olduqca mürəkkət tərkib elementlərinə malikdir. Bu amil dövlət qulluqçularının işinin fərqli cəhətlərini və onların əməyinin xüsusi peşəkarlıqla həyata keçirilməsini şərtləndirir.

A.A.Qrişkovets hesab edirdi ki, dövlət qulluğu institutunun tənzimlənməsi inzibati-hüquqi xarakter daşıyan xüsusi qanunvericilik normaları ilə həyata keçiriləcək, bu isə "dövlət qulluğu instititunun əvvəlki ictimai-hüquqi təbiətinə qayıdışa gətirib çıxaracaq, məmurların özləri isə 1917-ci ildən sonra məcburən itirdikləri ictimai hakimiyyətin agentləri statusunu yenidən əldə edəcəklər" [28, s.24-36]. İnzibati hüquq üzrə mütəxəssislərin fikrincə, dövlət mülki qulluğunun təşkilində və fəaliyyətində əsas faktor kimi dövlətin qarşısında qulluq, etibar, sadiqlik, tabeçilik prinsiplərinə riayət etmək zərurəti çıxış edir. İnzibati hüquq üzrə mütəxəssislərin mövqeyi əmək hüququ üzrə mütəxəssislər tərəfindən təhlil edilmiş və haqlı tənqidə məruz qalmışdır. Bu cür təhlillər və haqlı tənqidlər xüsusi ilə əmək hüquq elminin nümayəndələri S.A.İvanovanın [33, s.53-60], L.A.Çikanovanın [38, s.48-54; 39, s.61-73] və başqalarının əsərlərində öz əksini geniş tapmışdır. Əmək hüquq elmində dövlət qulluqçuları əsasən ikili sahəvi statusa malik şəxslər kimi təqdim edilir. Əmək hüquq elminin nümayəndələri dövlət qulluğunun inzibati və dövlət hüququnun tənzimetmə predmetinə aid edilməsi, onların dövlətə qulluqla şərtləşdirilmiş dövlət mülki qulluqçularının xüsusi inzibati-hüquqi (xüsusi hüquqi) statusunu, dövlət mülki qulluqçusu statusunun əldə edilməsinin xüsusi qaydasını, dövlət qulluqçusuna inzibati səlahiyyətlərin verilməsi ilə bağlı vəzifə öhdəliklərinin reallaşdırımasını və s. bu tip xüsusiyyətlərinə görə əmək hüququnun predmetindən çıxarılmasının zəruriliyini əsaslandırmaq üçün irəli sürülmüş inzibati-hüquqi mövqeləri qeyd edirlər. Bu mövqelər dövlət qulluğu hüquq münasibətlərinin inzibati hüquqi xarakterini özündə ehtiva edir. Lakin, bu amillər dövlət qulluğu hüquq münasibətlərinin əmək hüquqi xarakterə malik olduğunu inkar edə bilməz. Fikrimizcə, bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, dövlət qulluğu hüquq institutu kompleks xarakter daşıyır, digəri isə ondan ibarətdir ki, hər bir insanın istənilən əməyi hüquq normaları ilə tənzimlənirsə bu, əmək hüququnun predmetinə mübahisəsiz daxil olur. Bu baxımdan inzibati hüquq üzrə bir sıra mütəxəssislər haqlı olaraq dövlət qulluğu sistemində əmək hüququ münasibətlərinin lehinə çıxış edirlər. Fikrimizcə, əmək hüququ daha geniş və mühüm ictimai münasibətlər sferasına daxildir və dövlət qulluğu bu tip ictimai münasibətlərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Fikrimizcə, dövlət qulluğu hüquq münasibətlərinə dair elmi baxışları aşağıdakı kimi üç qrupda birləşdirmək olar: 1) dövlət qulluğu institutunun xüsusiləşdirilməsini təklif edənlər; 2) dövlət qulluğu sistemində əmək hüquq münasibətlərinin leyhinə çıxış edənlər; 3) dövlət qullu-

ğunu əmək hüququ sahəsinə aid edənlər. Hər üç qrupun, yəni dövlət qulluğu insititunun xüsusiləşdirilməsini zəruri hesab edən tərəfdarların və dövlət qulluğu sistemində əmək hüquq münasibətlərinin leyhinə çıxış edən opponentlərin dəlilləri ilə dövlət qulluğunun əmək hüququ sahəsinə aid olmasına dair dəlillərin müqayisəsi böyük elmi maraq kəsb edir. Bu baxımdan qeyd etmək lazımdır ki, inzibati hüquq elminin nümayəndələrinin mövqelərinin və dəlillərinin təhlili və əsaslı tənqidi L.A.Çikanovanın doktorluq dissertasiya işində daha geniş və ətraflı göstərilmişdir [40].

Azərbaycan Respublikasının müasir əmək qanununvericiliyində əmək münasibətlərinin tənzimlənməsinə dair müvafiq müddəalar ümumi və xüsusi prinsiplər əsasında təsbit edilibdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsi "Əmək münasibətlərinin qanunvericiliklə və müqavilə bağlamaqla tənzimlənməsi" adlanır [2]. Həmin maddənin 1-ci hissəsində deyilir ki, "İşçilərin əmək hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatlarının minimum səviyyəsi bu Məcəllənin 1-ci maddəsində göstərilən normativ hüquqi aktlarla müəyyən edilmiş hüquq normaları ilə təmin edilir". AR ƏM-in 1-ci maddəsi ilə müəyyən edilir ki, "Azərbaycan Respublikasının əmək qanunvericiliyi sistemi: bu Məcəllədən; Azərbaycan Respublikasının müvafiq qanunlarından; müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyəti çərçivəsində qəbul etdiyi normativ hüquqi aktlardan; əmək, sosial-iqtisadi məsələlərlə əlaqədar Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir" [2]. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununa əsasən muzdla işləyənlər dedikdə, "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər" (maddə 4.1.1) başa düşülür [20]. Qeyd edilən normalar dövlət qulluqçularına münasibətdə ümumi prinsiplər əsasında tətbiq edilir və mübahisə yaratmır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli Qanunu [3] ilə AR ƏM-in 7-ci maddənin 2-ci hissəsi yeni redaksiyada verilmiş və həmin maddəyə 2-1-ci hissə əlavə edilmişdir. Orada təsbit edilir ki, "2. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək münasibətləri elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır. 2-1. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranır" [2].

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli Fərmanı ilə “Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) Siyahısı” [11] aşağıdakı kimi təsdiq edilibdir: Seçkisi və ya təyinatı Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən aparılan vəzifələr; təyinatı Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən aparılan vəzifələr; seçkisi və ya təyinatı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, təyinatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən aparılan vəzifələr; prokurorluq, ədliyyə, fövqəladə hallar, miqrasiya xidməti, daxili işlər, gömrük, vergi orqanlarında xüsusi rütbəli vəzifələr və xarici işlər orqanlarında diplomatik rütbəli vəzifələr; kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin mülki işçilərinin tutduğu vəzifələr [11].

AR ƏM-nin 7-ci və 49-cu maddələrində dövlət qulluqçusu anlayışından istifadə edilmir, haqlı olaraq işçi və işəgötürən anlayışlarından istifadə edilir. AR ƏM-in hüquqi mövqeyinə görə bütün növdən olan dövlət qulluqçuları və ya dövlət vəzifəli şəxslər işçi, onları dövlət qulluğuna qəbul edən dövlət orqanı və ya dövlət orqanının rəhbəri isə işəgörütən qismində çıxış edir. AR ƏM-in bu mövqeyi Beynəlxalq Əmək Təşkilatının “Dövlət xidmətində təşkilatlanma hüququnun müdafiəsi və məşğulluq şərtlərinin müəyyən edilməsi üsulları haqqında” 1978-ci il 27 iyun tarixli 151 nömrəli Konvensiyasına [6,

s.571-576] və digərlərinə tam uyğundur [19, s.178-195].

Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununda yalnız əmək müqaviləsi anlayışından istifadə edilir. Həmin Qanunda təsbit edilir ki, "... stajçı əmək müqaviləsi bağlamaq yolu ilə üç ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. ... Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır (maddə 28.7) [7]. "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsi"nin 1.1-ci yarımbəndinə əsasən sınaq müddəti ilə dövlət qulluğuna qəbul üçün əmək müqaviləsi anlayışı həmin müqavilədə "kontrakt" anlayışı kimi ifadə edilir [25]. “Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi”ndə [12] isə kontrakt anlayışından ümumiyyətlə istifadə edilmir, əmək müqaviləsi anlayışından istifadə edilir. Göründüyü kimi dövlət qulluğu sistemində əmək hüququnun əsas institutu olan əmək müqaviləsi əsas təsisatlardan biridir.

S.V.Kaçuşkin yazır ki, “ ... qulluğun militarizasiya olunmuş növləri üçün, həmçinin dövlətin siyasi vəzifələrinin nəzərdən keçirilməsi zamanı (dövlət mülki qulluğu institutunun geniş şərhi halında) dövlətə qulluq prinsipi daha böyük əhəmiyyət kəsb edir. Buna görə də, hüquqi cəhətdən əhəmiyyətli hərəkətlərin kimin adından həyata keçirilməsi rəsmi hüquqi məna kəsb edir [34, s.57]. İ.Məmmədovun fikrincə, dövlət orqanı daimilik və peşəkarlıq əsasında öz vəzifəsini icra edən dövlət qulluqçularından təşkil olunur və onların maddi təminatı dövlət tərəfindən həyata keçirilir [17, s.390].

Dövlət qulluğu sistemində yaranan hüquq münasibətlərinin kompleksini əsasən iki istiqamət üzrə qruplaşdırmaq aparmaq olar: 1) dövlət qulluğu sistemində yaranan qulluqdaxili hüquq münasibətləri; 2) dövlət qulluğu sistemində yaranan qulluqxarici hüquq münasibətləri. İnzibati hüququn mövqeyindən yanaşdıqda isə bu münasibətlərə aparatdaxili və aparatxarici münasibətlər aiddir [5]. Dövlət qulluğu sistemində yaranan qulluqdaxili hüquq münasibətləri öz xarakterinə, hüquqi təbiətinə, normativ tənzimetmə mövqeyinə görə əmək hüquq münasibətləridir. Mütəxəssislər haqlı olaraq dövlət qulluğu sahəsində yaranan qulluqdaxili hüquq münasibətlərinin əmək hüquqi xarakterini nəzərə alaraq bu mövqeyi əsaslı şəkildə müdafiə edirlər. Onların fikrincə, dövlət qulluğu hüquq münasibətləri sistemində əmək hüquq münasibətlərini özündə ehtiva edən əlamətlərin siyahısına: dövlət orqanının ştatına daxil olma, müəyyən əmək funksiyasının - müəyyən vəzifə, ixtisas üzrə işin icrası, daxili intizam qaydalarına tabelilik, rəhbərin sərəncam və göstərişlərinə tabelilik və s. daxildir. Fikrimizcə, qeyd edilənlərlə yanaşı dövlət qulluqçularının hüquqi statusunu müəyyən edən və onların fəaliyyətini tənzimləyən normalara əsaslanaraq dövlət qulluğu sistemində əmək hüquq münasibətlərini xarakterizə edən əlamətlərin siyahısına aşağıdakıları daxil etmək olar: kollektiv müqavilə üzrə hüquq münasibətləri, əmək müqaviləsi üzrə hüquq münasibətləri, iş vaxtı üzrə hüquq münasibətləri, istirahət vaxtı üzrə hüquq münasibətləri, məzuniyyət üzrə hüquq münasibətləri, əmək haqqı üzrə hüquq münasibətləri, əmək və icra intizamı üzrə hüquq münasibətləri, əməyin mühafizəsi üzrə hüquq münasibətləri, əmək mübahisələri üzrə hüquq münasibətləri, əməyin beynəlxalq-hüquqi tənzimlənməsi üzrə hüquq münasibətləri.

Dövlət qulluğu sistemi üçün xarakterik olan əsas cəhətlərdən biri də hakimiyyət səlahiyyətidir. Dövlət hakimiyyəti səlahiyyətləri dövlət vəzifəli şəxslərin - dövlət qulluqçularının yalnız müəyyən bir hissəsinə verilir. Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilir ki, "inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan dövlət qulluqçusu dövlət vəzifəli şəxsdir" (maddə 14.2). Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edilməsi ilə eyni zamanda müvafiq səlahiyyətin icrasına görə onun üçün qanunvericiliklə müəyyən edilən məbləğdə əlavə haqq müəyyən edilir (maddə 22.6). Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq Qanunu ilə müəyyən edilir (maddə 22.8) [7]. "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının

2002-ci il 31 may tarixli Qanunu qəbul edilibdir [10]. Həmin Qanuna müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli Fərmanı ilə “Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı” təsdiq edilibdir [13]. Dövlət hakimiyyəti səlahiyyətlərini özündə ehtiva edən normalar konstitusiya, inzibati, əmək və sosial təminat hüquqi xarakterlidir.

Dövlət qulluğunda qulluqxarici münasibətlər sisteminə dövlət qulluqçularının əksəriyyətinə verilən inzibati (icra, sərəncam, nəzarət) səlahiyyətlərinin verilməsi daxildir. Bu səlahiyyətlər öz növbəsində dövlət hakimiyyətinin və dövlət idarəetməsinin səlahiyyətlərinə daxil olan (vergi, gömrük və digər dövlət orqanlarının vəzifəli şəxsləri) törəmə səlahiyyətlərdir. A.V.Qusev tərəfindən dövlət mülki qulluğunun tənzimlənməsi problemləri əmək hüququ nöqteyi-nəzərdən araşdırılmışdır. Müəllif dövlət qulluğunun hüquqi tənzimlənməsi problemləri sistemində dövlət mülki qulluğu münasibətlərini əsasən qulluqdaxili münasibətlər kimi nəzərdən keçirir. O, dövlət mülki qulluğunun prinsiplərini, o cümlədən dövlət mülki qulluqçularının əməyinin hüquqi tənzimlənməsinin prinsiplərini qulluqdaxili münasibətlər kontekstində araşdırmış, bununla yanaşı qulluqxarici münasibətləri də təhlil etmişdir [29, s.4; 30; 31; 32]. Müəllif qulluqxarici münasibətləri əsasən icra hakimiyyəti sistemində hakimiyyət nümayəndələrinin öz hüquq və vəzifələrini reallaşdırılmasına, insan və vətəndaş hüquqlarına və azadlıqlarına riayət edilməsinə və müdafiə olunmasına dair konstitusion prinsiplərə əsaslanaraq şərh etmişdir. O, haqlı olaraq dövlət mülki qulluqçusunun qulluqxarici münasibətlərini ümumhüquqi konstitusion müddəalar və şəxsiyyətin hüquqi statusu, onun məhdudlaşdırılması və digər vətəndaşlarla müqayisədə dövlət qulluğunda olan vətəndaşların üzərinə əlavə vəzifələrin qoyulması kontekstində araşdırmışdır. A.V.Qusev dövlət idarəetmə münasibətlərinə aid etdiyi xarici münasibətlərin hüquqi tənzimlənməsinin predmetinə dövlət qulluğunun daxil edilməsini yolverilməz hesab etmiş və bu mövqeyini prinsipial cəhətdən əsaslandırmağa çalışmışdır. Müəllif əsas dəlil kimi dövlət orqanlarının və dövlət qulluqçularının vətəndaşlarla, təşkilatlarla, ictimai birliklərlə xarici qarşılıqlı əlaqəsini tənzimləyən geniş sahəvi qanunvericiliyin mövcudluğunu göstərir [31, s.94-108].

Qeyd edilənlər belə qənaətə gəlməyə əsas verir ki, əmək prosesinin və əmək münasibətlərinin xarici tərəflərini təşkil edən hüquq münasibətlərinin fərqli cəhətləri əmək hüququnun metodlarının tətbiqi analogiyası üzrə ortaya çıxır. Lakin, nəzərə almaq lazımdır ki, dövlət qulluğu münasibətləri əmək münasibətlərindən daha mürəkkəb münasibətlər sistemidir. Dövlət qulluğunda əmək münasibətləri dövlət qulluğu üzrə hüquq münasibətlərinin tərkib hissəsi kimi çıxış edir. Eyni zamanda dövlət qulluğu peşəkar fəaliyyətin xüsusi növü olaraq əmək hüququnun tərkib hissəsinə daxildir. Fikrimizcə, dövlət qulluğu ilə əmək hüququnun qarşılıqlı əlaqəsini və dövlət qulluqçularının fəaliyyətinin əsas hissəsinin əmək hüquqi xarakterini nəzərə alaraq bu münasibətləri dövlət qulluğunda əmək hüquq münasibətləri və dövlət qulluqçularının əmək hüquq münasibətləri kimi ifadə etmək olar. L.İ.Yasenko konseptual müddəalara əsaslanaraq, belə nəticə ifadə edir ki, dövlət qulluğu münasibətlərinin “xarici” və “daxili” münasibətlərə bölünməsini nəzərdə tutan metodoloji yanaşmaların nəzəri təhlili və təcrübi məqsədlərdə istifadəsi yalnız məhsuldar deyil, zəruridir. Bu yanaşma dövlət mülki qulluğu sahəsində hüquq münasibətlərini qulluq (dövlət-qulluq) və əmək (qulluq-əmək) münasibətlərinə bölünməsinə imkan verir [42, s.102]. S.V.Kaçuşkinin fikrincə, dövlət mülki qulluğunda münasibətlərin əmək münasibətləri ilə müqayisədə müəyyənedici xüsusiyyətləri: dövlət mülki qulluğunda daxili münasibətlərin xarakterindən; xarici inzibati-hüquqi münasibətlərdən; dövlət mülki qulluqçuları tərəfindən vəzifə öhdəliklərinin icrası prosesində daxili və xarici münasibətlərin dialektikasından irəli gəlir [34, s.62]. Müəlliflərin elmi mülahizələri ilə razılaşmaqla yanaşı, dövlət qulluğu hüquq münasibətləri sistemində əmək münasibətlərini xarakterizə edən amillərə müasir dövrün reallıqları və tələbləri baxımından yanaşmaq zəruridir.

**Nəticə.** Aparılmış elmi təhlillər belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluğu Azərbaycanın müasir hüquq və qanunvericilik sistemində özünəməxsus yer tutur. Eyni zamanda dövlət qulluğu institutu hüquq elmləri sistemində mühüm əhəmiyyət kəsb edir.

Elmi-nəzəri baxışlara və qüvvədə olan normativ müddəalara əsaslanaraq dövlət qulluqçularının əmək münasibətlərini tənzim edən hüquq normalarının nisbəti kontekstində dövlət qulluğu institutunun hüquqi tənzimlənməsinin müasir vəziyyətini aşağıdakı kimi ifadə etmək olar:

1) dövlət qulluğu sahəsində yaranan ictimai münasibətlər xarakterindən, tənzimləyici normaların sahəvi xüsusiyyətindən, dövlət orqanlarının, dövlət qulluğu vəzifələrinin və dövlət qulluqçularının hüquqi statusundan asılı olaraq qulluqdaxili hüquq münasibətlərinə və qulluqxarici hüquq münasibətlərinə bölünür;

2) dövlət qulluğu dövlət hakimiyyətinin hər üç qolunu əhatə etməklə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında qulluqdaxili və qulluqxarici münasibətlərin qarşılıqlı vəhdətində özünü göstərir. Buna əsasən dövlət qulluğunun növ tərkibi fərqlənir;

3) dövlət qulluğu sahəsində yaranan ictimai münasibətlər müxtəlif hüquq sahələrinə məxsus normalarla tənzimlənir. Bu normalar kompleksinə əsasən konstitusiya, inzibati, əmək, sosial təminat qanunvericilik sistemlərinə və digər hüquq sahələrinə dair normalar daxildir. Bu normalar kompleks olaraq vahid qanunvericilik sistemində birləşir və dövlət qulluğu münasibətlərinin normativ hüquqi tənzimlənməsini təmin edir və hüquqi baza yaradır;

4) dövlət qulluğu haqqında qanunvericilik sistemi dövlət qulluğu hüquq münasibətlərinin vahidliyini və differensiasiyasını şərtləndirir. Bu amil dövlət qulluqçularının hüquqi statusundan və onların əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətindən irəli gəlir;

5) dövlət qulluğu hüquq institutu konstitusiya, inzibati, əmək, sosial təminat və digər müvafiq hüquq sahələrində subsidiar tənzimlənməni özündə ehtiva edir, tədqiqat obyekti kimi çıxış edir, həmin hüquq sahələrinin sistemində özünəməxsus yer tutur;

6) dövlət qulluğu hüquq institutu vahid sistemdə birləşərək müstəqil hüquq sahəsinin - dövlət qulluğu hüququnun yaranması ilə nəticələnir. Bununla da dövlət qulluğu hüquq institutu bütün dövlət vəzifələrini kompleks olaraq özündə ehtiva edir;

7) statusundan asılı olmayaraq dövlət vəzifələrini və ya dövlət qulluğu vəzifələrini həyata keçirən dövlət vəzifəli şəxslərin və ya dövlət qulluqçularının əmək münasibətlərini tənzimləyən hüquq normaları vahid sistemdə birləşir;

8) konstitusiyaya və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədləri və funksiyaları dövlət qulluqçularının peşəkar dövlət qulluğu fəaliyyəti nəticəsində, başqa sözlə əmək fəaliyyəti, əmək funksiyası nəticəsində həyata keçirilir.

9) Fikrimizcə, dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsində əmək hüququ aparıcı yerlərdən birini tutur. Buna görə də, dövlət qulluqçularının əmək münasibətlərinin hüquqi tənzimlənməsi sistemində əmək hüquq normaları ilə yanaşı digər hüquq normaları da istisnasız olaraq özünü göstərir. Bunun əsas səbələrindən biri ondan ibarətdir ki, dövlət qulluğu hüquq münasibətlərinin əsas subyektlərindən biri məhz dövlət, digəri isə dövlət qulluqçularıdır. Dövlətlə bağlı hüquq münasibətlərinin tənzimlənməsində konstitusiya və inzibati hüquq normaları aparıcı yer tutur. Təbii, məntiqi və hüquqi olaraq dövlət qulluqçularının hüquqi statusunu müəyyənləşdirən, onların peşəkar dövlət qulluğu fəaliyyətini tənzim edən, əmək funksiyalarının icrasında ifadə olunan normalar sistemində konstitusiya və inzibati hüquq normaları özünəməxsusluğu ilə fərqlənir. Dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsində - insan, vətəndaş və dövlət qulluqçusu amilləri fərqlənir. Bu amillər dövlət qulluqçularının sosial təminatını birbaşa şərtləndirir. Dövlət qulluqçuları insan olaraq, vətəndaş olaraq sosial təminatlara malik olmaqla yanaşı dövlət qulluğu vəzifəsini həyata keçirdikləri üçün ümumidən fərqli olan xüsusi sosial təminatlara malik olurlar. Dövlət qulluqçuları sosial təminat hüququndan həm dövlət qulluğunda olduğu dövrdə, həm də dövlət qulluğuna xitam verildikdən sonra (əgər o, bu hüquqlardan məhrum edilməyibsə) istifadə edir. Dövlət qulluqçuları dövlət qulluğu ilə əlaqədar əmək fəaliyyətinin nəticəsində imtiyazlı sosial təminat hüquqları əldə etmiş olurlar. Yəni, dövlət qulluqçuları ümumidən fərqli olaraq xüsusi sosial təminatlara malikdir.

10) normativ hüquqi baza və elmi-nəzəri müddəalar belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluğu münasibətləri sistemində dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsində əmək hüquq normaları həm birbaşa,

həm də subsidiar olaraq tətbiq edilir. Dövlət qulluğu ilə əmək hüququnun qarşılıqlı əlaqəsini və dövlət qulluqçularının fəaliyyətinin əsas hissəsinin əmək hüquqi xarakterini nəzərə alaraq bu münasibətləri dövlət qulluğunda əmək hüquq münasibətləri və dövlət qulluqçularının əmək hüquq münasibətləri kimi ifadə etmək olar.

12) Fikrimizcə, dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sahəsində boşluğu aradan qaldırmaq və bu sahədəki mövcud normativ müddəaları sistemləşdirmək məqsədilə "Dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi" adlı yeni fəslin AR ƏM-ə daxil edilməsi məqsədəuyğun olardı.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2016, 92 s.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Qanun, 2019, 304 s.
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, №02, maddə 92
4. Azərbaycan Respublikasında qanunvericilik sahələrinin ümumhüquqi təsnifatı haqqında Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 22 aprel tarixli 802 saylı qərarı / Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, №08, maddə 84
5. Abdullayev A.M., Nağıyev F.T. İnzibati hüquq. Dərslik. Bakı: Qanun, 2008, 800 s.
6. Beynəlxalq Əmək Təşkilatı. Konvensiyalar və Tövsiyələr. Bakı: Şərq-Qərb, 1996, 633 s.
7. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №01, maddə 1
8. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında Azərbaycan Respublikasının 2001-ci il 22 iyun tarixli 156-IIQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №09, maddə 575
9. Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №08, maddə 494
10. Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 334-IIQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, №07, maddə 386
11. "Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, №07, maddə 788
12. "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, №05, maddə 842
13. "Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı"nın və hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləğinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 776 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, №06, maddə 494
14. Hüseynova N.Ş. Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi tənzimi: hüq. elm. nam. ... dis. avtoreferatı: Bakı, 2006, 18 s.
15. İsmayılov Ç., Abdullayev Ə., Qurbanova G., Hüseynova X., Zeynalova E., Nağıyev F., Seyidzadə M., Həsənov A. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018, 252 s.
16. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1647-VQD

nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, №07, maddə 1206

17. Məmmədov İ. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Çıraq, 2005, 624 s.

18. Məmmədov O.C. Dövlət qulluqçularının konstitusion əmək hüquq subyektliyi: ümumnəzəri və sahəvi xüsusiyyətləri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2018, №1, s. 24-42

19. Məmmədov O.C. Dövlət qulluqçularının əmək münasibətlərinin hüquqi tənzimlənməsində Beynəlxalq Əmək Təşkilatının rolu // Polis Akademiyasının Elmi Xəbərləri. Elmi hüquq jurnalı, 2018, №1-2, s. 178-195

20. Məşğulluq haqqında Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, №08, maddə 1669

21. "Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli 7 nömrəli Qərarı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №02, maddə 114

22. Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Letterpress, 2016, 840 s.

23. Rzayev Ə.H. Azərbaycan Respublikasının dövlət qulluğunun konstitusion-hüquqi problemləri: hüq. elm. dok. ... dis: Bakı: 2012, 328 s.

24. Rəhimov A.E. Dövlət qulluqçularının əmək münasibətlərinin hüquqi tənzimlənməsi: hüq. fəl. dok. ... dis. avtoreferatı: Bakı: 2018, 26 s.

25. Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 567 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №09, maddə 582

26. Cindemir H. Kamu Görevlileri Sendikacılığında İngiltere, Fransa, Almanya ve İsveç Örnekleri // Gaziantep University Journal of Social Sciences, 2017, №16 (2), p. 553-566

27. Барциц И.Н., Бошно С.В. Источники служебного права: учебник. Москва: РАГС, 2007, 272 с.

28. Гришковец А.А. Правовое регулирование государственной службы // Журнал российского права, М.: Норма, 1998, № 7, с. 24-36

29. Гусев А.В. Российская государственная гражданская служба: проблемы правового регулирования: Монография. Екатеринбург: ИД УрГЮА, 2005, 276 с.

30. Гусев А.В. Государственная гражданская служба Российской Федерации: проблемы правового регулирования: Автореферат дис. ... докт. юрид. наук: Екатеринбург, 2009, 47 с.

31. Гусев А.В. Государственная гражданская служба Российской Федерации: проблемы правового регулирования: дис. ... докт. юрид. наук: Екатеринбург, 2009, 448 с.

32. Гусев А.В. Государственная гражданская служба: сочетание публично-правовых и частноправовых начал // Российский юридический журнал. Екатеринбург: УрГЮА, 2012, №6 (87), с. 28-39

33. Иванов С.А. Трудовое право переходного периода: некоторые проблемы // Государство и право, М.: Наука, 1994, № 4, с. 53-60

34. Качушкин С.В. Конституционно-правовые основы государственной гражданской службы: дис. ... докт. юрид. наук: М.: 2011, 320 с.

35. Коломоец Е.Е. Трудовой договор и служебный контракт: проблемы теории и правоприменения. Монография. М.: Проспект, 2019, 128 с.

36. Коркунов Н.М. Русское государственное право: Введение и общая часть. Т.1 / Под ред. и с доп.: Авалов З.Д., Горенберг М.Б., Соколов К.Н. 6-е изд. С.-Пб.: Тип. М.М. Стасюлевича, 1909, 623 с.

37. Мамедов О.Дж. Право приема на государственную службу: международные

акты, конституции Азербайджана и зарубежных стран (сравнительно-правовой анализ) / VIII Московской юридической недели - совместная XIX Международная научно-практическая конференция Юридического факультета Московского государственного университета имени М.В.Ломоносова и XV Международная научно-практическая конференция "Кутафинские чтения" Московского государственного юридического университета имени О.Е. Кутафина (МГЮА). (Москва, 27-30 ноября 2018 г.). Конституция Российской Федерации и современный правопорядок. Материалы конференции в 5 частях. Часть 1, М.: Проспект, РГ-Пресс, 2019, с. 156-162

38. Чиканова Л.А. Правовое регулирование труда государственных служащих: перспективы развития // Журнал российского права. М.: Норма, 2000, №3, с. 48-54

39. Чиканова Л.А. Правовое регулирование служебных отношений на государственной гражданской службе: вопросы теории и практики // Журнал российского права. М.: Норма, 2005, № 4, с. 61-73

40. Чиканова Л.А. Применение трудового законодательства к служебным отношениям на государственной гражданской службе: теория и практика: дис. … докт. юрид. наук: М.: 2005, 312 с.

41. Улизко Т.А. Правовое обеспечение государственного и муниципального управления: учебное пособие. Самара: Самарского университета, 2018, 112 с.

42. Яценко Л.И. Регулирование и структура правоотношений в государственной гражданской службе: соотношение служебных и трудовых норм // Государственная гражданская служба в России: опыт и проблемы становления. Материалы Всероссийской научно-практической конференции, 26 октября 2004 г. М.: РАГС, 2005, с. 91-102

43. Mammadov Oruj Jamil o. Constitutional and Legal Support of Civil Service Relations in the Legislature: Azerbaijani Experience // Journal of Legal, Ethical and Regulatory Issues[1] (JLERI), London, United Kingdom. Volume 21, Issue 3, 2018 // URL: https://www.abacademies.org/articles/constitutional-and-legal-support-of-civil-service-relations-in-the-legislature-azerbaijani-experience-7314.html (İstifadə tarixi: 08.12.2019)

**Резюме**

**Орудж Мамедов**

**Соотношение конституционных, административных, трудовых норм и норм права социального обеспечения в системе регулирования трудовых отношений государственных служащих**

В статье проанализировано соотношение основных правовых норм, составляющих систему регулирования трудовых отношений государственных служащих. В азербайджанской юридической литературе нет научного анализа выбранной темы. Это одна из главных особенностей его научной новизны. В статье выделяются правовые нормы, являющиеся основными в системе правового регулирования трудовых отношений государственных служащих. Государственная служба является особым видом профессиональной трудовой деятельности, а государственные служащие субъектами трудового права с особым статусом и категорией работников со специфическими правовыми качествами. Независимо от их статуса правовые нормы, регулирующие трудовые отношения государственных служащих, объединяются в единую систему. При регулировании трудовых отношений государственных служащих нормы трудового права применяются как непосредственно, так и субсидиарно. Нормы (конституционные, административные, трудовые нормы и нормы права социального обеспечения), определяющие правовой статус государственных служащих, регулирующие профессиональную деятельность на государственной службе, выраженные в исполнении трудовых

функций, обуславливающие социальное обеспечение, в совокупности объединяются в систему законодательства о государственной службе. В итоге было внесено предложение по совершенствованию законодательства с целью систематизации норм, регулирующих трудовые отношения государственных служащих.

***Ключевые слова:*** *государственная служба, государственный служащий, конституционное право, административное право, трудовое право, право социального обеспечения, правовые нормы*

**Summary**

**Oruj Mammadov**

**The correlation of constitutional, administrative, labor and social rights precept in the system of regulating labor relations of civil servants**

In the article it was analyzed an issue about the correlation of basic precept that organized the system of regulating labor relations of civil servants. There isn't any scientific analysis about the chosen topic in Azerbaijani legal literature. This is also one of the main features that embraced its scientific novelty. In the article it was distinguished the precept that plays a key role in the system of legal regulating labor relations of civil servants. The civil service is a special kind of the professional labour activity quality, civil servants are subject with special status of labor law and a category of workers with specific legal qualities. Regardless of its status, the precept that regulating labor relations of civil servants combines are united in a single system. The labour precept are applied both directly and as subsidiary in the regulating labor relations of civil servants. The norms that defined the legal status of civil servants, regulated the professional activity of civil service, expressed in the fulfillment of labour functions and conditioned the social rights (constitutional, administrative, labor and law precept of social rights) are generally combined in the civil service legislation system. In the end, an offer about improving the legislation is expressed for systematizing the norms that regulated the labor relations of civil servants.

***Keywords:*** *civil service, civil servant, constitutional law, administrative law, labor law, social rights, precept.*

UOT 34

**НИГЯР ГАСЫМОВА**
*магистр Центра Судебной Экспертизы Министерства Юстиции АР, специалист Конституционного Суда АР, Азербайджанская Республика*
*nikaaslanova@mail.ru*

# ПРЕЗУМПЦИЯ НЕВИНОВНОСТИ КАК ОСНОВНОЙ ПРИНЦИП ПРИ ПРИМЕНЕНИИ МЕР ПРИНУЖДЕНИЯ В УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОМ ЗАКОНОДАТЕЛЬСТВЕ

***Ключевые слова:*** *презумпция невиновности, уголовно-процессуальное право, меры принуждения.*

Меры принуждения в уголовном праве тесно связаны с основными принципами уголовного права. Одним из таких принципов является презумпция невиновности. В этом утверждении нет не малейшего преувеличения. Наоборот, оно выглядит слишком будничным, прозаичным, по сравнению с тем бесценным человеческим благом, которое презумпция невиновности призвана оберегать и защищать. Действительно, если органы расследования, прокуратура и суд, исходят в своей работе из предположения о невиновности обвиняемого (подсудимого), - значит вину его нужно устанавливать, доказывать, надо достоверные улики, иначе виновным его признать нельзя, осудить и наказать - тем более [6, ст 15]. Если же исходить из другого предположения, то есть, из презумпции невиновности, то всякий кого следователь или прокурор поставили в положение обвиняемого, автоматически попадает в разряд виновных. И тогда остается лишь проштамповать вывод прокурора о виновности обминаемого, а вся судебная процедура формальность, в тот, по выражению Маркса, "Надежный конвой, который должен проводить противника в тюрьму, простое приготовление к экзекуции"

Формулировка, напоминающая презумпцию невиновности, была известна римскому гражданскому праву, (*praesumptio boni viri*). Смысл её в том, что каждый участник гражданских правоотношений предполагался действующим добросовестно (*bona fide*), а если кто-либо утверждал обратное, он обязан был доказать это (*ey inkubit probatio qui dicit (non qui negat*) - кто утверждает тот и доказывает. Впервые, в качестве уголовно-процессуального института презумпция невиновности была сформулирована в "Декларации прав человека и гражданина", принятой в результате французско-буржуазной революцией в 1989 году. Статья 9 декларации гласит: " так как каждый человек предполагается невиновным, пока его не объявят виновным (по суду), то в случае необходимости его ареста, всякая строгость, которая не является необходимой обеспечения (за судом) его личность, должна сурово караться законом. Из текста этой статьи видно, что презумпция невиновности сформулирована в ней, никак самостоятельный принцип, а лишь аргумента против применения к обвиняемому "всякой строгости, которая не является необходимой" [3,стр.4].

Существует, однако, точка зрения, в соответствии с которой, привлечение в качестве обвиняемого, возможна лишь тогда, когда виновность лица совершении преступления доказана, когда следователь убежден в виновности. Но как можно уверенным в виновности лица, считать совершение, им преступления доказанным, не допросив его? А возможно лишь привлечения обвиняемого. Как правильно пишется Г.Н.Колбая "во время привлечения лица к уголовной ответственности твердый и окон-

чательный уверенности в виновности лица у следователя может ещё и не быть" [9, стр.130].

Меры уголовно-процессуального принуждения должны применяться лишь к конкретным физическим лицам.

В процессуальной литературе и на практике нет единства взглядов относительно того, к кому могут быть применены меры уголовно-процессуального принуждения. [4,стр.45]

По логике уголовного процесса, меры уголовно-процессуального принуждения должны применяться только к участникам уголовного процесса, однако УПК АР содержит случаи применения задержания и привода к физическим лицам, которые еще не приобрели статус участников уголовного процесса.

Для устранения подобных коллизий, УПК должен быть дополнен положениями о статусе лица, вовлеченного в уголовный процесс, даже не являясь его участником [12, стр.136].

Данное предложение исходит из того, что УПК предусматривает участие в ряде следственных действий и организационных мероприятий лиц, которые к числу участников уголовного процесса не отнесены и правом подписания протокола не наделены. В частности, согласно ст. 237 УПК, в эксгумации предусмотрено участие близких родственников; в освидетельствовании (ст. 238 УПК) - врача или специалиста в области судебной медицины; в опознании лица (ст. 239 УПК) - не менее трех статистов; при обыске и выемке (ст. 244 УПК) - лица, в жилище которого производится обыск и т.п. В этот же перечень необходимо добавить кинологов, осветителей, водителей, подсобных рабочих, работников охраны, педагога, лиц, сопровождающих больных или раненных пострадавших и т.п.

После того как, следователь вынес постановление о привлечении лица в качестве обвиняемого, он предъявляет ему обвинения и избирает в отношении него меру пресечения. Мера пресечения может быть, применена "при наличии оснований" полагать, обвиняемый скроется от дознания, без предварительного следствия или суда, или воспрепятствует установлению истину уголовному делу, или будет заниматься преступной деятельностью, а также для обеспечения исполнения приговора" [2, ст.148], то есть, лишь в определенных законом случаях. Если же таких оснований нет, то органы уголовного преследования не применяют меру пресечения. Вместо неё у обвиняемого отбирается обязательство являться по вызовам и сообщать о перемене места жительства. [2, ст. 175].

Применение мер пресечения имеет своим побудительным импульсом субъективное предположение следователя о том, что, во-первых, лицо, виновно в совершении преступления и, во-вторых, оно может скрыться, помешать расследованию и тому подобное. Конечно, любая мера пресечения, применяемая к обвиняемому (подозреваемому), не согласуется с презумпцией невиновности, поскольку, налагает ограничения на человека, чья вина лишь предполагается, но достоверно не установлена. Однако это не согласованность объективная, порожденная самой жизненной ситуацией, когда иначе, иным путем не представляется возможным проверить возникшее против данного гражданина подозрение. И либо реабилитировать его, либо подвергнут наказанию за содеянное. Учитывая такого рода ситуацию, закон чрезвычайно осторожно подходить к решению этого вопроса. Например, при избрании меры пресечения компетентные органы, должны учитывать личность обвиняемого, род его занятий, возраст, состояние здоровья, семейное положение и т.д. [2, ст.428]. Кроме того, мера пресечения обычно носит временный характер. Как только в ней отпадает необходимость, она отменяется.

Меры уголовно-процессуального принуждения должны применяться лишь в целях осуществления задач уголовного судопроизводства, предусмотренных ст. 8 УПК. К таковым относятся: защита личности, общества и государства от преступных посягательств; защита личности от случаев злоупотребления служебным положением в связи с совершением действительного или предполагаемого преступления; быстрое

раскрытие преступления, всестороннее, полное и объективное расследование всех обстоятельств, связанных с уголовным преследованием; изобличение и привлечение к уголовной ответственности лиц, совершивших преступление; отправление правосудия с целью установления вины и наказания лиц, обвиняемых в совершении преступления и оправдания невиновных лиц [11, стр.13].

Применение мер уголовно- процессуального принуждения может осуществляться с использованием правомерного физического и психического воздействия.

"Воздействие на человека есть процесс передачи информации от субъекта воздействия посредством различных методов и средств, отражение этой информации в психике данного лица, способной вызвать соответствующую реакцию, которая проявляется в его поведении, деятельности, отношениях и состояниях, становясь доступной для восприятия воздействующим посредством "образной связи"[12, стр.136].

Под правомерным физическим и психическим воздействием понимается предусмотренное и регламентируемое законом ограничение прав и свобод человека с применением физической силы, специальных средств или огнестрельного оружия, а также предупреждение применить таковые или иные ограничения[11,стр.14].

Важное условие правильного применения уголовно-процессуального закона это одинаковое его понимание участниками уголовного судопроизводства [10, стр.27]. В достижении этой цели незаменимую роль играют нормативные понятия – дефиниции и разъяснения отдельных уголовно-процессуальных институтов, предусмотренные в самих нормативных актах (кодексы, законы и т.д.), урегулирующие уголовное судопроизводство. В отличии от теоретических дефиниций уголовно-процессуальных институтов, данные разными учеными, которые могут серьёзно противоречить друг-другу, нормативные понятия выражают официальную позицию государства и являются обязательными для суда и участников уголовного процесса. Можно предположить, что чем таких нормативных понятий много в законе, тем достижение на единое понимание этого закона и его правильное применение эффективнее. В современной законодательной технике это обычно делается двумя путями.

Первое, среди «начальных» статей закона предусматривается специальная статья, разъясняющая основные термины, использованные в законе. В этом смысле постсоветские уголовно-процессуальные законодательства Российской Федерации и Азербайджанской Республики сделали шаг вперед. В то время, как предтеча настоящего УПК РФ, УПК РСФСР от 27. 10. 1960 г. в ст. 34 истолковывала только лишь 19 содержащихся в законе наименований (при этом надо отметить что в этой норме среди разъяснений терминов не давалось понятие уголовному преследованию), действующий УПК РФ от 18. 12. 2001 г. в ст. 5 толкует сразу 64 терминов. В УПК Азербайджанской ССР от 01. 03. 1961 г. вовсе не было отдельной нормы, толкующий основные понятия, использованные в кодексе, а УПК АР от 01. 09. 2000 г. в ст. 7 толкует 47 основных терминов, которые используются в УПК.

Второе, дефиниции уголовно-процессуальных терминов даются не в разъяснениях основных понятий, а уже в главе закона, посвященной этому институту (например, нормативное понятие доказательств дается не в ст. 7 УПК АР, разъясняющей основные понятия уголовно-процессуального законодательства, а в ст. 124 УПК АР, которая входит в систему 14-ой главы, посвященной доказательствам). Несмотря на то, что в обоих рассматриваемых кодексах институту уголовного преследования посвящены отдельные главы, оба законодателя разместили нормативное понятие этого института в самом начале кодекса.

Анализируя УПК АР с точки зрения законодательной техники М.А. Джафаркулиев обращает внимание на то, что глава 3 УПК АР, посвященная уголовному преследованию, была размещена сразу после главы, посвященной демократическим принципам уголовного процесса. По-нашему, он справедливо оценивает это как придание этому

институту особого значения со стороны законодателя [5, стр.137]. Надо отметить, что и в УПК РФ глава, посвященная уголовному преследованию, размещена после главы, посвященной принципам уголовного судопроизводства.

З.Д. Еникеев правильно отметил, что несмотря на то, что в уголовно-процессуальном законодательстве выделена специальная глава, посвященная уголовному преследованию, оно не является какой-то обособленной правовой категорией. Напротив, оно тесно связано со всеми другими уголовно-процессуальными институтами и взаимодействует с ними. Поэтому его правовыми основами выступает по существу весь массив законодательства, относящегося к уголовному процессу. Поскольку уголовное преследование как деятельность есть способ выполнения задач уголовного судопроизводства, достижению этой цели служит все уголовно-процессуальное право [7, стр.5].

Поэтому размещение нормативного понятия уголовного преследования среди основных понятий уголовно-процессуального закона считается оправданным шагом со стороны законодателей обоих государств.

Самое суровая мера пресечения – заключение под стражу. Конечно, она наиболее сильно коллизирует с презумпцией невиновности. И все же необходимо подчеркнуть, что заключение под стражу применяется в крайних случаях. Эта мера может быть избрана лишь с санкции прокурора. Обязанность доказывания оснований, предусмотренных ст. 83 УПК, лежит на следователе, который должен убедить прокурора в необходимости в заключении лица под стражу, доказать, что его предположение о возможном будущем противоправном поведении обвиняемого верно. Все доводы следователя должны быть основаны на материалах дела и подтверждаться ими. Он, таким образом прогнозирует возможное поведение обвиняемого, но делает это не интуитивно, а на основании собранных им доказательств. Поскольку здесь имеет место доказывание, оно осуществляется следователем по общим правилам процессуального доказывания. Хотя в данном случае доказывается невиновность, а совсем иные побочные обстоятельства, думается, однако, что вполне применимо правило, вытекающее из общего процессуального принципа презумпции невиновности [1, ст.11]. Мы уже говорили, что обязанность доказывания основания для заключения под стражу лежит на следователе. К этому нужно добавить, что обвиняемый не должен доказывать, что он не будет мешать следствию, не скроется от следствия и суда, хотя вправе сделать это.

Если возникают неустранимые сомнения относительно доводов следователя о необходимости заключить обвиняемого под стражу (например, если обвиняемый инвалид и по этой причине его бегство маловероятно), они должны быть истолкованы в пользу последнего. Если прокурор придет к убеждению, что предположение следователя обосновано ,он санкционирует заключение под стражу. В противном случае он в санкции отказывает.

После избрания в отношении обвиняемого меры пресечения следователь продолжает поиск доказательств, проверяет правильность своего тезиса о виновности, который в дальнейшем, если он подтвердится, будет подробно обоснован в обвинительном заключении. Однако в некоторых случаях могут быть выяснены обстоятельства, ввиду которых следователь должен прекратить дело. Прекращение может последовать по разным основаниям, в том числе нереабилитирующим обвиняемого (амнистия, помилование, истечение сроков давности уголовного преследования, смерть обвиняемого, изменение обстоятельств и т.д.). Как того требует презумпция невиновности, обвиняемый считается невиновным до тех пор, пока его виновность не будет доказана и установлена вступившим в законную силу приговором суда. То есть только суд может признать лицо виновным. Но если придерживаться буквы действующего уголовно-процессуального закона, то и следователь, и прокурор обладают таким правом.

Действие презумпции невиновности при расследовании проявляется и в реализации правила о толковании сомнений в пользу обвиняемого. Руководствуясь им, следо-

ватель, прокурор при доказывании обвинения оперируют лишь истинными, несомненными доказательствами. При появлении же неустранимых  сомнений последние толкуются в пользу обвиняемого. Это касается всех видов доказательств. Например, если при предъявлении для опознания опознающий не может точно указать лицо, совершившее преступление, сомневается в истинности своего выбора, то считается, что он не опознал виновного, и протокол такого следственного действия не может служить одним из доказательств виновности. При производстве любого процессуального действия следователь должен исходить из того, что все сомнительное, неопределенное, неконкретное должно либо вообще не приниматься во внимание при оценке доказательств, либо истолковываться в пользу обвиняемого.

К презумпции невиновности определенное отношение имеет положение о недопустимости разглашения данных предварительного следствия. Действительно, раз обвиняемый считается невиновным, то все - учреждения, организации, должностные лица, граждане - не в праве в период проведения предварительного следствия и вообще до вынесения приговора и вступления его в законную силу публиковать в печати, передавать по радио и телевидению сообщения, в которых об обвиняемом говорилось бы как о виновном, о преступнике. В этом проявляется гуманизм, забота о чести и достоинстве человека. И хотя основной смысл указанной статьи  - сохранить тайну следствия, но, мы в этом убеждены, она должна быть использована и в качестве инструмента презумпции невиновности.

Внутреннее убеждение прокурора в виновности обвиняемого имеет субъективный характер, оно не влияет на презумпцию невиновности, поскольку не от прокурора зависит окончательное решение судьбы обвиняемого. После утверждения обвинительного заключения обязанность прокурора доказывать суду правильность тезиса о виновности, которую он воспринял от следователя [8, стр.91].

Таким образом, презумпция невиновности – важнейший принцип уголовного процесса, реальное осуществление которого возможно только в условия демократического общества. Играя важную роль во всех стадиях процесса презумпция невиновности стоит на страже прав обвиняемого, гарантирует его от необоснованного осуждения, способствуя тем самым осуществлению правосудия.

## Список литературы


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Baki: "Hüquq Ədəbiyyatı",2018,534 c.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. Baki: "Hüquq Ədəbiyyatı", 2001, 568 c.
3. Всеобщая Декларация прав  человека. Генеральная Ассамблея, 1948,  10 c.
4. Джафаров Д.А. Комментарий к парадоксам УПК АР. Баку: Изд-во "Тефеккюр" ИПЦ, 2004, 120 с.
5. Джафаркулиев М.А. Уголовный процесс Азербайджанской Республики. Баку: Изд-во "Ганун", 2008, 137 с.
6. Европейская конвенция о защите прав человека и основных свобод. Страсбург, 2010, 63 с.
7. Еникеев З.Д. Уголовное преследование. Учебное пособие. Уфа: Изд-во "БашГУ", 2000, 131 с.
8. Касумов Ч.С. Презумпция невиновности в советском праве. Баку: Изд-во "ЭЛМ", 1984, 140 с.
9. Колбая Г.Н. Соотношение предварительного следствия и судебного разбирательства. Москва: Изд-во "Юрид. лит.", 1975, 152 с.
10. Комментарий к Уголовно-процессуальному кодексу Российской Федерации. Москва: Изд-во "Юрайт", 2004, 1363 с.
11. Сулейманов Д.И., Теймуров А.А. Комментарий к уголовно-процессуальному кодексу Азербайджанской Республики. Меры процессуального принуждения. Баку: Изд-во "Сада", 2019, 443 с.
12. Хайдуков Н.П. Понятие воздействия, его правомерность и допустимость в деятельности следователя // Теория и практика криминалистики и судебной экспертизы, Саратов, 1987 ,  Вып. 6 , 136 с.

## Xülasə

**Nigar Qasımova**

**Təqsirsizlik prezumpsiyası cinayət-prosessual qanunvericilikdə məcburetmə tədbirlərinin əsas prinsipi kimi**

Cinayət hüququndakı məcburiyyət tədbirləri cinayət hüququnun əsas prinsipləri ilə sıx bağlıdır. Bu prinsiplərdən biri təqsirsizlik prezumpsiyasıdır. Bu ifadədə heç bir şişirtmə yoxdur. Əksinə, təqsirsizlik prezumpsiyasının qorumaq və qorumaq üçün çağrıldığı qiymətli insan xeyirləri ilə müqayisədə çox dünyəvi, nağılçı görünür. Həqiqətən də istintaq orqanları, prokurorluq və məhkəmə təqsirləndirilən şəxsin (təqsirləndirilən şəxsin) günahsız olduğu ehtimalından irəli gəlirsə, bu o deməkdir ki, günahkar olmalı, sübut edilmiş, etibarlı sübutlar əldə edilməlidir, əks təqdirdə günahkar bilinmir, mühakimə oluna və cəzalandırıla bilməz.


***Açar sözlər:*** *təqsirsizlik prezumpsiyası, cinayət-prosessual qanunvericili, məcburetmə tədbirləri.*


## Summary

**Nigar Gasımova**

**The Presumption of Innocence as the basic principle of application of measures in principal criminal legislation**

Coercive measures in criminal law are closely related to the basic principles of criminal law. One of these principles is the presumption of innocence. There is no exaggeration in this statement. On the contrary, it looks too mundane, prosaic, in comparison with the priceless human good that the presumption of innocence is called upon to preserve and protect. Indeed, if the investigating authorities, the prosecutor's office and the court proceed from the assumption that the accused (defendant) is innocent, it means that he must be found guilty, proven, reliable evidence must be obtained, otherwise he cannot be found guilty, convicted and punished - all the more so.


***Keywords:*** *presumption of innocence, criminal procedure law, coercive measures.*

**UOT 327**

**BÜNYAMİN SEYİDOV**
*AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq Əlaqələr İdarəsinin Şərq ölkələri ilə əlaqələr şöbəsinin müdiri, AMEA Fəlsəfə İnstitutunun doktorantı, Azərbaycan*
*bunyamin.seyidov@science.az*

# ELMİ DİASPORANIN MAHİYYƏTİNƏ "BEYİN AXINI" VƏ ELM DİPLOMATİYASI KONTEKSTİNDƏ BAXIŞ

***Açar sözlər:*** *beyin axını, elm diplomatiyası, elmi diaspora, beynəlxalq əməkdaşlıq, elmi miqrasiya.*

## Giriş

Müasir dövrün beynəlxalq münasibətlər nəzəriyyələrində elmi əməkdaşlığın inkişaf etdirilməsində elmi diasporanın rolu olduqca yüksək qiymətləndirilir. Biliyə əsaslanan iqtisadiyyatların üstünlük təşkil etdiyi bir kontekstdə insan kapitalının beynəlxalq hərəkətliliyi və beynəlxalq bilik dövriyyəsindəki problemlər, elmi miqrasiya sahəsində baş verən proseslər bu istiqamətdə akademik tədqiqatların aparılmasını zəruri etmişdir. Bu tədqiqatların mərkəzində isə elmi diaspora anlayışı dayanır. Bəzi müəlliflər (Kohen və Şeffer) elmi diaspora nümayəndələrinin eyni vaxtda həm öz ölkələrinə, həm də çalışdıqları ölkələrə dəyərli və kreativ töhfələr verə bilmək bacarıqlarını önə çıxarırlar. Onların milli kimliklərini qorumaqla doğma ölkələrinə bağlılıq nümayiş etdirilmələrini ən vacib məsələlər kimi dəyərləndirirlər. [7] Qəbul olunmuş əsas fikir budur ki, elmi diasporanın genişlənməsi həmin ölkənin elmi potensialının miqyasının göstəricisidir. Lakin elmi diasporanın mahiyyətində bir ziddiyət mövcuddur. İlk dəfə London Kral Cəmiyyəti tərəfindən elmi dövriyyəyə buraxılan və hazırda dünya elmi ictimaiyyəti tərəfindən qəbul edilən "beyin axını" anlayışı kontekstində alimlərin miqrasiyası mənsub olduqları dövlətin elmi potensialının zəifləməsinə gətirib çıxarır. Nəticə etibarilə ortada bir axın mövcuddur və Şimali Karoliniya Universitetinin professoru, Moskva Dövlət Universitetinin laboratoriya rəhbəri Aleksandr Kabanovun fikri ilə desək, "elmi diaspora nümayəndələrini araşdırarkən məlum olur ki, onlar xarici mühitə o dərəcə uyğunlaşırlar ki, artıq onların fiziki geri dönüşü mümkünsüz olur."[4] "Beyın axını" zamanı insan kapitalı ilə yanaşı ölkəni real kapital da tərk edir. Beyin axını inkişaf etməkdə olan ölkələr üçün ciddi cağırışdır və ölkənin ümumi inkişaf tempi ilə tərs mütənasiblik təşkil edir. Müxtəlif zaman kəsiklərində sosial və digər problemlərlə üzləşib məcburən "beyin axını"na düşərək özlərini ölkə xaricində tapan alimlərlə bağlı dünyanın bir çox ölkəsində ayrı-ayrı vaxtlarda bir çox problemlər yaşanmış və müxtəlif həll yolları irəli sürülmüşdür.

Dünya miqyasında alimlərin elmi miqrasiyası üzrə maraqlı faktları müşahidə etmək mümkündür. Alimlərin Avropada ən çox axın etdiyi ölkələr Böyük Britaniya, Fransa, Almaniya və İtaliyayadır. Dünyada elm adamları ən çox Asiyadan müxtəlif yerlərə axın edirlər. Bu qitədən köç edən elm adamları ən çox Hindistandan olmaqla Amerika, Avropa və Okeaniyaya axın edir. Həmçinin Asiyanın ən çox alim qəbul edən ölkələri Səudiyyə Ərəbistanı, Qətər və Malayziyadır. Ən çox elmi miqrant qəbul edən qitə Amerikadır. Təkcə 60-80-ci illərdə Şimali Amerikaya 800 000 elm adamı daxil olmuşdur. Son 30 ildə isə bu göstərici iki dəfə artmışdır. Burada əsasən ABŞ-a olmaqla yaxın ölkələrdən bir-birlərinə (Kanada, Meksika və Kuba) elm adamlarının miqrasiyası müşahidə olunmuşdur. Okeaniya zonasında əsasən Yeni Zellandiyadan Avstraliyaya axın baş verir. Afrikada ən çox elm adamlarının tərk etdiyi ölkə Botsvana, ən çox qəbul edən ölkə isə Cənubi Afrikadır. 2017-ci ilə qədər olan məlumatlara görə alim və mütəxəssislərin miqrasiyası əsasən qonşu ölkələrdə baş verir və inkişaf etmək-

də olan ölkələrdən inkişaf etmiş ölkələrə doğru müşahidə olunur. Aparilan araşdırmalar nəticəsində məlum olmuşdur ki, dünya üzrə elmi diaspora nümayəndələrinin 49%-i öz ölkələrində, 39 %-i fəaliyyət göstərdikləri ölkələrdə və yalnız 12 %-i başqa yerlərdə alimlik dərəcələri almışlar.

Qonşu dövlətlərin, eləcə də Post-sovet ölkələrinin elmi diaspora fəaliyyətlərini araşdırarkən məlum olur ki 10 ildən artıq bir müddətdir ki, bu istiqamətdə konkret işlər görülür. TÜBİTAK tərəfindən aparılan tədqiqatda dünyanın 47 ölkəsində 1335 Türkiyəli elm adamının çalışdığı müəyyən edilmişdir. Onların böyük əksəriyyəti ABŞ, Almaniya və Kanadada yerləşmişlər.[2]

90-cı illərdən etibarən Rusiyanı 100 000-dən artıq elm adamı tərk etmişdir. Əsasən ABŞ və Avropa ölkələrində məskunlaşan Rusiyalı elm adamlarının ölkəyə qayıtmaları və ya qayıtmadıqları halda Rusiya elminə verə biləcəkləri töhfələrin müəyyən edilməsi üçün hökumət tərəfindən xüsusi proqrama əsaslanan mexanizm hazırlanmışdır. [3]

Ukraynada 1990-2015-ci illər arasında elmi işçilərin sayı 5 dəfə azalmışdır. Onların 1600 nəfərə yaxını elmi dərəcələri (fəlsəfə və elmlər doktorları) olan şəxslər olmuşdur. 2015-ci ildən Ukraynanın Avropa Birliyinə Assosiativ üzvlüyə qəbul olunmasından sonra Avropa tədqiqat məkanına inteqrasiya güclənmişdir. Bu inteqrasiya ukraynalı alimlərin öz ölkələri ilə əməkdaşlıq imkanlarının artırılması ön plana çıxarmışdır. Avropa Biriyinin təhsil, elm və innovasiya üzrə böyük proqramları çərçivəsində elmi diaspora nümayəndələri ilə bu ölkədə çalışan alimlərlərin birgə fəaliyyəti Ukraynanın elmi layihələrdə iştirak səviyyəsinə görə Şərq tərəfdaşlığı ölkələri içərisində vahid liderə çevrilməsində böyük rol oynamışdır.[5]

Aparılan araşdırmalara görə 1994-cü ildən etibarən xaricdə 4-5 min belaruslu alim çalışır. 2011-ci ildə Belarus Respublikasında Belarus alimlərinin xaricdəki fəaliyyəti ilə bağlı məlumat bazasının yaradılmışdır. [6]

Moldovada müstəqilliyin ilk 15 ilində alimlərin sayı 3.5 dəfə azalmışdır. Lakin 2004-cü ildən Moldova Hökuməti ilə ölkənin Elmlər Akademiyası arasında bağlanan sazişə əsasən dövlətin elm və texnologiyaya investisiya qoyuluşu təmin edilmiş, Dünya Miqrasiya Təşkilatı ilə birlikdə həyata keçirilən proqramlar nəticəsində Moldova alimlərinin miqrasiya səbəbləri araşdırılmışdır. 2010-cu ildə Moldovada elmi diasporanın məlumat bazası yaradılmış və elmi diaspora nümayəndələri haqqında elektron məlumat toplanmışdır. [5]

Elmi diaspora nümayəndələrinin xarici mühitə inteqasiya olunmaqla tarixi vətənlərinə daha çox fayda verməlerini şərtləndirən amillərdən biri də onların daha çox təcrübəyə sahib olmaları və öz elmi biliklərini tətbiq etmək imkanlarının genişliyidir. Məhz burada elmi diasporanın elm diplomatiyası prizmasından “beyin axınına” əks olan üzü görünür və alimlərin təmsilçilik, missiyaçılıq, vasitəçilik, əlaqələndiricilik, barışdırıcılıq və icraçılıq funksiyalarının vəhdəti olaraq kompleks fəaliyyətləri özünü büruzə verir.

Elm diplomatiyasının əsas subyektləri elm diaspora nümayəndələridir. Çünki hər bir ölkənin ölkə xaricində elm strategiyasını həyata keçirən məhz o ölkələrdə yaşayan alimlərdir. Elmi diaspora nümayəndələrin üzərinə alim və vətəndaş olaraq böyük məsuliyyət düşür. Yetkin şəxsiyyət kimi hər bir elmi diaspora nümayəndəsi ali ideyaların daşıyıcısı olaraq bir məktəb yaratmalı, ardıcıllarını yetişdirməli və elmi ənənələri qorumalıdırlar. Bu bir yaradıcılıq aktı olmaqla yanaşı həm də mənəvi normadır, vətəndaşlıq borcudur. Öz ölkələrindən kənarda fəaliyyət göstərən alimlərin böyük əksəriyyətinin çalışıdıqları ölkələrin elmi həyatına inteqrasiyası nə qədər dərindirsə, mənsub olduqları xalqın mənəvi dəyərlərinə sadiqliyi bir o qədər möhkəm olmalıdır. Ölkə xaricində kifayət qədər uğur qazanan elm adamları alim-diplomat statusunu daşımaqla bilik və bacarıqlarını, intellektual qabiliyyətlərini sərf edərək elm diplomatiyasını subyekti kimi ölkələrini layiqincə təmsil etməlidirlər.

Yuxarıda qeyd olunan ölkələrin təcrübəsindən aydın olur ki, bir ictimai-siyasi quruluşdan digərinə keçid alimlərin xaricə üz tutmalarını daha da sürətləndirmişdir. Daha sonra bu ölkələrin iqtisadi, siyasi və digər aspektlərdə güclənməsi intellekt axınının qarşısını qismən alsa da, bu proses davam etməkdədir və bu hal ölkəmiz üçün də qəbul edilən reallıqdır.

Həm “beyin axını”nın qarşısının alınması, həm də elmi diasporanın fəaliyyətinin gücləndirilməsini təmin etmək üçün aşağıda qeyd olunan təkliflərin nəzərdən keçirilməsi olduqca vacibdir:

- alimlərin sosial təminatını gücləndirilməsi;
- elmi diaspora nümayəndələrinin özlərinin də təklifləri nəzərə alınmaqla onların vətənə qayıtması üçün xüsusi proqramın hazırlanması və beynəlxalq əməkdaşlıq strategiyasının əsas xətlərindən biri kimi elmi diaspora ilə işin daim nəzarətdə saxlanılması;
- sosio-demoqrafik xüsusiyyətlər nəzərə alınnmaqla mütəxəssislərin ölkədən getmə səbəblərinin araşdırılması;
- müxtəlif motivasiya üsullarından istifadə etməklə alimlərin ölkədə qalıb işləmələri təmin edilməsi;
- elmi diasporaya potensial aktiv kimi baxılması, onların öz ölkələri ilə qarşılıqlı fəaliyyəti təmin edilməsi, beynəlxalq proqramlar çərçivəsində yerli alimlərlə birlikdə konsorsiumlara cəlb olunması (HORİZON 2020, ERASMUS+, NATO İştirak Proqramı, STCU layihələri, və s.);
- hökumət və alimlər arasında dialoqun möhkəmləndirilməsi;
- ölkədən gedən və qayıdan, eləcə də qayıtmayan alimlərin statistikasının aparılması və bu təhlillər nəticəsində səmərəli təklifləri verilməsi;
- elmi diasporaya məqsəd və vasitə prizmasından yanaşaraq bu iki ideyanın ətrafında fəal mexanizmin yaradılması;
- elmi diasporanın fəaliyyətinin yaxşılaşıdırlması məqsədilə İKT-nin imkanlarından maksimum istifadənin təmin edilməsi.

Ölkə xaricində yaşayan Azərbaycanlı alimlərlə ayrı-ayrı vaxtlarda müxtəlif səviyyəli işlər aparılsa da, 5 il ərzində bu fəaliyyət daha sürətlənmiş, və sistemli xarakter almışdır. 2014-cü ildə keçirilən Azərbaycan Alimlərinin 1-ci Qurultayına dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız da dəvət olunmuşlar. Xaricdə yaşayan Azərbaycanlı mütəxəssislər mütəmadi olaraq mühazirələr oxumaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi-tədqiqat institutlarına dəvət edilirlər. Elmi diaspora ilə əlaqədar görülən işlər çərçivəsində ən mühüm olanı isə şübhəsiz AMEA İnformasiya Texnologiyaları İnstitutu tərəfindən yaradılan **elmidiaspora.az** informasiya sistemidir. Bu sistemdə olan məlumatların təhlili nəticəsində məlum olmuşdur ki, Azərbaycanın elmi diaspora nümayəndələri dünyanın 5 qitəsini əhatə etməklə 39 ölkədə fəaliyyət göstərirlər. Rəsmi statistikası aparılan 500-yaxın alimin 440 nəfəri kişi 60 isə qadındır. Azərbaycanın elmi diaspora nümayəndələrini yarıdan çoxu Rusiya və Türkiyədə yerləşmişlər. fizika, riyaziyyat və texnika elmləri üzrə 188, biologiya və tibb elmləri və üzrə 84, humanitar və ictimai elmlər üzrə 177, kimya elmləri üzrə 24, yer elmləri üzrə isə 25 nəfər xaricdə fəaliyyət göstərir. [1] Böyük əksəriyyət 50-70 yaş arasında olan şəxslərdir. Azərbaycanlı alimlər həm dünyanın elmi mərkəzləri, həm təhsl ocaqları həm də böyük şirkətlərində çalışırlar. Əminliklə söyləmək olar ki, xaricdə fəaliyyət göstərən Azərbaycanlı alimlərin sayı daha çoxdur və gələcəkdə onların da fəaliyyətlərinin araşdırmalara cəlb edilməsi planlaşdırılır. Həmçinin qeyd etmək vacibdir ki, 2019-cu ilin yanvar ayında **elmidiaspora.az** informasiya sistemin təqdimatı ilə eyni vaxtda AMEA ilə - Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi arasında Anlaşma Memorandumu imzalanmışdır. Memoranduma əsasən xaricdə yaşayan Azərbaycanlı alimlərlə koordinasiyanın gücləndirilməsi əsas prioritetlərdən biri kimi qəbul olunmuşdur.

**Nəticə**

Beləliklə, dünya təcrübəsinin öyrənilməsi göstərir ki, müəyyən proqramlar üzrə görülən tədbirlər əsasında elmi miqrasiyanı zəiflətmək olar, lakin bu proses mütləq mənada qarşısı tam alına bilməyən bir fəaliyyətdir. Obyektiv və subyektiv səbəblərdən baş verən bu prosesdə formalaşan elmi diaspora potensial intellektual güc olaraq hər bir ölkənin inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi qəbul edilə bilər. Elmi diasporanın fəaliyyətinin düzgün qurulması və alimlərin potensialından səmərəli istifadəni təmin etməklə aşağıda qeyd edilən nəticələri əldə etmək olar:

- dünyanın elmi mərkəzləri və universitetləri ilə əlaqələrin möhkəmləndirilməsi, beynəl-

xalq standartlara uyğun elmi-tədqiqat işlərinin aparılması;

- dünyada gedən ən son elmi proseslərlə bağlı bilik və məlumatların mübadiləsi;
- beynəlxalq layihələrdə iştirak üçün tərəfdaşların qazanılması;
- elmi diaspora nümayəndələri ilə birlikdə qrant layihələrində iştirak elmi proqramların işlənilməsi və birgə məqalələrin nəşri;
- sərmayələrin cəlb olunmasının təşviqi və bunula da ölkənin sosial-iqtisadi inkişafında iştirak;
- kadr hazırlığının gücləndirilməsi istiqamətində gənc alim və mütəxəssislərin xarici ölkələrdə həyata keçirilən təqaüd proqramlarınına cəlb edilməsi, uzunmüddətli və qısa müddətli göndərişlərlə onlara dünyanın elmi mərkəzlərində tədqiqat imklanlarının yaradılması;
- elmi-texniki inkişaf baxımından müasir dövrün tələblərinə uyğun olaraq dünya ölkələri ilə innovativ layihələrdə (elmin kommersiyalaşdırılması, texnologiyaların trasnferi və s.) birgə əməkdaşlığın genişləndirilməsi.

Elmi diaspora ilə bağlı məlumatların təhlili və onların ölkəmizin elmi ictimaiyyəti ilə əlaqələrinin müəyyən edilməsi, bu əlaqələrin daimiliyini təmin edən mexanizmin yaradılması, elmi diaspora nümayəndələrinin potensiallarından ölkənin elmi, sosial-iqtisadi inkişafında istifadə olunmasına dair tövsiyyə və təkliflərin hazırlanması qarşıda duran əsas məqsədlər olmalıdır. Məlum olduğu kimi, Azərbaycan Respublikasında "insan kapitalının" formalaşdırılması prosesi bütün sahələrdə qarşıya qoyulan əsas vəzifələrdən biridir. Elmi diaspora ilə məqsədyönlü əməkdaşlıq qismən ölkə xaricinə qoyulan "intellektual sərmayənin" geri dönüşünü təmin edə, eləcə də ölkə daxilində "insan kapitalının" transformasiyasına böyük təkan verə bilər.

### Ədəbiyyat siyahısı

1. Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan alimlərinin ölkələr üzrə paylanması // URL: http://elmidiaspora.az/az/content/340

2. Meltem Ö. İşte Türkiye'nin bilim diasporası (2012) // URL: https://www.medimagazin.com.tr/mevzuat/tr-iste-turkiyenin-bilim-diasporasi-80-681-48085.html

3. Кокшаров В. А., Агарков Г. А. Международная научная миграция: прогресс или угроза научно-технической безопасности России Экономика региона. 2018, т. 14, выпуск. 1 стр. 243-252

4. Научная диаспора России нужна? // Газета «ТрВ-Наука», 2017, № 232, с. 4 // URL: https://trv-science.ru/2017/07/04/nauchnaya-diaspora-rossii-nuzhna/

5. Скороход А. Научная диаспора: от brain drain к brain gain // URL: https://zn.ua/science/nauchnaya-diaspora-ot-brain-drain-k-brain-gain-269532_.html

6. Belarusian scientific diaspora: A step forward Minsk 2013 // URL: http://scienceportal.org.by/diaspora/

7. Gabriela T. Mobility, knowledge and cooperation: scientific diasporas as agents of development. Migration and development, vol. 10, núm. 18, 2012, 59-92

## Резюме

**Бунямин Сеидов**

### Рассмотрение сущности научной диаспоры в контексте «утечки мозгов» и научной дипломатии

В статье рассматриваются два подхода к научной диаспоре. Интеллектуальные потоки из разных стран мира были проанализированы и статистические данные были представлены на основе анализов. Представители научной диаспоры были исследованы как субъекты научной дипломатии и изучили преимущества, которые они могут принести своим родным странам. В этой исследовательской работе предложены мысли по предотвращению

глобальной утечки мозгов и усилению деятельности научной диаспоры. Информация об азербайджанском научном сообществе является одной из основных частей статьи. В результате исследования информационной системы **elmidiaspora.az** представители азербайджанской научной диаспоры были классифицированы по разным категориям.

***Ключевые слова:*** *утечка мозгов, научная дипломатия, научная диаспора, международное сотрудничество, научная миграция.*

## Summary

**Bunyamin Seyidov**

### Review of the essence of scientific diaspora in the context of "brain drain" and scientific diplomacy

Two approaches to the scientific diaspora are studied in article. Intellectual flows from different countries of the world were analyzed, comparisons were made and statistical data were presented based on these analyzes. Representatives of the scientific diaspora have been investigated as subjects of science diplomacy and have been explored the benefits which they can bring to their native countries. The suggestions proposals for preventing global brain drain and to strengthen the activities of the scientific diaspora are proposed in thsi research work. Information about the Azerbaijani scientific community is one of the main parts of the article. Representatives of the Azerbaijani Scientific Diaspora have been classified by different categories as a result of research on the **elmidiaspora.az** information system.

***Keywords:*** *brain drain, science diplomacy, scientific diaspora, international cooperation, scientific migration.*

**UOT 32 (327.56)**

**ELNUR KƏLBİZADƏ**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri,*
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun dissertantı, Azərbaycan*
*kelbizadeh@gmail.com*

# İRAN İSLAM RESPUBLİKASININ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

***Açar sözlər:*** *İran İslam Respublikası, Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ, işğal, kütləvi informasiya vasitələri, qəzet*

## Giriş

İranın həm Azərbaycan Respublikası, həm də Ermənistanla qonşu olması təbii olaraq, bu ölkənin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin formalaşmasına, Azərbaycan Respublikasınınn müsəlman ölkə və təcavüzə uğrayan tərəf kimi İran İslam Respublikasından ədalətli mövqe gözləməsinə, Ermənistanın isə üst-üstə düşən bəzi maraqları əsas gətirərək İran İslam Respublikasının onun təcavüzkar mövqeyinə dəstək verməsi üçün təkidlərinə səbəb olur. İran İslam Respublikası rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bəzi istisnalar nəzərə alınmazsa rəsmi olaraq Azərbaycan tərəfi ilə keçirilən görüşlərdə hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı bəyanatlarla çıxış edir. Lakin qeyri-rəsmi səviyyədə, müxtəlif dövlət məmurlarının çıxışlarında, xüsusən kütləvi informasiya vasitələrində fərqli mövqelərə rast gəlmək mümkündür.

Qeyd etmək lazımdır ki, İran İslam Respublikası öz xarici siyasətində təbliğat vasitələrindən, o cümlədən kütləvi informasiya vasitələrindən (KİV) effektli istifadə edir. İran İslam Respublikasında KİV-lərin fəaliyyəti ölkə konstitusiyası və bir sıra digər qanunlarla tənzimlənir, KİV-lər Mədəniyyət və İslami İrşad Nazirliyi tərəfindən idarə olunur və onların fəaliyyətinə bir sıra orqanlar nəzarət edir [5, s. 141]. Tədqiqatçı K.Ruintən Z.Salomiyə istinadən yazır ki, İran İslam Respublikasının beynəlxalq siyasətinə nəzarət edən İslam İnqilabı Keşikçiləri Korpusunun tərkibinə daxil olan "Qüds" adlanan xüsusi təyinatlı qüvvələr müəyyən ərazilərdə, o cümlədən Cənubi Qafqazda informasiya-təbliğat fəaliyyəti ilə məşğul olurlar. Yəni İran İslam Respublikasından Cənubi Qafqaza yayımlanan bütün informasiya həmin qüvvələrin nəzarətindən keçərək ötürülür [5, s. 142].

İran İslam Respublikasında mətbu orqanlar və elektron informasiya vasitələri ölkədəki konservator, islahatçı və mərkəzçi cərəyanların siyasi-ideoloji mövqelərini əks etdirmək baxımından şərti olaraq üç qrupa bölünürlər. Konservatorların mövqeyini əks etdirən qəzetlər və xəbər saytları "Etilaat", "Keyhan", "Comhuriye Eslami", "Rəsalət", "İran", "Cam-e cam", "Cavan", "Tehran Times", "Tehran Daily" qəzetləri, "Raja News", "Sepah News", "Ansar News" xəbər saytları və başqalarıdır. İslahatçıların mövqeyini əks etdirən qəzetlər və xəbər saytları "Etemad", "Etemad-e melli", "Aftab-e Yəzd", "Həmbəstegi", "Şərq" , "Mərdom salari" qəzetləri, "Mowj Camp" xəbər saytı və başqalarıdır. Mərkəzçilərin mövqeyini əks etdirən qəzetlər və xəbər saytları isə "Həmşəhri", "Kargozaran", "Tehran emruz", "Sərmaye" qəzetləri, "Parleman News" və "Tabnak" xəbər saytları və başqalarıdır. [5, s. 144; 7, s. 78].

Lakin demək olmaz ki, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə eyni siyasi-ideoloji cərəyanın təsiri altında olan mətbu orqanlar eyni mövqedən çıxış edirlər. Məsələn, islahatçıların mövqeyini əks etdirən "Şərq" qəzeti daha çox qeyri-konstruktiv yanaşma sərgiləyərək, Ermənistanın mövqeyini gücləndirən məqalələ-

rə yer verdiyi halda, “Aftab-e Yəzd” səhifələrində və saytında Azərbaycanın haqlı mövqeyini əks etdirən, Xocalı həqiqətləri barədə məlumatları yayımlayır.

Ümumilikdə, İran İslam Respublikası kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasının haqlı mövqeyinə uyğun olan və Ermənistanın təcavüzkar siyasətini ifşa edən materiallar.

2. Əksər hallarda siyasi və psixoloji təzyiq aləti kimi istifadə edilən və İran dövlətinin rəsmi mövqeyindən fərqli olaraq Ermənistanın təcavüzkar siyasətini dəstəkləyən materiallar.

3. İrandakı ermənidilli mətbuatda Azərbaycan və Türkiyə əleyhinə aparılan təbliğat materialları [2, s. 283].

### *Beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın haqlı mövqeyinə uyğun olan və Ermənistanın təcavüzkar siyasətini ifşa edən materiallar*

İran İslam Respublikasında əsas dövlət qəzetlərindən biri “Keyhan”dır. Bu qəzet həm də ölkənin ən uzunmüddətli çap edilən mətbu orqanlarından biridir. İranda İslam İnqilabının baş verməsindən bir müddət öncə islamçıları dəstəkləyən materiallar yayımlamağa başlayan “Keyhan” uğrunda uzun müddət solçular və islamçılar arasında mübarizə getmişdir. İslam İnqilabından sonrakı illərdə qəzetə bir müddət İran İslam Respublikasının keçmiş prezidenti Məhəmməd Hatəmi rəhbərlik etmişdir. Məhəmməd Hatəmi bu vəzifəyə İslam Respublikasının Ali dini rəhbəri tərəfindən təyin edilmişdi. Qəzet mühafizəkarların – konservatorların mövqeyini öz səhifələrində əks etdirir və adətən bu qəzetin baş redaktoru Ali dini rəhbər tərəfindən müəyyənləşdirilir. Ermənistan Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səhifələrində müxtəlif xəbərlər təqdim edən “Keyhan” qəzetinin mövqeyi daha çox İran İslam Respublikasının səsləndirdiyi rəsmi mövqe ilə uyğun gəlir. İran İslam Respublikasının rəsmi mövqeyi isə ondan ibarətdir ki, bu dövlət Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin siyasi həllində maraqlıdır. Bunu qəzetin səhifələrində Ermənistanın təcavüzü nəticəsində meydana çıxmış Dağlıq Qarabağ münaqişəsi, İran-Azərbaycan əlaqələri mövzusunda olan bir sıra məqalələrdən müşahidə etmək mümkündür [16].

İran İslam Respublikasında Azərbaycanın haqlı mövqeyini öz səhifələrində əks etdirən başlıca mətbu orqanlardan biri “Varlıq” jurnalıdır. Jurnal 1979-cu ildə İslam inqilabının baş verməsindən sonra fəaliyyətə başlamışdır. İnqilabın ilk illərində milli dillərin inkişafı üçün yaradılan imkanlardan bəhrələnən Cavad Heyət və ətrafındakı bir sıra ziyalılar jurnalın nəşrinə nail olmuşlar. Hazırda jurnalın naşiri Cavad Heyətin qardaşı oğlu Rza Heyətdir. Jurnalda yazıların 80 %-i Azərbaycan dilində, 20 %-i isə fars dilində təqdim edilir [15]. “Varlıq”da Qarabağ problemi ilə bağlı yer alan məqalələr həm İranda yaşayan azərbaycanlı əhalinin, həm də farsdilli ictimaiyyətin obyektiv informasiya əldə etməsi baxımından ciddi əhəmiyyətə malikdir.

2017-ci ildə İranda nəşr olunan "Şəhriyar" qəzetində Xocalı soyqırımı haqqında məqalə dərc edilmişdir. Məqalə "Xocalı soyqırımı insanlıq əleyhinə yönəlmiş ən böyük cinayətlərdən biri kimi" adlanır və məqalədə bu cinayətlə bağlı məlumat verilirdi.

2018-ci ildə İranın “Təsnim” informasiya agentliyinin əməkdaşı Məsud Sədr Serj Sarkisyanın yeni siyasi hərəkatla hakimiyyətdən kənarlaşdırılmasının Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə təsirləri ilə bağlı məqalə ilə çıxış etmişdir. Məqalədə bildirilirdi ki, Nikol Paşinyanın rəhbərlik etdiyi etiraz hərəkatı Qarabağ məsələsində Ermənistanın əvvəlki mövqeyində ciddi dəyişiklik yaratmayacaq [6]. Məqalədə azərbaycanlı və erməni politoloq və rəsmilərin fikirlərinə də yer verilmişdir.

2019-cu ilin fevralında İranda nəşr olunan "Aftabe Yəzd" qəzeti və aftabeyazd.ir informasiya portalında Azərbaycanın İrandakı səfirliyinin Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı pres-relizi, asianews.ir saytında isə geniş məqalə dərc olunmuşdur. Materiallarda Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı və Xocalıda törətdikləri soyqırımı haqqında məlumat verilmişdir. Məqalədə qeyd olunurdu ki, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə

soyqırım kimi tanıyan ilk beynəlxalq təşkilatdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq mötəbər qurumların qətnamələrinə baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır [1].

2019-cu ilin fevralında digər bir İran qəzeti Təbrizdə nəşr olunan və bütün İran ərazisində yayılan “Məhde Təməddon” (“Mədəniyyət beşiyi”) qəzetində 1992-ci ildə ermənilərin törətdikləri Xocalı soyqırımı haqqında geniş məqalə dərc edilimişdir. Məqalədə Xocalı soyqırımının Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayəti olduğu qeyd olunmuş, iki əsrdən çox müddətdə təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı olan bu qanlı faciə barədə məlumat verilmişdir [3].

### *Ermənistanın təcavüzkar siyasətini dəstəkləyən və ya təcavüzkarla təcavüzə uğrayanı eyni qiymətləndirən materiallar*

İrandakı “Şərq” qəzeti hər zaman erməni təbliğatına fəal şəkildə yer verən kütləvi informasiya vasitələrindən biridir. Müxtəlif vaxtlarda İrana səfər edən Ermənistan prezidentlərindən “Şərq” qəzeti geniş müsahibələr almış, bu müsahibələrdə də əsasən Ermənistanın mövqeyi ifadə olunmuşdur. 2014-cü ilin aprelində də “Şərq” qəzeti bu cəhətdən aktivlik nümayiş etdirmişdir. Belə ki, Tehranda nəşr olunan “Şərq” qəzetində Azərbaycan, Türkiyə və Ermənistan səfirlərinin müsahibələri ilə yanaşı 1915-ci il hadisələri və Dağlıq Qarabağ münaqişəsi barədə yerli təhlilçilərin rəylərinə yer verilmişdir. Azərbaycanın İrandakı səfiri Cavanşir Axundov müsahibəsini konkret faktlar üzərində quraraq yerli mətbuatda daim qondarma “erməni soyqırımı”na yer ayrıldığını, lakin erməni təcavüzkarlarının əsrlər boyu türklərin başına gətirdiyi faciələrə toxunulmadığını və Xocalıda törədilən soyqırımından bəhs edilmədiyini təəssüflə bildirmişdir. Xocalı soyqırımını XX əsrin ən dəhşətli faciəsi adlandıran səfir dünyanın heç bir yerində belə bir vəhşiliyin törədilmədiyini demişdir. Türkiyənin İrandakı səfiri Ümid Yardım isə 1915-ci ildə ölkəsində baş vermiş olayların təhlilinin siyasətçilər tərəfindən deyil, tarixçilər tərəfindən araşdırılmalı olduğunu və rəsmi Ankaranın öz arxivlərini açmağa hazır olduğunu vurğulamışdır.

Ermənistanın İrandakı səfiri Qriqor Arakelyan isə heç bir tarixi faktlar gətirmədən, heç bir sənədə əsaslanmadan uzun illər boyu ermənilərin söylədiklərini təkrar etmiş, guya ötən əsrin əvvəllərində milyon yarımdan çox erməninin öldürüldüyünü, öz “tarixi vətənlərindən” qovulduğunu demiş, Dağlıq Qarabağda yaşayan ermənilərin öz dövlətlərini yaratmaq, Ermənistanla bir yerdə və ya müstəqil yaşamaq hüquqlarının olduğunu bildirmişdir. “Qarabağda 200 min erməni yaşayır” deyən səfir, müxbirin “bu sayda ermənininin dövlət yaratmasına necə baxırsınız” sualına ermənilərə xas tərzdə əhalinin sayının çoxaldılacağını, dünyanın bir çox yerlərində yaşayan ermənilərin buraya köçürüləcəyini bildirmiş, belə olan təqdirdə keçmiş sovet məkanında olan digər muxtar respublika və vilayətlərin öz dövlətlərini yaratmasının mümkünlüyünün üstündən isə sükutla keçmişdir. “Türkiyənin “erməni soyqırımı”nı tanıdığı təqdirdə onlara qarşı təzminat irəli sürüləcəkmi” sualına cavab verən səfir bildirmişdi ki, onun dövləti hələlik soyqırımının tanınmasına çalışır, təzminat məsələsi isə sonrakı məsələdir.

İranlı təhlilçilər isə onlarda formalaşmış çərçivədən kənara çıxa bilməmiş, 1915-ci il hadisələrinin, həmçinin Ermənistanın təcavüzü nəticəsində yaranmış Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərini qəsdən və ya bilməyərəkdən səhv yönümdə izah etmişlər. Özünü beynəlxalq təhlilçi kimi qələmə verənlər bunun səbəblərini min illər bundan əvvəl baş vermiş hadisələrdə axtarmış, “qədim parfiyalılarla bir kökdən olan ermənilərin Ermənistan adlı dövlət yaratmaq uğurunda bu ərazilərə qonaq gəlmiş türklərlə əsrlər boyu apardıqları mübarizənin nəticəsi kimi qələmə vermişlər”. Ermənistanı “osmanlı türkləri ilə heç bir əlaqəsi olmayan digər türk tayfaları” arasında sədd kimi qələmə verən təhlilçi bir qədər də irəli gedərək

hətta Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını belə "göstərməkdən" çəkinməmişdir [4].

İranın ikidilli nəşrlərindən biri olan (fars və ingilis) "İran Daily" səhifələrində daha çox İranın rəsmi diplomatik mövqeyini əks etdirsə də, bir sıra hallarda mətnlərdə Azərbaycanın mövqeyini nəzərə almayan ifadələrə yer verməkdədir. Məsələn qəzet 2016-cı ilin oktyabrında nəşr etdiyi bir xəbərdə "Dağlıq Qarabağ Respublikası"nı müstəqil respublika – beynəlxalq hüquqi subyekt kimi təqdim etmiş və hətta qondarma qurumun İqtisadiyyat nazirinin müavinin Dağlıq Qarabağdakı abidələrinin guya fars irsi olması ilə bağlı sərsəmləməsini də çap etmişdi. Belə ki, "Dağlıq Qarabağ İranlı turistləri cəlb etmək istəyir" başlıqlı məqalədə yazılırdı: "Qarabağın İqtisadiyyat Nazirinin müavini Sergey Şahverdiyan çərşənbə günü verdiyi açıqlamada Cənubi Qafqazdakı Dağlıq Qarabağın torpaqlarında fars mədəni irsinin nümunələrindən istifadə etməklə İranlı turistləri cəlb etmək istədiklərini dedi. Şahverdiyan "İran mədəni mirası Qarabağ səlahiyyətlilərinin diqqət mərkəzindədir və məscidlər, məzarlar və digər mədəni abidələr də daxil olmaqla, fars irsini qorumaq üçün addımlar atacağıq" - demişdi [12].

"İran Daily"nin 4 mart 2019-cu il tarixli nömrəsində Dağlıq Qarabağla bağlı İran xarici işlər nazirliyinin mövqeyini əks etdirən bir məqaləyə yer vermişdi. Qeyd edək ki, 2019-cu ilin fevral ayının sonlarında İrana səfər edən Ermənistan baş naziri Nikol Paşinyanın erməni icması ilə görüşündə "Dağlıq Qarabağ Ermənistanındır. Son" yazılan şüarlara icazə verilməsi Azərbaycanda ciddi etirazlarla qarşılanmışdı. "İran Daily"də təqdim olunan məqalə belə adlanırdı: "İran Qarabağ müzakirələrinin Bakı və Yerevanla münasibətlərə mənfi təsir göstərməsini istəmir" [13, s. 2]. Məqalədə rəsmi Tehranın bu hadisəni "qəbuledilməz" olaraq qiymətləndirdiyi göstərilir, Dağlıq Qarabağın Azərbaycanın tərkibində olduğu qeyd olunur, lakin bu ərazidə baş verən hadisələr Ermənistanın işğalı kimi deyil, yerli ermənilərin separatçılığı və Ermənistanı seçməsi kimi təsvir edilirdi [13, s. 2].

Qeyd edək ki, oxşar başlıqlı xəbərə "Tehran Times" da öz səhifələrində və rəsmi saytında yer ayırmışdır [11]. Ümumiyyətlə, "Tehran Times" qəzeti Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xəbərlərə və məlumatlara ən geniş yer verən qəzetlərdən biridir. Hətta qəzetin səhifələrində bəzi hallarda "Dağlıq Qarabağ Respublikası"nı ayrıca siyasi vahid kimi göstərilməsinə də rast gəlinmişdir. 2010-cu ildə qəzetdə gedən belə bir səhvdən sonra hətta "Düzəliş" də verilmişdir. "Düzəliş" də yazılırdı ki, "Tehran Times"ın 5 sentyabr 2010-cu il tarixli sayında "ARMENIA EXPO 2010-da İran firmaları da iştirak edir" başlıqlı məqalədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi üçün səhv bir adlandırma istifadə edilmişdir. Qəzet bundan peşmanlığını ifadə edirdi [9].

2010-cu ilin oktyabrında qəzetdə yayımlanan "İran Ermənistanla əlaqələrini inkişaf etdirməkdə israrlıdır" adlı məqalədə Dağlıqa Qarabağ problemindən bəhs edilərkən yazılırdı: "Həm Azərbaycan həm də Ermənistan əhalisinin əksəriyyəti ermənilərdən ibarət olub, Azərbaycanda yerləşən Dağlıq Qarabağ bölgəsinə iddia edirlər və Türkiyə münaqişədə Azərbaycanı dəstəkləyir. İran daha əvvəl münaqişənin həlli üçün Azərbaycana və Ermənistana vasitəçilik təklif edib. 2010-cu ilin aprel ayında İranın xarici işlər naziri Mənüçöhr Mohtaki münaqişəni həll etmək üçün erməni və azərbaycanlı həmkarlarına üçtərəfli görüşün keçirilməsi təklifi ilə müraciət etmişdir [10].

### *İrandakı ermənidilli mətbuatda Azərbaycan əleyhinə aparılan təbliğat*

Hazırda İranda nəşr olunan iki ermənidilli qəzet və ermənilərə məxsus informasiya agentlikləri Azərbaycana və Türkiyəyə qarşı, xüsusən "soyqırımı" və Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar materiallara tez-tez yer verirlər. Tirajına görə İranın ən böyük ermənidilli qəzeti Alik qəzetinin www.alikonline.ir saytında bu cür materiallara tez-tez rast gəlmək mümkündür.

İran islam Respublikasında hal-hazırda nəşr edilən digər ermənidilli qəzet olan "Araks" (Araz) isə bu sahədə daha kəskin və qeyri-konstruktiv mövqedən çıxış edir. Qəzet Azərbaycan və Türkiyəyə ciddi ərazi iddialarını əks etdirən müxtəlif addımlar atır. "Alik" qəzetinin rəsmi saytından fərqli olaraq bu saytda Dağlıq Qarabağla bağlı ayrıca bir bölmə fəaliyyət göstərir və bu bölmə "Artsax" adlanır. Azərbayca-

nın ərazi bütövlüyünü tanıyan və bunu müxtəlif səviyyələrdə dəstəklədiyini elan edən İran İslam Respublikasının vətəndaşı olan ermənilər tərəfindən nəşr etdirilən bir mətbu orqanda buna yol verilməsinin qarşısının alınmaması xeyli dərəcədə təəssüf doğurur [14].

Xəbər saytında bundan əlavə “Türkiyə”, “Azərbaycan”, “İrandakı erməni icması” adlı xüsusi bölmələr fəaliyyət göstərir, Azərbaycan və Türkiyəyə qarşı ciddi təbliğat aparılır.

### *Aprel döyüşləri İran mətbuatında*

2016-cı ilin aprelində baş verən və Azərbaycanın ciddi hərbi-strateji əhəmiyyət daşıyan bir sıra məntəqələri işğaldan azad etməsi ilə nəticələnən döyüşlər, o zaman bölgədəki gərgin vəziyyət İran kütləvi informasiya vasitələrinin də diqqətindən yayınmamışdır. O dövrdə İranın siyasi xəbər bülleteni olan “Əxbare-rouz” yazırdı ki, Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı münasibətlərin yenidən gərginləşməsi regionda vəziyyətin daha da ağırlaşmasına səbəb olub. Vurğulanırdı ki, “ötən şənbə günü Azərbaycan tərəfi erməni tərəfini hərbi əməliyyatları dayandırmağa çağırıb və eyni zaman-da, respublikanın Müdafiə Nazirliyi birtərəfli atəşkəs elan edib”. Qəzetdə daha sonra əlavə edilirdi: “Ermənistan prezidenti Serj Sarkisyan televiziyada çıxışın-da 18 əsgərin qətlə yetirildiyini və 35 yaralı erməni əsgərinin ol-duğunu deyib, lakin erməni əsgərləri deyərkən onun rəsmi ola-raq Ermənistan ordusunun əsgərləri, yoxsa Dağlıq Qarabağdakı könüllü birliklər barədə danışdığı məlum olmayıb” [8].

Halbuki, İran ictimaiyyətinə də yaxşı məlum idi ki, Dağlıq Qarabağ könüllüləri adı altında Ermənistan tərəfindən təqdim olunan qüvvə elə Ermənistan ordusunun hissələridir.

Siyasi bülletendə daha sonra 1994-cü ilin mayında tərəflər arasında ATƏT-in vasitəçiliyi ilə sülhün əldə olunduğu, lakin Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə fəaliyyət göstərən qrupun səylərinin istənilən nəticəni vermədiyi yazılırdı [8].

